## AYPARA RÜSTƏMOVA



# AZƏRBAYCAN SSR-də ELMİ-SAHƏ KİTABXANALARININ YARANMASI və FƏALİYYƏTİ

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.BAKIXANOV adına TARİX İNSTİTUTU

AYPARA RÜSTƏMOVA

# AZƏRBAYCAN SSR-də ELMİ-SAHƏ KİTABXANALARININ YARANMASI VƏ FƏALİYYƏTİ
(1920– iyun 1941-ci illər)

Bakı, Elm və Təhsil, 2014

*Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu Elmi Şurasının qərarı ilə çap olunur*

**Elmi redaktoru**
tarix üzrə elmlər doktoru, professor
Əməkdar Elm Xadimi,
Dövlət Mükafatı Laureatı **T.H.Musayeva**

**Rəyçilər**
tarix üzrə elmlər doktoru **V.S.Həsənov**
tarix üzrə fəlsəfə doktoru **Ş.İ.İslamova**

Rüstəmova Aypara Sədi qızı. Azərbaycan SSR-də elmi-sahə kitabxanalarının yaranması və fəaliyyəti (1920– iyun 1941-ci illər). Bakı, Elm və Təhsil, 2014. – 216 s.

Monoqrafiyada 1920-1941-ci illərdə fəaliyyət göstərən Azərbaycanı Tədqiq və Tətöbbə Cəmiyyəti və onun elmi kitabxanasının, Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun, sonradan SSRİ EA Zaqafqaziya Filialının Azərbaycan Şöbəsinin, SSRİ EA Azərbaycan Filialının Əsaslı Kitabxanasının və digər elmi-sahə kitabxanalarının təşkili, fondlarının zənginləşdirilməsi, beynəlxalq əlaqələri, maddi-texniki bazasının möhkəmləndirilməsi, kadrlarla təminatı, bu müəssisələrin ziyalı təbəqənin yetişməsinə və ölkənin ictimai-siyasi, iqtisadi, mədəni həyatına təsirindən bəhs edilir. Kitabda eyni zamanda kütləvi repressiyaların kitabxana işinə vurduğu ziyan da işıqlandırılır.

Kitab mütəxəssislər və geniş ictimaiyyət üçün nəzərdə tutulmuşdur.

**© A.S.Rüstəmova, 2014**

# REDAKTORDAN

Azərbaycanda mədəni quruculuq tarixində, elmin təşəkkülündə və inkişafında keçən əsrin 20-30-cu illərində yaradılmağa başlanılmış elmi-sahə kitabxanalarının son dərəcə böyük rolu var. Onların fəaliyyətinin tarixi təcrübəsi bir çox cəhətdən ibrətamizdir. Müstəqil Azərbaycan dövlətinin elmin hərtərəfli inkişafına yönəlmiş siyasət yürütdüyü müasir dövrdə sözügedən kitabxanaların fəaliyyətinin tarixi təcrübəsinin ümumiləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu nöqteyi-nəzərdən təqdim olunan monoqrafiyanın müəllifinin seçdiyi mövzunun aktuallığı şübhəsizdir.

Əsərdə Azərbaycanda ilk elmi mərkəzlərin, o cümlədən «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin», ilk sahə kitabxanalarının yaradılması, onların fəaliyyətinin əsas istiqamətləri məsələləri nəzərdən keçirilmişdir.

Təqdim olunmuş monoqrafiyanın bir xüsusiyyəti də onun çoxşaxəli olmasıdır. Müəllif praktiki olaraq problemi üç istiqamətdə nəzərdən keçirir. Bu Azərbaycanda kitabxanaçılıq işinin tarixi, daha sonra elmin inkişafı və ən nəhayət, bütövlükdə mədəni quruculuq problemləridir. Belə bir yanaşma müəllifə sözügedən problemin tədqiqinə kompleks planda yanaşmağa imkan vermişdir. Bu da təbii ki, tədqiqat bazasını xeyli dərəcədə zənginləşdirmiş və genişləndirmişdir. Bu cür yanaşma sayəsində

müəllif elmi-sahə kitabxanaların maddi-texniki bazasının yaradılması, həmin kitabxanalar üçün kadrların hazırlanması kimi məsələləri irəli sürməyə və araşdırmağa müvəffəq olmuşdur. Qeyd etmək lazımdır ki, bu məsələlər Azərbaycanda mədəni quruculuq tarixşünaslığında ilk dəfə qaldırılmışdır.

Monoqrafiya müəllifinin Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında uzun illər çalışması, yuxarıda qeyd edilən kitabxanaların xarakter və xüsusiyyətlərinə yaxından bələd olması faktı tədqiqat prosesində böyük əhəmiyyət kəsb etmişdir. Təəccüblü deyildir ki, sahə kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılmasına və təkmilləşdirilməsinə dair monoqrafiyanın sonunda gətirilmiş tövsiyələr yüksək peşəkarlığı ilə seçilir.

Tədqiqat işinin zəngin mənbə bazası vardır. O, nəinki müxtəlif respublika arxivlərinin bir çox fondlarının materiallarını, habelə yerli və ümumittifaq dövri mətbuatı, kitabxana quruculuğunun müxtəlif məsələlərinə dair respublikada, həm də xaricdə nəşr olunmuş statistik materiallar toplularını ehtiva edir. Şübhə yoxdur ki, bütün bu mənbələr monoqrafiyanın yazılması zamanı əsaslı baza rolunu oynamışdır.

Əsərdə müəllif XX əsrin 30-cu illərinin repressiyalarının kitabxanaların fəaliyyətinə təsiri üzərində də dayanır. Müəllif kitabxanaların ilk kadrlarının – Azərbaycanda kitabxanaların təşəkkülü işinə qüvvə və bacarıqlarını vermiş şəxslərin adlarını çəkir. Onların da bir çoxu Azərbaycanda inzibati-amirlik sisteminin qərarlaşması zamanı repressiyaların qurbanları olmuş və beləliklə, xalqın layiqli ziyalılarının taleyini bölüşdürmüşlər.

Müəllif Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi həyatında bu kitabxanaların yerini və rolunu düzgün müəyyənləşdirə bilmişdir.

Müəllifin belə bir nəticəsi maraqlıdır ki, bəhs edilən dövrün

mürəkkəbliyinə və ziddiyyətinə baxmayaraq, XX əsrin 20-30-cu illərində Azərbaycanda kitabxana quruculuğu sonrakı illərlə müqayisədə daha dinamik inkişaf etmişdir.

Aypara Rüstəmova elmi-sahə kitabxanalarının yaranması və fəaliyyəti tarixinə dair maraqlı və məzmunlu əsər təqdim etmişdir. İnanırıq ki, monoqrafiya elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılanacaqdır.

***Tamilla Musayeva,***
***Əməkdar Elm Xadimi,***
***Dövlət Mükafatı Laureatı,***
***tarix elmləri doktoru, professor***

*Məni alim görmək istəyən*
*valideynlərimin xatirəsinə*

# GİRİŞ

XX əsrdə kompyuter texnologiyasının meydana gəlməsi, internet şəbəkəsinin sürətli inkişafı, elektron informasiya resurslarının yaranması kitabın, kitabxanaların sıradan çıxacağı, «kağızsız dəftərxanalar» qalacağı fikirlərinə yol açdı[186, 3]. Hətta bir az da uzağa gedib «kitab yoxdursa kitabxana da yoxdur» [144] deyənlər də tapıldı.Lakin çox keçmədi insanlar elə həmin kompyuter texnologiyaları vasitəsi ilə yeni kitablar yazıb çap etdilər. Həmin çap edilən kitablar yenə də gələcək nəsillərə çatdırılmaq üçün kitabxanalarda toplanaraq mühafizə edilməkdədir.

Kitabxanalar ən qədim dövrlərdən mədəni-maarif mərkəzləri kimi daim Azərbaycanın ictimai-siyasi, iqtisadi, mədəni həyatının inkişafında xüsusi rol oynamışdır. Vətən tarixinin ən mühüm problemlərindən biri kimi Azərbaycan elminin, mədəniyyətinin inkişafında tutduğu yerin doğru, hərtərəfli müəyyənləşdirilməsi baxımından kitabxanaların, xüsusilə də elmi-sahə kitabxanalarının tarixinin ardıcıl və sistemli şəkildə tədqiq edilməsi yüksək elmi aktuallığa malikdir.

XX əsrin sonu və XXI əsrin əvvəlində dünya düzəninin və qlobal ictimai-siyasi, tarixi şəraitin köklü surətdə dəyişməsi nəticəsində Azərbaycan öz ictimai-siyasi tarixində ikinci dəfə müstəqillik əldə etdi. Bununla da milli mənəvi dəyərlərimizin inkişafını təmin edən bütün sahələrin obyektiv tarixi prinsiplər

əsasında yenidən tədqiq edilməsinə zərurət yarandı. Xüsusən, milli mədəniyyətin və elmin tarixinin öyrənilməsində indiyə qədər sovet hakimiyyəti illərində mövcud olmuş imperiya ideologiyasına əsaslanan metodologiya və prinsiplərin birtərəfli xarakter daşıdığı aydın olduqdan sonra elm və mədəniyyət tariximizin yenidən araşdırılmasına ciddi ehtiyac yaranmaqla yanaşı, həm də böyük imkanlar açıldı.

Keçən əsrdə Azərbaycan SSR-də elmi fikrin, elmi tədqiqatların inkişafı və təşkilində, ziyalı kadrların formalaşmasında respublikanın elmi idarə və müəssisələrinin və bu müəssisələrin nəzdində fəaliyyət göstərən elmi- sahə kitabxanalarının mühüm rolu olmuşdur. Belə ki, 1920-1941-ci illər elmi-sahə kitabxanalarının təşəkkülü və inkişafı üçün əhəmiyyətli bir dövr olmuşdur.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyətinin qurulması və totalitar rejimin yaradılması nəticəsində Azərbaycan milli mədəniyyətinin, milli adət-ənənəsinin qarşısı kobud surətdə alınaraq başqa istiqamətə yönəldildi. İlk dekretlər əsasında kitabxanalar dövlət tərəfindən milliləşdirildi. Vahid rəhbərliyin və senzura sisteminin yaranması, milli sərvət olan kitabların kitabxanalarda saxlanması, seçilməsi və oxunmasına qadağalar qoyuldu. Sovet dövləti tərəfindən mədəni quruculuq sahəsində yeni islahatlar keçirildi, məktəblər, elmi müəssisələr, kitabxanalar, klub və mədəniyyət evləri, muzeylər, savadsızlığın ləğvi kursları, nəşriyyatlar yaradıldı. 1920-ci ildən yaranmağa başlayan elmi mərkəzlərin, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun (Az.DETİ) ətrafında birləşməsi, onun bazası əsasında SSRİ EA Zaqafqaziya Filialı Azərbaycan Şöbəsinin (EA ZFAŞ), nəhayət, SSRİ EA Azərbaycan Filialının (EA AF) yaranması Azərbaycan elminin keçdiyi böyük tarixi inkişaf mərhələsi olmuşdur. Elmin və elmi müəssisələrin təkmilləşməsi nəticəsində ona xidmət edən elmi-sahə kitabxanaları da mərhələ-mərhələ inkişaf etmişdir. Bu ki-

tabxanaların yaranmasında və inkişaf etməsində Azərbaycanın bir sıra ziyalılarının, alimlərinin, o cümlədən, Ə.Haqverdiyevin, H.Zeynallının, B.Çobanzadənin, M.Vəliyev-Baharlının, İ.Şahtaxtinskinin, C.Cəbrayılbəyovun, E.Paxomovun, A.Baqrinin, A.Zifeldin, İ.Blinovun, F.Şabanovun və başqalarının müstəsna xidmətləri olmuşdur.

2015-ci ildə müstəqil Azərbaycan Elmlər Akademiyasının yaranmasının 70 illiyi qeyd ediləcəkdir. Yubiley tarixi elmi-sahə kitabxanalarının fəaliyyəti ilə birbaşa bağlıdır. Bu nöqteyi-nəzərdən də elmi-sahə kitabxanalarının tarixi təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi xüsusi aktuallıq kəsb edir. Ölkənin yüksək intellektual mülkiyyətə və yaradıcı potensiala malik olmasında digər iri elmi kitabxanalarla yanaşı, AMEA-nın elmi-sahə kitabxanaları da öz fondlarında toplanan informasiya ehtiyatları vasitəsi ilə elm və texnikanın inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Elmi-sahə kitabxanalarında toplanmış informasiya resurslarının böyük bir hissəsini Azərbaycan alimlərinin apardıqları gərgin axtarış və tədqiqatlarının nəticəsi olan çap əsərləri təşkil edir. Hazırda 4 milyondan artıq kitab fonduna malik olan AMEA Mərkəzi Elmi Kitabxanasından və sahə kitabxanalarından 50 mindən artıq oxucu istifadə edir. Kitabxana dünyanın 63 dövlətinin 600-dən artıq elmi müəssisə və təşkilatları ilə əməkdaşlıq nəticəsində kitab mübadiləsi aparır [82, 339]. AMEA elmi-tədqiqat institutlarının sahə kitabxanalarında 1 milyona yaxın ədəbiyyat toplanmışdır ki, onlar da müxtəlif sahələr üzrə ixtisaslaşmış elmi işçilərə xidmət göstərilir [105]. Bu faktlar elmi-sahə kitabxanalarının elmin inkişafında xüsusi rol oynadığını bir daha təsdiq edir və mövzunun aktuallığını artırır.

Müasir şəraitdə ölkəmizdə kitabxana işinin inkişafı üçün əsaslı hüquqi baza formalaşmışdır. 1996-cı ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycanda kitabxana işinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında" qərar

qəbul etmişdir. 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir [109]. "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 2004-cü il 27 dekabr, "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" 2007-ci il 20 aprel, "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" 2007-ci il 24 avqust və "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin 2008-ci il 6 oktyabr tarixli sərəncamları Azərbaycanda kitabxana işinin müasir standartlar əsasında inkişafı üçün geniş imkanlar açmışdır [202; 203].

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" 2007-ci il 20 aprel tarixli sərəncamı ilə AMEA Mərkəzi Kitabxanası üçün tikilmiş bina 2014-cü ilin may ayının 5-də istifadəyə verilmişdir.

Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsinə görə MEK və elmi-tədqiqat institutlarının kitabxanaları da 2003-cü ildən AMEA-nın elmi idarələri statusunu almışdır [8, 375; 207]. Kitabxanaya elmi statusun verilməsi, Akademiyada aparılan fundamental dəyişikliklər elmi tədqiqatların informasiya təminatı sistemində və biblioqrafik sorğuların yerinə yetirilməsində də dəyişikliklər, yeniliklər tələb edir. Bu yeniliklərin həyata keçirilməsi əvvəlkindən fərqli olaraq qeyri-ənənəvi xidmət formalarının yaradılması, yüksək texniki vasitələrdən və qlobal informasiya şəbəkəsindən istifadə etməklə gerçəkləşdirilə bilər.

Azərbaycan elminin inkişafında kitabxanaların qarşısında duran vəzifələrin müəyyən edilməsi, dövlətin vahid kitabxana siyasətinin formalaşdırılması və bu sistemdə baş verən yenilik-

lərin düzgün istiqamətləndirilməsi dövrün aktual problemlərindən biridir. Azərbaycan kitabxanalarının dünya və MDB ölkələrinin kitabxanaları ilə qarşılıqlı əlaqələrinin genişlənməsi zururidir. Artıq 20 ildir ki, bunu nəzərə alaraq hər il Krımda (Sudak) IFLA rəhbərliyi, MDB və xarici ölkələrin kitabxana və nəşriyyat işçiləri «Kitabxanalar və assosiasiyalar dəyişkən dünyada: yeni texnologiyalar, yeni əməkdaşlıq formaları» adı altında beynəlxalq konfransda bir araya gəlir, təcrübə mübadiləsi aparır, kitabxana işinin inkişafı perspektivlərini araşdırır [206]. Azərbaycanın kitabxana işçiləri də hər il bu beynəlxalq konfransda bərabərhüquqlu tərəfdaş kimi ölkəmizi təmsil edir, kitabxana işi ilə əlaqədar olaraq beynəlxalq aləmdə baş verən dəyişikliklər və yeniliklərlə tanış olurlar. Bu, ölkə kitabxanaşünaslığı üçün mühüm əhəmiyyət daşıyır. Çünki, digər ölkələrlə yanaşı, Azərbaycanda da dövlətin kitabxana işinin strategiyasının, prioritetlərinin müəyyənləşməsini və kitabxana işinin konsepsiyasının işlənməsini şərtləndirirdi [170].

XX və XXI əsrin əvvəlləri üçün kitabxana işinin inkişaf dinamikasının müqayisəsi göstərir ki, ideoloji məqsədindən asılı olmayaraq, XX əsrin əvvəllərində kitabxana işi daha dinamik inkişaf etmişdir. Bu faktın özü də problemin öyrənilməsinə diqqəti artırır. Onu da qeyd etmək lazımdır ki, indiyə qədər ölkədə elmi-sahə kitabxanalarının 1920-1941-ci illəri əhatə edən dövrü kompleks şəkildə araşdırılmamışdır. Xüsusilə də həmin elmi kitabxanaların kadr təminatı və maddi-texniki bazasının formalaşdırılması tədqiq edilməmişdir.

Yuxarıda qeyd etdiklərimiz məsələlər bir daha göstərir ki, elmi-sahə kitabxanaları öz fəaliyyətləri ilə Azərbaycan elminin inkişafına xidmət etmişdir və etməkdədir. Buna görə də elmi-sahə kitabxanalarının fəaliyyəti dövründə qazanılan tarixi təcrübənin aşkara çıxarılması, öyrənilməsi və yeni şəraitə uyğun olaraq inkişaf etdirilməsi xüsusi aktuallıq kəsb edir.

Azərbaycan tarixşünaslığında kitabxana işinin tarixinin təd-

qiq edilməsinə XX əsrin 60-cı illərindən başlanmışdır. Qeyd etmək yerinə düşər ki, keçmiş SSRİ məkanında da kitabxana tarixinin araşdırılmasına 50-ci illərdən ilkin cəhdlər göstərilsə də, ciddi tədqiqat işləri 60-cı illərdə yaranmağa başlamışdı [174].

Tədqiq edilən dövr Azərbaycanın SSRİ tərkibində olduğu illərə təsadüf edir. Bu səbəbdən də həmin dövrdə Sovet İttifaqında kitabxanaşünaslığa, xüsusilə də elmi kitabxanaların tarixinə və fəaliyyətinə dair yazılmış məqalə və kitablar, elmi-tədqiqatların nəzəri, metodiki məsələləri öyrənilmiş və monoqrafiyada metodiki vəsait kimi istifadə edilmişdir [148; 151; 157; 161; 150; 164; 196; 198; 185].

1920-1941-ci illərdə kitabxana işi mədəni quruculuğun tərkib hissəsi kimi inkişaf etmişdir. Elmi-sahə kitabxanaları isə elmi müəssisələrin yaranması ilə üzvi surətdə bağlı olmuşdur. Buna görə də tədqiq olunan problem üzrə araşdırmaları üç qrupa bölmək olar: kitabxana tarixi ilə bağlı olan tədqiqat işləri, elmin inkişafı ilə əlaqədar araşdırmalar və mədəni quruculuğa həsr edilmiş ümumi araşdırmalar. Bütövlükdə isə cəmiyyət tarixinin tərkib hissəsi kimi elmin tarixinin, kitabxana işinin tarixinin öyrənilməsində və formalaşmasında Azərbaycan tarixinə dair ümumiləşdirilmiş əsərlər tədqiqat zamanı əsas ədəbiyyat kimi götürülmüşdür. "Elm" nəşriyyatı tərəfindən nəşr edilmiş 7 cildlik «Azərbaycan tarixi»nin VI cildində 1920- 1940-cı illərdə Azərbaycan SSR-də elmin, mədəniyyətin inkişafı tarixi ardıcıllıqla yenidən, müstəqil şəkildə işlənmişdir [71]. VI cildin Azərbaycanda mədəni quruculuğa həsr edilmiş 5 və 8-ci fəsilləri Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, tarix elmləri doktoru, professor T.H.Musayeva tərəfindən işlənmişdir [71]. Əsərdə XX əsr Azərbaycan tarixinin uğurlu və ziddiyyətli dövrü sayılan 20-30-cu illər tarixi yeni məfkurə işığında prinsipial şəkildə araşdırılmış və obyektiv qiymətini almışdır. Həmin cilddə sovet quruculuğu, "milli dövlət" quruculuğu, sənayeləşdirmə və kollektivləşmə, idarəetmədə zorakılıq, görünməmiş cəza tədbirləri ilə

müşayiət olunan inzibati-amirlik sistemi, eləcə də, yeni cəmiyyət qurmağın bütün ağırlıqlarını çiyinlərində daşıyan milyonlarla zəhmətkeşin gərgin əmək fəaliyyəti indiyədək tədqiq olunmamış arxiv sənədləri və dövrü mətbuat materialları əsasında tam və hərtərəfli şərh olunur. Əsərdə repressiya illərinin mədəni quruculuğa vurduğu ziyan göstərilməklə yanaşı, həm də o dövrdə mədəni quruculuqda əldə edilən nailiyyətlər, elm və tədris müəssisələrinin yaranması və inkişafı ənənələri tədqiq edilmişdir.

T.Musayevanın 1920-30-cu illərdə Azərbaycanda mədəni quruculuğa – xalq maarifinin inkişafı, xalq təhsilinin qanunauyğunluqları, formaları, savadsızlığın ləğvi, orta və ali təhsilin inkişafı nəticəsində milli ziyalıların formalaşmasına həsr edilmiş bir sıra araşdırmaları da monoqrafiyanın tarixşünaslığı üçün böyük əhəmiyyət kəsb edir [178; 179; 180; 181].

N.Paşayevin A.Atakişiyevin mədəni quruculuğa, təhsilə həsr edilmiş bir sıra ümumiləşdirilmiş əsərləri də problemin öyrənilməsində diqqəti cəlb etmişdir [146; 188; 189].

Lakin həmin əsərlərdə mədəni-maarif işinin tərkib hissəsi kimi kitabxana quruculuğuna dair bəzi mülahizələr yürüdülsə də elmi kitabxanalara aid məsələlər tamamilə araşdırılmamışdır.

Elm və mədəniyyət tarixinin ayrılmaz tərkib hissəsi olan kitabxana işinin Azərbaycanda müstəqil elm,bilik sahəsi kimi formalaşması BDU Kitabxanaşünaslıq kafedrasının müdiri t.e.d., prof. A.A.Xələfovun adı ilə bağlıdır. Keçən əsrin 60-cı illərindən kitabxanaşünaslıq sahəsində elmi araşdırmalar aparan A.Xələfov gərgin elmi fəaliyyəti nəticəsində kitabxanaşünaslığı Azərbaycanda elmi-tədqiqat obyektinə çevirə bildi, bir elm kimi formalaşdırdı və özünün elmi məktəbini yaratdı. Eləcə də, kitabxanaçılıq peşəsinin ali təhsil səviyyəsinə qalxmasında müstəsna xidmətlər göstərdi. A.Xələfovun 60 illik elmi-tədqiqat fəaliyyəti dövründə ölkəmizin kitabxana işinin tarixinə həsr etdiyi yüzlərlə elmi əsərlərində, monoqrafiya və dərs vəsaitlərində kitabxana

işinin tarixi ənənələri və təcrübəsi tədqiq edilmiş və ümumiləşdirilmişdir [88; 89; 90; 91; 92; 93; 94; 95; 96;  97; 98; 99; 100; 101;102].

Bundan başqa Z.Baxşəliyevin elmi-texniki kitabxanaların yaranmasına və fəaliyyətinə həsr olunmuş dissertasiyasının bir bölməsində və bir sıra başqa elmi əsərlərində elmi-texniki kitabxanaların təşəkkülü tarixi ilə yanaşı neft sənayesində elmi-texniki biliklərin yayılmasında və fəhlələrin savadsızlığının ləğv edilməsində elmi-texniki kitabxanaların rolu haqqında məlumatlar vardır [147].

Görkəmli kitabxanaşünas, tarix elmləri doktoru X.İ.İsmayılovun əsərləri mövzunun öyrənilməsində əhəmiyyətli yer tutduğuna görə tədqiqat zamanı istifadə edilmişdir. Həmin əsərlərdə kitabxanaların, o cümlədən elmi-sahə kitabxanalarının metodik təminat sisteminin təşkili məsələləri geniş işıqlandırılmışdır [106; 107; 108].

Ş.İ.İslamovanın monoqrafiyasında tədqiq olunan mövzu ilə əlaqədar müəyyən məlumatlar öz əksini tapmışdır. Problemin araşdırılmasında əsər xüsusi diqqətə layiqdir [105].

Bütün elm sahələrini əhatə etmiş universal elmi fonda malik olan M.F.Axundov adına Milli Kitabxanasının tarixi haqqında K.Tahirovun "M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi (1923—2008-ci illər)" monoqrafiyasında, bəzi müəlliflərin çap olunmuş əsərlərində, kitabxananın çap etdiyi nəşrlərdə də müxtəlif xarakterli məlumatlar vardır [138; 142; 143].

Kitabxana tarixinin bu və ya digər mövzuları  haqqında bəzi ötəri məlumatlara H.Tağıyevin, Z.Əliyevin, T.Quliyevin, Ə.Nəcəfovun, R.Kazımovun əsərlərində də rast gəlmək olar [139; 114; 81; 173; 123].

Qeyd edilən tədqiqat işləri ilə yanaşı, Azərbaycan Dövlət Universitetinin (BDU) "Elmi Əsərlərinin" Kitabxanaşünaslıq və biblioqrafiya seriyasında elmi kitabxanaların tarixinə, elmi işçilərə kitabxana-biblioqrafiya xidmətinin təşkilinin nəzəriyyəsinə

və təcrübəsinə həsr edilmiş bir sıra elmi məqalələr dərc edilmişdir. Sovet dövründə yazılmış əsərlərdə elm və mədəniyyətin, kitabxana işinin tarixi tam obyektivliyi ilə işıqlandırıla bilməmişdir və ya hər bir tədqiqat işi siyasi ideologiyaya bağlanmışdır. Bu isə sovet rejiminin, Sov.İKP-nin tələbindən irəli gələn məsələlərlə əlaqədar olmuşdur.

Azərbaycanda elmi-sahə kitabxanaları ölkədə elmin, elmi müəssisələrin inkişafı nəticəsində təşəkkül tapıb formalaşmışdır. Bu səbəbdən də tədqiq olunan dövrdə elmin inkişaf tarixinin öyrənilməsi ilə bağlı çap olunmuş əsərlər, yubiley nəşrləri də tarixşünaslıq baxımından diqqəti cəlb etmiş və monoqrafiyada istifadə edilmişdir [3; 5; 8; 74; 104; 119; 128; 130; 145; 154; 183; 184].

T.A.Musayeva və A.A.Məmmədovun "На путях создания Национальной Академии Наук и формирования кадров научной интеллигенции Азербайджана (1920-1945 гг.)" [181] monoqrafiyası mövzunun tarixşünaslığında qiymətli bir mənbədir. Monoqrafiyada Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaranması, 1929-cu ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun, SSRİ EA Zaqafqaziya Filialının Azərbaycan Şöbəsinin, SSRİ EA Azərbaycan Filialının və nəhayət, 1945-ci ildə müstəqil Azərbaycan Elmlər Akademiyasının yaranması ilə nəticələnən elmin keçdiyi şərəfli tarixi yol işıqlandırılmışdır.

Azərbaycanda elmin inkişafının tarixi ilə bağlı t.ü.f.d. T.Kərimovanın "Milli Elmlər Akademiyasının tarixindən"[165] əsəri də tarixşünaslıq üçün xüsusi əhəmiyyətə malikdir. Əsər 1920-1945-ci illərdə Azərbaycan elminin inkişafına həsr edilmişdir. T.Kərimovanın monoqrafiyasında 1920-ci ildən müstəqil Azərbaycan Elmlər Akademiyasının yaranmasına qədərki fəaliyyəti ardıcıl şəkildə tədqiq edilmişdir.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin və SSRİ EA AF «Xəbərlər»indəki məqalələr də tarixşünaslığa qiymətli töhfələrdir. Bu səbəbdən də monoqrafiya yazılarkən onlardan isti-

fadə edilmişdir [149; 159; 167].

Tədqiqat zamanı mədəni quruculuq, eləcə də kitabxana işi ilə əlaqədar olan bir sıra partiya və dövlət sənədlərini, dekretləri özündə əks etdirən çap əsərlərindən də istifadə edilmişdir [158; 169].

Elmi-sahə kitabxanalarının fəaliyyətini əks etdirən rəqəm göstəriciləri bir sıra statistik nəşrlərdə verilmişdir ki, müəllif də problemi araşdırarkən dəfələrlə bu nəşrlərə müraciət etmişdir [65; 68; 171].

Problemin öyrənilməsində araşdırdığımız və təhlil etdiyimiz mənbələrdə və eləcə də, bir sıra kiçik həcmli məqalələrdə elmi-sahə kitabxanalarının ayrı-ayrı cəhətləri işıqlandırılmışdır. Lakin, onu da qeyd etmək istərdik ki, indiyə qədər Azərbaycanda elmin və elmi müəssisələrin fəaliyyət istiqamətlərinin qanunauyğunluqlarına müvafiq olaraq elmi-sahə kitabxanalarının fəaliyyəti, inkişaf mərhələləri, maddi-texniki bazasının möhkəmləndirilməsi və kadr hazırlığı məsələləri, onların elmin inkişafında, milli ziyalı təbəqənin formalaşmasında, sosial-iqtisadi və ictimai siyasi və s. vəzifələrin həllində rolu xüsusi tədqiqat obyekti omamışdır. Problemin məhz belə qoyulması və həlli Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq öz əksini müzakirəyə təqdim olunan bu monoqrafiyada tapmışdır.

Tədqiqat işinin mənbə bazasını müxtəlif zamanlarda çap olunmuş sənədlər, Azərbaycan Respublikasının Dövlət Arxivində, AMEA Azərbaycanda Elmi İrsin Toplanması və Saxlanması Mərkəzində (AEİTSM) mühafizə edilən sənəd və materiallar, dövrü mətbuat və digər ilkin mənbələr təşkil edir. Mənbələri şərh edərkən qeyd etmək lazımdır ki, onların hamısı üçün ümumi bir cəhət vardır. Tədqiqata cəlb olunmuş materialların böyük əksəriyyəti rus dilindədir. Təbii ki, Azərbaycanın uzun illər Rusiya İmperiyasının tabeliyində, sonralar isə SSRİ tərkibində olması həmin tarixə aid mənbələrin məzmununa və xarakterinə də öz təsirini göstərmişdir. Azərbaycan dilində olan materiallar isə

müxtəlif dövrlərdə ərəb, latın və kiril qrafikası ilə yazılmışdır.

Qeyd etmək lazımdır ki, həmin tarixi şəraitə görə Azərbaycanda elmi-sahə kitabxanalarının inkişafı probleminin araşdırılması üçün lazım olan əsas mənbələr birtərəflidir, sovet ideologiyasına əsaslanır və o vaxtkı mərkəzi hakimiyyətin mənafeyini əks etdirir. Monoqrafiyanın yazılması zamanı həmin mənbələrdə olan faktoloji materiallardan istifadə edilmişdir.

Monoqrafiyanın mənbə bazasında AMEA AEİTSM 1, 2, 3, 5, 7-ci fondlarında mühafizə edilən protokollar, qərar və sərəncamlar, plan və hesabatlar, məruzələr, yazışmalar əsas yer tutur.

ARDA-nin 57, 114, 379, 387, 1610 fondlarında saxlanan müxtəlif dövlət idarələri və ayrı-ayrı şəxslər arasında yazışmalar, məruzə və hesabatlar, müxtəlif hakimiyyət orqanlarının iclas protokollarını əhatə edən materiallarda əsərdə qarşıya qoyulmuş vəzifələri həll etməyə imkan verən çoxlu sayda yeni və qiymətli faktlar vardır ki, bunlar da, müəllif tərəfindən ilk dəfə elmi dövriyyəyə gətirilmişdir. Bu materiallar elmi müəssisələrin, o cümlədən də elmi-sahə kitabxanalarının Azərbaycanın sosial-iqtisadi və mədəni həyatına, elmin inkişafına təsirinin geniş və aydın mənzərəsini yaratmağa imkan verir.

Monoqrafiyada 1920-41-ci illərdə nəşr olunmuş dövrü mətbuat materiallarından da geniş istifadə edilmişdir. Bunları Azərbaycan (“Yeni yol”, “Gənc işçi”, “Kommunist”, “İnqilab və mədəniyyət”, “Maarif və mədəniyyət”, “Yeni məktəb”, “Azərbaycanı öyrənmə yolu” və s.) və rus dilində olmaqla («Советская библиография», «Библиотекарь», «Библиотечное дело», «Коммунист», «Бакинский рабочий», «Зарья Востока», «Известия Общества Обследования и Изучения Азербайджана», «Народное просвещение», «Азербайджанское нефтяное хозяйство», «Экономический вестник Азербайджана», «Азербайджанские известие», «Социалистическое хозяйство Закавказья», «Известия АзФАН, Серия Общественных наук») qəzet və jurnal məqalələri kimi qruplaşdırmaq olar.

İstifadə edilən bütün bu mənbələr tədqiqat obyekti kimi işlənən mövzunun müxtəlif cəhətlərini əks etdirir. Buna görə də əhəmiyyətinə görə də müxtəlifdirlər. Bu materialların hamısının kompleks şəkildə tədqiqat işinə cəlb edilməsi, ayrı-ayrı mənbələrdə olan məlumatları sistemləşdirməyə, ümumiləşdirməyə və elmi-sahə kitabxanalarının 20 illik təşəkkülü və inkişafı tarixinin tam mənzərəsini yaratmağa imkan vermişdir.

Qeyd etmək lazımdır ki, 1920-1941-ci illərdə elmi-sahə kitabxanaları yeni-yeni yaranmağa başladığından elmi və sahə kitabxanalarının funksiyalarını həmin dövrdə mövcud olan digər kitabxanalar – ADU kitabxanası, Dövlət Ümumi Kitabxanası, Elmi-texniki kitabxanaları həyata keçirirdi. Bu səbəbdən də monoqrafiyanın əvvəlki fəsillərində həmin kitabxanaların fəaliyyəti də geniş işıqlandırılmışdır.

Tədqiqat işinin nəzəri və metodoloji əsasını Azərbaycan Respublikasının Konstitusiyası, elm, informasiya və kitabxana işi haqqında qanunlar və tarix elminin prinsipləri: elmi obyektivlik, problemə dair fakt və materialların kompleks şəkildə araşdırmaya cəlb edilməsi, bütün sənəd və materiallara tənqidi yanaşma təşkil edir. Tədqiqat prosesi zamanı müqayisəli təhlil metodundan istifadə edilmişdir. Toplanmış bütün fakt və materialları qərəzsiz və obyektiv surətdə elmi tədqiqata cəlb edərək, imkan daxilində tarixi şəraitin müəyyən mənzərəsini yaratmağa çalışmışıq. Problemi araşdırarkən elmi tədqiqatlarda geniş tətbiq edilən səbəb və nəticə əlaqələrinin təhlili metodundan istifadə olunmuşdur.

Monoqrafiyanın elmi yeniliyi ondan ibarətdir ki, Vətən tarixində ilk dəfə olaraq Azərbaycan Dövlət Universitetinin Kitabxanası, M.F.Axundov ad. Dövlət Ümumi Kitabxanası, Mərkəzi Elmi-Texniki Kitabxana, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin kitabxanası, SSRİ EA ZFAŞ, SSRİ EA AF kitabxanaları şəbəkəsinin materialları əsasında elmi-sahə kitabxanalarının fəaliyyəti, inkişaf mərhələləri elmi müəssisələrin inkişafı

ilə paralel olaraq bütövlükdə və hərtərəfli tədqiq olunmuşdur. Həm ayrı-ayrı elmi müəssisələr, həm də onlara xidmət edən elmi-sahə kitabxanalarının təşkili, onların fondlarının zənginləşdirilməsi, beynəlxalq əlaqələri, maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr təminatı məsələləri, onların ziyalı təbəqənin yetişməsinə və ölkənin ictimai-siyasi, iqtisadi, mədəni həyatına təsiri müstəqil tədqiqat obyektinə çevrilmişdir. Qeyd edək ki, indiyədək kitabxana işinin müxtəlif sahələrinin tarixi tədqiq olunsa da, elmi-sahə kitabxanalarının tarixi ilə, xüsusilə də, onların maddi-texniki bazası və kadr təminatı məsələləri ilə əlaqədar ciddi tədqiqat işi aparılmamışdır. Eyni zamanda, 30-cu illərin repressiyalarının kitabxana işinə təsiri də indiyə qədər araşdırılmamışdır. Ona görə də təqdim olunan monoqrafiya elmi-sahə kitabxanalarının 1920-1941-ci illər tarixi haqqında ilk tədqiqat işi kimi dəyərləndirilə bilər. Bu vaxta qədər elmi dövriyyədə olmayan bəzi arxiv materialları və sənədlər də ilk dəfə olaraq tədqiqata cəlb edilmişdir. Belə ki, Azərbaycan Respublikasının Mərkəzi Dövlət Arxivinin, AMEA AEİTSM-nin materiallarından, elmi-tədqiqat işlərindən, çoxsaylı elmi ədəbiyyatdan, tədqiq olunan dövrdə nəşr edilmiş dövrü mətbuatdan, ardı davam edən nəşrlərdən istifadə edilərək müəyyən elmi nəticələr əldə edilmiş və monoqrafiyaya çoxlu sayda yeni materiallar cəlb edilmişdir.

# I FƏSİL

# AZƏRBAYCAN SSR-də ELMİ MƏRKƏZLƏRİN YARANMASI VƏ ELMİ-SAHƏ KİTABXANALARININ TƏŞƏKKÜLÜ (1920-1929-cu illər)

## 1.1. Azərbaycan SSR-də ilk elmi müəssisələrin təşəkkülü və onların fəaliyyət istiqamətləri

Azərbaycan xalqının zəngin və çoxəsrlik tarixə malik olan elmi fikir tarixi qədim dövrlərə təsadüf edir. Nizami və Füzulinin, Xaqani və Nəsiminin, Seyid Yəhya Bakuvi və Nəsrəddin Tusinin, Fəzlullah Rəşidəddin və Əcəmi Naxçıvaninin yaratdığı mədəni sərvətləri bu gün də yaşamaqdadır. Dahi filosof Bəhmənyar ibn Mərzban və Mahmud Şəbüstəri, astronom Fazil Şirvani, riyaziyyatçı Übeyd Təbrizi, təbib Nəcməddin Naxçıvani, filoloq Xətib Təbrizi və s. kimi Azərbaycan alimləri dünyanın elm xəzinəsinə qiymətli töhvələr vermişlər.

Tarixdə «Nəzmiyyə» adı ilə tanınan məşhur Bağdad darülfününunda dərs verən Xətib Təbrizi fəlsəfə, məntiq, ədəbiyyat, dilçilik və s. elm sahələri üzrə xeyli sayda tədqiqat əsərlərinin müəllifidir.

Astronomiya sahəsində müvəffəqiyyət qazanmış Fəridəddin əl Şirvani öz dövrünün astronomiya elmində tərtib etdiyi «ulduz cədvəli» ilə yenilik yaratmışdı.

Böyük astronom və riyaziyyatçı alim Nəsrəddin Tusi 1258-1261-ci illərdə məşhur Marağa rəsədxanasını yaratmışdır. Rəsədxananın böyük elmi kitabxanası olmuşdur. Rəsədxananın yaradılması və Tusi elmi məktəbi XIII-XIV əsrlərdə Azərbaycanda astronomiya, riyaziyyat və tarix elminin inkişafına səbəb olmuşdur. Görkəmli Azərbaycan alimləri Fəxrəddin Marağayi və Şəmsəddin Şirvani Tusi məktəbinin yetirmələri kimi şöhrət tapmışlar. Nəsrəddin Tusinin yaratdığı orijinal elmi əsərləri hələ öz dövründə müxtəlif xalqların dillərinə tərcümə edilmiş və elmin inkişafına müsbət təsirini göstərmişdir. Tusi «Zicci Elxani» adlı ulduzlar kataloqu tərtib etmişdir ki, 300 il ondan sonra Avropanın məşhur astronomu Tixo Brahe onun yaratdığı bu kataloqdan bəhrələnərək astronomiya elmini inkişaf etdirməyə müvəffəq olmuşdur.

Marağa rəsədxanasının kitabxanasında 400 minə yaxın elmi əlyazmalar toplanmışdı. Bu əlyazmalarının içərisində Arximedin, Evklidin, Ptolomeyin, Apollininin Tusi tərəfindən ərəb, fars dillərinə tərcümə edilmiş əsərləri də saxlanılırdı [134].

XIV-XV əsrlərdə yaşayıb-yaratmış Azərbaycan alimləri içərisində məşhur tənqidçi və təfsirlər müəllifi olan Nəcməddin Əhməd Naxçıvani, «Risalətül hesab» əsərinin müəllifi, görkəmli riyaziyyatçı alim Übeyd Təbrizi, «Gülşəni-raz» və «Səadətnamə» əsərlərinin müəllifi olan Mahmud Şəbüstəri öz dərin tədqiqat əsərləri ilə şöhrət tapmışdılar [119, 8].

Bu dövrdə tarixçi Fəzlullah Rəşidəddinin rəhbərliyi ilə «Cami-ət-təvarix» adlı samballı bir tarixi əsər yaradıldı.

Azərbaycan tarixçisi Məhəmməd ibn Hinduşah Naxçıvaninin «Dəstur əl-katib» əsəri XIV əsr Azərbaycan ictimai-iqtisadi həyatına dair qiymətli məlumatlarla zəngindir.

XV əsr məşhur Azərbaycan filosofu və alimi, öz elmi mək-

təbini yaratmış Seyid Yəhya Bakuvinin «Şərhi-Gülşəni-raz» və «Əsrar-ət-talibin» əsəri şöhrət qazanmışdı. Görkəmli alimlərdən olan Yusif Şirvani və Kəmaləddin Məsud Şirvani Seyid Yəhya Bakuvi məktəbinin yetirmələrindəndir.

Coğrafiyaşünas, tarixçi alim Əbdürrəşid ibn Saleh Bakuvinin «Təlxis əl asar və əcaib əl məlik əl qəhhar» əsəri Azərbaycanın şəhərsalma və memarlıq abidələrinə həsr olunmuşdur.

XVI əsr Azərbaycan alimi Həsən bəy Rumlunun 12 cildlik «Əhsən-üt-təvarix» əsəri tarix elminə dəyərli hədiyyə sayılmalıdır.

İsgəndər bəy Münşinin «Təvarixi Aləm-arayi-Abbasi» əsəri, Məhəmməd Hüseyn ibn Xələf (Burhan) Təbrizinin fars dilinin izahlı lüğəti, Sadiq bəy Əfşarın «Təzkirəyi məcməül-Xəvas» əsəri müxtəlif elm sahələrinin XVII əsrdə inkişaf etdiyini sübut edir.

XVIII əsrdə digər elm sahələri ilə yanaşı coğrafiya elmində də bir inkişaf olmuşdur. Bu sahəyə coğrafiyaşünas alim və səyyah Zeynalabdin Şirvani «Bustan-üs-səyahə» və «Riyaz-üs-səyahə» adlı əsərləri ilə zəngin töhvələr vermişdir.

Tarix, fəlsəfə, ədəbiyyat, dilçilik və təbiət elmləri sahəsində qiymətli əsərlər yaratmış Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov, Mirzə Kazım bəy, Həsən bəy Zərdabi Azərbaycanın XIX əsr mütəfəkkirlərindəndir. Abbasqulu ağa Bakıxanovun məşhur «Gülüstani-İrəm» adlı əsəri dərin elmi tədqiqat əsəri kimi tarix elmində xüsusi yer tutur.

M.F.Axundovun elmi-fəlsəfi görüşləri nəinki Azərbaycanda, həmçinin Yaxın və Orta Şərqdə mütərəqqi ictimai fikrin inkişafında mühüm rol oynamışdır.

O dövrdə bir sıra akademiya və elmi cəmiyyətlərin üzvü olan Mirzə Kazım bəy şərqşünaslığın bir elm kimi inkişafındakı roluna görə Rusiyada və Qərbdə də görkəmli alim kimi qiymətləndirilirdi.

Azərbaycanda ilk təbiətşünas-alim, ilk demokratik mətbuat

orqanı olan «Əkinçi» qəzetinin yaradıcısı Həsən bəy Zərdabinin xalqın maariflənməsində, mətbuat işinin inkişafında böyük rolu olmuşdur.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması elmin, təhsilin inkişafına da təsir göstərdi. Yeni keyfiyyətli təhsil ocaqlarının, elmi-mədəni mərkəzlərin, dövlət kitabxanalarının yaranmasına ehtiyac əmələ gəldi. Gənc Azərbaycan dövləti öz milli kadrlarını hazırlamaq məqsədi ilə Bakıda bir universitet yaratmaq üçün hökumətə tapşırıq verdi. Əvvəllər Tiflisdə yerləşən Zaqafqaziya Universitetinin Bakıya köçürülməsi planlaşdırılırdı. Lakin tezliklə Xalq Maarif Nazirliyinin qərarı ilə Bakıda universitet təşkil edilməsi üçün professor V.İ.Razumovskinin sədrliyi ilə komissiya yaradıldı. Komissiyanın tərkibinə professor N.Dubrovski, A.Levin, İ.Sitoviç, müəllimlərdən L.İşkov, Maarif Nazirliyinin nümayəndəsi V.İrzayev, Bakı şəhər bələdiyyəsindən C.Orucəliyev, «neft sənayeçiləri qurultayı» şurasından isə A.Saparov daxil idi.

Komissiya universitetin yaradılması haqqında qanun layihəsi və 72 fəsildən ibarət nizamnamə hazırlayıb parlamentin müzakirəsinə çıxardı. Uzun müddət cəmiyyətdə aparılan müzakirələr və fikir ayrılıqları parlament müzakirələrində də özünü göstərdi. Bu fikir ayrılıqları əvvəllər «universitet bizə lazımdırmı?» sualı ətrafında gedirdisə, sonradan bu müzakirələr milli kadr çatışmazlığı ilə əlaqədar olaraq tədrisin hansı dildə aparılacağı yönündə kəskin fikir ayrılıqları ilə qarşılaşdı. Professor A.O.Makovelski Azərbaycan Dövlət Universitetinin 10 illiyi münasibətilə yazdığı kitabında universitet açılması əleyhdarları içərisində digər partiyaların parlament üzvləri ilə yanaşı, Müsavatın da universitet yaradılmasının əleyhinə olduğunu qeyd etmişdir [175, 3]. Azərbaycan parlamentində universitet yaradılması haqqında qanun müzakirə edilərkən M.Ə. Rəsulzadə deyirdi ki, Azərbaycan Dövlət Darülfünunun açılmasına «ehtiyac o nöqteyi-nəzərdən vardır ki, bizdə mütəfənnin, mütəxəssis elmi

nöqtələrə alim adamlar, üləma yoxdur. Bu cür adamların yoxluğu hər cəhətdən təsirini göstərir. Ona görə bir an əvvəl üləma, mütəfənnin, üsula aşına adamları yetişdirmək hökumət və məmləkətin vəzifəsidir». Universitetin yaradılmasının elmi tədqiqatların aparılmasında da faydalı olacağını M.Ə.Rəsulzadə belə qeyd edirdi: «Darülfünunun faydalarından biri də budur ki, burada bir kərə elmi bir müəssisə vücuda gələcək. Bununla məmləkətin məchul qalmış bir çox xüsusiyyəti öyrəniləcəkdir». Rəsulzadənin bu çıxışı prof. Makovelskinin AXC-nin universitet yaradılmasının əleyhinə olması fikrinin yanlış olduğunu göstərir. Rəsulzadə öz çıxışında hamını darülfünunun açılmasına səs verməyə çağırırdı: «Siz buna kəmali-itminan ilə əlinizi ürəyinizə qoyub səs verə bilərsiniz» [7, 10]. Azərbaycan Dövlət Darülfünunun ilk rektoru Razumovski universitetin açılması haqqında qərarın «Müsavat» partiyasının qərarının və «M.Ə.Rəsulzadənin enerjisi və təsirinin nəticəsində» qəbul edildiyini minnətdarlıqla göstərir [146, 51]. Beləliklə, 1919-cu il sentyabr ayının 1-də parlament Azərbaycanın ilk ali təhsil ocağının yaradılması haqqında qərar qəbul etdi. Universitetin kadrlarının saxlanması, tədris hissəsi və təsərrüfat xərcləri üçün hökumət 10.857.500 manat vəsait ayırmışdı [7, 164]. 1919-cu ilin noyabrından fəaliyyətə başlayan universitetdə iki fakültə – tibb və tarix-filologiya fakültələri vardı.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra ölkədə ən mühüm vəzifələrdən biri sosializm ideyaları bazasında yeni cəmiyyət üçün yeni mütəxəssislər, elmi fəaliyyətlə məşğul olan ziyalı kadrlar hazırlamaq idi.

20-ci illərin əvvəllərində xalq təsərrüfatının bərpasında çətinliklərə və siyasi vəziyyətin mürəkkəbliyinə baxmayaraq AK(b)P, Azərbaycan İnqilab Komitəsi, XKS və Xalq Maarif Komissarlığı universitetin fəaliyyəti üçün xüsusi diqqət və hərtərəfli köməklik göstərirdi. Azərbaycan SSR-nin yaranması ilə əlaqədar universitet də sosialist ali təhsil müəssisəsi kimi ye-

nidən quruldu. 1921-ci il 14 mayda keçirilən I Ümumazərbaycan Sovetlər qurultayı D.Bünyatzadənin məruzəsi əsasında Universitetin genişlənməsi və türkləşməsi haqqında qətnamə qəbul etdi [192, 210]. Dərslərin türk (Azərbaycan – A.R.) dilində keçirilməsinin milli kadrların hazırlanmasında və respublikada müəyyən elmi tədqiqatların aparılmasında böyük rolu oldu. Universitet nəzdində mütəxəssisləri birgə fəaliyyətə cəlb etmək məqsədi ilə müxtəlif fakültələrarası və elmi-tədqiqat xarakterli cəmiyyətlər yaranmağa başlandı. Fakültələrarası cəmiyyətlərə «Təbiət tədqiqatçıları və həkimlər cəmiyyəti»ni, «Sosial-iqtisadi və pedaqoji elmləri öyrənmə cəmiyyəti»ni misal göstərmək olar. Cəmiyyət yerlərdə malyariya, Malti qızdırmasını, epidemiyalı ensefaliti, vəbanı öyrənməyə daha çox diqqət yetirmiş, 250-yə yaxın məruzə dinləmiş və müzakirələr aparmışdı.

«Sosial-iqtisadi və pedaqoji elmləri öyrənmə cəmiyyəti»ndə pedaqoji, şərqşünaslıq, hüquq fakültəsinin elmi işçiləri və ictimai xadimlər birləşmişdilər. Cəmiyyətin yığıncaqlarında sovet hüququ, siyasi iqtisad, fəlsəfə, pedaqogika, tarix və ədəbiyyata aid məruzələr dinlənilirdi. Bunlardan əlavə, 1923-cü ildə yaranan «Cərrahiyyə cəmiyyəti», 1924-cü ildə «Dermatoloji cəmiyyət», «Patoloqlar cəmiyyəti». «Terapevt-həkimlər cəmiyyəti» və s. cəmiyyətlər də yaranmışdı [175, 63].

8 avqust 1920-ci ildə özünün ilk iclasını keçirən Elmi Assosiasiya bütün elmi-tədqiqat fəaliyyətlərinin mərkəzi funksiyasını yerinə yetirirdi. Universitetin elmi cəmiyyətlərində və kafedralarda işlənmiş elmi-tədqiqatların nəticələri «Universitet Xəbərləri»ndə dərc olunmaqla yanaşı, Moskva, Xarkov, Leninqrad və xarici ölkələrin də dövrü mətbuatında nəşr edilirdi.

Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda elmi-tədqiqat mərkəzlərinin yaradılmasına, elmi-tədqiqat institutları şəbəkələrinin formalaşdırılmasına ilk cəhdlər edilməyə başladı. 1920-ci ilədək Azərbaycanda təbiətşünaslıq və texnika, neft sahəsində profilli elmi-tədqiqat müəssisələri formalaşmamışdı. Elə-

cə də, elmi-tədqiqat işləri ilə məşğul olan elmi kadrlar, xüsusi ilə milli kadrlar az olduğundan çox vaxt RSFSR-dən və digər sovet respublikalarından alim və mütəxəssislər dəvət edilirdi. Bərpa işləri və neft elminin elmi-tədqiqat bazasının əsasını qoyan Azərbaycan Politexnik İnstitutu Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun təşəbbüsü ilə açılır. 1920-ci ilin dekabr ayında Bakı Texniki məktəbinin bazası əsasında ali məktəb yaradılması haqqında qərar qəbul edildi [184, 18]. 1921-ci ilin yanvar ayında Petroqrad Politexnik texnikumu RSFSR XMK qərarı ilə Bakıya köçürüldü. Beləliklə, hər iki texnikumun bazası əsasında yaranan Azərbaycan Politexnik İnstitutunda yanvar ayında dərslər başlandı. İnstitut açıldıqdan sonra elmi işlər də genişləndi və texnika aqronomluq, iqtisadi sahələrə qədər yayıldı.

Ali məktəblərlə yanaşı ayrı-ayrı elmi-tədqiqat və elmi-təcrübə müəssisələrində də elmi-tədqiqat işləri aparılmağa başlandı. Bu müəssisələr elmin müxtəlif sahələrini əhatə etmiş, sosialist təsərrüfatının inkişafına və mədəni quruculuğa xidmət etmişdir.

«Təhsil və elm sahəsində bütün işlərə ümumi ideya rəhbərliyi» üçün 1921-ci ilin fevralında Azərbaycan Maarif Komissarlığı nəzdində akademik şöbə təşkil edildi [71, 232].

Şöbənin tərkibinə Azərbaycan Dövlət Universiteti, Azərbaycan Politexnik İnstitutu, Dövlət Muzeyi, Dövlət Arxivi ilə yanaşı, digər elmi xarakterli təhsil müəssisələri və idarələr də daxil idi. Azərbaycanda elmi işlərin metodoloji əsasında Marksın, Engelsin, Leninin əsərləri dururdu. «Şuralar İttifaqında elm Marksın açmış olduğu dialektik materializmlə aşılanmışdır» [80, 43]. Qeyd etmək yerinə düşərdi ki, AXC hökumətinin fəaliyyətinin ideoloji əsasını isə milli özünüdərkin dirçəldilməsi təşkil edirdi [7, 174]. Sovet hakimiyyəti özündən əvvəl nəşr edilmiş yüz minlərlə «zərərli və lüzumsuz» elmi kitabları inkar edərək məhv edirdi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu 1922-ci ildə marksist ədəbiyyatın tərcümə

edilməsi üçün xüsusi komissiya yaratdı. 1920-1926-cı illər ərzində Leninin 26 əsəri ölkədə yayılmaq üçün türk dilinə tərcümə edilib 130,5 min nüsxə ilə nəşr edildi.

Moskva Sovet İttifaqının mənafelərini əsas götürərək ümumittifaq əhəmiyyətli elm sahələrinin inkişafına diqqət göstərirdi. Azərbaycan SSRİ-nin neft bazalarından biri sayıldığından respublikanın əlaqədar elmi və digər təşkilatlarının qarşısında neft kimyası, neftin geologiyası, qazma texnikası, energetika elmləri sahəsində tədqiqatlar aparılmasına xüsusi diqqət göstərilməsi respublikaya bir vəzifə olaraq tapşırılırdı. Azərbaycan Politexnik İnstitutunda M.V.Abramoviçin rəhbərliyi altında neft geologiyası, L.S.Leybenzonun rəhbərliyi ilə hidroneft, İ.Q.Yesmanın hidravlika və hidravlik mühərriklər, K.V.Pokrovskinin buxar mühərrikləri və istilik dinamikası və K.A.Krassuskinin neft kimyası kafedralarında elmi tədqiqatlar aparılırdı. Sovet atom elminin yaradıcılarından biri olan N.V.Kurçatov Azərbaycan Politexnik İnstitutunun elektrik fizikası laboratoriyasında elmi çalışmalar üzərində işləmişdir [71, 233].

Azərbaycanda sənayenin müxtəlif sahələri ilə yanaşı, neft sənayesinin də milliləşməsi nəticəsində Bakı kimi onun neft buruqları, neft sənayesi də sovet hökumətinin əlinə keçdi. Bu dövrdə Bakıda 1.450 neft buruğu istismar edilirdi. Bu isə bütünlükdə buruqların cəmi 50%-ni təşkil edirdi [156,4].

Yenicə yaranan Sovet hökuməti Sovet Rusiyasının neftə olan kəskin tələbatını ödəmək üçün Bakı neftini mərkəzə çatdırmağı Azərbaycan Neft Komitəsinin qarşısında bir döyüş tapşırığı kimi qoyurdu. 1920-ci ilin sonunda qazma və istismar işləri demək olar ki, dayanmışdı. Bu çatışmazlıqları aradan qaldırmaq üçün Əmək və Müdafiə Şurası Səlahiyyətli komissiya yaradaraq öz nümayəndələrini 2 həftəlik Bakıya işləməyə göndərir. Bu komissiya təşkilati məsələlərlə yanaşı, neft buruqlarında çalışan fəhlə və mühəndis-texniki işçilərin iş şəraitinin və neft sənayesinin maddi-texniki təchizatının yaxşılaşdırılması yönündə tədbir-

lər gördü. Görülən tədbirlərin nəticəsində 1921-ci il oktyabrında neft istehsalı 12,6 milyon puddan 15 milyon puda qədər yüksəlmişdi.

1920-ci ildə Azərneftin geoloji kəşfiyyat bürosu, 1923-cü ildə isə «Geoloji kəşfiyyat komitəsi» daha sonra isə «Texniki büro» yaradıldı. 1922-ci ildə Respublika Dövlət Elektrikləşdirmə Komissiyası fəaliyyətə başladı. Azərbaycan Ali İqtisad Şurası yanında yaradılan bu komissiyanın tərkibinə Sədr X.Məlikaslanov, İ.Yesman, E.Yelyaşeviç, V.Vasilyev və başqaları daxil idi.

1921-ci ildə Bakı dəniz rəsədxanası öz fəaliyyətinə başladı. Bakı seysmik stansiyası da 1923-cü ildə bərpa edilərək işə başladı.

Yeni iqtisadi quruculuq kənd təsərrüfatı sahəsində də, elmi işlərin təşkili, kənd təsərrüfatı mütəxəssislərinin hazırlığı sahəsində müəyyən tələblər qoyurdu. Politexnik İnstitutu və Azərbaycan Dövlət Universiteti əlaqəli şəkildə botanika, torpaqşünaslıq, bitkilərin morfologiyası, zoologiya, meliorasiya, heyvandarlıq, heyvanların anatomiyası kafedralarında və əlaqədar laboratoriyalarda aktual elmi problemlər işlənirdi.

Azərbaycan SSR- də heyvandarlığın inkişaf etdirilməsi məsələlərinin elmi həlli ilə məşğul olmaq üçün 1925-ci ildə Azərbaycan Elmi-Tədqiqat Heyvandarlıq və Baytarlıq İnstitutu yaradıldı.

Azərbaycan Dövlət Universiteti nəzdində yaranmış elmi cəmiyyətlərlə yanaşı, 1922-ci ildə yoluxucu və epidemiyalı xəstəliklərin öyrənilməsi ilə məşğul olan Tibbi Virusologiya, Mikrobiologiya, Gigiyena Elmi-Tədqiqat İnstitutu yaradıldı.

1920-ci ilin iyununda bir qrup müəllim Azərbaycanda ölkəşünaslıq muzeyinin yaranmasına təşəbbüs göstərir. Muzey yarandığı ilk vaxtlar Azərbaycana aid materialların toplanması işi ilə məşğul olmuşdur. Muzey 1921-ci ildə Bakı-Dağıstan Pedaqoji Muzeyi və Müsavat Parlamentində yerləşmiş «İstiqlal» muzeyi əsasında yenidən təşkil olunmuşdu. Muzey 1921-ci il

ərzində Xalq Maarif Komissarlığı Muzey-ekskursiya bölməsinin tabeçiliyində oldu. 1922-ci ildə isə muzey Muzarxiv bölməsinin tabeçiliyində, nəhayət 22-ci ilin sonunda isə muzey Baş Peşə Təhsili İdarəsi şəbəkəsində müstəqil fəaliyyət göstərməyə başladı. Əvvəllər pedaqoji xarakter daşıyan muzey 1924-dən ölkəşünaslıq xarakteri aldı. 1924-cü ildən muzey Azərbaycan Dövlət Muzeyi adını almışdır. Ölkəşünaslıq qurultayının qərarlarına müvafiq olaraq respublikada bir neçə belə muzey yaradılmağa başlandı.

1925-ci ildə XMK Dövlət Muzeyi haqqında Əsasnaməni təsdiq etdi [182, 121]. Bu əsasnaməyə görə Muzey 4 bölmə üzrə işini qurdu:

1. Tarix-etnoqrafiya;
2. Biologiya;
3. İncəsənət;
4. Kitabxana.

1925-ci ildə Azərbaycanın Rusiya tərəfindən işğalı tarixinə aid bir çox vəsiqələr və bəzi arxeoloji kolleksiyalar Tiflisdəki Qafqaz Muzeyindən alınıb Azərbaycana gətirilir [116, 38]. 1926-cı ildə Dövlət muzeyində toplanan eksponatların sayı 32 min ədədə çatmışdı. Dövlət muzeyi respublikada tarix sahəsində ilk tədqiqat müəssisələrindən biri sayılır.

1920-ci ilin sentyabrında Bakıda Şərq xalqlarının qurultayı çağırıldı. Qurultayın tövsiyəsi və XKS sədri N.Nərimanovun təşəbbüsü ilə 1921-ci il 4 iyulda kollegiallıq və seçki prinsipləri ilə idarəetməyə (muxtariyyət) əsaslanan Şərqşünaslıq və Sosial Elmlər İnstitutunun yaranması haqqında qərar qəbul edildi. 1922-ci il fevral ayının 10-da bu institutda Azərbaycan Dövlət Universitetinin professoru L.Lopatinin rəhbərliyi ilə Arxeoloji Cəmiyyət yaradılır. Lakin tarixçi, şərqşünas və s. kadr və mütəxəssisləri olmadığına və maddi vəsaitin çatışmamasına görə institutun işini keyfiyyətli təşkil etmək mümkün olmadı.

Azərbaycan tarixini sənədli mənbələr əsasında öyrənmək

məqsədi ilə 1921-ci ilin yanvar ayından Zaqafqaziyada (Cənubi Qafqaz) ilk arxiv müəssisəsi sayılan Azərbaycan Dövlət Arxivi fəaliyyət göstərməyə başladı. 1920-ci il dekabr ayının 6-da Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanov Vahid Dövlət Arxiv Fondunun təşkil edilməsi və Xalq Maarif Komissarlığı nəzdində Mərkəzi Dövlət arxivinin yaradılması haqqında dekret imzaladı. Dekretdə göstərilirdi ki, «Keçmiş və indiki hökumət müəssisələrinin və ictimai təşkilatların bütün arxivləri Vahid Dövlət Arxiv Fondunu təşkil edir». 26 aprel 1920-ci il tarixə qədər dövlət müəssisələrində olan işlər və yazışmalar Mərkəzi Dövlət Arxivinin sərəncamına verilir. Arxiv yaranarkən 24 arxiv fondu qeydə alındı. Onlardan 7-si Əmək Muzeyinin tarix-inqilab bölməsinə verilmişdi [182, 124; 38].

Özünün əsasnaməsinə görə arxiv həmçinin elmi-tədqiqat işləri ilə də məşğul olurdu. Dövlət Arxivi bütün müəssisələrdə olan arxiv materiallarını tədqiq etmişdir. 70 müəssisə tədqiq edilmiş və ən dəyərli arxiv materiallarına malik olan Bakı gömrükxanası, Bakı Qubernator İdarəsi, Gəncə məhkəməsi, bank arxivləri və məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin fabrik arxivləri siyahıya alınmışdı. Azərbaycan Dövlət Arxivi öz fondunu nizama salmaqla yanaşı, Azərbaycanın təbii istehsal qüvvələrini öyrənmək işində də təsərrüfat orqanlarına elmi yardımlar etmişdir. Mərkəzi Dövlət Arxivi yaranarkən maddi vəsaitin çatmaması səbəbindən respublikadakı arxivlərin toplanması işi zəif getmişdir. Hətta, ölkədəki kağız qıtlığını aradan qaldırmaq üçün çox vaxt sənədlər kəsilib kağız kimi istifadə edilirdi.

1921-ci ilin mart ayında qəzetlərdə dövlət arxivinin icazəsi olmadan kağızların məhv edilməsinin qadağan olunması haqqında elanlar dərc edildi. 1923-cü ildən arxiv öz fəaliyyətində dönüş yaratmış, Moskva Mərkəzi Arxivi ilə əlaqələr yaradaraq Azərbaycan arxivinin işində tətbiq etmək üçün dekretlər, əsasnamə və təlimatlar əldə etdilər. Arxivin elmi işçiləri arxiv işinin

elmi şəkildə təşkilini öyrənmək üçün Moskvaya ezam olunmaq istəsələr də, onların bu istəkləri maddi vəsaitin çatmadığına görə həyata keçmədi. Dövlət Arxivi xronoloji əhatəsinə görə 5 bölmədə fəaliyyət göstərirdi;

1. Qədim dövr, xanlıqlar və rus hökmranlığı dövrünün materialları;
2. Rus hökmdarlarının çarizmin devrilməsinə qədərki fəaliyyətini əks etdirən dövrün materialları;
3. Zaqafqaziya Komitəsi və Zaqafqaziya Seymini əhatə edən dövrün materialları;
4. 1918-1920-ci il (28 aprelə qədər) Müsavat fondunun materialları. Bu fond müxtəlif səbəblər üzündən bərbad vəziyyətə salınmışdır.
5. Sovet dövrünü, Bakı Kommunası dövrünü əhatə edən materiallar fondu.

Dövlət arxivində yığılan fondlar elmi şəkildə işlənib mühafizə edilməyə başlandı. 1927-ci ildə arxivin qədim tarix və inqilabi tarix bölmələrində 45.000 iş var idi ki, bunlardan da 20.000 nüsxəsi artıq sistemləşdirilmişdi. 12.000 iş kartoçkada təsvir olunmuş, 10.000 iş tikilmiş, 25 fondun isə göstəricisi hazır idi. Dövlət arxivi siyasi xarakterli 400 neqativi də uçota almışdı. Tiflisdən 2.000 iş Bakıya gətirilmişdi. Azərbaycan Dövlət Arxivi bu illər ərzində aşağıdakı materialları nəşr etmişdir:

1.ASSR arxiv işləri üzrə qərarlar, təlimat və qaydalar;
2.1907-ci il 5 may fəal bolşeviklərin həbsi;
3.Azərbaycan bəyləri və onların təhkimli kəndliləri;
4.Difai partiyasının qısa xülasəsi;
5.Bir hadisənin 100 ili;
6.Müctəhid – mülkədar.

Dövlət arxivinin 10.000 nüsxədən ibarət fondu olan kitabxanası var idi.

1923-cü ildə Azərbaycan SSR-ın elmi bir tərzdə öyrənilməsi işində böyük addımlar atıldığı görünür. Sonralar «Qədim Sənət

və Təbiət Abidələrini Mühafizə edən Komitəyə» çevrilmiş Azərbaycan Arxeoloji Cəmiyyəti 1923-cü ildə təşkil edilmişdir [116, 39]. Komitə tərəfindən Şərq dillərində bir çox etnoqrafik materiallar toplanmışdır.

1920-ci ilin sentyabrında Leninin imzası ilə XMK nəzdində Azistpartın təsis olunması haqqında XKS qərarından sonra 1921-ci ilin sonunda Azərbaycanda ictimai hərəkatlar, fəhlə hərəkatı, Azərbaycan Kommunist Partiyası tarixinə aid materialların yığılması, işlənməsi məqsədi ilə Azispartın yaradılması haqqında AK(b)P MK Siyasi Bürosu və Təşkilat Bürosu qərar qəbul etdi. 1928-ci ilin sentyabrında AK(b)P MK qərarı ilə Azispartın bazası əsasında Azərbaycan KP MK yanında Partiya tarixinin elmi tədqiqat işləri ilə məşğul olan Partiya Tarixi İnstitutu yaradıldı [66,157].

Yuxarıda göstərilən elmi müəssisə və cəmiyyətlərdən başqa Azərbaycanda o dövrdə bir çox cəmiyyət və komitələr də fəaliyyət göstərmişlər. Şaumyan adına Sinfi Mübarizə İnstitutu, sonradan Tarix İnstitutu, Tibb və Kənd Təsərrüfatı İnstitutlarını misal göstərmək olar. Sinfi Mübarizə İnstitutunda beynəlmiləlçi gənclər Azərbaycanın yeni tarixi ilə məşğul olur, prof. Ratqauzerin rəhbərliyi ilə Azərbaycanda və Zaqafqaziyada inqilabi hərəkatlar tarixinə dair arxiv materialları nəşr edirdilər.

1922-ci ilin fevral ayında Azərbaycan «Arxeologiya Həvəskarları Cəmiyyəti», 1923-cü il iyun ayında Azərbaycan Arxeologiya Komitəsi təşkil olundu [71 233]. 1927-ci ildə komitə Tarix, İncəsənət və Qədim Mədəniyyət Abidələrinin Qorunması Komitəsinə çevrildi. Komitənin ekspedisiyalarının nəticəsi kimi Xocalı-Gədəbəy, Yaloylutəpə, Qızılvəng kimi arxeoloji mədəniyyət abidələrinin tapılması arxeologiya elminə yeniliklər gətirmiş oldu.

Azərbaycanda elmi fəaliyyətlə məşğul olan müəssisələr sırasında Azərbaycan Mərkəzi Dövlət Kitabxanası ilə Kitab Palatasının işlərini də xüsusi qeyd etmək lazımdır. Bu haqda 2-ci

yarımfəsildə ətraflı bəhs ediləcəkdir.

Azərbaycanda elmin bu və ya digər sahələri ilə məşğul olan qüvvələr bəhs edilən elm ocaqlarının ətrafında toplaşırdılar. Həmin dövrdə Azərbaycanın gələcək elmi müəssisələrinin ilk rüşeymləri yaranırdı. Yaranan ilk elmi mərkəzlərdə müəyyən elmi-tədqiqat işləri aparılmış, alınan elmi nəticələr nəşr edilmişdi. Qeyd etmək lazımdır ki, tədqiq olunan dövrdə elmi-tədqiqat ocaqlarında aparılan elmi işlər bəzən bir-birini təkrar edir, mübahisələrə səbəb olur, alınan nəticələr praktik həllini tapa bilmirdi. Bəzi elmi mərkəzlər pərakəndə halda fəaliyyət göstərirdi. Bu səbəbdən də Azərbaycan SSR-də vahid elmi mərkəzin yaranmasına ehtiyac duyulurdu.

## 1.2. İlk elmi-sahə kitabxanalarının yaranması və fəaliyyətləri

Azərbaycanın elmi fikir tarixinin nəticələri hələ qədimdən ölkənin müxtəlif kitab saxlayıcılarında toplanaraq əsrlərdən yadigar qala bilmişdir. Qədim Atropatenada və Albaniyada yazının meydana gəlməsi, qiymətli əsərlərin yazılmasına təşəbbüs göstərilməsi, müxtəlif xarakterli tədris ocaqlarının açılması, kitabların çoxalması belə kitabsaxlayıcıların meydana gəlməsinə səbəb olmuşdur.

IX-XVII əsrdə Azərbaycanın Bakı, Gəncə, Beyləqan, Bərdə, Naxçıvan, Təbriz, Urmiya, Ərdəbil, Marağa, Şamaxı kimi şəhərlərində mədrəsə və məscid kitabxanalarının mövcud olması haqqında məlumatlar vardır [121,42]. Ərdəbildə Şeyx Səfi məqbərəsi nəzdindəki kitabxana Şamaxıya, sonralar isə Biyqurd qalasına köçürülüb. 1538-ci ildə Şah Təhmasibin qoşunlarının ixtiyarına keçmiş kitabxanada qiymətli əsərlər toplandığı tarixdən

məlumdur.

XIII əsrdə Nəsrəddin Tusinin Marağa rəsədxanasının kitabxanasında Azərbaycan alimlərinin yazmış olduğu və Bağdad, Xorasan, Şam, Əlcəzair, Mosuldan və s. ölkələrdən gətirilmiş 400 min nüsxə kitab saxlanılırdı. Kitabxana elmi xarakter daşıyırdı. Çünki, kitabxananın fondunda rəsədxanada çalışan alimlərin sorğularını ödəyə biləcək əsərlər, xüsusilə də, təbiət elmlərinə dair sanballı elmi materiallar saxlanılırdı. Buna görə də həmin kitabxananı tarixi məlum olan ilk elmi kitabxana adlandırmaq olar.

Görkəmli alim Rəşidəddin Fəzlullahın səyi ilə XIII-XIV əsrlərdə Təbriz yaxınlığında yaranmış elmi kitabxanada İrandan, Misir, Roma, Hindistan və b. ölkələrdən gətirilmiş 60.500 nüsxə əlyazması vardı [124, 54-55].

Cəsarətli və müdrik dövlət xadimi Səfəvilər dövlətinin yaradıcısı alim, şair və maarifçi Şah İsmayıl Xətai qədim Ağqoyunlu sarayının bütün mədəni irsinə sahib çıxmışdı. Şah İsmayıl Təbrizdəki sarayında və Ərdəbildə Şeyx Səfi məqbərəsində kitabxana təşkil etmişdir. Kitabxananın fondunda Şərqin məşhur alim və şairlərinin əsərləri toplanmışdı ki, bu da kitabxananın elmi xarakterdə olduğunu sübut edir. Şeyx Səfi məqbərəsi kitabxanasının nadir kitabları hökmdarlara edilən hədiyyələrin hesabına daha da zənginləşirdi. Kitabxana 300 il ərzində fəaliyyət göstərmişdi. 1828-ci ildə Rusiya-İran müharibəsi nəticəsində Ərdəbilə daxil olan rus qoşunları tərəfindən həmin kitabxananın nadir inciləri qənimət kimi Tiflisə, oradan da Peterburq İmperator Kitabxanasına aparılmışdır.

XIX əsrin sonu– XX əsrin əvvəllərində kitabxanalar əsasən Bakıda, neft sənayesində yaranırdı.

1920-ci il 28 apreldə Azərbaycan Xalq Cümhuriyyəti Rusiyanın hərbi təcavüzü nəticəsində devrildi və fəhlə-kəndli diktaturası üzərində qurulmuş, 70 ildən artıq bir dövrdə hökmranlıq edən kommunist rejimi hakimiyyətə gəldi. İlk dövrdən Kom-

munist Partiyası anladı ki, hakimiyyəti əldə saxlamağın, möhkəmləndirməyin yeganə vasitəsi öz ideologiyasının təbliği ola bilər. Təbliğat hər sahədə – siyasətdə, iqtisadiyyatda, elmdə, mədəni-maarif sahəsində həyata keçirilməli idi. Ona görə də mədəniyyətin, təhsilin, elmin bu dövrün tələblərinə uyğun qurulması yeni qurulan Sovet cəmiyyəti üçün xüsusi əhəmiyyət kəsb edirdi. Yəni, əhalinin ictimai şüuru bir partiyanın hakim olduğu sosializm cəmiyyətinin qurulmasına uyğun formalaşdırılmalı və onun ideologiyasına xidmət etməyə doğru yönəldilməli idi. İnqilabın mədəni sahədə əsas vəzifəsi ideoloji təbliğatın ən geniş şəbəkəsi ola biləcək mütəşəkkil kitabxana şəbəkəsi yaratmaq idi.

Azərbaycan K(b)P elm, təhsil müəssisələri ilə yanaşı, mədəni-maarif müəssisələrinin, xüsusilə geniş kitabxana şəbəkələrinin yaranmasına diqqət verirdi. Azərbaycan K(b)P II qurultayı (1920 oktyabr) qeyd edirdi ki, mədəni-maarif müəssisələri kommunist ideologiyasının təbliğində xüsusi əhəmiyyətə malikdir. Qurultay Azərbaycanda klub, kitabxana və qiraət komalarının geniş şəbəkəsinin yaradılmasını və vahid mərkəzdə birləşdirilməsini qərarlaşdırdı [69, 26] Mədəni-maarif müəssisələri və kitabxanaların işinin təşkili ilə yanaşı, onlara nəzarəti həyata keçirmək üçün Xalq Maarif Komissarlığı nəzdində «Məktəbdənkənar işlər» şöbəsi yaradılır [101, 18]. Sonralar 1921-ci il 5 yanvarda Azərbaycan XKS MİK-nin verdiyi dekretə əsasən bu şöbə Baş Siyasi Maarif İdarəsi adı altında yenidən formalaşdı.

1920-ci ilə qədər Bakıda cəmi 5 kitabxana var idi [71, 214]. 1920-ci ilin aprel işğalı ərəfəsində isə Azərbaycan Xalq Cümhuriyyətində 95 000 nüsxə kitab fonduna malik olan 11 kitabxana mövcud idi [4, 177]. XMK yanında «Məktəbdənkənar işlər şöbəsi» və kitabxana yarımşöbələri kimi icra strukturlarının yaranması Azərbaycanda kitabxana şəbəkəsinin sürətlə artmasına əsas verdi. Tezliklə, kitabxana yarımbölmələri ictimai və xüsusi kitab fondlarının qeydiyyatı ilə məşğul olmağa başladı. Eyni zamanda Xalq Maarif Komissarlığı nəzdində Bakı şəhəri üzrə

kitabxana şəbəkəsini ədəbiyyat və təlimat sənədləri ilə təchiz etmək üçün 1920-ci ildə Mərkəzi Kitabxana Kollektoru yaranır. Kollektorun 6 təlimatçı çalışırdı. Bu kitabxana şəbəkəsi kortəbii şəkildə artaraq 1920-ci ildə 60 nöqtəni əhatə etdi. Onların 350.000 nüsxə fondu var idi. Sonrakı illər bu şəbəkələrin keyfiyyət və inkişafına fikir verilməyə başlandı. Kollektor SSRİ Dövlət Kitab Palatası ilə və yerli nəşriyyatlarla əlaqə saxlayır, müntəzəm olaraq yeni kitablar alıb kitabxana fondlarını komplektləşdirirdi. 1920-ci ildə kollektora 75.370 kitab daxil olmuş, 43.642 kitab isə Bakı şəhərində fəaliyyət göstərən kitabxanalara verilmişdi [182, 75].

1923-cü ildə Bakı şəhərində 17 kitabxana, 2 oxu zalı və 1 kitabxana kollektoru, rayonlarda isə 26 kitabxana fəaliyyət göstərirdi. Şəhər kitabxanalarında 201.208 nüsxə ədəbiyyat vardı ki, bunların da cəmi 17.062 nüsxəsi türk dilində idi. Rayon kitabxanalarının fondunda isə 120.269 nüsxə ədəbiyyat toplanmışdı. Bütövlükdə oxuculara 1.045.268 nüsxə kitab verilmişdi.

1924-cü ildə şəhər kitabxanalarında 229.300 nüsxə ədəbiyyat olmuşdur ki, bunlardan da 22.560 nüsxəsi türk dilində idi. Rayon kitabxanalarında isə 147.870 nüsxə ədəbiyyat vardı. Ədəbiyyat verilişi 1.100.961 nüsxə olmuşdur. 1923-cü illə müqayisədə kitab verilişi 55.693 nüsxə artmışdı ki, bundan da 5.498 nüsxəsi türk dilində idi. Ümumilikdə götürüldükdə, 1924-cü ildə Azərbaycanda artıq 73 kitabxana vardı. Onların fondunda 464.389 cild kitab toplanmışdı. Bu ədəbiyyatın cəmi 38.000 nüsxəsi türk dilində idi. Artım nəzərə çarpsa da, türk dilli oxucuların tələbatını ödəmirdi. Həmin ildə kitabxanalara nəşriyyatlardan 775.530 nüsxə kitab göndərilmişdi. Onlardan cəmi 16.510 nüsxəsi türk dilində idi. Kitabxana oxucularının sayı isə 54.307 nəfər olmuşdur ki, bunlarında 50.307 nəfəri Bakı və Bakı ətrafı rayonların payına düşürdü. Bakı paytaxt şəhəri olduğundan elmi kitabxanalar əsasən Bakı şəhərində yerləşirdi [61, v.46-50]. 20-ci illərin əvvəllərində respublikada kütləvi ki-

tabxanalarla yanaşı elmi, texniki və digər sahə kitabxanalarının şəbəkələri də formalaşmağa başladı. İlk iri elmi-sahə kitabxanalarının yaranması da, bu dövrə təsadüf edir və bu iş Azərbaycan üçün tamamilə bir yenilik idi.

İri elmi kitabxanalardan biri professor Dubrovskidən alınan kitabların əsasında 1919-cu ildən yaranmış Azərbaycan Dövlət Darülfununun elmi kitabxanası idi. Universitet yaranması ideyası ilə onun kitabxanasının yaranması fikri üst-üstə düşürdü. Çünki, elmi baza olmadan elmin inkişafı, elmi kadrların hazırlığı mümkün deyildi. Hələ 2 iyun 1919-cu ildə universitetin təşkili ilə əlaqədar yaranan komissiya Mixaylovsk xəstəxanası kitabxanasının və Neft sənayeçiləri qurultayı şurasında isə Sabunçu xəstəxanası kitabxanalarının universitetə verilməsi ilə bağlı Bakı şəhər İdarəsinə müraciət edir. Sabunçu xəstəxanası müraciəti müsbət həll etmədi. Lakin sonralar – 1922-ci ildə Sabunçu xəstəxanası kitabxanası da universitetə verildi [88]. Universitet kitabxanası üçün eyni zamanda 120 min rubl (o vaxtkı valyuta ilə) həcmində kitab alınmışdı [175, 50].

Kitabxananın təşkili üçün yaradılmış komissiya fondu elmi ədəbiyyatla təmin etmək üçün «Azərbaycan» qəzeti vasitəsilə xüsusi şəxslərə, idarə və müəssisələrə müraciət etdi. Müraciətdə yerli əhaliyə bütün dillərdə tarixə, tibbə dair elmi kitabların kitabxanaya satılması və ya bağışlanması təklif edilirdi.

1920-ci ilin yayında Tibb fakültəsinin ehtiyacını və fondun tərkibində olan tibb elmlərinə aid kitabları nəzərə alaraq kitabxanada ilkin fondu 212 kitabdan ibarət olan tibb şöbəsi təşkil edilir.

Universitetin şərq fakültəsinin dekanı prof. P.K.Juzenin təşəbbüsü ilə kitabxananın şərq şöbəsi yaradılır.

Bu məqsədlə XKS 1922-ci ildə 7.000 rubl qızıl pul ayırdı ki, bu vəsaitlə də Konstantinopoldan (İstambul) 1924-cü ildə 2.000 kitab alındı. Beləliklə, 1924-cü ilin mayından Universitetin elmi kitabxanasının şərq şöbəsi də fəaliyyətə başladı və tez-

liklə onun fondunda şərq, Avropa dillərində 10.000 nüsxədən çox ədəbiyyat toplandı [146, 67].

Universitet kitabxanasına kitab alınmasında 10 il Kiyevdə yaşamış doktor Mirtağıyevin xüsusi xidmətləri olmuşdur. O, Tiflisdən Obraztsovun 1200-1300 nüsxədən ibarət kitabxanasının Universitetə verilməsində köməklik göstərmişdir. Professor M.V.Dovnar-Zapolski Xalq Maarif Komissarlığından onun 15 min clddən ibarət kitabxanasının da Bakıya gətirilməsində yardımçı olmağı xahiş etdi.

Universitet kitabxanası öz fondunu universitetin elmi fəaliyyəti ilə əlaqəli şəkildə komplektləşdirirdi. 1920-ci ildə kitabxananın fondunda 4.660 nüsxə ədəbiyyat var idi. 1920-1922-ci illərdə kitabxana müxtəlif müəssisə və idarələrin, ayrı-ayrı şəxslərin kitabxanalarını, Kitab Palatasının nəşrlərini almış, eyni zamanda SSRİ-nin 172, xarici ölkələrin 67 elmi müəssisəsi ilə elmi ədəbiyyatın mübadiləsini həyata keçirmiş, bunun hesabına da öz fondunu gün-gündən genişləndirdi. Prof. B.Finkelşteyn, prof. O.Bayraşevski və s. kimi alimlər öz kitablarını universitet kitabxanasına verməklə elmin inkişafına xidmət etmişlər. Bunlardan əlavə professorlar L.Lopatin, A.Okinşeviç, N.Popoviç, A.Levin kimi alimlərin vəfatından sonra ailələri onların şəxsi kitabxanalarını da kitabxanaya hədiyyə vermişlər. Nəhayət, 1922-ci ildə kitabxananın fondu 1920-ci ildəkindən 3 dəfə artaraq 8.923 adda 14.434 cildə çatmışdır.

1922-ci ildə Universitet Şurası kitabxananın fakültələrinin elmi ədəbiyyata olan tələbatının ödənilməsi üçün F.N.İlini və P.Y.Rostovtsevi Leninqrad şəhərinə ezam edir. Onlar Leninqrad (Yekaterinburq) Elmlər Akademiyasının bütün nəşrləri ilə bərabər, pulsuz olaraq 200 pud miqdarında elmi ədəbiyyat alıb Bakıya gətirdilər. Bu ədəbiyyatın hesabına artıq 1924-cü ildə kitabxananın fondu 24.413 cildə çatdı.

1928-1929-cu illərdə Bakı Fransız Cəmiyyətinin 1000 nüsxədən ibarət kitab fondu ADU elmi kitabxanasına daxil olur.

Bundan əlavə Maarif İşçiləri Evinin kitabxanasından rus dilində 2000 cildlik jurnal komplekti kitabxanaya verilir. Eyni zamanda kitabxananın müraciətinə əsasən RSFSR-nın müxtəlif elmi müəssisə, nəşriyyat və kitabxanalarından da daxil olan 10 min cildlərlə ədəbiyyat universitet kitabxanasının fondunu təkmilləşdirir. Universitet elmi kitabxanasının fondunun formalaşması və onun inkişaf dinamikası aşağıdakı cədvəldə daha aydın təsvir edilmişdir:

***Cədvəl 1.1***

Kitabxana fondunun inkişaf dinamikası
(1924-1929-cu illər)

| Tədris ili | Alınan nəşrlərin sayı |
|---|---|
| 1924-25 | 7.453 |
| 1925-26 | 6.677 |
| 1926-27 | 7.548 |
| 1927-28 | 8.018 |
| 1928-29 | 17.900 |

Kitabxana üçün xarici ölkələrin elmi müəssisələrinin dövrü mətbuatının alınması Azərbaycanda elmin inkişafına, respublika üçün elmi kadrların hazırlanmasına yardım etmişdir. 1926-cı ildə Universitet kitabxanası sistemli şəkildə xarici elmi jurnalların abunə yolu ilə əldə edilməsini təşkil etdi. Əgər kitabxana 1926-cı ildə 48 adda xarici jurnal alırdısa, 1930-cu ildə artıq kitabxana 223 adda xarici jurnala abunə yazılmışdı. Xarici dövrü mətbuatın alınmasının inkişafı aşağıdakı cədvəldə verilmişdir:

***Cədvəl 1.2***

Xarici dillərdə dövri mətbuat alınmasının inkşafı
(1926-1930-cu illər)

| **İllər** | **Sayı** |
|---|---|
| 1926 | 48 |
| 1927 | 100 |
| 1928 | 135 |
| 1929 | 176 |
| 1930 | 223 |

Cəmi bir neçə ştatla işə başlayan kitabxana öz işini müəyyən çətinliklərlə qururdu. Kitabların mühafizəsi üçün ayrılmış yer darısqal və fond üçün yararlı olmadığından kitabların kitabxana qaydası ilə düzülüşündə problemlər yaranırdı, professorlara elmi tədqiqatlarla məşğul olmaq üçün xüsusi zallarda xidmət göstərilmirdi. Belə bir şəraitdə işləyən kitabxananın kitab verilişinin statistikası və biblioqrafik xidmətin göstəriciləri aşağı səviyyədə idi. Universitetin elmi kadrlarından başqa kitabxanadan gündəlik 100-150 oxucu istifadə edirdi. Azərbaycan Dövlət Universitetinin bütün fakültələrinin nümayəndələrindən ibarət formalaşan Kitabxana Komitəsi Universitet kitabxanası üçün rəhbər orqan idi. Komitə kitabxananın universitetin elmi tədris proqramına uyğun fəaliyyət göstərməsinə və fondunun formalaşmasına nəzarət edirdi.

Kitabxanada kitabxana işi ilə yanaşı olaraq biblioqrafiya işi də, inkişaf edirdi. 1927-ci ildən universitetdə ədəbi-biblioqrafik dərnək fəaliyyət göstərirdi. Dərnəyin rəhbəri prof. A.V.Baqri olmuşdur. Bu dərnək universitet ictimaiyyəti arasında biblioqrafik biliklərin yayılması ilə də məşğul olmuşdur.

1929-cu ildə ADU elmi kitabxanasında 100.000 nüsxə ədə-

biyyat vardı [117]. RSFSR və dünyanın bir çox ölkələrindən alınan zəngin elmi fonda malik olan kitabxana nəinki universitet mühitində, eləcə də ümumilikdə Azərbaycanda elmin inkişafına kömək etmiş və 20-ci illərdə Azərbaycanda ali təhsil müəssisəsinin ilk elmi kitabxanası kimi xüsusi əhəmiyyət kəsb etmişdir.

20-ci illərdə Azərbaycanda fəaliyyət göstərən kitabxanalar içərisində 1920-ci ilin dekabrında Bakı Texniki Məktəbinin ali məktəbə çevrilməsi haqqında N.Nərimanovun imzaladığı dekretdən sonra yaranan Azərbaycan Politexnik İnstitutunun kitabxanasının mühüm əhəmiyyəti olmuşdur. 1921-ci ildə yaranan Azərneft Mərkəzi elmi-texniki kitabxanasının, 1923-cü ildən fəaliyyət göstərən Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin kitabxanasının, 1923-cü ildə yaranmış Dövlət Ümumi Kitabxanasının, Azərbaycan Dövlət Muzeyinin kitabxanasının, 1925-ci ildən yaranan Dövlət Kitab Palatasının və s. ilk elmi kitabxana və biblioqrafiya mərkəzləri kimi Azərbaycanda elmin maddi bazasının yaranmasında və inkişafında müstəsna rolu olmuşdur.

Azərbaycan Politexnik İnstitutunun elmi kitabxanası öz fondunu institutun profilinə uyğunlaşdıraraq texniki elmlərə və neftə aid ədəbiyyatla komplektləşdirir və bununla da Azərbaycanda milli texniki kadrlar yetişdirməklə yanaşı neftin fundamental tədqiqat işlərinin inkişafında da baza kimi böyük əhəmiyyətə malik olmuşdur.

Azərbaycanda xalq təsərrüfatının bərpası illərində kənd təsərrüfatının inkişaf etdirilməsinə, aqrar islahatların aparılmasına xüsusi diqqət yetirilirdi. Çünki, yeni təsərrüfat (sosialist) sisteminə keçilməsi məsələyə elmi yanaşma tələb edirdi. Ona görə də kənd təsərrüfatına dair Kommunist Partiyasının və hökumətin qərar və göstərişlərinin yerlərə vaxtında çatdırılması, elmi ədəbiyyatın əldə edilməsi, mühafizəsi və təbliğatı kənd təsərrüfatı üzrə kitabxanaların yaradılmasını zəruri edirdi.

1921-ci il yanvar ayının 31-də Xalq Torpaq Komissarlığının kollegiya iclasında müxtəlif kənd təsərrüfatı idarələrində olan

kənd təsərrüfatının müxtəlif sahələrinə dair elmi ədəbiyyatın kənd təsərrüfatı şöbəsinə verilməsi haqqında qərar qəbul edilir və kitab fondunun mühafizəsi təşkil edilir.

12 aprel 1923-cü ildə Azərbaycan XKS Azərbaycan SSR Xalq Torpaq Komissarlığına kənd təsərrüfatına aid ədəbiyyatı olan bütün kənd təsərrüfatı idarələrinin kitab fondunu birləşdirmək və vahid kitabxana yaratmağı təklif etdi. Beləliklə, Azərbaycan SSR Torpaq Komissarlığının 48 saylı əmrinə əsasən 20 iyun 1923-cü ildə Mərkəzi Kənd Təsərrüfatı Kitabxanası təsis edilmişdi [83, 25]. Mərkəzi Kənd Təsərrüfatı Kitabxanası öz işini sosialist təsərrüfat sisteminin tələbatına uyğun olan kənd təsərrüfatı elmlərinin müxtəlif sahələrinə aid ədəbiyyatla komplektləşdirmişdi. Kollektivləşmə dövründə kitabxana öz fəaliyyətini bu sahəyə dair KP direktiv sənədlərinin, Leninin kollektivləşməyə dair əsərlərinin təbliği üzərində qurmuşdu. Mərkəzi Kənd Təsərrüfatı kitabxanası ədəbiyyatla yanaşı, kənd kitabxanalarına dair metodiki göstərişlər də hazırlayıb göndərirdi.

Kitabxana işinin tarixi ilə məşğul olarkən onların fəaliyyətini həmin dövrün tarixi kontekstində araşdırmaq lazımdır. Bu nöqteyi-nəzərdən qeyd etmək lazımdır ki, Azərbaycanda 20-ci illərdə neft sənayesinin inkişafı bu sahəyə xidmət edən elmi-texniki kitabxanaların yaranması ilə əlaqəli şəkildə baş vermişdir.

Azərbaycan İnqilab Komitəsinin 1920-ci ilin 24 may dekreti ilə Azərbaycanın əsas təsərrüfat sahəsi sayılan neft təsərrüfatı milliləşdirildi [163]. 1921-ci ildə Rusiyada yanacaq böhranı ilə əlaqədar olaraq V.İ.Lenin Bakıya diqqət və qayğını artırmağı tapşırırdı. AK(b)P 1921-ci ilin fevralında Bakı fəhlələrindən «Kommunist istehsalı üçün neft verməyi» xahiş edirdi.

Tərkibindəki antidetonasiya xüsusiyyətinə görə Bakı neftinə tələbat daha çox idi. AK(b)P-nin çağırışı ilə Bakıda neft hasilatını artırmaq uğrunda gərgin mübarizə başlandı. 1921-ci il iyun ayının 15-də Əmək və Müdafiə Şurasına Bakı neft ida-

rəsinin tələbatını birinci növbədə yerinə yetirmək tapşırığı verildi. Neft sənayesinin ehtiyaclarını ödəmək üçün 500 min manat əlavə qızıl pul vəsaiti buraxıldı.

Bu dövrdə neft sahəsinə Azərbaycan Neft Komitəsi – Azərneft rəhbərlik edirdi. 1921-ci ildən Azərbaycan Neft Komitəsi müstəqil təsərrüfat hesablı Azərneft trestinə çevrildi. Hətta, «Azərneftə» neftin xaricdə avadanlıqla mübadilə edilməsi üçün də sərbəstlik verilmişdi. Bütün bunlar neft hasilatının artmasına xidmət edirdi. Bakıda neft istehsalının artmasındakı xidmətlərinə görə Bakı fəhlələri Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olundular. «Azərneft» birliyi o dövrdə nəinki SSRİ miqyasında, eləcə də dünya miqyasında iri neft müəssisəsi kimi tanınırdı. Neft sənayesinin milliləşdirilməsindən keçən 5 illiyin sonunda, bəzi neft sənaye müəssisələri müharibədən əvvəlki səviyyəni də ötüb keçdi. Bu inkişafın göstəriciləri kimi aşağıdakı cədvələ nəzər salaq:

***Cədvəl 1.3***

Neft və qaz hasilatının göstəriciləri
(1920-1925-ci illər)

| **İllər** | **Neft və qaz çıxarılması (milyon pudla)** | |
|---|---|---|
| | **Pud** | **%** |
| 1920/21 | 151,7 | 100 |
| 1921/22 | 181,2 | 119,4 |
| 1922/23 | 214,2 | 141,2 |
| 1923/24 | 253,4 | 167,0 |
| 1924/25 | 289,8 | 191,0 |

1925-ci ildə qazma işləri 35 dəfə artmış, 190,3 milyon pud neft, 50,7 mln. pud mazut və s. emal edilmişdi [159, 141].

Neft sənayesinin inkişafı neft sahəsində çalışan fəhlə və mü-

həndislərin neftə və texniki elmlərə dair ədəbiyyata tələbatı artırdı.

Doğrudur, əsrin əvvəllərində bəzi neft mədənlərində və zavodlarda kitabxanalar mövcud olmuşdur. Lakin, bu kitabxanalar texniki kitabxanaların funksiyalarını yerinə yetirə bilmirdi. Onların fondunda texniki ədəbiyyata az təsadüf edilirdi. Belə kitabxanalar tabe olduğu müəssisələr tərəfindən deyil, çox vaxt o dövrün ziyalılarının təşəbbüsü ilə yaradılırdı.

1900-cü ildə Bakıda neftçilər üçün 2 pulsuz oxu zalı var idi. Birini «Benkendorf» kompaniyası Balaxanıda təşkil etmişdi. Digəri isə Bakının Qara şəhərində idi.

Bu kitabxanalar o vaxtlar fəaliyyət göstərən «Rusiya Texniki Cəmiyyəti»nin Bakı bölməsinin fəal iştirakı ilə yaradılmışdı.

1921-ci ildə Azərbaycan Neft Komitəsi neft təsərrüfatında rekonstruksiya işlərinə başlayır. Neft təsərrüfatının rekonstruksiyası ilə yanaşı olaraq elmdə, mədəniyyətdə yeni, əhəmiyyətli dəyişikliklər başlandı. Xüsusilə, savadsızlığın ləğvi uğrunda mübarizə yeni əlifbanın qəbul edilməsi məsələsi geniş vüsət aldı. Xalq Komissarları Sovetində Savadsızlığın ləğvi üzrə yaradılmış komitə müəssisə və idarələrdə işlər görməyə başladı. Neftçilər arasında savadsızlığın ləğvi işi Xalq Maarif Komissarlığının «Məktəbdənkənar işlər» şöbəsinin «Azərneft» komitəsinin rəhbərliyi ilə aparılırdı. Bu rəsmi orqanlar neft sənayesində çalışan fəhlə və qulluqçulara savadsızlığın ləğvi istiqamətində həyata keçirilən tədbirlərdə – dərnəklər və kursların təşkilində, dərs və yazı ləvazimatlarının əldə edilməsində, kitabxanalar və oxu zalları ilə əlaqələrin və öz kitabxanalarının yaradılmasında təşkilati metodik köməklik göstərirdilər.

1920-ci ilin 31 oktyabrda Azərbaycan İnqilab Komitəsi «Bütün kitabxanaların Azərbaycan XMK verilməsi haqqında» dekreti ilə Azərbaycanda bütün kitabxana işinə bu komissarlıq rəhbərlik etməyə başladı. Bu dekretə əsasən Abşeronun neft ra-

yonlarında Xalq Maarif şöbələri kitabxana şəbəkələrinin yaranması ilə məşğul olmağa başladı.

Respublika hökumətinin 15 mart 1922-ci il qərarı ilə neft sənayesində çalışan fəhlələrin maariflənməsinə xidmət edən mədəni-maarif müəssisələri Bakı Xalq Maarifi şöbəsinin tabeçiliyindən «Azərneft» komitəsinin xalq maarifi bölməsinə verildi [191, 38-39].

Bu sahələrlə işin əlaqəli qurulması üçün Azərneftin 7 yerli bölmələri təşkil edildi.

«Azərneft" komitəsinin Xalq Maarifi bölməsi 1 il 2 ay fəaliyyət göstərdiyinə baxmayaraq, neft kitabxanalarının inkişafında böyük irəliləyişə nail olmuşdu. Əgər 1920-ci ildə respublikada 7 neft kitabxanası var idisə, 1923-cü ilin mayında artıq 19.709 oxucusu və 119.807 nüsxə fondu olan 24 kitabxana var idi [147, 21].

1923-cü ilin mart ayında «Azərneft» komitəsi nəzdində fəaliyyət göstərən kitabxanalar yenidən Bakı Xalq Maarif şöbəsinin tabeçiliyinə verildi. Burada artıq ideya-siyasi rəhbərlik məsələsi qoyulmuşdu. Buna görə də başqa kitabxanalarla yanaşı neft sənayesində fəaliyyət göstərən kitabxanalara da siyasi rəhbərlik Bakı siyasi-maarif idarəsinə həvalə edilmişdi. Lakin yenidən partiya tərəfindən neft kitabxanalarının «Azərneftin» tabeçiliyindən BXMŞ-nə verilməsi, xüsusilə maliyyələşdirmə baxımından məqsədəuyğun sayılmadığından «Dağ mədən» İttifaqına verilir. Bu qərar kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsində və inkişafında öz təsirini göstərdi.

Respublikada texniki kitabxana şəbəkəsinin inkişafı Azərneftin neft sənayesinin modernləşdirilməsi proqramının bir tərkib hissəsini təşkil edirdi. Azərneft neftlə bağlı yeni ədəbiyyata tələbatın artdığını nəzərə alaraq kitabxanalara lazımi qədər vəsait ayırırdı. Hər il qiymətli elmi-texniki ədəbiyyatın alınması üçün Amerikaya, Almaniyaya, Türkiyəyə ezamiyyətlər təşkil edilirdi.

Neft kitabxanalarının fəaliyyətinə hələ 1921-ci ildə «Azərneft» komitəsinin texniki bölməsində yaranmış daimi fəaliyyət göstərən komissiya rəhbərlik edirdi. Azərneftin yarandığı ilk dövrdən texniki-məlumat kitabxanalarının yaranması təşəbbüsü göstərilmişdi. 1924-cü ilin may ayına olan məlumatlara görə ölkədə 40 kitabxana vardı ki, bu kitabxanaların da 25-i zavod və fabriklərdə fəaliyyət göstərirdi [45, 118]. Bunlar da əsasən "Azərneft"in texniki kitabxanaları şəbəkəsinə aid idi. 1925-ci ildən isə neft sənayesinin bütün müəssisələrində bir struktur bölməsi kimi kitabxanaların yaradılması məcburi oldu. Belə kitabxanalara metodiki rəhbərlik "Azərneft"in texniki bölməsi və "Neftçi" klubunun MTK-sı tərəfindən həyata keçirilirdi [176; 122]. 1924-cü ildə «Dağ mədən» işçiləri həmkarlar İttifaqının ilk kitabxanası təşkil edildi ki, bu kitabxana da fəhlə və mühəndis-texniki işçilərə kitabxana xidməti göstərməyə başladı [115, 19]. 1925-ci ilin sentyabr ayının məlumatına görə "Azərneft"də 37.718 nəfər fəhlə çalışırdı. Onlardan 23.682 nəfəri birbaşa neftçıxarma sənayesində çalışırdı. Fəhlələr arasında savadsızlığın ləğv edilməsində və texniki avadanlıqlar haqqında biliklərin təbliğ edilməsində "Azərneft"in texniki kitabxanalarının böyük rolu oldu. MTK bütün bu işlərə rəhbərlik edirdi.

Belə ki, "Azərneft"in çap etdirdiyi bülletenlərdə MTK-ya daxil olan ədəbiyyatın sistematik olaraq siyahıları verilirdi. 1928-ci il avqust ayının 7-də "Azərneft"in 317 №-li sərəncamı ilə «Azərneftin məlumat-texniki kitabxanalarından istifadə qaydaları» təsdiq edilir [63, v.39].

Həmin qaydalar Azərneft Dövlət Birliyinin bülletenində 8 avqust 1928-ci il 134(445) sayında dərc edildi: «Qaydalara görə Azərneftin bütün işçilərinin kitabxanadan istifadə etmək hüququ vardı. Kitablar oxuculara kitabxananın müvafiq şöbəsinin və ya işçisinin xüsusi qeydi və kataloqdakı nömrəsi qeyd olunmaqla verilə bilərdi. Kitablar yalnız 2 həftəliyə verilir və hər bir oxucu bir dəfəyə yalnız 2 nüsxə ədəbiyyat götürə bilərdi. Kitabı yarar-

sız hala salan və ya itirən oxucu kitabxanadan istifadə hüququndan məhrum edilirdi». Bu sərəncamın yerinə yetirilməsi «Neftçi» klubu MTK-na tapşırılır.

1929-cu il aprel ayının 29-da Xalq Təsərrüfatı Şurası «Müəssisələrdə texniki kitabxanaların təşkili haqqında» sərəncam verir [177,139]. Bu sərəncamdan sonra Azərbaycanda texniki kitabxanalar şəbəkəsi xeyli genişlənməyə başladı.

Beləliklə, hazırda 20 milyon nüsxədən ibarət fondu olan elmi-texniki kitabxanalar şəbəkəsinin yaranmasına əsasən 20-ci illərdən başlanmış, neft sənayesinin inkişafı ilə bağlı olmuşdur [79]. Bu kitabxanaların sayı isə 250-dən çoxdur [102]. Azərneftin yaranması bütövlükdə SSRİ-nin neft sənayesi üçün kadrlar yetişdirən bir məktəb olduğu kimi MTK-nın yaranması da nəinki Azərbaycanda, hətta SSRİ-də xüsusilə, neft sənayesində elmi-texniki məlumat xidmətinin həyata keçirilməsində böyük əhəmiyyəti olmuşdur.

Azərbaycan SSR-də elmi idarə və müəssisələrin nəzdində yaranmış elmi kitabxanaların fəaliyyəti ilə yanaşı, respublikada elm və mədəniyyətin inkişafı ilə əlaqədar olaraq universal elmi fonda malik olan bir dövlət kitabxanasının yaranması zərurəti meydana çıxırdı. Ümumdövlət kitabxanasının yaranması məsələsi hələ 1918-ci ildə XKS keçirdiyi iclaslardan birində oxuculara pulsuz xidmət göstərə biləcək dövlət kitabxanasının yaradılması məsələsi müzakirə edilmiş və müsbət həll edilmişdi. Bu məsələyə Azərbaycan Xalq Cümhuriyyəti dövründə də qayıdılmış, lakin bolşeviklərin hakimiyyəti ələ alması buna imkan verməmişdir.

1920-ci ildə mayın 24-də nəhayət, Xalq Maarif Komissarlığı kollegiyası Dövlət kitabxanası haqqında məsələ müzakirə etdi və bununla əlaqədar olaraq kitabxananın fondunu komplektləşdirmək və digər sahələr üzrə hazırlıq işlərinə başlanması haqda qərar verdi.

1920-ci ildə XMK yanında yaranan kitabxana kollektoru

Dövlət kitabxanasının təşkilinə qədər kitabxananın fondu üçün ədəbiyyatın ayrılıb xüsusi yerdə saxlanması haqqında qərar verir. Kitabxana kollektoru həm də inqilabdan əvvəlki nəşrləri toplamağa başladı. Eyni zamanda XMK ayrı-ayrı şəxslərdən kitab alır, ziyalılar da könüllü şəkildə öz kitablarından və kitabxanalarından hədiyyələr verirdi. Həmçinin, respublika nəşriyyatları da kitabxananın təşkili üçün 2 məcburi nüsxə ayırmağa başladı. Kitabxana kollektoru 1920-ci ildə Formanov soyadlı bir vətəndaşın və Gülsüm xanım Sübhanquliyevanın şəxsi kitabxanasını nəğd pulla dövlət kitabxanası üçün aldı [1].

1922-ci il üçün kitabxananın fondunda artıq 5.212 nüsxə ədəbiyyat toplanmışdı. Üç ilə qədər davam edən hazırlıq işlərindən sonra 1923-cü ilin may ayında 20.441 nüsxə müxtəlif elm sahələrinə aid ədəbiyyatı öz fonduna cəmləşdirən kitabxana 13 nəfər kadrı ilə təsis edildi [129, 154]. Bu kadrların 9 nəfəri kitabxanaçı idi [77]. Baş Siyasi Maarif İdarəsinin kollegiyası kitabxananın açılışı üçün 32 milyard rubl pul vəsaiti buraxılmasını qərara almışdı. Kitabxana üçün yararlı binanın olmaması, ədəbiyyat çatışmamazlığı və kadrların azlığına baxmayaraq Azərbaycan Dövlət Kitabxanasının rəsmi açılışı 1923-cü ilin may ayının 23-də olmuşdur [140]. Kitabxananın açılışında Xalq Maarif Komissarı M.Quliyev, Siyasi Maarif İdarəsinin müdiri Terequlov, Peşə Təhsili İdarəsinin müdiri Pepinov, bir sıra elm və ali təhsil müəssisələrinin professorları iştirak edirdi. Dövlət kitabxanası o vaxtkı Lindley küçəsində Ali İqtisad Şurasının binasında 4 otaqda yerləşirdi. Kitabxana rəsmi açılışından bir həftə sonra– iyun ayının 5-dən oxuculara xidmət etməyə başladı [6, 47]. Kitabxanaya Azərbaycan Mərkəzi Dövlət Kitabxanası adı verildi.

Kitabxana açılarkən Avropa və Şərq ədəbiyyatı şöbələri var idi. Mərkəzi Dövlət Kitabxanası Azərbaycanda Kitab Palatası yaradıldıqdan sonra respublikada nəşr edilən bütün ədəbiyyatdan 2 məcburi nüsxə olmaqla yanaşı, həm də SSRİ də çıxan çap

məhsullarından məcburi nüsxələr almağa başladı. Kitabxananın 1923-1927-ci illər ərzində aldığı məcburi nüsxələrin artımı aşağıdakı cədvəldə verilmişdir:

***Cədvəl 1.4***

Məcburi nüsxələrin artım göstəriciləri
(1923-1927-ci illər)

| **İllər** | **Nüsxələrin sayı** |
|---|---|
| 1923 | 5. 212 |
| 1924 | 13. 337 |
| 1925 | 48. 812 |
| 1926 | 55. 139 |
| 1927 | 56. 475 |
| **Cəmi:** | 178 .975 |

Cədvəldən göründüyü kimi kitabxananın 1927-ci ildə aldığı məcburi nüsxələrin sayı 1923-cü ilə nisbətən 5 il ərzində 10 dəfə artmışdır.

1924-cü ildə Moskvada kitabxanaçıların I Ümumittifaq qurultayı çağırılır. Qurultayın işində iştirak etmək üçün Azərbaycandan Dövlət Kitabxanasının Avropa şöbəsinin müdiri Y.Qiyasbəyov Moskva şəhərinə ezam olundu. O, həmçinin Rumyantsev muzeyi kitabxanasının, SSRİ Dövlət Kitabxanasının təcrübəsini öyrənməli və Azərbaycan Dövlət Kitabxanasına tətbiq etməli idi [45, v.116-119]. 1924-cü ildə Azərbaycan K(b)P MK-si Azərbaycan K(b)P Polşa bölməsi yanında olan polyak dilində kitablardan ibarət kitabxananın Azərbaycan Mərkəzi Dövlət Kitabxanasına verilməsi haqqında göstəriş verdi. Partiyanın göstərişinə əsasən kitabxanaya 4.660 nüsxə polyak dilində kitab və 24 adda inventar verildi. Kitabxananın fondunda toplanan ədəbiyyatın yalnız 900 nüsxəsi milli dildə idi. Türkləşdirmə ilə əlaqə-

dar olaraq kitab fondunun tərkibində milli dildə ədəbiyyatın artırılması kitabxananın qarşısında əsas vəzifə kimi dururdu. Respublika Kitab Palatasından alınan çap məhsullarının hesabına 1924-ci ildə kitabxananın 51.000 nüsxəlik fondunun 4.200 nüsxəsi Azərbaycan dilində idi. Bu fondun çox az bir hissəsini təşkil edirdi. Ali təhsil müəssisələrində işləyən kadrların və tələbələrin sayı artdıqca milli dildə olan ədəbiyyata tələbat da çoxalırdı. Buna görə də kitabxana öz fondunu məqsədəuyğun şəkildə komplektləşdirərkən bu amili də mütləq nəzərə almağa başladı. Burada geniş oxucu kütləsi ilə bərabər, elmi işçilərin tələbatı da nəzərdə tutulurdu. Kitabxana öz fondunu həmçinin, beynəlxalq kitab mübadiləsi yolu ilə də komplektləşdirirdi.

Kitabxananın fəaliyyətinin ilk aylarında cəmi 40-50 oxucu kitabxanadan istifadə edirdi. Kitabxana fondunun artması eyni zamanda, kitabxananın xidmət dairəsinin də genişlənməsinə səbəb oldu. Belə ki, 1925-ci ildə 2.879 oxucuya 25.805 nüsxə ədəbiyyatla xidmət göstərilmişdir. Sonralar – 1928-ci ildə bu rəqəm artmış və 3.193 oxucuya 35.848 nüsxə ədəbiyyatla xidmət göstərilmişdir [116, 39]. 1925-ci ilin may ayında Baş Siyasi Maarif İdarəsi öz kollegiyasında Dövlət kitabxanasının işinin yoxlamasının nəticələrini müzakirə edərək kitabxananın fəaliyyətində nöqsanlar olduğunu bildirmişdir. Fondda olan bəzi kitabların kitabxana qaydası ilə işlənmədiyini, kataloqların tərtib olunmadığını, xüsusilə elmi idarələrlə əlaqəsinin zəif olduğunu qeyd edərək, bu çatışmazlıqların aradan qaldırılması yolları haqqında qərar qəbul etmişdir. Xüsusilə kitabxananın fondunun Onluq Təsnifat Sisteminə əsasən təsnifləşdirilməsini, kitabxananın əlifba və predmet kataloqlarının tərtib edilməsini tövsiyə etmişdir. Kollegiyanın göstərdiyi nöqsanları aradan qaldırmaq üçün 1925-ci ilin iyun ayında kitabxana bir neçə aylıq müvəqqəti bağlanır. Baş Siyasi Maarif İdarəsi bu işlərin görülməsi üçün ayrıca vəsait ayırdı. Göstərilən nöqsanlar aradan qaldırıldıqdan sonra kitabxana yenidən fəaliyyətə başladı.

1925-ci ildə kitabxananın 51.000 nüsxəlik fondunun tərkibi bu cür olmuşdur: Avropa şöbəsində 46.800 nüsxə, Şərq şöbəsində isə 4.200 nüsxə idi.

1926-cı ildən başlayaraq kitabxanada elmi-metodik işin genişlənməsi zərurəti meydana çıxdı. Belə ki, kitabxanada elmi və kütləvi kitabxanalara kömək məqsədi ilə bir elmi-metodik mərkəz yarandı. Bu mərkəzdə müxtəlif tipli kitabxanalar üçün metodiki sənədlər hazırlanırdı.

1926-27-ci ildə Dövlət Kitabxanasının 18.843 nəfər oxucusu olduğu halda, 1927-28-ci illərdə 63.291 nəfər olmuşdur. Qeyd etmək lazımdır ki, oxucuların milli tərkibində də xeyli dəyişikliklər olmuşdu. Belə ki, kitabxana oxucularının artıq 40% türklər idi [143, 94]. Kitabxananın oxu zalı 1927-ci ilin sentyabr göstəricilərinə görə eyni vaxtda 100 oxucuya xidmət etməklə, gündə 250-300 oxucuya xidmət göstərirdi. Bu zaman kitabxanada 6 şöbə – şərq, rus, Qərbi Avropa, xüsusi şöbə (nadir və qadağan edilmiş nəşrlərdən müstəsna hallarda yalnız elmi işçilər icazə ilə istifadə edirdilər), oxuculara xidmət və biblioqrafiya şöbəsi fəaliyyət göstərirdi. Biblioqrafiya şöbəsi biblioqrafik təsvirlər edir və biblioqrafik göstəricilər hazırlayırdı. 1927-ci ildə kitabxanada «Şərq incəsənəti», «Şərqdə qadın hərəkatı», «Qafqaz xalqları haqqında» göstəricilərilə yanaşı, «1917-27-ci illərdə jurnal ədəbiyyatı» adlı biblioqrafiya da hazırlandı.

Elmi biblioqrafiya işi yönündə müxtəlif mövzularda biblioqrafik əsərlərin nəşri davam edirdi. «Şərq haqqında Şuralar İttifaqında çıxan ədəbiyyat», «Azərbaycanda torpaq məsələsinə aid ədəbiyyat» və başqa bu kimi daha bir neçə biblioqrafik əsərlər nəşr edildi. Mərkəzi Dövlət Kitabxanası 1928-ci ildən başlayaraq SSRİ-nin elmi kitabxanaları və xarici ölkə kitabxanaları ilə kitab mübadiləsinə başladı. Baş Siyasi Maarif İdarəsinin Kitabxana Bölməsinin müdiri Bağırovun imzası ilə 1928-ci ilin III rübü üçün verilən məlumatda göstərilirdi ki, «Dövlət Kitab Palatası tərəfindən Ümumittifaq Mədəni Əlaqələr Cəmiyyətinin

vasitəsi ilə Amerikanın, Almaniyanın və bir sıra digər xarici ölkələrin elmi müəssisələrindən 768 nüsxə ədəbiyyat alınıb Azərbaycan Dövlət Kitabxanasına verildi» [46, v. 64]. 1928-ci ildə xarici ölkələrdən 50-dən çox adda qəzet və jurnal alan kitabxana özünün 300.000 nüsxədən ibarət fondu ilə oxuculara kitabxana xidməti göstərirdi.

1928-ci ilin fevral ayının 2-də «Mühüm dövlət kitab saxlayıcılarının SSRİ ərazisində çap edilən bütün nəşrlərlə təmin edilməsi haqqında» SSRİ XKS və SSRİ MİK qərarına əsasən Dövlət Kitabxanasının adı mühüm dövlət kitab saxlayıcılarının siyahısına düşdü. Beləliklə, Dövlət kitabxanası SSRİ-də çap olunan bütün nəşrlərdən pulsuz məcburi nüsxələr almağa başladı [48, v. 35].

Bu dövrdə fondun artıq 9.000 nüsxəsi türk (Azərbaycan) dilində idi [182, 94]. Dövlət kitabxanası 1924-27-ci illər ərzində öz fondunu cədvəldə göstərilən formada təkmilləşdirirdi:

***Cədvəl 1.5***

| **İllər** | **Kitabların daxil olması** | **Fondun dövriyyəsi** |
|---|---|---|
| 1924 | 39 169 | 30 490 |
| 1925 | 50 167 | 33 944 |
| 1926 | 61 942 | 20 537 |
| 1927 | 61 904 | 16 912 |
| **Cəmi:** | 213 182 | 1 01 888 |

Mərkəzi Dövlət Kitabxanasının gördüyü bütün işlərə, kitab fondunun sürətlə artmasına baxmayaraq, kitabxana əməkdaşlarının sayının azlığı, ixtisaslı kadrların olmaması ona öz funksiyasını lazımi şəkildə qurmağa və öz fəaliyyətini genişləndirməyə imkan vermirdi. Kitabxananın qarşısında universal elmi kitabxana kimi, mədəni-maarif işinin mərkəzinə çevrilmək, digər elmi-sahə kitabxanalarına metodiki rəhbərlik etmək, elmi kitab-

xanalar üçün də kitabxanaçı kadrların hazırlanmasında yaxından iştirak etmək, dünyanın iri kitabxanaları ilə əlaqə yaratmaq mühüm bir vəzifə kimi dururdu. Bununla belə, Dövlət Kitabxanasının yaranması Azərbaycanda kitabxanaşünaslığın bünövrəsini qoymaqla yanaşı, kitabxana işinin həm də bir dövlət işi olduğunun mahiyyətini göstərmişdir.

1920-ci il iyun ayının 30-da Lenin «Biblioqrafiya işinin RSFSR-də XMK verilməsi haqqında» dekret imzaladı. Bu dekretə əsasən digər respublikalarda olduğu kimi Azərbaycanda da XKS-nin 1925-ci il fevral tarixli qərarı ilə Kitab Palatası təşkil edildi [201]. Palatanın vəzifələrinə aşağıdakılar daxil idi:

1. Azərbaycan SSR-nin ərazisində nəşr olunan çap əsərlərinin məcburi nüsxəsini almaq, müttəfiq respublikaların kitab palataları ilə bağlanan xüsusi müqavilə əsasında həmin respublikaların çap məhsulunu əldə etmək;
2. Palataya daxil olan ədəbiyyatı respublikanın və müttəfiq respublikaların kitabxanalarına göndərmək;
3. Azərbaycan SSR-nin ərazisində nəşr olunan ədəbiyyatdan bir nüsxə palatanın arxivində saxlamaq;
4. Elmi-biblioqrafik təşkilatlarla kitab mübadiləsi aparmaq;
5. Elmi-biblioqrafiya işlərini təşkil etmək.

1925-ci ilin oktyabrından işə başlayan Azərbaycan Kitab Palatasında cari işlərlə bərabər, elmi biblioqrafiya işləri də aparılmışdır. Palatanın elmi işlər sahəsində apardığı mühüm vəzifələrdən biri də mətbuatın statistik qeydiyyatının aparılmasıdır. Mətbuatın statistikası respublikanın mədəni sahədəki nailiyyətlərini göstərdiyi kimi, eyni zamanda, ölkənin mədəni-maarif müəssisələrinin vəzifələrinin, nəşriyyat işlərinin partiyalı, sinifli olmasının mahiyyətini açırdı. Belə nəşrlərdən biri «Şuralar İttifaqı mətbuatının statistikası» idi ki, burada da statistik məlumatlar verilirdi. Kitab Palatası hər ay «Azərbaycan kitab ixbarı» adlı məcmuə çıxarır və hər kitabı dillər üzrə dərc edirdi [116, 39].

Kitab Palatası eyni zamanda türk-tatar xalqlarına aid bib-

lioqrafiya tərtib etmək üçün də bir çox araşdırmalar aparmışdır.

Respublika Kitab Palatası oktyabr ayında respublika ərazisində çap olunan əsərlərin mübadiləsi barədə RSFSR Mərkəzi Dövlət Kitab Palatası ilə müqavilə bağladı. Belə müqavilələr Ukrayna, Gürcüstan və digər müttəfiq respublikaların kitab palataları ilə də bağlandı [37, 5]. Kitab Palatası respublika ərazisində nəşr olunan çap məhsullarından alınan məcburi nüsxələr əsasında 1925-ci ildən başlayaraq mətbuat arxivi yaratmağa başladı.

Respublika Kitab Palatası 1926-cı ildən nəşrə başladığı «Kitab letopisləri» vasitəsi ilə dövlət uçot-qeyd biblioqrafiyasının əsasını qoydu. Kitab Palatasına biblioqrafik məlumat işinin yerinə yetirilməsi üçün 1925-ci ildən xronoloji kataloq, rus ədəbiyyatı kataloqu, almanaxların və qəzetlərin kataloqu tərtib edilməyə başlandı [131,71-72]. Beləliklə, məlum olur ki, Kitab Palatasının fəaliyyəti ilk növbədə ölkədə çap olunan zəngin elmi ədəbiyyatın toplanıb mühafizə edilməsi, onun arxivinin yaradılması, elmi biblioqrafiya və elmi ədəbiyyatın uçotunun aparılmasına yönəlmişdi. Kitab Palatasının həmin dövrdə apardığı önəmli fəaliyyətin nəticəsidir ki, bu gün də elmi araşdırmalar zamanı təkrar-təkrar kitab salnamələrinə müraciət edilir.

1920-ci ildə yaranmış «İstiqlal muzeyi»nin əsasında Bakıda 1921-ci ildə Dövlət muzeyi yaradıldı. Muzeyin əsas fondunu tarix və təbiətşünaslığa aid materiallar təşkil edirdi.

1922-ci ildə Petroqrad EA Xəzər dənizində elmi-tədqiqatlar aparmışdır. Tədqiqatın nəticələri öz əksini müxtəlif əsərlərdə tapdığından Azərbaycan Dövlət Muzeyi Petroqrad EA professoru N.M.Knipoviçə müraciət göndərdi. Müraciətdə professordan Xəzər ekspedisiyasının işlərini (Əsərləri) Azərbaycan Dövlət Muzeyinin kitabxanasına göndərmək xahiş edilirdi [162]. 1925-ci ildə XMK Dövlət muzeyinin yeni Əsasnaməsini təsdiq edir. Əsasnaməyə görə Muzey kitabxanası artıq muzeyin bir bölməsi kimi fəaliyyət göstərməyə başladı. İlk dövrdə kitab-

xanada 3688 adda 7211 kitab var idi. Bu illər Dövlət Muzeyi kitabxana fondunun illər üzrə artım göstəricisi belə olmuşdur:

***Cədvəl 1.6***

Dövlət Muzeyi Kitabxanası fondunun artım göstəriciləri (1923-1927-ci illər)

| **İllər** | **Fond (nüsxə)** |
|---|---|
| 1923 | 3 688 |
| 1924 | 3 939 |
| 1925 | 4 407 |
| 1926 | 4 874 |
| 1927 | 5 400 |
| **Cəmi:** | 21 308 |

Muzeyin kitabxanasına məktəblilər, fəhlə və qulluqçular, hərbçilər də müraciət edirdilər. Xüsusilə, elmi tədqiqat işləri ilə məşğul olan ali təhsil ocaqlarının müəllim və tələbələri muzey və kitabxana fondlarından müvəffəqiyyətlə istifadə edirdilər.

1924-cü ildə ali təhsil müəssisələri və fəhlə fakültələrindən 170, 1925-ci ildə 73, 1926-cı ildə 723, 1927-ci ildə 389 nəfər muzeyə gəlmiş, eyni zamanda muzeyin elmi kitabxanasında toplanan zəngin ədəbiyyatdan istifadə etmişlər [182, 124]. I Ölkəşünaslıq qurultayının qərarına əsasən Muzey kitabxanası 1924-cü ildən hər bir elmi müəssisənin nəşrlərindən 2 məcburi nüsxə almalı idi. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətindən 4 nüsxə kitab alan kitabxana Cəmiyyətə təşəkkür məktubu göndərir. Təşəkkür məktubunda bundan sonra muzeyin kitabxanasına mütəmadi şəkildə 2 məcburi nüsxənin göndərilməsi xahiş edilir [14, v.56].

Qeyd etmək lazımdır ki, 1920-29-cu illərdə təşəkkül tapmış elmi müəssisələrin fəaliyyəti onlara xidmət edən elmi kitabxa-

naların yaradılmasını şərtləndirirdi. Ölkədə elmi müəssisələrin sayı artdıqca elmə xidmət edən elmi və sahə kitabxanalarının da sayı artmağa başladı. Mədəni-maarif işi və kitabxana işi haqqında müxtəlif dekretlərin, qərar və göstərişlərin verilməsi kitabxana işinin dövlət əhəmiyyətli bir iş səviyyəsinə qaldırmış oldu. Tədqiq olunan dövrü Azərbaycanda kitabxanaların təşkilatlanma mərhələsi adlandırmaq olar. Həmin dövrdə elmi və sahə kitabxanalarının ilk rüşeymləri meydana gəlməyə başladı. Neft mədənlərində fəaliyyət göstərən texniki kitabxanalar, Xalq Torpaq Komissarlığı nəzdində fəaliyyət göstərən Kənd Təsərrüfatı Kitabxanası, ADU elmi kitabxanası, Dövlət Kitabxanası, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin kitabxanası, Dövlət Muzeyinin kitabxanası, Kitab Palatası kimi kitabxana-biblioqrafiya müəssisələri ölkədə elmin inkişafına böyük xidmətlər göstərmiş oldular. Yenicə təşəkkül tapmış bu kitabxanaların milli ziyalıların formalaşmasında da böyük rolu olmuşdur. Ziyalılar həmin kitabxanaların elmi fondlarında toplanan ədəbiyyatı öyrənir, təhlil edir yeni elmi kəşflər, elmi nəticələr əldə edirdilər. Kitabxana işində nöqsanlar da az olmamışdır. Yaranan bu kitabxanalar ayrı-ayrı müəssisələrin tabeçiliyində olsalar da, «ümumi ideya rəhbərliyi» üçün XMK-ya tabe edilmişdi. Kitabxanalar əsasən ideoloji ədəbiyyatla-marksizm-leninizmə aid ədəbiyyatla təchiz edilirdi. Elmi kitabxanalarda xaricdə çap olunmuş elmi dəyərli ədəbiyyat çatışmırdı. Bu bir tərəfdən tərcüməçi kadrların olmamasından irəli gəlirdisə, digər tərəfdən isə yalnız «mərkəzin məsləhət bildiyi» ədəbiyyatın tərcümə olunması ilə əlaqədar idi. Bu illərdə elmi-sahə kitabxanalarının fəaliyyəti pərakəndə olmuşdur.

Kitabxanalarda milli ədəbiyyat çatışmırdı. Ölkədə latın qrafikasına keçildikdən sonra bəzi qiymətli əsərlər kitabxanaların fondundan "zərərli və lüzumsuz" ədəbiyyat kimi çıxarılaraq məhv edildi. Türkoloji qurultayın qərarlarına məhəl qoyulmadan ərəb əlifbasında yazılmış qiymətli əsərlərin çoxu yeni əlifba ilə

çap edilmədi.

Lakin bu nöqsanlara baxmayaraq, bütövlükdə götürdükdə tədqiq olunan dövrdə elmi kitabxanalar həm də sahə kitabxanalarının funksiyalarını yerinə yetirirdilər. Çünki, onlar, elmi ədəbiyyatın kitabxanalara toplanaraq mühafizə edilməsinin, sistemləşdirilməsi və istifadəsinin təşkili işi ilə məşğul olaraq ayrı-ayrı elm sahələrinin inkişafına xidmət edən müəssisələr kimi formalaşa bilmişdir.

Azərbaycan SSR-də elmi fikrin inkişafı, respublikada elmi kadrların hazırlanması işində mühüm mərkəz olan ali təhsil ocaqları və elmi-tədqiqat idarələrinin yarandığı və inkişaf etməyə başladığı bir dövrdə yaranan elmi-sahə kitabxanaları, Azərbaycanda ilk fundamental elmi və mədəni-maarif müəssisələri kimi ölkənin elmi həyatında xüsusi rol oynamışdır. Eyni zamanda respublikada milli ziyalı kadrların və mühəndis-texniki işçilərin hazırlanmasında və böyük bir ziyalı nəslinin dünyagörüşünün formalaşması və inkişafında əhəmiyyətli rol oynamışdır. Sonralar həmin ziyalılar nəsli Azərbaycan elminin aparıcı qüvvəsinə çevrildilər.

# II FƏSİL

# AZƏRBAYCANI TƏDQİQ VƏ TƏTƏBBÖ CƏMİYYƏTİNİN YARANMASI VƏ ONUN ELMİ KİTABXANASININ FORMALAŞMASI

## 2.1. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin təşəkkülü və fəaliyyət istiqamətləri

20-ci illərin əvvəllərində fəaliyyət göstərən elmi təşkilatlar içərisində ən görkəmli yer tutan, elmin inkişafında əvəzsiz xidməti və çəkisi olan elmi təşkilatlardan biri şübhəsiz, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətidir.

1923-cü ilin baharında Bakıda bir qrup professor Xalq Maarif Komissarlığının Kollegiyasına Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaradılması xahişi ilə müraciət etdi. 1923-cü il mayın 5-də kollegiya Cəmiyyətin D.Urusov, A.R.Zifeld və «Kommunist» qəzetinin redaktoru H.Cəbiyev tərəfindən tərtib olunmuş Nizamnaməsini təsdiq etdi. Cəmiyyətin təşəbbüskarlarından olan doktor D.Urusovun Azərbaycandan çıxıb getməsi ilə əlaqədar olaraq cəmiyyət həmin vaxt fəaliyyətə başlaya bilmədi. Paralel olaraq belə bir ideyanın gerçəkləşməsi yönündə «Bakinskiy raboçiy», «Kommunist» qəzetlərində elm və təcrübə ilə məşğul olan alim və mütəxəssisləri bir yerə yığa bilən «Azərbaycanı

və ona qonşu olan ölkələri iqtisadi, sosial-tarixi, etnoqrafik, arxeoloji və dilçilik baxımından planlı və müfəssəl şəkildə tədqiq və tətəbbö etmək məqsədi ilə» bir elmi mərkəzin – Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaranmasına ehtiyac olunduğu vurğulanırdı. Bu ideya tezliklə bir qrup alim və ictimai xadimlərin təşəbbüsü ilə gerçəkləşdi. Onların içərisində H.Cəbiyev, T.Şahbazi, Ə.Pepinov, C.Məmmədquluzadə, M.Q.Vəliyev-Baharlı, H.Şahtaxtinski, İ.Şahtaxtinski, C.Cəbrayılbəyov kimi tanınmış adamlar və milli ziyalılar var idi. 2 noyabr 1923-cü ildə Bakıda Maarif evində «Kommunist» qəzetinin redaktoru H.Cəbiyevin təşəbbüsü ilə «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin» təsis yığıncağı çağırıldı [10, v.1]. Təsis yığıncağında 44 nəfər Azərbaycanın alim və mütəxəssisləri iştirak edirdi. Yığıncaqda Cəmiyyətin nizamnaməsi və strukturu müzakirə edildi. Cəmiyyətin müvəqqəti idarə heyəti seçildi. İdarə heyətinin sədrliyinə professor A.N.Samoyloviç, müavinliyə milliyyətcə eston olan A.R.Zifeldt, xəzinədarlığa V.M.Sısoyev, katibliyə isə V.A.Ryumin seçildilər. H.Cəbiyev, M.Baharlı, F.Şabanov, professor V.İ.Smirnov-Loginov və İ.F.Blinov idarə heyətinin üzvləri seçildi.

Cəmiyyətə aşağıdakı tərkibdə fəxri üzvlər seçildi: Azərbaycan Xalq Torpaq Komissarı D.Bünyadzadə, Xalq Komissarları Şurası sədri Q.Musabəyov, Leninqrad universitetinin professoru, şərqşünas V.V.Bartold, SSRİ EA katibi S.F.Oldenburq, Maddi Mədəniyyət Akademiyasının direktoru N.Y.Maar, Konstantinopol Universiteti Filologiya fakültəsinin dekanı professor Köprülüzadə. Leninqrad Universitetinin professoru İ.İ.Meşşaninov Cəmiyyətin həqiqi üzvü seçildi. Cəmiyyətin həqiqi üzvləri 3 rubl üzvlük haqqı ödəyirdilər. Cəmiyyətin ümumi idarəetmə işlərini ildə bir dəfə çağırılan qurultay və Cəmiyyətin Mərkəzi Şurası həyata keçirir, lazım gəldikdə fövqəladə qurultay çağırır. Cəmiyyət Azərbaycan hökumətindən və Azərbaycan MİK-dən aldığı vəsait, ianələr və öz nəşrlərindən əldə edilən gəlirlərin he-

sabına maliyyələşirdi. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti yarandığı vaxtda 3 bölmədə fəaliyyətə başladı: Tarix-etnoqrafiya bölməsi (bölmədə 204 mütəxəssis cəmləşmişdi), İqtisadiyyat bölməsi, Elmi-təbiətşünaslıq bölməsi (Sonradan Türkologiya bölməsi adı ilə fəaliyyət göstərmişdir).

Tarix-etnoqrafiya bölməsinin xüsusi əhəmiyyətli işi N.İ.Aşmarinin Azərbaycan Türk xalqları danışığının ilk sanballı elmi lüğəti üçün materialların toplanıb sistemləşdirilməsi olmuşdu. Bu iş bir neçə ilə nəzərdə tutularaq türk ədəbiyyatı tarixinin böyük bir dövrünü əhatə etməli və türk dilinə yad olan ərəb, fars sözlərindən azad edərək təmiz türk sözlərini bərpa etməli idi. Bu məqsədlə Aşmarin 1927-ci ildə Nuxada ekspedisiyada olmuşdur. Eyni zamanda materialları toplamaq üçün Bakıda və Azərbaycanın digər qəzalarında yaşayan əhaliyə tarix-etnoqrafiya bölməsinin sədr müavini professor Aşmarinin və katib Ryuminin tərtib etdiyi və müxtəlif sualları əhatə edən sorğu anketləri göndərilmişdi. Anketlər Azərbaycan, erməni və rus dillərində idi [11, v.279].

V.M.Zummerin başçılığı ilə yaranmış İncəsənət komissiyası lüğətin tərtibinə kömək məqsədi ilə Abşeron yarımadasının qədim abidələrini tədqiq edib müəyyən nəticələr əldə etmişdilər. Leninqrad universitetinin şərqşünas alimi A.N.Samoyloviçin də bu işə xeyli köməkliyi dəymişdir.

Tarix-etnoqrafiya bölməsinin elmi-tədqiqat işlərinin aparılmasında etnoqrafiya komissiyasının böyük rolu olmuşdur. Belə ki, komissiyanın az bir müddətdə keçirdiyi iclaslarında 6 elmi məruzə dinlənilmiş və müzakirə edilmişdir. Bunlardan professor P.K.Juzenin «Xalqın adət və inancları haqqında», D.Şərifovun «Etnoqrafik proqram (Maddi Mədəniyyət)» və s. məruzələr etnoqrafiya elmi üçün qiymətli elmi nəticələrlə zəngin idi.

Bölmənin tarix komissiyası öz iclaslarında M.H.Vəliyev-Baharlının «Aqvaniya», prof. P.K.Juzenin «Azərbaycanın sərhədləri Yunan və Roma müəlliflərinin məlumatları əsasında» ta-

rixi məruzələrini dinləmişdir.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin İqtisadiyyat bölməsi 1926-cı ildə kənd təsərrüfatının, sənaye və ticarətin siyahıya alınması məsələlərinin müzakirəsi ilə məşğul oldu. Bu tədqiqatların nəticəsi Smirnovun və Razutovun məruzələrində öz əksini tapmışdır. 1924-cü ilin yayında bölmə Dağlıq Qarabağın iqtisadiyyat və statistikasının öyrənilməsi məqsədi ilə Q.A.Köçəryanı Dağlıq Qarabağa ekspedisiyaya göndərmişdi. Təəssüflə qeyd etmək lazımdır ki, Azərbaycanı öyrənmək və tədqiq etmək digər millətlərin alim və mütəxəssislərinə tapşırılırdı. Bu iş sosializmin beynəlmiləlçi xarakteri ilə və ya kadr çatmazlığı ilə izah edilirdi. Lakin, belə bir şərh, məsələnin görünən tərəfi idi. Əslində isə bu, o dövrün «milli» siyasətinin nəticəsi idi. XX əsrin 80-ci illərinin sonunda sovet rejimi dağılan ərəfədə qızışan etnik məsələlərin üzə çıxması, xüsusilə «ermənilərin öz müqəddəratını təyin etmə hüququnun» meydana çıxmasının bünövrəsi elə həmin dövrlərdə qoyulmuşdu. Bu həm də milli kadrları bu məsələlərin tədqiq edilməsindən uzaqlaşdırmaqla tarixi saxtalaşdırmaq istəyindən irəli gəlirdi.

Elmi-təbiətşünaslıq bölməsində keçirilən iclaslarda müxtəlif elmi məruzələr dinlənilmişdir. Bu bölmə sonradan Antropometrik bölmə üçün əsas baza olmuşdur. Çünki bu dövrə qədər Antropologiya elmi Azərbaycanda tədqiq edilməmişdir. Bölmə 3 ekspedisiya təşkil etdi:

1. Smirnov-Loqinov Dağlıq Qarabağın cənub hissəsinin torpağını tədqiq etmək üçün Dağlıq Qarabağa ekspedisiyaya gedir və su nümunələri gətirir.
2. Quba qəzasının mineral mənbələrini tədqiq etmək üçün professor R.Y.Rostovsev qəzaya ekspedisiyaya gedir və oradan su nümunələri gətirir.
3. Dağlıq Qarabağın cənub hissəsinin bitkiçiliyinin tədqiqatı məqsədi ilə Trofimov DQ-a ekspedisiyaya gedir və oradan 600-ə yaxın müxtəlif bitki növləri gətirir.

Cəmiyyətin nəzdində Biblioqrafiya Bürosu, Kitabxana (2-ci yarımfəsildə kitabxananın və biblioqrafiya bürosunun işindən ətraflı danışılacaq) və Biliklərin Populyarlaşdırılması büroları yaradıldı [10, v.116]. Sonuncu 1924 və 1927-ci illərdə məktəblərə kömək üçün qısa kurslar təşkil etmişdi ki, bu kurslar da yüzlərlə gənci öz ətrafında birləşdirmiş, müxtəlif mütəxəssislərin yetişməsində müsbət rol oynamışdır. 1924-25-ci illərdə fabrik-zavodlara, qədim tarixi abidələrə 20.000-dən çox insanı əhatə edən çoxsaylı ekskursiyalar təşkil etmişdi. Büro müəllimlərdən ibarət 2 ölkəşünaslıq dərnəyi təşkil etdi. Eyni zamanda, 1926-cı ildə Cəmiyyətin Fotoqrafiya bürosu yaradılır. Burada Azərbaycanın qədim çoxsaylı tayfalarına aid tarixi abidələrin 1.000 fotoşəkli toplanmışdı.

Cəmiyyətin elmi bölmələrinin daxilində daha konkret elm sahələrinin tədqiqi ilə məşğul olan elmi komissiya və qruplar yaranmağa başladı. Bu komissiyalar Azərbaycan Dövlət Universitetinin professoru B.Çobanzadənin rəhbərlik etdiyi Tarix komissiyası, Azərnəşrin sədri Ə.C.Pepinovun rəhbərlik etdiyi Etnoqrafiya Komissiyası, Azərbaycan SSR Xalq Ədliyyə Komissarı B.Talıblının rəhbərlik etdiyi Hüquq komissiyası, Xalq Torpaq Komissarı müavini İ.M.Datiyevin sədrliyi ilə Kənd Təsərrüfatı komissiyası, Azərbaycan MİK sədri S.Ağamalıoğlunun rəhbərlik etdiyi Əlifba Komissiyası və s. idi.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti öz fəaliyyətində əsas yeri respublika ərazisinin arxeoloji tədqiqatına yönəltməyi qarşıya məqsəd qoyaraq 1924-cü ilin yayında xüsusi Arxeoloji komitənin yaradılması təşəbbüsü ilə çıxış etdi. Azərbaycan SSR MİK-nin təsdiq etdiyi əsasnaməyə görə Arxeoloji Komitə «Respublika ərazisində qədim abidələr və incəsənətin müşahidəsi, öyrənilməsi, qeydiyyatı və mühafizəsi» ilə məşğul olmalı idi. Respublika Arxeoloji Komitəsinin sədri Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin katibi T.Şahbazi, fəxri sədri isə V.V.Bartold oldu. Arxeoloji Komitənin tərkibinə A.İsgəndəroğlu, Respublika

Maarif Nazirliyinin İdarə rəisi N.Şahtaxtinski, Azərbaycan Dövlət Universitetinin alimi A.Paxomov, Azərbaycan Dövlət Muzeyinin direktoru D.Şərifov, komitənin məsul katibi isə V.Sısoyev oldu. Cəmiyyət geniş ictimaiyyəti partiya və sovet hökumətinin qarşıya qoyduğu vəzifələrin həllinə cəlb etmək və Azərbaycanı hərtərəfli öyrənmək üçün Cəmiyyətin nizamnaməsinin 28-ci paraqrafına uyğun olaraq Naxçıvan MSSR və Dağlıq Qarabağ Muxtar Vilayətində və s. qəzalarda öz bölmələrini açdı [181, 26]. Beləliklə, 1924-cü ildə Nuxada, Şamaxıda, Zaqatalada, Gəncədə, Lənkəranda, Xankəndində, sonralar Naxçıvan, Ordubad və Salyanda da bölmələr təşkil edildi.

Eyni zamanda, Cəmiyyət RSFSR ilə sıx əməkdaşlıq yaratmaq üçün 1923-24-cü illərdə Moskva və Leninqrad şəhərlərində öz bölmələrini yaratdı. Bölmələr öz işlərini qəbul etdikləri əsasnaməyə uyğun olaraq həyata keçirirdilər.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Moskva və Leninqradın, Gürcüstanın elmi müəssisələri ilə əlaqələr qurur, ezamiyyətlər təşkil edirdi. Prof. V.P.Smirnov-Loqinov 1924-cü ilin 15-19 yanvarında Rusiya EA-da keçirilən ölkəşünaslıq qurultayında iştirak etmək üçün Petroqrad şəhərinə ezamiyyətə göndərildi.

1925-ci ilin noyabrında Cəmiyyətin Moskva bölməsində yeni əlifbanın tətbiqi ilə əlaqədar olaraq Məmmədzadə və Zifeldt Moskvaya ezam edildi. Eyni zamanda Səlimbəyov Moskva bölməsində cəmiyyətin nəşrlərinin yayılmasını təşkil etmək üçün oraya xeyli elmi ədəbiyyat apardı. Bunlardan yenicə çap olunmuş «Xəbərlər»in 1-ci sayından 25 nüsxə, Bartoldun «Место Прикаспийских областей в истории мусульманского мира» əsərindən 10 nüsxə, B.Çobanzadənin «Предварительное сообщение о Кумыкском Наречии» kitabından 10 nüsxə, Paxomovun «О сословно поземельний вопрос в Азербайджане» kitabından 10 nüsxə aparıldı [11, v.212]. 1924-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin 700 üzvü var idi [10,

v.134]. Onların içərisində cəmiyyətin həyatında və elmi fəaliyyətində əsasən 80-100 nəfərə yaxın alim daha fəallıq göstərirdi.

Cəmiyyətin fəaliyyətində bir elmi mərkəzin təşkilatlanması ilə yanaşı, onun sanballı elmi-tədqiqat işləri də mühüm əhəmiyyət kəsb edir. Belə ki, «Azərbaycan əhalisinin milli tayfa tərkibi haqqında», Bertelsin «Azərbaycanda qədim və orta əsrlər musiqi mədəniyyəti abidələrinin qalıqları», Şirokoqorovun «Azərbaycanda malyariya ilə mübarizə» kimi elmi məruzələr diqqətə layiq idi. 1925-ci ildə A.Bakıxanovun «Gülüstani-irəm» əsəri Bartold və Paxomovun redaktəsi ilə nəşr edildi. Kitabın çap edilməsi işi prof. Blinova və B.Çobanzadəyə tapşırılmışdı. Cəmiyyət Azərbaycana aid materialların toplanması və təbliği məqsədi ilə 1924-cü ilin sentyabr ayında Azərbaycanşünaslıq kurslarının təşkili haqqında qərar qəbul etdi və bu kursun işini aparmaq üçün Əsasnamənin hazırlanması A.O.Dalavasseraya tapşırıldı. Azərbaycanşünaslıq kursları Azərbaycan və rus dillərində aparılırdı. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Bakı Siyasi Maarif idarəsindən, Kitabxana kollektorundan Azərbaycanşünaslıq kursları üçün Qafqaza aid qədim nəşrlərdən əvəzsiz olaraq verilməsi ilə yanaşı, eyni zamanda Bakı şəhər kitabxana şəbəkələrindən birinin inventarla birlikdə bu kurslar üçün istifadəyə verilməsi xahiş edilir.

1924-cü il iyul ayının 24-də Zaqafqaziya MİK 2-ci sessiyasının «Dil haqqında» deklarasiyasının yerinə yetirilməsinin nəticəsi olaraq Azərbaycan MİK «Dövlət müəssisələrində dövlət dili və əhalisinin çoxluq və ya azlıq təşkil etdiyi ərazilərdə əhalinin dillərinin tətbiqi haqqında» dekret verilmişdi. Bu dekretin birinci maddəsində göstərilir: «Azərbaycan SSR dövlət dili türk dilidir». Dekretin ikinci maddəsində qeyd edilirdi ki, əhalinin sayı çoxluq təşkil edən qəzalarda digər dillərindən də istifadə edilə bilər. Dövlət qanunvericilik aktları türk dilindədir və Azərbaycan SSR-nin bütün ərazisində qüvvədədir. Dövlət sənədləri dövlət dili ilə yanaşı rus, erməni, gürcü dillərində də çap edilir.

Bunun nəticəsi idi ki, o dövrdə xüsusilə ermənilərin azlıq təşkil etdiyi bəzi ərazilərdə Azərbaycan dilində sənəd və yazışmalar azlıq təşkil etmiş, bütün işlər erməni dilində aparılmışdır. Hətta əhalisinin tərkibi müsəlmanlardan ibarət olan kəndlərin məktəblərində və kitabxanalarında Azərbaycan dilində ədəbiyyat və dərsliklər yox dərəcəsində idi.

1924-cü ilin sentyabr ayında Cəmiyyət tərəfindən Bakı şəhərində I Ümum Azərbaycan ölkəşünaslıq qurultayı çağırıldı [17, v.92]. Qurultayda Azərbaycan SSR-dən Quliyev, Gürcüstandan prof. Axvlediani, Dağıstandan Malaçı-Xan, Ümumrusiya Şərqşünaslar Assosiasiyası və RSFSR ölkəşünaslıq bürosundan prof. Samoyloviç, Şimali Qafqaz Ölkəşünaslıq Təşkilatından Vilyams, Nərimanov, qəza bölmələrinin nümayəndələri və s. iştirak edirdilər. Qurultayı giriş nitqi ilə Azərbaycan SSR MİK sədri S.Ağamalıoğlu açdı. Qurultay 4 gün ərzində plenum və bölmələrdə 30-dan çox məruzə dinlədi. Bu məruzəlirin içərisində Ə.Haqverdiyevin «Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyəti haqqında» hesabat məruzəsi, H.Cəbiyev və prof. İ.Fiqurovskinin «Ölkəşünaslıq işləri təşkilinin metodları», T.Şahbazinin «Azərbaycan SSR-də Qədim abidələr və arxeoloji tədqiqatların təşkili haqqında», D.Şərifovun «Azərbaycanda Muzey işi», A.Sübhan-Verdixanovun «Arxiv fondları» haqqında məruzələri diqqətəlayiq idi. İqtisadiyyat və təbiətşünaslıq bölməsinin iclaslarında Azərbaycan alimlərinin pambıqçılığın bərpası, respublikanın bitkiçiliyi və torpaqşünaslığının öyrənilməsi, Dağlıq Qarabağ və Naxçıvanın iqtisadiyyatı və s. sahələrə aid məruzələr müzakirə edildi.

Qurultayda iştirak edən N.Nərimanov öz məruzəsində Bakıda Ümumittifaq Türkoloji qurultayın çağırılmasının vacibliyini əsaslandırır. Bu məqsədlə qurultay S.A.Ağamalıoğlunun sədrliyi ilə xüsusi yeni əlifba komissiyası yaratdı. T.Hüseynov, F.Ağazadə, İ.Axundzadə Q.İmanov, V.Xuluflu və başqaları komissiyanın tərkibinə daxil idi. Hələ 1922-ci ildə Azərbaycan MİK nəz-

dində daimi Yeni Türk Əlifbası Komitəsi yaradılmışdı. Yeni Türk Əlifbası Komitəsinin tərkibinə S.Ağamalıoğlu (sədr), X.Məlikaslanov, Ə.Pepinov, Ə.Tağızadə, F.Ağazadə, V.Xuluflu, T.Hüseynov və s. daxil idi [178, 61]. Eyni zamanda qurultay, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinə kitabxananın əlyazmalar və qədim çap əsərləri ilə zənginləşməsini, Azərbaycanşünaslıq üzrə kadr hazırlamaq üçün məktəbin təşkil edilməsini, elmi ədəbiyyatın çap edilməsi üçün nəşriyyatın yaradılmasını tapşırdı. Kadr hazırlığı məqsədilə müxtəlif kursların da təşkil edilməsini məqsədəuyğun saydı.

Ölkəşünaslıq qurultayından sonra Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin işi sanki qurultayın çağırılması ilə işini bitmiş sayaraq xeyli zəifləməyə başladı. 1925-ci ilin may ayında keçirilən iclasda qeyd olunduğu kimi, cəmiyyətdə kitabxananın kataloqlaşdırılması işindən başqa heç bir iş getmirdi. Cəmiyyət borc içərisində olduğundan elmi işləri davam etdirməsi üçün maddi vəsaiti yox idi. Bu iclasdan sonra cəmiyyətin fəaliyyətinin ölkənin ictimai, iqtisadi həyatındakı rolunu dərk edərək Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Azərbaycan MİK tabeçiliyinə verilməsi haqqında məsələlər müzakirə edilməyə başlandı. Bundan sonra cəmiyyətin Rəyasət Heyəti özünün yeni nizamnaməsini hazırladı və oraya öz işlərini müasir dövrün problemləri ilə əlaqədar qurması haqqında müddəalar saldı.

1925-ci il iyul ayının axırında Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin həyatında mühüm dəyişikliklər oldu [17, v.105].

Cəmiyyətə yeni işgüzar qüvvələrin gəlməsi ilə 3 bölmənin işini yenidən qurmaq mümkün oldu:

1. Tarix-etnoqrafiya;
2. Sosial iqtisadiyyat;
3. Türkologiya bölməsi.

Eyni zamanda cəmiyyətin kitabxanası ilə Biblioqrafiya Bürosunun işi birləşdirilərək Kitabxana-Biblioqrafiya Bürosu yara-

dıldı [195]. Paralel olaraq ölkəşünaslıq qurultayının qərarlarına müvafiq, həmçinin yeni əlifba islahatı ilə əlaqədar olaraq I Ümumittifaq Türkoloji qurultayın çağırılması üçün hazırlıq işləri aparılırdı. 27 iyun 1927-i ildə Azərbaycan MİK Yeni Türk Əlifbasının «hamı tərəfindən məcburi istifadəsi» haqqında dekret verdi. Dekretin verilməsində bir tələskənlik olduğu qeyd edilməlidir. Çünki, dekretin bu tarixdən məcburi icrası üçün lazımi baza hazırlanmamışdı. Yəni dərslik və dərs vəsaitləri, ədəbiyyat çap edilməmişdi. Buna görə də 1925-ci ilin martında keçirilən IV Ümum Azərbaycan Sovetləri qurultayının qərarı ilə ibtidai siniflərdə yeni türk əlifbası tətbiq edildi ki, bu da sonrakı 8 illik təhsil üçün baza rolunu oynadı.

Yeni türk əlifbasına keçid eyni zamanda ölkədə gedən savadsızlığın ləğvi ilə paralel aparılırdı. İbtidai siniflərin latın əlifbasına keçməsi, savadsızlığın ləğvi üzrə dərnəklərin açılması əhalinin savadlanmasına səbəb olurdu. Bu inkişaf latın əlifbası ilə nəşr edilmiş ədəbiyyata tələbatı artırırdı. Buna görə də Yeni Türk Əlifbası Komitəsinin xüsusi Komissiyasının qərarına əsasən bəzi nəşriyyatlar hissə-hissə (25%) latın əlifbası ilə kitablar çap etməyə başladı. 1925-ci ildə latın əlifbası ilə 728 min nüsxə tirajla 96 adda kitab nəşr edildi.

Paralel olaraq latın əlifbasının geniş xalq kütlələri arasında təbliğində mətbuatın da rolu böyük oldu. Respublikada ərəb əlifbası ilə çap edilən bəzi qəzet və jurnallar öz saylarında bütöv bölmələri latın əlifbası ilə çap edirdilər. Belə mətbuat nümunələrinə misal olaraq «Kommunist», «Yeni fikir», «Yeni Gəncə», «Molla Nəsrəddin», «Qızıl Qələmlər», «Yeni yol», «Gələcək» və s. göstərmək olar.

Aparılan işlərin nəticəsində 1925-ci ilin oktyabrında 32.744 nəfər yeni türk əlifbası ilə öz savadsızlığını ləğv etmişdi. Yeni Türk Əlifbası Komitəsi ilə birgə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti digər türk dilli ölkələrdə latın əlifbasına keçilməsi ideyasının hansı səviyyədə olduğunu öyrənmək üçün Orta Asi-

yaya, Krıma, Ufaya, Kazana ezamiyyətlər təşkil etdi.

Azərbaycan dövləti Ümumittifaq Türkoloji qurultayın keçirilməsi üçün 100.000 rubl vəsait ayırdı.

I Ümumittifaq Türkoloji qurultay 1926-cı il fevral ayının 26-dan mart ayının 5-dək Bakıda keçirildi [13, v.93]. Qurultayın işində SSRİ-nin müttəfiq respublikaları, ölkə və vilayətlərinin, xarici ölkələrinin elmi ictimaiyyətinin 600-ə qədər nümayəndəsi iştirak edirdi [85]. Türkoloji qurultayın qərarlarında nəşriyyatlardan yeni tədris kitabları nəşr etmək tələb olunurdu. Eyni zamanda göstərilirdi ki, Azərbaycanı yeni mədəniyyət yollarında görmək üçün din, teatr, ədəbiyyat, sənət sahəsində birdəfəlik «əski baxış və ideolojidən əl çəkmək lazımdır» [113]. Bunun nəticəsi idi ki, ərəb əlifbası ilə nəşr edilmiş ədəbiyyat qurultayın qərarlarına məhəl qoyulmadan yenidən latın qrafikası ilə nəşr edilməmiş, kitabxanalardan yığışdırılmış, əksəriyyəti isə məhv edilmişdi.

Cəmiyyətin əlifba komissiyası ali məktəb və ictimai cəmiyyətlərdə böyük hazırlıq işləri aparmış, SSRİ-də yaşayan türk xalqlarının istifadə etdiyi əlifbaların əyani sərgilərini təşkil etmişdi. Eyni zamanda, təşkil edilmiş sərgilərdə təklif olunan yeni əlifbanın layihəsi də nümayiş etdirilirdi. Qurultayda ölkənin görkəmli şərqşünaslarının latın əlifbasına keçilməsinin əhəmiyyətini sübut edən məruzələri dinlənildi. Yeni əlifbanın tətbiqini gücləndirmək üçün S.A.Ağamalıoğlunun sədrliyi ilə Ümumittifaq «Yeni Türk Əlifbası Mərkəzi Komitəsi» yaradıldı. Komitənin tərkibinə R.Axundov, T.Quliyev, H.Cəbiyev və M.Quliyev daxil edildi [179]. Qısa bir müddət ərzində SSRİ-nin digər türkdilli dövlətlərində də latın əlifbası tətbiq edilməyə başladı. Azərbaycan xalqı bütün Şərq xalqları qarşısında yeni əlifbanı həyata keçirməklə qəti addım atmış oldu. Fəhlə, kəndli, əsgər və matros sovetləri I Ümum Azərbaycan Ölkəşünaslıq Qurultayının qəbul etdiyi qətnamədə türk dilinin inkişafını təmin etmək məqsədi ilə latın əlifbasına keçilməsinin məcburiliyi və bu məqsədlə

kursların təşkil edilməsi göstərilirdi. Qurultayın qərarlarında göstərilirdi ki, yeni əlifbaya keçilməsinə baxmayaraq, əvvəllər ərəb əlifbası ilə nəşr edilmiş mənəvi sərvətlərimizdən imtina edilmir, onları yenidən latın əlifbası ilə çap edib təbliğ etməklə yanaşı, kitabxanalarda mühafizə edib gələcək nəsillərə ötürmək lazımdır. Çox təəssüflə qeyd edilməlidir ki, bu qurultayın qərarları da kağız üzərində qaldı. Hətta bəzən ərəb əlifbası ilə nəşr olunmuş ədəbiyyat «zərərli və lüzumsuz» kağız kimi «panislamist» damğası vurularaq atılır və ya «kitab qəbiristanlığı»ında dəfn edilirdi.

Yeni əlifbanın tətbiqi Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin elmin inkişafında göstərdiyi xidmətlərdən biri idi. Lakin onu da qeyd etmək lazımdır ki, AXC hökuməti də əlifba islahatları aparılması üçün 1919-cu ilin mart ayında X.Məlikaslanovun sədrliyi ilə əlifba islahatı üzrə xüsusi komissiya yaratmışdı [11, v.174]. Aprel işğalı ilə bağlı AXC-nin başladığı bir çox işlər kimi o da yarımçıq qalmışdı.

Cəmiyyət hələ 2 dekabr 1923-cü il iclasında mətbuat orqanı yaratmaq haqqında qərar qəbul etmişdi. İlk vaxtlar «Bülletenlər» çap edilirdi. Cəmiyyət bu bülletenlərin çap edilməsi üçün 7.330 rubl ayırmışdı [11, v.209].

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti fəaliyyətini genişləndirərək 1925-ci ildə özünün «Xəbərlər»ini nəşr etməyə başladı. Cəmiyyət nəşriyyat işləri ilə əlaqədar olaraq 4 noyabr 1925-ci ildə «Nəşriyyat işi» üzrə X.Terequlov, Ç.İldırım, A.Dalavassera, H.Zeynallıdan ibarət komissiya yaratdı. «Xəbərlər» ilk vaxtlar rus dilində, 1928-ci ildən isə türk dilində nəşr edildi. Cəmiyyətin həyatında baş verən bu hadisə Azərbaycanın elmi, mədəni həyatında böyük əhəmiyyətə malik idi. Azərbaycan xalqı «Xəbərlər»də çap olunmuş məqalələr vasitəsi ilə öz tarixi adət və ənənələrinə bir daha nəzər salmaq imkanı qazandı. İlk sayda prof. Meşşaninovun «Доисторический Азербайджан и урартская культура», prof. Çobanzadənin «Тюркологический

съезд Азербайджана», V.M.Sısoyevin «Тюркское население Азербайджана в XVII веке», Qubeydullinin «Развитие исторической литературы на поволжском тюрко-татарском языке», E.Paxomovun «О сословно-земельном вопросе в Азербайджане», V.Millerin «Предварительный отчет о поездке в Талыши летом 1925 г.» kimi elmi-tədqiqat işlərinin nəticələrinə həsr olunmuş samballı məqalələr çap olundu. Qeyd etmək lazımdır ki, Əbdullətif Əfəndinin «Şəki xanlığı tarixi» adlı tərcüməsi və s. materiallar «Xəbərlər»in ilk sayının əhəmiyyətini artırırdı. Eyni zamanda A.R.Zifeldtin Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin 2 noyabr 1923-cü ildən 8 noyabr 1925-ci ilə qədərki bir dövrü əhatə edən 2 illik fəaliyyəti haqqında hesabatı da verilmişdir. «Xəbərlər»in 1-ci sayında 4 dekabr 1925-ci ilə qədər cəmiyyətin müxtəlif bölmə və komissiyalarında oxunan məruzələrin biblioqrafik siyahısı, Cəmiyyətin Nizamnaməsi, yerli bölmələr haqqında Əsasnamə, Cəmiyyətin strukturu, Azərbaycanın sənaye və ticarəti haqqında oçerklər və s. «Əlavələr» adlı bölmədə verilmişdir.

Azərbaycanı tədqiq və tətəbbö cəmiyyəti şifahi xalq ədəbiyyatının, xalqın ədəbi irsinin tədqiq edilməsi üçün C.Məmmədquluzadə, Ə.Haqverdiyev, A.Sübhan-Verdixanov, Ü.Hacıbəyov, H.Zeynallı, S.Mümtaz, Y.V.Çəmənzəminli, H.Əlizadə və A.Baqridən ibarət xüsusi komissiya təşkil etdi. Bakı Universitetinə türk-tatar xalqlarının tarixinə aid mühazirələr oxumağa dəvət edilmiş A.Bartold Azərbaycan xalqının ən qədim mədəni abidəsi sayılan «Kitabi-Dədə Qorqud» dastanının müəyyən hissələrini rus dilinə çevirdi.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin fəaliyyətinin 2 illiyi ərəfəsində Rəyasət heyəti 1925-ci il 4 noyabr tarixli iclasında «Azərbaycan» adlı filmin çəkilməsini qərara alır [19, v.8]. Bu filmin çəkilməsi Azərbaycanın mədəni həyatında böyük hadisə idi və Azərbaycanın kino tarixində xüsusi əhəmiyyət kəsb etmiş oldu.

1927-ci ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti N.İ.Meşşaninovun «Археологическая экспедиция общества в Нагорный Карабах и Нахкрай» əsərini çap etdi.

1927-ci ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti xüsusi əhəmiyyətinə görə Azərbaycan MİK-in tabeçiliyinə verilir.

1927-ci ildə cəmiyyətdə min nəfərə yaxın alim və mütəxəssis çalışırdı [132,75].

1928-ci ilin 18 noyabrında cəmiyyətin Rəyasət Heyəti katibliyə tapşırır ki, Azərbaycana aid Gürcüstanın Dövlət Arxivində saxlanılan materialları əldə etmək və ya istifadə etmək şərtləri öyrənilsin. Çünki bu materiallar əsasında Azərbaycanın tarixi və etnoqrafiyası baxımından yeni elmi araşdırmaların ortaya çıxması üçün onların xüsusi əhəmiyyəti vardır.

1928-ci ildə XMK respublikanın elmi müəssisələrinə beşillik plan hazırlanması barədə göstəriş verdi.

1928-ci ilin noyabr ayında cəmiyyətin 5 illik yubileyi qeyd edildi. Noyabr ayının 4-də Rəyasət Heyətinin iclasında cəmiyyətin yenidən qurulması və onun elmi-tədqiqat institutuna çevrilməsi (XKS-nin 24 oktyabr qərarına əsasən) məsələsinin həlli üçün H.Sultanov, A.Zifeldt, Apresov, Q.Qubeydullin, Smirnov-Loginovdan ibarət komissiya yarandı [21, v.1]. Cəmiyyətin instituta çevrilməsi haqqında məsələ hələ 1926-cı ilin may ayında müzakirə olunmuş və bu məsələnin tezləşdirilməsi üçün H.Sultanova tapşırılmışdı ki, Dövlət Plan Komitəsinin qarşısında məsələ qaldırılsın. Bu dövrdən elmi-tədqiqat institutunun yaradılması daim gündəlikdə olmuşdur.

Cəmiyyətin Rəyasət Heyətinin 1928-ci il 24 dekabrda keçirdiyi iclasında «Yeni türk əlifbasına keçid və aparatın türkləşdirilməsi haqqında» məsələ müzakirə edilir və qərara alınır ki, «Azərbaycan MİK-nin yeni əlifba haqqında 1928-ci il 22 avqust qərarının həyata keçirilməsi üçün cəmiyyətin dəftərxanası və bölmələrin işini gücləndirmək və 1 yanvar 1929-cu ildən tamamilə türk əlifbasına keçmək lazımdır» [18, v.18]. İclasda «Nəş-

riyyat-redaksiya kollegiyasının» işinin yoxlanması haqqında T.Şahbazinin məlumatı müzakirə edildi. Məlumatda qeyd edilirdi ki, 1924-cü ildə yaranan nəşriyyatın işi tez zəiflədi. Materiallar plansız çap edildi. Dövlət dili qəbul edildikdən keçən müddət ərzində türk dilində nəşrlər azlıq təşkil etmişdir. Belə ki, 1926-cı ildən bəri cəmi 25 ədəbiyyat çap edilmişdir. Müzakirələr nəticəsində qərara alınır ki, türk dilinə xüsusi diqqət yetirilsin. Xəbərlər mütəmadi olaraq türk dilində çap edilsin və geniş yayılması təmin edilsin. Eyni zamanda 1929-cu ilə qədər çap olunmuş və anbarlarda qalan kitablar 50% ucuzlaşdırılsın. Yazıların keyfiyyətinin yaxşılaşması üçün yazıya görə verilən qonorarın artırılması da qərarda xüsusi qeyd olunurdu. 1929-cu ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti XMK Baş Elmi İdarəsinin tabeçiliyinə keçdi.

Azərbaycanı tədqiq və tətəbbö cəmiyyəti özünün 6 illik fəaliyyəti dövründə I Ümum Azərbaycan Ölkəşünaslıq qurultayının, I Ümumittifaq Türkoloji qurultayın keçirilməsini təşkil etmiş, eyni zamanda türkləşdirmənin, latın qrafikasına keçidin təşkilatçısı olmuşdur. Cəmiyyət Azərbaycan elminin təşəkkülündə və inkişafında xüsusi rol oynamış və 20-ci illərdə ilk elmi-tədqiqat mərkəzlərinin yaranmasına, birgə fəaliyyətinə şərait yaradaraq elmi kadrlar potensialının formalaşmasında yardımçı olmuşdur.

## 2.2. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin elmi kitabxanasının yaranması və fəaliyyəti

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti qısa müddət ərzində səmərəli elmi fəaliyyət göstərmiş, respublikada elmin, mədəni-maarif işinin inkişafına öz müsbət təsirini göstərmişdir. Bu cəmiyyət respublikanın tarixinə, etnoqrafiyasına və iqtisadiyyatına dair materiallar toplayır, tədqiq edir və elmi şəkildə işləyə-

rək nəşrə hazırlayırdı. Eyni zamanda, bu tədqiqatların, nəşrlərin elmi ictimaiyyət arasında geniş təbliğ olunması və yayılması işinin təşkilini də cəmiyyət öz üzərinə götürürdü.

Buna görə də Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaranmasının birinci ilində – 1923-cü ilin noyabr ayının 4-də Biblioqrafiya Bürosu və noyabrın 18-də isə kitabxana təşkil olunması haqqında qərar qəbul edildi.

1923-cü il noyabr ayının 4-də Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yığıncağında təşkilat komitəsi biblioqrafiya komissiyasının rəhbəri prof. A.V.Baqrinin məruzəsini də dinlədi və qərara aldı ki, Cəmiyyətin Mərkəzi Şurası yanında Biblioqrafiya Bürosu yaradılsın [10, v.4].

Biblioqrafiya Bürosuna rəhbərlik etmək ədəbiyyatşünas, biblioqraf prof. A.V.Baqriyə tapşırılır. Biblioqrafiya Bürosu elmi-tədqiqat işlərinə biblioqrafiya xidmətini genişləndirmək məqsədi ilə gərgin axtarışlar aparır. Cəmiyyətin Rəyasət heyəti Biblioqrafiya Bürosuna ilk dövrlər üçün tam olmasa da Azərbaycan haqqında olan çap məhsullarının əlifba göstəricisinin hazırlanması işinə başlamağı tövsiyə edir. Bundan sonra büro bu yöndə işlərini qurmağa başladı. Belə ki, Biblioqrafiya Bürosunun yaranmasından ötüb keçən müddət ərzində 5 çap vərəqi həcmində «Материалы для библиографии Азербайджана» göstəricisinin birinci buraxılışını çapa hazırladı [10, v.10]. Qeyd etmək lazımdır ki, keçən il ərzində Azərbaycanın biblioqrafiyası ilə Maarif evində də intensiv iş aparılmışdı. Azərbaycan Maarif İttifaqının hesabına A.V.Baqrinin tərtib etdiyi «Материалы для библиографии Азербайджана» biblioqrafiyasının ikinci buraxılışı da çap edildi. Ümumilikdə, 1924-25-ci illər ərzində Azərbaycana dair biblioqrafiyanın 3 buraxılışı və 1926-cı ildə isə həmin biblioqrafiyanın mövzu göstəricisi nəşr edildi [72; 73]. 1924-cü il dekabr ayında Moskvada Ümumrusiya Biblioqrafiya Qurultayı keçirildi. Qurultay müntəzəm olaraq informasiya əlaqələrinin yaranması, birgə biblioqrafik işlərin həyata keçirilməsi

üçün gələcək biblioqrafiya qurultaylarında iştirak etmələri xahişi ilə SSRİ-nin müttəfiq respublikaları biblioqrafiya bölmə və müəssisələrinə müraciət məktubu göndərmişdi [15, v.67]. Belə bir məktub Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinə də göndərilmişdi. Bu müraciətdən sonra cəmiyyətin Biblioqrafiya Bürosu SSRİ-nin biblioqrafiya işi ilə məşğul olan idarə və müəssisələri ilə sıx əlaqələr qurmağa çalışmış bir sıra iri şəhərlərə ezamiyyətlər təşkil etməyi qərara almışdı.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Biblioqrafiya Bürosu ilə yanaşı, təsis yığıncağında öz kitabxanasının da yaranması haqqında məsələ qaldırır. Lakin, Rəyasət Heyəti tərəfindən hələlik kitabxananın yaradılması məqsədəuyğun sayılmır və Baş Siyasi Maarif İdarəsinin nəzdində olan Bakı kitabxanalarından birinin fondundan istifadə etmək üçün icazə verilməsi xahiş edilir. Cəmiyyətin 1923-cü il 18 noyabr iclasında İ.F.Blinov elmi müəssisələrin nəşrlərinin pulsuz olaraq əldə edilməsi, hətta, lazım olan elmi əsərlərin pulla alınıb bir yerə yığılması və kitabxana təşkil edilməsi təklifi ilə məruzə etdi. Məruzəni dinləyən iclas respublikanın kitabsaxlayıcılarından alınan, elmi idarələrin nəşrlərindən mübadilə olunan kitabları və əlyazmalarını bir yerə toplayıb cəmiyyətin öz xüsusi kitabxanasının yaradılması haqda qərar qəbul etdi [10, vv.7, 207]. 1923-cü il 14 dekabrda cəmiyyətin fəaliyyəti barədə məlumat verən A.N.Samoyloviçin məruzəsinin «e» bəndində qeyd edilir ki, «cəmiyyətin Müvəqqəti Şurası artıq öz kitabxanasının təşkilinə başlamışdır. Belə ki, təşkil olunandan bu günə qədər kitabxanaya cəmiyyət üçün lazım olan xeyli sayda ədəbiyyat gəlməyə başlamışdır» [133; 10, v.10]. Azərbaycanın möhtəşəm və zəngin kitabxanalarından biri olan AMEA Mərkəzi Elmi Kitabxanası, elmi-sahə kitabxanalarının ilk rüşeymi kimi həmin vaxtdan – 1923-cü ilin noyabrından müasir dövrümüzə qədər müvəffəqiyyətlə fəaliyyət göstərməkdədir.

Elmin inkişafında kitabxanaların bir baza rolu oynadığını

nəzərə alan Azərbaycanı tədqiq və tətəbbö cəmiyyəti yarandığı birinci ildə özünün kitabxanasını təşkil etdi. Təşkil edilərkən kitabxananın fondu 430 nüsxə kitab və 200 qiymətli əlyazmalardan ibarət idi [16, v.8].

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti 1923-cü il 25 noyabrda Petroqrad Elmlər Akademiyasının «Восток» jurnalı redaksiyasına jurnalın saylarının cəmiyyətə göndərilməsi xahişi ilə məktubla müraciət etdi [12, v.22]. Belə məktublar «Новый восток», «Нефтяное дело», «Экономический вестник АССР» və s. jurnalların da redaksiyalarına göndərildi. Belə əlaqələrin nəticəsində alınan ədəbiyyat cəmiyyətin təzəcə təşkil olunmuş kitabxanasında toplanırdı. Kitabxana 1924-cü ildə «Yeni fikir», «Aşkariyyat», «Kommunist» (türk dilində), «Экономический Вестник», «Нефтяное хозяйство», «Советское строительство», «Красный Баку», «Известия ЦСУ», «Бюллетень статистического отдела Бак-совета», «Бюллетень Биржы», «Бюллетень Бакинской Гидрометерологической Обсерватории», «Правда», «Известия ЦИК СССР», «Заря Востока», «Бакинский рабочий», «Рабочая газета» və s. müxtəlif adda qəzet və jurnalları pulsuz olaraq almışdı.

Kitabxananın fondunda olan materiallar haqqında oxuculara məlumat vermək və kitabxana fondunun axtarış sistemini təmin etmək üçün əvvəlcə kataloqlar tərtib olunmağa başlanmış və bununla da, biblioqrafik işin təməli qoyulmuşdur.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin Mərkəzi Şurasının 1924-cü il 14 may iclasında Biblioqrafiya Bürosunun işi haqqında büronun rəhbəri A.V.Baqri məruzə etdi. Baqri Biblioqrafiya Bürosunun elmi-tədqiqat işlərinin inkişaf etməsinə əhəmiyyətli dərəcədə köməyi ilə yanaşı, büronun işindəki nöqsanları da qeyd etdi. Onun məruzəsi müzakirə edildikdən sonra cəmiyyətin Mərkəzi Şurası Rəyasət Heyətinə tapşırdı ki, kitabxanada aparılan kataloqlaşdırma işi ilə Biblioqrafiya Bürosunun işində paralelçilik olduğuna görə cəmiyyətin kitabxanası Bib-

lioqrafiya Bürosu ilə birləşdirilsin. Rəyasət Heyətinin 1925-ci il 9 avqust tarixli iclasının qərarına əsasən kitabxana və Biblioqrafiya Bürosu birləşdirilib «Kitabxana-Biblioqrafiya Bürosu» yaradıldı və Hənəfi xan Zeynallı büronun sədri seçildi [10, v.116].

Xalq təsərrüfatında yeni təsərrüfat sisteminə keçilməsi və inkişafı dövründə Azərbaycanda mədəni-maarif işinin, elmin inkişafı, çap məhsullarının inkişafı ilə əlaqədar olaraq, respublikanın müasir həyatına aid müxtəlif məsələlərin işıqlandırılması, ayrı-ayrı elmi müəssisələrin elmi arayışlarla təmin edilməsi günün nəzərə çarpacaq dərəcədə əhəmiyyətli məsələlərindən biri idi. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin nəzdində yaranan Kitabxana-Biblioqrafiya Bürosu bu işi tam əhatə edə bilmirdi. Buna görə də xüsusi bir elmi məlumat şöbəsinin yaranması zərurəti meydana çıxdı. Kitabxana elmi-məlumat xarakterli və diyarşünaslıqla bağlı ədəbiyyatla müntəzəm olaraq komplektləşdirilmədiyinə görə, belə bir işin təşkili üçün geniş imkan yox idi. Cəmiyyət Azərbaycanda elmin sürətli inkişafında elmi-məlumat şöbəsinin mühüm əhəmiyyəti ola biləcəyini nəzərə alaraq qısa müddət ərzində kitabxananın kitab fondunu Azərbaycana, ona qonşu dövlətlərə, elmin müxtəlif sahələrinə dair qiymətli materiallarla zənginləşdirdi. Bu isə artıq elmi-məlumat şöbəsinin yaradılması üçün zəmin yaratmışdı [87].

Qeyd etmək lazımdır ki, hələ 1921-ci ilin iyun ayında V.İ.Lenin bütün bilik sahələrinə dair xarici ədəbiyyatın əldə edilməsi və ölkədə yayılması haqqında XKS dekretini imzalamışdı. Bu dekretlə ölkədə məlumat sisteminin əsası qoyulmuşdu ki, Azərbaycanda da, bu işin təşkilinə böyük ehtiyac əmələ gəlmişdi. 1925-ci ilin 29 avqustunda Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin iclası çağırıldı. İclasda Azərittifaqdan Xuramoviç, Azərbaycan Statistika İdarəsindən Mixels, Azərbaycan Hərbi məktəbindən Axundzadə, İnqilab Muzeyindən Əhmədov, Azərbaycan MİK-dən Xalyavin, Bakı Sovetindən Neçayev, Azərneftdən Kesselman, Arxiv Komitəsindən Sısoyev və s. işti-

rak edirdi. İclası açan Ç.İldırım göstərirdi ki, respublikada elmin müxtəlif sahələri üzrə aparılan elmi-tədqiqat işləri inkişaf edir. Bu işi daha da sürətləndirmək üçün vaxtaşırı elmi arayışlara ehtiyac duyulur. Belə ki, elmi işçiləri yazılı və şifahi arayışlarla vaxtında təmin etmək üçün elmi-məlumat şöbəsinin yaranması ən vacib məsələ kimi gündəlikdə durur. Çıxış edən A.Dalavassera qeyd edir ki, belə bir məsələ xeyli vaxtdır öz həllini gözləyir. Belə bir elmi aparat respublikada bütün sahələrə dair elmi və faktiki məlumatlara aid suallara tez və operativ cavab verməklə yanaşı, ölkənin bütün təşkilat və idarələrinin fəaliyyətini bu istiqamət üzrə birləşdirməlidir. Bu aparatın və ya şöbənin yaradılmasında məqsəd Azərbaycan haqqında hər növ arayışlara ehtiyacı olanların tələbini ödəməkdir. Cəmiyyətin qiymətli kitabxanası bu işdə baza rolunu oynaya bilər. Bu zaman kitabxananın fondunda 10.000 ədəbiyyat toplanmışdı ki, bunların içərisində hətta nadir ədəbiyyatlar da var idi. Müzakirələr nəticəsində kitabxana bazasının mövcudluğu əsas götürülərək qərara alınır ki, «Elmi-məlumat şöbəsi»nin yaranması vacib sayılsın. İşə Azərbaycanın yaşayış yerlərinin (ərazisi, əhalisi) təsviri və biblioqrafiyasının, yəni coğrafi kataloqun yaranması ilə başlamağın lazım gəldiyi göstərilir. Beləliklə, iclasın qərarına əsasən elmi-məlumat şöbəsi yaradılır [10, v.115]. Ölkənin təsərrüfat orqanlarının, xüsusilə, elmi müəssisə və idarələrinin elmi-məlumata olan tələblərini ödəmək şöbənin əsas vəzifəsi idi. Verilən arayışlar müxtəlif formada idi. Bu arayışlar sadə arayışlarla yanaşı, eyni zamanda kompleks nəzəri elmi arayışları da əhatə edirdi. Belə arayışlar respublikanın elmi işçilərinin tələbləri ilə hazırlanaraq elmi-tədqiqat işlərinin səmərəli şəkildə inkişaf etməsinə köməklik göstərirdi. Elmi-məlumat şöbəsinin işinin keyfiyyətini yaxşılaşdırılmaq üçün şöbə müxtəlif göstəricilər və məlumat xarakterli materiallarla təmin olundu.

1926-cı ildə kitabxanada oxu zalı və elmi-metodik kabinə yaradılmışdı [10, v.146]. 2 aprel 1926-cı ildə Rəyasət Heyəti Zi-

feldt, Şabanov və Dalavasseraya «Kitabxanadan istifadə qaydaları»nı işləyib hazırlamağı tapşırdı.

Kitabxana öz fondunu həm cəmiyyətin özünün nəşr etdiyi kitablarla, həm də mübadilə yolu ilə cəmiyyətin əlaqə saxladığı SSRİ-nin bütün elmi müəssisələrinin nəşrləri ilə komplektləşdirirdi. 1928-ci ildə Azərbaycan Dövlət Kitab Palatası Ümumittifaq Mədəni Əlaqələr Cəmiyyəti vasitəsi ilə Amerika və Almaniyanın elmi müəssisələrindən ölkəşünaslığa dair 4 adda ədəbiyyat alıb kitabxanaya verdi [46, v.64]. Eyni zamanda Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti də öz nəşrlərini SSRİ-nin elmi cəmiyyət və kitabxanalarına göndərirdi. Məsələn, akademik A.V.Bartoldun «Xəzəryanı ərazilər və müsəlman dünyası tarixi» əsərini aldığı üçün Daşkənd Mərkəzi Asiya Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin kitabxanası cəmiyyətə öz təşəkkürünü bildirir və mübadilə üçün «Divani-Məşrəb» kitabını göndərir. Kabardin-Balkar «Ölkəşünaslıq Cəmiyyəti» və s. elmi mərkəzlər və kitabxanalar da öz əsərləri ilə mübadilə üçün cəmiyyətə müraciətlər etmişdilər. Sürətlə inkişaf edən kitabxana Biliklərin populyarlaşdırılması bürosunun binasında yerləşirdi. Kitabxananın fondu yarıqaranlıq bir otaqda rəflərdə düzülmüşdü. Kitabxananın geniş və təmir olunmuş kitabxana üçün yararlı otaqla təmin olunmasına ehtiyac var idi. Bu vəziyyəti nəzərə alan Rəyasət Heyəti 10 mart 1926-cı ildə kitabxana üçün 4 otaq verilməsini qərara alır [10, v.143]. 1928-ci ildə Kitabxana komissiyası yaradılır. H.Sultanov komissiyanın sədri seçilir. Kitabxana komissiyasının tərkibinə seçilən alimlər Q.S.Qubeydullin, A.R.Zifeldt, K.A.Krasusski kitabxananın işində fəal iştirak edən alimlər idi.

1925-26-cı illərdə kitabxananın fondunda 20.000 kitab və çoxlu əlyazmaları var idisə, 1928-ci ildə 25.000 nüsxə ədəbiyyat cəmləşmişdi. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin və onun kitabxanasının qarşısında bu əlyazmaları çap etdirib öz oxucusuna çatdırmaq vəzifəsi də dururdu. Bu materialların çoxu

Azərbaycana, Qafqaza, türkologiyaya-ümumilikdə şərqşünaslığa aid idi. Kitabxana fondunun bu tərkibi Azərbaycanın gənc alim və tədqiqatçılarına hərtərəfli xidmət göstərməkdə böyük rol oynayırdı.

1929-cu ildə Azərbaycanda sovet hakimiyyətinin yaranmasının 9 illiyi ilə əlaqədar olaraq kitabxana fondunda olan nadir və qiymətli ədəbiyyat da daxil olmaqla zəngin bir kitab sərgisi təşkil etdi. Kitabxananın 1929-cu il hesabatında göstərilir ki, kitabxana Azərbaycana və Şərqə aid çox qiymətli materiallarla zəngindir. Mütəmadi olaraq hətta, xarici ölkələrdən belə mətbuat alınır. Fondun belə zənginləşməsi kitabxanadan istifadə edən oxucuların da sayının getdikcə artmasına səbəb olurdu. Belə ki, 1929-cu ildə hər gün orta hesabla 70 oxucu kitabxanadan istifadə edirdi [10, v.38]. 1929-cu ildə XMK Baş Elmi İdarəsi ilə birgə Daxili və Xarici Ticarət Komissarlığı 11 fevral tarixdə «Sərhəddən poçt bağlamalarında kitabların keçirilmələri qaydaları» haqqında qərarı oldu [23, v.62]. Bu qərara görə kitablar ancaq mədəniyyətin təbliği, beynəlxalq kitab mübadiləsi və s. kimi göndərilə bilər. Alimlər və elmi müəssisələr öz nəşrlərini eyni adda yalnız bir nüsxədə «Beynəlxalq kitab» adlı (Международная книга) Səhmdar cəmiyyəti vasitəsi ilə sərhəddən keçirə bilərdilər. Bu qərarın Azərbaycan ərazisindən qiymətli və nadir kitabların xaricə daşınmasının qarşısının alınmasında və mühafizəsinin təşkilində böyük rolu oldu.

Öz qarşısında elm və texnikanın bütün sahələrinə xidmət etmək vəzifəsi qoyduğundan kitabxana bütün elm sahələrinə dair kitabları öz fonduna toplayaraq təbliğ edirdi.

Azərbaycanda elmi fikrin inkişafı, respublikada elmi kadrların hazırlanması işində mühüm mərkəz olan ali təhsil ocaqları və elmi-tədqiqat idarələrinin yarandığı və inkişaf etməyə başladığı bir dövrdə – Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin kitabxanasının Azərbaycanda ilk fundamental elmi və mədəni-maarif müəssisəsi kimi yaranması ölkənin elmi həyatında mü-

hüm hadisə idi. Kitabxana Azərbaycanda yaranan ilk elmi kitabxana kimi respublikada milli kadrların hazırlanmasında, böyük bir ziyalılar nəslinin dünyagörüşünün formalaşmasında və inkişafında xüsusi rol oynamış, 90 ilə yaxın bir zamanda elmi işçilərə xidmət edən, ölkənin ən iri elmi kitabxanası sayılan AMEA MEK-in özülünü təşkil etmişdir.

# III FƏSİL

# ELMİ-SAHƏ KİTABXANALARININ MADDİ-TEXNİKİ BAZASININ MÖHKƏMLƏNDİRİLMƏSİ VƏ KADR TƏMİNATI MƏSƏLƏLƏRİ

## 3.1. Elmi-sahə kitabxanalarının maddi-texniki bazasının yaradılması və möhkəmləndirilməsi.

Elmin, mədəni maarif işinin əsasını maddi-texniki baza təşkil edir. Eləcə də elmin inkişafına yardımçı müəssisələr sırasında olan kitabxanaların fəaliyyətində də, onların maliyyələşdirilməsi, maddi-texniki bazasının yaradılması və möhkəmləndirilməsi həlledici rol oynayır. Belə ki, maddi-texniki baza hər bir müəssisənin fəaliyyətinin təşkil edilməsi və davam etdirilməsinin əsas stimulu kimi çıxış edir. Hər hansı bir kitabxana yaradılarkən ilk növbədə onun maliyyələşdirilməsi və ilkin maddi-texniki bazası təşkil edilməlidir. Bu iş kitabxanaların müəyyən edilmiş struktur elementlərindən ən əsasıdır.

Maddi-texniki bazanın tərkibinə kitabxana binası, kitab fondu, kitabxana mebeli, avadanlığı, rabitə vasitələri, kitabxanadaxili nəqliyyat, enerji ehtiyatı hissələri, kitabxana proseslərinin avtomatlaşdırma və mexanikləşdirmə vasitələri, surətçıxarma və

surətçoxaltma avadanlığı və kompüter texnikası daxildir [127]. Maddi-texniki baza kitabxana fəaliyyətinin inkişafının optimallığını təmin edir. Maddi-texniki bazanı öz funksiyalarına görə aşağıdakı kimi bölmək olar:

1. Kitabxananın fəaliyyət göstərdiyi bina, otaqlar, qurğular;
2. Kitabxanaların fəaliyyətinin müxtəlif növlərini vahid prosesdə birləşdirən texniki kommunikasiya proseslərinin (texniki vasitələr və kitabxana avadanlıqları) təchizatı.

Kitabxanaların maddi-texniki bazası dedikdə, ilk növbədə kitabların yerləşdiyi yer nəzərdə tutulur. Yəni kitabın daxili və xarici arzu olunmaz təsirlərdən qorunması üçün onların xüsusi otaqda və ya hər hansı bir sahədə yerləşməsi tələb edilir. Kitabxana fondu kitabxana işinə yararlı yerdə xüsusi memarlıq üsulu ilə tikilmiş binada yerləşdirilməlidir. 1998-ci ildə qəbul edilmiş «Kitabxana işi haqqında» Azərbaycan Respublikası Qanununda kitabxanaların ayrıca layihələr üzrə tikilmiş binalarla təmin edilməsi məsələsi xüsusi qeyd edilmişdir [109].

Kitabxanaların maddi-texniki bazasının əsasını təşkil edən kitabxana avadanlığı texnika elmləri ilə kitabxana işi arasındakı əlaqəni şərtləndirir. Maddi-texniki baza öz-özlüyündə kitabxana fəaliyyətinin nəticəsinə təsir etmir. Onun əhəmiyyəti kitabxana proseslərinin gedişində öz təsirini göstərir. Buna görə də kitabxana işinin maliyyələşdirilməsi, onun maddi-texniki bazasının yaradılması kitabxana işinin gələcək inkişafının təminatçısıdır.

Azərbaycanda sovet hakimiyyətinin ilk illərində dövlətin maliyyə sisteminin zəif olduğu bir dövrdə yaranan kitabxanaların maddi cəhətdən təmin olunması çətin, lakin vacib məsələlərdən biri idi. Kitabxanaların sovet hökumətinin əsas təbliğat, təşviqat ocağı olması, savadsızlığın ləğvi kampaniyasında fəal iştirak etməsi onların dövlət və yerli büdcələr tərəfindən birinci növbədə maliyyələşdirilməsini ön plana çəkirdi. Eyni zamanda, müxtəlif təsərrüfat təşkilatlarında sənaye, tikinti, nəqliyyat sahələrində mövcud olan texniki kitabxanalar həmin müəssisələr tə-

rəfindən maliyyələşirdi. Bu kitabxanaların və eləcə də, o dövrdə yaranmış ilk elmi kitabxanaların fəaliyyətini təmin etmək üçün maliyyə vəsaiti tabe olduğu müvafiq təşkilatın maliyyə planı üzrə planlaşdırılır və büdcəsində əks olunurdu. Həmin dövr Azərbaycan İnqilab Komitəsi ərzaq sapalağından yığılan vergini savadsızlığın ləğvi işi üçün bəzən qəzalarda saxlayırdı ki, bundan da kitabxanaların fəaliyyətinin maddi-təminatında istifadə edilirdi.

1924-cü ildə Azərbaycanın ümumilikdə dövlət büdcəsi 18 480 688 rubl olmuşdur [182, 165].

Respublikanın ümumi büdcəsindən xalqın maarifləndirilməsi üçün 4 828 728 rubl həcmində büdcə ayrılması nəzərdə tutulmuşdu. Kitabxanalar Xalq Maarifi Komissarlığının tabeliyində olduğuna görə onların fəaliyyətini tənzimləmək üçün maddi-texniki bazanın formalaşmasına da müəyyən vəsait ayrılırdı.

1925-ci ildə dövlət büdcəsindən xalqın maarifləndirilməsi üçün ayrılan vəsaitin xüsusi çəkisi 26-ya bərabər olmuş və 1928-ci ilə qədər xeyli artmışdır. Bu illər ərzində Azərbaycanın bütövlükdə büdcə artımına nəzər salaq:

1925/26-cı büdcə illərində Azərbaycanın 25.663.306 min rubl illik ümumi büdcəsindən xalqın maariflənməsinə, təhsilinə çəkilən xərclər 7.853.331 min rubl olmuşdur. Bu xərclərin xüsusi çəkisi artaraq 30,4-ə çatmışdır.

1926/27-ci büdcə illərində 29.109.634 min rubldan xalq maarifinə çəkilən xərclər 8.949.526 min rubl təşkil etmişdir.

Nəhayət, 1927/28-ci illərdə respublikanın ümumi büdcəsi 34.588.662 min rubl olmuşdur ki, bu vəsaitdən də 10.684.418 min rublu xalq maarifinə xərclənmiş və müvafiq olaraq onun xüsusi çəkisi də artaraq 30,8-ə çatmışdı. Dövlət büdcəsindən xalqın maarifləndirilməsi üçün çəkilən xərclərin adambaşına düşən miqdarı 1924/25-ci ildə 2 rubl 34 qəpiyə, 1925/26-cı illərdə 3 rubl 88 qəpiyə, 1926/27-ci illərdə 4 rubl 09 qəpiyə və 1927/28-ci illərdə 4 rubl 61 qəpiyə bərabər olmuşdur [182, 165].

Bu məqsədlə xalq maarifi üçün XKS ehtiyat (neft) fondundan 60% ayırmalar əlavə edildi.

Büdcədən xalq maarifinə çəkilən xərclər içərisində elm və mədəniyyət müəssisələrinə çəkilən xərcləri də nəzərdən keçirsək kitabxanaların biblioqrafiya işləri üçün, maddi-texniki təchizatı üçün çəkilən xərclər müəyyənləşər.

1926/27-ci illərdə Azərbaycan Dövlət Ümumi Kitabxanası, Dövlət Arxivi, Kitab Palatası, Qədim Tarixi Abidələrin Qorunması üzrə Komitəyə ümumilikdə 63.149 min rubl vəsait ayrılmışdı. Bu vəsaitdən maddi-texniki bazanın yaradılması və təsərrüfat xərcləri üçün cəmi 20.682 min rubl vəsait ayrılmışdı. Elm və mədəniyyət müəssisələrinin fəaliyyətlərinin tənzimlənməsi üçün 1927/28-ci illərdə büdcədən 88.368 min rubl vəsait ayrılmışdı ki, bundan da həmin təşkilatların və onların elmi kitabxanalarının maddi-texniki təchizat və təsərrüfat işlərinə 19.835 rubl vəsait xərclənmişdi.

1928/29-cu illərdə Baş Siyasi Maarif İdarəsi özünün tabeçiliyində olan kitabxanalara 318.244 min rubl vəsait buraxdı. Bu vəsaitin 10%-i birbaşa maddi-texniki bazanın möhkəmləndirilməsinə çəkilən xərclər idi. Göründüyü kimi 1926-cı ilə nisbətən 1928-ci ildə ümumi büdcənin artmasına baxmayaraq, mədəni-maarif müəssisələrinin, elmi-sahə kitabxanalarının maddi-texniki bazasının təchizinə çəkilən xərclər 4,1% azalmışdır. Bu, ayrılan vəsaitin əmək haqqının artırılmasına yönəldilməsi ilə əlaqədar olmuşdur. Çünki, Azərbaycan Dövlət Ümumi Kitabxanasında orta texniki ştatın artması ilə əlaqədar olaraq əmək haqqına çəkilən xərclər də 47,3% artmışdı.

Buna baxmayaraq, ayrılan vəsait kitabxana fəaliyyətini təşkil etmək üçün kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilmişdi. Buraya fondun artımı ilə əlaqədar olaraq kitab rəflərinin alınması, oxu zalları üçün mebel və digər inventarların alınması daxildir. 1920-ci ilin may ayının 24-də Azərbaycanda dövlət kitabxanasının yaradılması haqqında mə-

sələ Xalq Maarifi Komissarlığı Kollegiyasında müzakirə edildi. Dövlət kitabxanasını lazımi və yararlı bina, kitabxana avadanlığı və texnikası ilə təchiz etmədən onun normal işləməsinə nail olmaq çətin idi. Birinci növbədə dövlət kitabxanası üçün münasib bina tapmaq və kitabxana fondunu komplektləşdirmək üçün əvvəlcədən ədəbiyyat toplanmasına başlamaq lazım idi.

Xalq Maarifi Komissarlığı özünün 1920-ci il 13 noyabr tarixli kollegiyasında Dövlət Kitabxanasının ştatını və smetasını təsdiq etdi [136, 15]. 1922-ci ilin noyabrında keçmiş Birja küçəsi 9№-li evdə Ali İqtisad Şurasının binasında 4 otaq kitabxananın istifadəsinə verilsə də bu bina Dövlət Kitabxanasının nəzərdə tutulan inkişaf perspektivlərinə qətiyyən uyğun deyildi. Buna görə də ona daha yararlı bina tapılması məsələsi heç də gündəlikdən çıxarılmadı.

1923-cü il martın 31-də Baş Siyasi Maarif İdarəsinin kollegiyası Dövlət Kitabxanasının müdiri M.Səlimovun hesabatını dinləyib kataloqların tərtib edilməsini və kitabxananın açılmasını lazım bildi. Bundan başqa kollegiya kitabxananın açılması məqsədi ilə onun maddi-texniki bazasının yaradılması üçün 32 milyardhəcmində pul buraxılmasını qərara aldı [101, 88]. Ayrılmış bu vəsait kitabxananın kitab fondunu komplektləşdirmək və işçi ştatını saxlamaqla yanaşı, kitabxana avadanlığı, kitab rəfləri, müxtəlif inventarlar, stol, stullar, kataloq qutuları, kartoçkalar və s. alınmasına xərclənmək üçün nəzərdə tutulurdu. Bu onu göstərir ki, kitabxana fəaliyyətinin sonrakı inkişafını təmin etmək üçün əvvəlcədən kitabxananın maddi-texniki bazasının təmin edilib möhkəmləndirilməsi vacib amillərdən biridir.

Kitabxananın açılışından sonra onun fondu sürətlə artmağa, oxucularının sayı çoxalmağa başladı.

Kitabxananın yararlı bina və lazımi avadanlıqla təmin edilməsi məsələsi yenidən təxirəsalınmaz bir vəzifə kimi qarşıda dururdu. Kitabxana üçün geniş və yararlı bina tapmaq o zaman müşkül bir iş idi. Böyük çətinliklərdən sonra 1924-cü ilin əv-

vəlində kitabxana o vaxtkı Kommunist (İstiqlaliyyət-A.R) küçəsindəki 10 №-li evə köçürülür.

Kitabxananın fəaliyyətinin genişləndirilməsində olan problemlərin aradan qaldırılması üçün XMK göstərişi ilə Baş Siyasi Maarif İdarəsi 1925-ci ilin may ayında Dövlət kitabxanasının işini yoxlayıb onun fəaliyyətindəki kəsirləri aşkara çıxararaq, XMK Kollegiyasının müzakirəsinə verdi. Kollegiya kitabxanada kataloqların çatışmadığını və digər məsələləri nəzərə alaraq müvafiq qərar qəbul etdi. XMK Kollegiyası Baş Siyasi Maarif İdarəsi kitabxanada Onluq Təsnifat Sisteminin tətbiq edilməsi, əlifba və predmet kataloqlarının təşkili və s. ilə əlaqədar olaraq kitabxana üçün 15 min rubl pul vəsaiti buraxdı. Kitabxana alınan vəsait hesabına binanı qaydaya saldı və lazımi avadanlıqla təchiz olundu. Bütün ədəbiyyat kitabxana qaydası ilə işlənərək inventar kitabına yazıldı, kataloqlar tərtib edildi, fondun rəflərdə düzülüşü qaydaya salındı. Dövlət kitabxanasının həm də bir metodik mərkəz kimi formalaşmasını nəzərə alan Azərbaycan K(b)P və Azərbaycan hökuməti kitabxananın büdcəsini ildən-ilə artırırdı. Kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi onun perspektivli inkişafında xüsusi rol oynadı.

1927-ci ildə Azərbaycan Mərkəzi Dövlət Kitabxanasına dövlət büdcəsindən 17.760 rubl pul vəsaiti ayrılmışdı [143, 86].

1930-cu ildə kitabxanaya dövlət büdcəsindən ayrılan vəsaitin həcmi xeyli artaraq 56.000 rubla çatmışdır ki, bu vəsaitin də bir hissəsi kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi üçün ayrılmışdı.

Sovet hökuməti özünün əsas təbliğat-təşviqat mənbəyi sayılan kitabxana şəbəkəsini xüsusi əhəmiyyətlə genişləndirsə də onların maliyyələşməsi və maddi-texniki bazasının formalaşdırılmasına çəkilən xərclər ümumi büdcənin çox az hissəsini təşkil edirdi.

1929/30-cu illərdə ayrılan vəsaitin 61 %-i əmək haqqı, 29%-i kitab alınmasına, cəmi 10%-i isə maddi-texniki bazanın

möhkəmləndirilməsi üçün idi. Ayrılmış 10% vəsaitin ayrı-ayrı kitabxana şəbəkələri, elmi-sahə kitabxanaları arasında paylandığını nəzərə alsaq bu vəsaitin kitabxanaların maddi-texniki bazalarının möhkəmləndirilməsi üçün çox cüzi olduğu aydınlaşar. 1930/31-ci ildə dövlət kitabxanalara öz işlərini qurmaq və maddi-texniki bazalarını möhkəmləndirmək üçün 2 559 972 rubl, 1931/32-ci illər üçün 5 078 780 rubl, 1932/33-cü illər üçün 8 318 235 rubl vəsait ayırmağı nəzərdə tuturdu [51, v.2].

Beləliklə, beşillik ərzində ayrılan vəsait böyük olsa da, həmin vəsait əsasən kitabxana fondunun komplektləşməsinə və əmək haqqına sərf olunurdu. Maddi-texniki baza üçün çox az vəsait qalırdı.

1935-ci ildə kitabxana kollektoru XMK hesabına kitabxanalara 71.179 rublluq kitab və 7.019 rubl həcmində kitabxana avadanlığı alıb göndərdi. Bu elmi-sahə kitabxanalarının da maddi-texniki bazasının möhkəmləndirilməsinə kömək etdi.

1935-ci ildə BXMŞ sistemində olan siyasi maarif müəssisələrinin, o cümlədən kitabxanaların saxlanması üçün 4 678 400 rubl, kadr hazırlığı işinə isə 1 223 400 rubl, 1936-cı ildə isə mədəni maarif müəssisələrinin saxlanmasına 6 360 300 rubl, kadr hazırlığına isə 17 619 700 rubl pul buraxılmışdı. Bu da respublikada olan kitabxanalar üçün kadr hazırlığı ilə yanaşı, maddi-texniki bazanın möhkəmləndirilməsinə də əlverişli şərait yaratmış oldu.

1937-ci ildə Azərbaycanda ümumilikdə, respublikanın müxtəlif kitabxana şəbəkələrinə, o cümlədən elmi-sahə kitabxanalarına 1.558.000 rubl pul buraxılmışdı ki, bu vəsaitdən də kitabxanalar üçün kitab alınması ilə yanaşı, onların maddi-texniki bazalarının möhkəmləndirilməsi işinə də xərclənmiş oldu.

1937-ci ildə XMK Respublikada kitabxana işini yaxşılaşdırmağı, maliyyə və maddi-texniki bazanın möhkəmləndirilməsi yönündə müxtəlif tədbirləri həyata keçirməyi nəzərdə tutmuşdu:

1. Ədəbiyyat alınması üçün smeta üzrə buraxılan vəsaitin

azı 90%-ni 1937-ci ilin noyabrın 1-dək istifadə etmək;
2. Kitabxana binalarının vəziyyətini yoxlamaq və yararsız binaların yararlı binalarla əvəz edilməsinə çalışmaq;
3. Noyabr ayının 1-dək kitabxana binalarını yerli büdcədən buraxılan vəsait hesabına yeni mebel və s. avadanlıqla təchiz etmək;
4. Tabeçiliyindən asılı olmayaraq bütün kitabxanaları kitabxana kollektoru vasitəsi ilə kitabxana texnikası və ləvazimatı ilə təchiz etmək və s.

Kitabxanaların tabeçiliyindən asılı olmayaraq vahid bir müəssisədən təchiz edilməsi qaydası xüsusilə, ayrı-ayrı elmi müəssisələrin tabeçiliyində olan elmi-sahə kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsində əhəmiyyətli rol oynadı.

1938-ci ildə dövlət büdcəsindən kitabxanaların kitabla komplektləşdirilməsi və onların maddi-texniki bazasının möhkəmləndirilməsi üçün 6 410 000 rubl pul buraxılmışdı.

Respublikada kitabxana işinin inkişaf etməsi ilə əlaqədar olaraq 40-cı illərədək kitabxanaların maliyyələşdirilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi işində inkişaf dinamikası həmçinin, sovet hökumətinin özünün inkişaf dinamikasının göstəricisi idi. Azərbaycanda xalq təsərrüfatının müxtəlif sahələrinin inkişaf etməsi, iri istehsal müəssisələrindən, neftdən gələn gəlir respublika büdcəsinin artmasına səbəb olurdu. İqtisadiyyatdan gələn gəlirdən də elmin, xalq maarifi işinin inkişafı üçün ayırmalar edilirdi.

XMK ayrı-ayrı sahələr üzrə öz bölmə və yarımbölmələrini yaradır və bu bölmələr yerlərdə xalq maarifinin inkişafına nəzarət və rəhbərlik edirdi. Savadsızlığın ləğvi, xalq təhsilinin inkişafı və s. buraya daxil idi.

XMK Məktəbdənkənar işlər yarımbölməsi nəzdində fəaliyyət göstərən kitabxanaların işinə xüsusi diqqət yetirilirdi. Çünki müxtəlif sənaye müəssisələrində çalışan fəhlələrinin savadsızlı-

ğının ləğvi istiqamətində aparılan işin səmərəli olması vacib məsələ idi.

XMK Azərneftin Məktəbdənkənar işlər yarımbölməsi nəzdində fəaliyyət göstərən texniki kitabxanaların fəaliyyətinin maliyyələşdirilməsi, maddi-texniki bazasının formalaşdırılması onların tabe olduğu təşkilatların vəsaiti hesabına həyata keçirilirdi. Eyni zamanda, Azərbaycan neftindən gələn gəlir hesabına da texniki kitabxanaların saxlanması üçün vəsait ayrıldı.

1924-25-ci illərdə Azərneft xalq maarifi üçün 871 min rubl vəsait ayırmışdı ki, bu vəsaitdən həm də neft mədənlərinin texniki kitabxanalarının maddi ehtiyaclarına xərcləndi. 1925-26-cı illərdə Azərneftin xalq maarifi üçün ayırmaları 1.153 min rubl, 1926-27-ci illər ərzində isə bu rəqəm 1.246 min rubla çatmışdı [182, 26].

Azərbaycan Dövlət Universitetinin elmi kitabxanasının yaradılması üçün ilkin olaraq dövlət o vaxtkı valyuta ilə 120 min rubl həcmində pul vəsaiti ayırdı. 1919-20-ci tədris ilində universitetə öz fəaliyyətini tənzimləmək üçün 10.857.500 (Azərbaycan bonu ilə) büdcə ayırmışdı. Universitet XMK tərəfindən maliyyələşirdi. Sonralar buraya tələbələrdən alınan təhsil haqqı və dövlət neft fondundan ayırmalar da əlavə edilmişdi.

1920-21-ci dərs ilində universitetin fəaliyyəti üçün 21 milyon manat vəsait ayrılması planlaşdırıldı. Bu vəsaitin universitetdə təhsilin təşkili ilə yanaşı, universitetin elmi kitabxanasının da fəaliyyətini təmin edən lazımi inventar və avadanlıqlarla təchiz edilməsi üçün xərclənməsi də nəzərdə tutulmuşdu.

Universitet büdcəsini maliyyə mənbələrinə görə cədvəli nəzərdən keçirsək aşağıdakıları öyrənirik:

*Cədvəl 3.1*

Universitet büdcəsinin maliyyə mənbələrinin göstəriciləri (1923-1929-cu illər)

| Tədris ili | Dövlət büdcəsindən ayırmalar | Xüsusi vəsaitlər | Hamilik üzrə (neft fondu) | Smetadan əlavə ayırmalar |
|---|---|---|---|---|
| 1923/24 | 236.390 | 30.158 | - | - |
| 1924/25 | 285.861 | 44.042 | 9.000 | - |
| 1925/26 | 424.289 | 46.292 | 4.700 | - |
| 1926/27 | 485.247 | 38.893 | 15.000 | 10.000 |
| 1927/28 | 622.880 | 53.055 | 15.000 | 14.000 |
| 1928/29 | 843.229 | 55.256 | 15.000 | 44.200 |
| **Cəmi:** | 2.897.896 | 267.696 | 58.700 | 68.200 |

Cədvəldən göründüyü kimi Universitetin fəaliyyətinin genişlənməsi üçün müxtəlif maliyyə mənbələrindən xeyli ayırmalar mövcud olmuşdur [175, 35].

Cədvəldə ayrılan maliyyə xərclərinin ildən-ilə artması onun inkişaf dinamikasını göstərir. Belə ki, 1923/24-cü tədris ilində ayrılan vəsait 1928/29-cu tədris ilinədək 3 dəfə artmışdır. Qeyd etmək lazımdır ki, universitet üçün ayrılan pul vəsaiti əsasən müxtəlif fakültə və kafedraların fəaliyyətinin tənzimlənməsinə xərcləndiyindən onun elmi kitabxanası üçün ayrılan vəsait əsasən kitab alınmasına xərclənirdi. 1925-ci il oktyabr ayında universitetin kassasının yarılması və oradan 7. 028 rubl 34 qəpik oğurlanması da maddi-texniki təchizat sahəsində geriliyə səbəb olmuşdur. Kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi üçün vəsait ayrılmaması onun normal fəaliyyətini ləngidirdi. Eyni zamanda kitabxananın kitabsaxlama və kitab düzülüşü üçün müvafiq bir yer ilə təmin edilməməsi kitabxananın işinin ilk illər lazımi səviyyədə qurulmasına mənfi təsir göstərirdi.

1922-ci ildə kitabxanada Şərq şöbəsi yaradılması qərarlaş-

dırılır. Bu məqsədlə XKS tərəfindən işin təşkilinə 7000 qızıl pul vəsaiti ayrılır.

1924-28-ci illərdə dövlət büdcəsindən Azərbaycanda fəaliyyət göstərən elmi müəssisələrin fəaliyyətini təmin etmək üçün ayırmalar mövcud idi. Belə ki, 1924-25-ci büdcə ilində 54.031 rubl vəsait ayrılmışdı.

1925-26-cı illərdə elmi müəssisələrin saxlanması üçün büdcədən 86.153 rubl vəsait ayrılmışdır. 1926-27-ci illərdə elmi müəssisələr üçün dövlət xərcləri 97.786 rublu təşkil etmişdir.

1927-28-ci illərdə isə dövlət büdcəsində elmi müəssisələrin öz fəaliyyətlərini tənzimləmək üçün xərclər 117.256 rubla çatmışdır [182, 148]. Beləliklə, aydın olur ki, 4 büdcə ili ərzində dövlət Azərbaycanın elmi müəssisələrinin fəaliyyətlərinin təşkili üçün ayrılan xərcləri 2,17 dəfə artırmışdır. Elmi müəssisələrə çəkilən dövlət xərcləri içərisində həmin müəssisələrin elmi kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsi üçün xərclər də nəzərdə tutulurdu.

1923-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin «Biblioqrafiya Bürosunun» təşkil edilməsi üçün Rəyasət Heyəti 1.500 manat pul ayırdı [16, v.8]. Ayrılan bu vəsait kitab alınması ilə yanaşı kartoçka və digər dəftərxana ləvazimatı üçün xərcləndi.

1923-cü il cəmiyyətin 18 noyabr tarixli iclasında 1923/24-cü il üçün smeta-büdcəsi 36.650 rubl həcmində təsdiq edilir. Eyni zamanda cəmiyyət dövlətdən yeni yaranmış bu elmi mərkəzin maddi-texniki bazasının yaradılması üçün bu vəsaitin tezliklə ayrılmasını xahiş edir. Bu vəsaitdən cəmiyyətin kitabxanasının yaradılması və ədəbiyyat fondu üçün kitab alınması da nəzərdə tutulurdu.

1924-cü ilin 29 mayında Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin 1924-cü il üçün büdcəsi müzakirə olunmuş və büdcə xərcləri üçün 70.805 rubl nəzərdə tutulmuşdu. Lakin, Dövlət Plan Komitəsi nəzərdə tutulan vəsaitin həcmini 25 min

rubla qədər azaltdı. Bu vəsaitdən təsərrüfat xərcləri üçün isə 1.500 manat ayrıldı. Kitabxananın təsərrüfat xərcləri də bu vəsaitin içərisində nəzərdə tutulmuşdu.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Mərkəzi Şurasının 1924-cü il 5 noyabr tarixli iclasında cəmiyyətin bölmələri üzrə xərclər müəyyənləşdirildi. Biblioqrafiya Bürosunun smetası 1.000 rubl müəyyənləşsə də ona 900 rubl vəsaitin ayrılması qərara alındı. Bu onu göstərir ki, kitabxana-biblioqrafiya işinə həmişə büdcədən qalıq prinsipi ilə az vəsait ayrılmışdır. Bu tendensiya indiyə qədər də davam edir.

Eyni zamanda A.V.Baqrinin məruzəsinə əsasən tarix-etnoqrafiya bölməsinin sədri Ə.Haqverdiyevdən Biblioqrafiya Bürosu üçün ayırmalardan qalan 150 rubl vəsaitin alınması barədə xahiş edilir.

1924-cü ilin aprel ayında Biblioqrafiya Bürosu xeyli jurnal aldı. Bu jurnallar həm müxtəlif biliklərin təbliği üçün, həm də cəmiyyətin ayrı-ayrı bölmələri üçün nəzərdə tutulan jurnallar idi. Jurnalların alınması üçün hər biri 3 rubl olmaqla 330 rubl pul vəsaiti ayrılmışdı. 1924-cü ilin axırında cəmiyyətin ilkin tələbatını ödəmək üçün 20.403 rubl pul ayrıldı. Ayrılan vəsait cəmiyyətin ayrı-ayrı bölmə və komissiyalarına, Biblioqrafiya və Fotoqrafiya bürolarına avadanlıq və kitabxana üçün kitab alınması kimi vacib sahələrə verildi. Qeyd etməliyik ki, kitabxana işinin təşkilati məsələlərinə 2.500 rubl vəsait nəzərdə tutulsa da 2.250 rubl ayrıldı ki, bu da bəzi kitabların alınmasına və müxtəlif kitabxana ləvazimatlarının alınmasına xərcləndi [10, v.75, v.88]. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin 9 yanvar 1925-ci il tarixli iclasında cəmiyyətin maliyyə-büdcə məsələləri müzakirə olundu və Biblioqrafiya Bürosuna öz işini qurmaq üçün 5.000 rubl pul vəsaiti ayrıldı. Buraya kitabxana rəflərinin quraşdırılması, kataloq qutularının və kartoçkalarının alınması və s. aid etmək olar. Bu vəsait sonralar birləşmiş kitabxananın maddi-texniki bazasının formalaşmasına yardım etdi.

1926-cı il 19 avqustda cəmiyyətin kitabxanasına kataloqlar üçün qutuların alınmasına 50 rubl vəsait ayrıldı. Hər dəfə kitabxanaya cüzi də olsa ayrılan bu vəsaitlər pillə-pillə onun maddi-texniki bazasının möhkəmləndirilməsinə xidmət edirdi.

Cəmiyyətin Mərkəzi Şurasının 20 avqust 1925-ci il tarixli iclasında kitabxana haqqında məsələ müzakirə olundu. Bu məsələ haqqında kitabxana üzrə cavabdeh şəxs – A.Dalavassera məlumat verdi. Eyni zamanda cəmiyyətin işlərinin Mərkəzi Şuraya təhvil verilməsi haqqında məsələ də müzakirə edildi və Zifeldt işləri Mərkəzi Şuranın sədri Məmmədzadəyə təhvil verdi. Bu zaman kitabxana da inventarla birlikdə Dalavasseraya təhvil verildi [10, v.119].

1924-cü ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Azərbaycanın florasını öyrənmək üçün Təbiətşünaslıq bölməsinə 2.000 rubl vəsait ayırdı. Bu vəsaitdən qoyulan problemə aid ədəbiyyatın alınması üçün 400 rubl xərclənmişdi. Eyni zamanda Türk-Azərbaycan folklor nümunələrinin əlyazmalarını əldə etmək üçün 3.000 rubl ayrılmışdı. Alınan bu ədəbiyyatlar kitabxananın fonduna təhvil verildi və onun folklor fondunu zənginləşdirirdi. Cəmiyyət həmçinin, hər bölməyə 200 rubl olmaqla Azərbaycana aid ədəbiyyat alınması və kitabxanaya inventar alınması üçün vəsait ayırdı. Sonradan bölmələr üçün alınan ədəbiyyatın da hamısı kitabxanaya təhvil verildi.

1926-cı ildə prof. A.V.Baqri Cəmiyyətin vəsaiti hesabına Azərbaycana aid topladığı biblioqrafik kartoçkaları cəmiyyətin elmi kitabxanasına təhvil verdi. Həmin kartoçkalar Azərbaycana aid göstəricinin tərtib olunmasında istifadə olunmuşdu.

1925-ci il yanvar ayının 1-də Mərkəzi Şuranın qərarı ilə cəmiyyətin bir illik fəaliyyətini yoxlamaq üçün yaradılan Təftiş Komissiyasının məruzəsində göstərilirdi ki, sürətlə inkişaf edən kitabxana Biliklərin populyarlaşdırılması bürosunun binasında yerləşir. Bura kitabxana üçün darısqallıq edir. Getdikcə kitabxananın fondu üçün əlifba və sistemli kataloqlar tərtib olunur.

Kitabxananın inventarı 430 saydadır. Kitabxana şkafları olmadığından kitablar qaranlıq yerdə rəflərə yığılmışdı. Bu bir daha göstərir ki, kitabxananın geniş, xidmət üçün daha yararlı və maddi-texniki cəhətdən təmin olunmuş binaya ehtiyacı vardır. Təftiş Komissiyasının rəyində qeyd edilirdi ki, «Leninqraddan da bir neçə min cilddə kitablar daxil olacaqdır. Onları yerləşdirmək üçün bina yoxdur. Binadan əlavə kitabxananın düzgün kataloqlaşdırılması qayğısına qalınmalı, kitabxananın idarə edilməsi üçün hər bölmədən bir nəfər olmaqla kitabxana işində təcrübəsi olan şəxslərdən ibarət komissiya yaradılmalıdır». Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti elmi kitabxananın ədəbiyyatla komplektləşdirilməsini daim diqqət mərkəzində saxlamalıdır. Bunun nəticəsi olaraq 1926-cı ildə cəmiyyət Ağaoğlunun şəxsi kitabxanasını 1.000 rubla alıb kitabxanaya verdi [22, v.8]. Cəmiyyətə maddi vəsait müxtəlif mənbələrdən daxil olurdu. Bu mənbələr – XKS, XMK, cəmiyyətin özünün nəşrlərindən əldə etdiyi gəlirlər və s. idi. 1926-cı ildə cəmiyyət öz gəlirindən kitabxana üçün ədəbiyyatın alınmasına 4.500 rubl ayırdı.

1926-27-ci büdcə ilində Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin elmi kitabxanasının fəaliyyətini tənzimləyən xərclər 1.923 min rubla, 1927-28-ci illərdə isə 3.762 min rubla bərabər olmuşdur. Nəhayət, 1928-29-cu illər ərzində cəmiyyət kitabxanaya öz fəaliyyətini təşkil etmək üçün 6.419 min rubl vəsait ayırmışdı [23, v.47]. Kitabxana üçün ayrılan vəsaitin 3 il ərzində 3 dəfədən çox artması kitab alınması ilə yanaşı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün də zəmin yaratmış oldu.

1928-ci ildə cəmiyyət dəftərxana ləvazimatı almaq üçün kitabxanaya 600 rubl pul vəsaiti ayırdı ki, bundan da kitabxana üçün lazım olan bəzi materiallar alındı.

1929-cu ildə cəmiyyətin Kitabxana-Biblioqrafiya Bürosuna Azərbaycana və Qafqaza aid Bakıda olan kitabların qeydiyyatı üçün 10.000 kartoçkanın alınmasına 580 rubl pul vəsaiti bura-

xıldı. Bu kartoçkalar «Azərbaycan biblioqrafiyası»nın çap edilməsində istifadə olundu.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin katibliyinin 1929-cu il 26 may tarixli iclasında cəmiyyətin vəsaitinin bölmələr üzrə paylanması məsələsi müzakirə edilir. Bu zaman kitabxana üçün 9.900 min rubl ayrılır ki, kitabxanaçıların əmək haqqı da buraya daxil idi. Ayrılan vəsaitdən kitabxana üçün bir sıra mülkiyyət alındı. Eyni zamanda cəmiyyətin təsərrüfat xərcləri üçün də 3.500 rubl ayrılmışdı ki, bu vəsaitdən həmçinin, kitabxananın təsərrüfat xərcləri üçün müəyyən miqdarda istifadə edildi. 1929-30-cu illərdə kitabxana büdcəsi 17.018 rubl təşkil etsə də, bu vəsait əsasən kitab alınmasına, qəzet və kitabların cildlənməsinə, əmək haqqının ödənməsinə xərcləndi. Kitabxananın maddi-texniki təminatına isə çox az, cəmi 700 rubl pul xərclənmişdi. Belə ki, oxu zalı üçün 500 rublluq avadanlıq və 200 rublluq kitabxana ləvazimatı alınmışdı.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin bazasında Azərbaycan MİK qərarı ilə Az. DETİ-nun yaranması ilə əlaqədar olaraq onun elmi kitabxanası da 1929-cu ildə yenidən təşkil edilir. Az. DETİ-nun elmi kitabxanası çap əsərləri ilə yanaşı, xüsusilə, Azərbaycana və Qafqaza aid olan qədim əlyazmalarını toplayaraq kitabxana fondunda onların mühafizəsini təşkil etmişdir. Eyni zamanda, Az.DETİ yarandıqdan sonra kitab fondunun genişlənməsi ilə yanaşı kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirildi.

1929-cu ildə kitabxana işinin inkişafını və oxucuların sayının artmasını nəzərə alıb 120 rubla 6 stol alındı. Həmçinin, kitabxana fondunun kataloqlaşdırılması üçün 250 rubla «Reminqton» markalı yazı makinası alınıb A.O.Dalavasseraya təhvil verildi. Fondun kitab rəflərində düzülüşünü qaydaya salmaq üçün 2 nərdivan da alındı.

1929-cu il üçün institutun inventar siyahısında göstərilir ki, kitabxanaya hər biri 75 rubla 10 və 12 kataloq yeşiyi olan 2 şkaf

alınmışdır. Bu dövrdə kitabxananın 76 kataloq qutusu vardı [24, v.10-11]. 1932-ci il dekabrın 29-da Az.DETİ-nun SSRİ EA ZFAŞ-nə çevrilməsi ilə əlaqədar olaraq müxtəlif elm sahələri ilə yanaşı kitabxana və biblioqrafiya işi üzrə də daimi komissiyalar təşkil edilir. 1933-cü ilin mart ayından prof. A.V.Baqri SSRİ EA ZFAŞ kitabxanası ilə yanaşı, həm də Kitabxana-Biblioqrafiya Komissiyasına rəhbər təyin edilir.

SSRİ EA ZFAŞ qarşıya qoyduğu elmi problemlərin həlli üçün dövlət büdcəsi ildən-ilə artmış, Azərbaycan Şöbəsinin maddi-texniki bazasının möhkəmləndirilməsinə də diqqət yetirilməyə başlanmışdır. Eyni zamanda kitabxana işinin də, fəaliyyət istiqamətləri genişləndikcə müxtəlif şöbələr açıldı. Bu şöbələrin fəaliyyəti üçün ilk növbədə kitabxana avadanlığı və ləvazimatı ilə təmin olunması lazım idi. Artıq kitabxana büdcəsi təsdiq olunan zaman təchizat məsələləri də əvvəlcədən nəzərə alınırdı. 1933-cü ildə SSRİ EA ZFAŞ kitabxanasına 6.000 rubl həcmində kitabxana avadanlığı və ləvazimatı alındı.

1938-ci ildə XMK Kitabxana İdarəsi kitabxanaların maddi-texniki bazasını gücləndirmək üçün onlara 6.410.000 rubl vəsait ayırdı [56, v.10].

Həmin vəsait kitabxana avadanlığı və ləvazimatları alınmaq üçün nəzərdə tutulmuşdu.

1940-cı ilin sonu 1941-ci ilin əvvəlində dövlətin bütövlükdə kitabxana işinə ayırdığı vəsaitin həcmi 14.642.100 rubla qədər artırılmışdı. Bu vəsait kitabxananın, həmçinin elmi-sahə kitabxanalarının gündən-günə genişlənən fəaliyyətinin tənzimlənməsinə xidmət etdi. Çünki, elmi kitabxananın maddi-texniki bazası möhkəmləndirilmədən Azərbaycan elminin inkişafı, milli ziyalı kadrların formalaşması işi ləng gedərdi.

Tədqiq olunan dövr – 1920-1941-ci illər Azərbaycanın yeni iqtisadi sistem olan sosialist təsərrüfatı sisteminə keçilməsi ilə yanaşı, eyni zamanda yeni mədəni quruculuq prosesinin başlanması mərhələsi olmuşdur. Azərbaycan hökuməti özünün təbliğat

şəbəkəsi və mədəni quruculuğun fəal iştirakçısı kimi kitabxana işinə xüsusi diqqət verirdi. Bu diqqət geniş kitabxana şəbəkəsinin yaranması ilə paralel olaraq kitab fondlarının komplektləşdirilməsində, kadr təminatında olduğu kimi onların maliyyələşməsində və maddi-texniki bazasının möhkəmləndirilməsində də özünü göstərirdi. Bu dövr ərzində xeyli ali təhsil və elmi-tədqiqat müəssisələri yaranmışdı. Belə müəssisələrin yaranması elmi-sahə kitabxanalarının yaranmasına səbəb olurdu. Elmi-sahə kitabxanaları ayrı-ayrı müəssisələrin tabeçiliyində olsalar da, ümumi «ideya rəhbərliyi üçün» XMK-na tabe edilmişdi. Elmi-sahə kitabxanalarının maliyyələşdirilməsi və maddi-texniki bazalarının formalaşdırılması məsələlərinin araşdırılması nəticəsində aydın olur ki, kitabxanalar əsasən tabe olduğu təşkilatların vəsaiti hesabına maliyyələşmişdir. Kitabxanalara ayrılan maliyyə vəsaitləri çox vaxt kitabxana fondlarının yalnız komplektləşdirilməsinə sərf edilə bilmişdir. Kitabxanalar ideoloji ədəbiyyatla, xüsusilə, «marksizm-leninizm klassikləri»nin ədəbiyyatı ilə təchiz edilirdi. Elmi kitabxanalarda elmi işçilərin yüksələn informasiya tələbatını ödəyə biləcək xarici ölkələrdə çap olunmuş və ya tərcümə edilmiş elmi dəyərli ədəbiyyat çatışmırdı. Bu bir tərəfdən tərcümə ilə məşğul olan milli mütəxəssis kadrların olmamasından irəli gəlirdisə, digər tərəfdən məqsədli idi. Çünki ölkəyə «yadfikirli» ədəbiyyatın gətirilməsi yasaq idi.

## 3.2. Elmi-sahə kitabxanalarının kadr təminatı məsələləri

Kitabxana işi sahəsində kadr təminatı məsələsi hər zaman aktual məsələlərdən biri olmuşdur.«Düzgün seçilmiş şəxsi heyət və savadlı kadr siyasəti istənilən kitabxananın müvəffəqiyyətinin zəmanətidir» [166, 37].

Ölkəmizin qlobal informasiyalaşdırılmış cəmiyyətə doğru inkişafında kitabxana işinin avtomatlaşdırılması, modernləşdi-

rilməsi tələbləri qoyulur. Bu tələblər isə özlüyündə «kitabxana kadrlarından yüksək dərəcəli peşəkarlıq, yeni informativ kommunikasiya texnologiyasını idarəetmə bacarığı, iqtisadi və əmək qanunvericiliyini bilməsini tələb edir» [190]. Kadr məsələləri- ölkəmizdə kitabxanaçı kadrların hazırlığı işi uzunmüddətli bir proses olmuşdur. Bu prosesin tarixinə nəzər salmaq yerinə düşər.

1920-ci ilin 19 sentyabrında Azərbaycan maarif və mədəniyyət işçilərinin I qurultayı respublikanın mədəni həyatında çox mühüm hadisə idi [94, 52].

Qurultay respublikada mədəni quruculuğun durmadan inkişaf etdirilməsi üçün mühüm qərarlar qəbul etdi. Bu qərarlar respublikada kitabxana işinin inkişafına da böyük təkan verdi. 1920-ci ilin 3 noyabrında «RSFSR də kitabxana işinin mərkəzləşdirilməsi haqqında» və 31 oktyabr 1920-ci ildə Azərbaycan İnqilab Komitəsinin «tabeçiliyindən asılı olmayaraq bütün kitabxanaların XMK tabeçiliyinə verilməsi haqqında» dekret verildi [152].

Bu dekretlər əsasında Azərbaycan ərazisində olan bütün kitabxanaların milliləşdirilməsi başa çatdırıldı və kitabxana işi vahid rəhbərlikdə birləşdirildi. Respublikada olan bütün kitabxana şəbəkələri arasında əlaqə yaradıldı. Belə mühüm qərarların həyata keçirilməsi nəticəsində əldə edilən müvəffəqiyyətlər kitabxanaların həm kəmiyyət, həm də keyfiyyətcə yaxşılaşmasında özünü göstərirdi. Bu yeni quruluşun təbliğatı ilə birbaşa əlaqəli idi. 1921-ci ildə Azərbaycanda 390 min nüsxə kitab funduna malik olan 69 kitabxana var idi. Kitabxanaların oxucu tərkibində də keyfiyyət dəyişiklikləri gözə çarpmaqdadır. Kitabxanaların 357 min oxucusu içərisində türk oxucuların sayı artmaqla bərabər, qadın oxucuların da sayı artmaqda davam edirdi. Belə ki, qadınlar oxucuların artıq 43%-ni təşkil edirdi.

Azərbaycanda kitabxana şəbəkəsinin inkişafı xalq təsərrüfatı və digər mədəni-maarif müəssisələrində olduğu kimi kəskin

kadr çatışmazlığı ilə müşayiət olunurdu. Sürətlə artmaqda olan kitabxanaların milli kadrlarla, xüsusilə müəyyən ixtisas kurslarından keçmiş mütəxəssis kadrlarla təmin olunmasına ehtiyac var idi. İlk dövrlərdə belə kadrların hazırlanması mədəni-maarif müəssisələrinin təşkil etdiyi kurslarda həyata keçirilirdi.

1921-ci ilin dekabrında Siyasi-maarif işçilərinin və təbliğat şöbələrinin I Ümum Azərbaycan qurultayı çağırıldı. Qurultay Yeni iqtisadi siyasət dövründə siyasi-maarif və təbliğat-təşviqat işlərinin vəzifələrini müəyyən etdi. Qurultay təbliğat-təşviqat və kitab təbliği işində kitabxanaların xüsusi rolunu qeyd edərək onu kommunist tərbiyəsi ocağı kimi qiymətləndirirdi. Qurultay kitabxana işini genişləndirmək üçün Azərbaycan dilində ədəbiyyat nəşrini artırmağı, kitabxana işçiləri hazırlamaq üçün 6 aylıq kurs təşkil etməyi lazım bildi. Eyni zamanda qurultay kitabxanaların təşkil edilməsi, maliyyələşdirilməsi və s. üzrə normaları müəyyən etdi. Bunlar kitabxana işinin maddi bünövrəsinin təməlini qoymağın əsas şərtləri idi.

Sov.İKP MK və Sovet hökuməti kitabxanaların mütəxəssis kadrlarla təmin edilməsi, kadrların hazırlanması, onların kitabxanalar üzrə yerləşdirilməsi işinə xüsusi diqqət göstərirdi. Çünki, kitabxanalar ideoloji, mədəni-maarif və kommunist tərbiyəsi işinin mərkəzi kimi qiymətləndirilərək təbliğat, təşviqat və siyasi tərbiyə işi sahəsində onun qarşısında böyük vəzifələr qoyulmuşdu. Bu məqsədlə də kitabxanalarda işləməyə daha hazırlıqlı, yüksək mədəni səviyyəyə malik olan kadrlar göndərilirdi. Bu zaman kitabxanaçının sosializm quruculuğuna, onun vəzifələrinə sədaqəti nəzərə alınırdı. Azərbaycan SSR Maarif Komissarlığı tərəfindən hazırlanmış tədbirlər planında kitabxana işində ziyalılardan, görkəmli partiya və sovet işçilərindən, alimlər və müəllimlərdən istifadə edilməsinə xüsusi diqqət yetirilirdi. XMK qısa müddət ərzində mütəxəssis kitabxanaçı kadrların hazırlanması üçün lazımi şəraitin olmamasını nəzərə alaraq vaxtaşırı ixtisasartırma kursları təşkil edilməsini məqsədəuyğun

saydı. Azərbaycanda 1920-ci ilin əvvəlindən ilk kitabxanaçılıq kursları təşkil edilməyə başlandı. Yəni Azərbaycan SSR XMK Məktəbdənkənar işlər şöbəsinin kitabxana yarımşöbəsi 1920-ci ilin avqust-sentyabr aylarında XI Qızıl Ordu Siyasi şöbəsi ilə birlikdə 90 nəfərlik kitabxanaçılıq kursu təşkil etdi [108]. Kursu qurtaranların 60 nəfəri XMK-dan, 15 nəfəri XI Ordudan, 15 nəfəri isə Azərbaycan Ordusundan ibarət idi. Kursun işində Bakı kitabxanalarının təcrübəli işçiləri, kitabxanaçı-metodistlər fəal iştirak edirdilər. Bunların içərisində M. Rzaquluzadə, Baş Siyasi Maarif İdarəsinin metodisti H.Tağıyev, Ə.Seyidzadə və başqaları var idi [106]. Əlbəttə, XMK tərəfindən təşkil edilən kursları sırf metodiki tədbirlər kimi qiymətləndirmək olmaz. Bu kurslar birinci növbədə dövlət tərəfindən ilk peşəkar kitabxanaçılar dəstəsinin yaradılmasına yönəldilmiş tədbirlərdən biri idi. Lakin ilkin kitabxana vərdişlərinə malik olan kadrların hazırlanması eyni zamanda onlara metodiki rəhbərlik sisteminin yaranması idi.

1920-ci ilin iyulunda XMK məktəbdənkənar işlər şöbəsinin kollegiyası kitabxanaçı kadrlar hazırlamaq barədə kitabxana yarım şöbəsinin məlumatını dinlədi. Kollegiya sürətlə yaranmaqda olan kitabxana şəbəkəsini hazırlıqlı kadrlarla təmin etmək məqsədilə kitabxanaçılıq kursları təşkil etməyi lazım bildi [40, v.20]. Azərbaycanın müxtəlif bölgələrində yaranan kitabxanaları kadrlarla təmin etmək üçün respublikanın müxtəlif bölgələrində də hazırlıq kursları təşkil edilirdi. 1927-ci il aprel ayında Bakı və Gəncə şəhərlərində 1 aylıq kitabxana işçiləri kursu təşkil olundu. Yerlərdə kurslar təşkil edilərkən Bakıdan xüsusi təşkilatçı-mütəxəssislər və mühazirəçilər dəvət olunurdu. Bu mütəxəssislər həmçinin savadsızlığın ləğvi üzrə komitələrdə fəal iştirak edirdilər. Çünki əhali arasında savadsızlığın ləğvi, yeni əlifbanın qəbulu və digər işlər haqqında geniş izahat işləri və təbliğat aparılmasında kitabxanaların xüsusi rolu var idi. Ölkənin iri kitabxanalarında, xüsusilə elmi kitabxanalarında oxuculara xid-

mət işinin səviyyəsi kitabxanaçıların peşə səviyyəsindən asılı idi. Bunu nəzərə alan Baş Siyasi Maarif İdarəsinin Kitabxana bölməsi 1924-cü ildə kitabxanaçılara kömək məqsədi ilə bir sıra kitab və kitabçaları türk dilinə tərcümə edərək nəşr etməyi qərara aldı. Bu kitablar aşağıdakılardan ibarət idi: Pokrovskinin «Kitabxana işi», Xavkinanın «Kitabxanaların təşkili və kitabxana texnikası», Kerjantsevin «Kommunistin kitabxanası», Yujanovanın «Kitabxana statistikası», Storojevanın «Açıq rəf üsulunda kitabların düzülüşü və sıra nömrəsi» [45, v.59]. Kitabxana bölməsi bu kitabçalarla yanaşı, kitabxana işinin bu və ya digər məsələlərinə aid müxtəlif təlimat sənədləri, blanklar və s. tərcümə edib kitabxanalara göndərirdilər. Bu az da olsa kitabxanalarda milli kadrların çalışmalarına yardım edirdi.

1926-cı ilin aprel ayında Baş Siyasi Maarif İdarəsi kitabxana işçiləri üçün 2 aylıq kurs təşkil etdi. Baş Siyasi Maarif İdarəsinin kitabxana şöbəsi həmin kursa 12 nəfər tələbə göndərmişdi. Bunlardan 10 nəfəri kursu müvəffəqiyyətlə bitirərək müxtəlif kitabxanalara işləməyə göndərilmişdi.

1926-cı ildə bir qrup kitabxana işçisi Moskva və Leninqrad şəhərlərinə ezam olundu. Bir ay davam edən ezamiyyət dövründə Azərbaycan kitabxanaçıları SSRİ Dövlət Kitabxanasının (hazırda Rusiya Dövlət Kitabxanasının), S.Şedrin adına Dövlət kitabxanasının və bir sıra kitabxanaların fəaliyyəti ilə tanış olub təcrübə əldə etdilər. Baş Siyasi Maarif İdarəsi kitabxanaları ixtisaslı kadrlarla təmin etmək və mövcud kitabxanaçıların ixtisasını artırmaq məqsədi ilə 1926-cı il aprelin 10-da Bakı Siyasi Maarif idarəsindən 14 nəfər, Baş Siyasi Maarif idarəsindən 22 nəfər, Həmkarlar İttifaqı mədəniyyət şöbəsindən 14 nəfər olmaqla kitabxana işçiləri hazırlamaq üçün yenidən 2 aylıq kurs təşkil etdi. Kursu 40 nəfər müdavim bitirdi. Bu kurslarda oxumaq istəyən milli kadrların sayı gün-gündən artmağa başlayırdı. Artıq qadınlar da belə ixtisas kurslarında fəal iştirak edirdi. Belə ki, təşkil olunmuş bu kursu 5 nəfər qadın da bitirmişdi. Kitabxa-

naların ixtisaslı kadrlarla təmin olunmasında bu kursun qismən də olsa köməyi oldu.

1926-cı ilin iyun ayının 4-də Bakı şəhərində Kitabxana İşçilərinin Birinci Bakı Konfransı çağırılır [141]. Konfransda kitabxanaların məqsəd və vəzifələri, həmçinin Bakı və bölgələrdə həmkarlar kitabxanaları haqqında məruzələr dinlənilir. Konfrans boyu məruzə və çıxışlarda kitabxana işindəki nöqsanlardan danışarkən hər dəfə kitabxanalarda «lazımi miqdarda hazırlıqlı kitabxanaçı kadrların, xüsusilə türklərin olmaması» fikri vurğulanırdı. Konfransda bunları nəzərə alıb savadsızlığın ləğvi istiqamətində, mədəni quruculuq işlərində fəal oxucular hazırlamaq işinə diqqətin artırılması qərara alındı. Bu isə kitabxanaçıların peşəkarlığından asılı idi. Beləliklə, bu illərdə daim artan kitabxana şəbəkələri genişləndikcə kadr çatışmazlığı kəskinliklə hiss edilir, kadr hazırlığı üçün daha intensiv fəaliyyət tələb olunurdu.

Bakıda kitabxanaçı kadrları kurslarla yanaşı olaraq kitabxana birləşmələrinin, bölmələrinin, dərnəklərin ümumi yığıncaqları da hazırlayırdı.

ÜİHİMŞ Moskvada və Leninqradda kitabxanaçı kadrlar hazırlamaq üçün kurslar təşkil edirdi. Respublikamızda da Həmkarlar İttifaqı nəzdində Bakı şəhərində belə ixtisas kursları təşkil olunurdu. Həmkarlar İttifaqı kitabxanaları fəhlələr arasında aparılan təbliğat-təşviqat işində onların savadsızlığının aradan qaldırılması işi ilə birbaşa əlaqəli idi.

Azərbaycan XMK kitabxanaçı kadrlar hazırlamaq işinə xüsusi diqqət yetirdiyindən kursların tədris planları geniş müzakirə edilir, ən mühüm məsələlər və kitabxana işinin spesifik xüsusiyyətlərini, vəzifələrini əhatə edə bilən ixtisas predmetləri tədris planına daxil edilirdi. Kurslarda dərs deyəcək müəllim heyətinin seçilməsinə xüsusi fikir verilirdi.

Görkəmli elm və mədəniyyət xadimləri, partiya işçiləri, mütəxəssislər və təcrübəli kitabxana işçiləri ixtisas kurslarına dərs deməyə dəvət olunurdular. Respublika Dövlət Kitabxanası və el-

mi-sahə kitabxanalarının işçiləri üçün mühazirələr oxumağa bəzən Moskva və Leninqrad şəhərlərində yerləşən Kitabxanaçılıq İnstitutlarından müəllimlər dəvət olunurdular. Belə ki, 1934-cü ildə Bakıda təşkil olunmuş kitabxanaçılıq kursunda N.K.Krupskaya adına Leninqrad Kitabxanaçılıq İnstitutunun Kitabxanaşünaslıq kafedrasının müdiri dosent Saxarov və Moskva Kitabxanaçılıq İnstitutunun dosenti Usov mühazirələr oxumuşlar [99, 89]. 1928-29-cu illərdə Bakı Siyasi-Maarif İdarəsi kitabxana kadrları hazırlamaq, mövcud kitabxanaçı kadrların ixtisasını artırmaq üçün 2 dəfə kitabxana kursları təşkil etmiş və bu kursları 100 nəfər kitabxana işçisi bitirmişdi.

Kadr hazırlığı eyni zamanda müxtəlif dərnəklər, seminarlar, müşavirələr və s. tədbirlər vasitəsilə aparılırdı.

1934-cü ildə Bakı Siyasi-Maarif İdarəsi kitabxanaların vəziyyətini yaxşılaşdırmaq məqsədi ilə bir sıra tədbirlər həyata keçirməyi qarşıya məqsəd kimi qoydu. Azərbaycan Dövlət Ümumi Kitabxanası yanında kitabxanaşünaslıq kabinəsi təşkil edilməsi qərara alındı və 1936-cı ilin sentyabr ayında kitabxanaşünaslıq kabinəsi yaradıldı. Kitabxanaşünaslıq kabinəsinin yaranması ilə kadrların ixtisasının artırılması yönündə müəyyən mənada xeyli iş görülmüş oldu.

Bu illər yerlərdə kitabxana işçilərinin peşə səviyyəsi xeyli aşağı idi. Çünki, kitabxana işçisi hazırlamaq üçün respublikada müəyyən bir təhsil müəssisəsi yox idi. Kitabxanalarda çalışan işçilərin ixtisasını artırmaq üçün müntəzəm və uzunmüddətli kitabxana kursları təşkil edilmirdi. Təşkil olunan kurslar az müddətli – 1-2 aylıq olur və kitabxana işinin bütün sahələrini əhatə edə bilmirdi. Eyni zamanda Azərbaycan dilində kitabxanaçılığa aid ədəbiyyat çatışmırdı. Həmçinin, kitabxanaçının əmək haqqı müəllimin əmək haqqından az olduğundan savadlı, ziyalı adamları işə cəlb etmək olmurdu. Məsələn, ibtidai sinif müəlliminin əmək haqqı 150 manat olduğu halda, kitabxanaçının əmək haqqı 103 manat idi. SSRİ EAZFŞ elmi kitabxanasının kitabxanaçısı

70 manat əmək haqqı alırdı.

Ona görə də savadlı, ziyalı adamlar kitabxanaya işə gəlməyə can atmırdı. 1935-ci ilin əvvəlində ölkədə fəaliyyət göstərən 625 kitabxanada cəmi 466 kitabxanaçı çalışırdı. Hətta hər kitabxanaya bir nəfər də düşmürdü.

Belə bir vəziyyəti aradan qaldırmaq üçün XMK-nın Kitabxana İdarəsi tərəfindən 1935-ci ildə kitabxana işçilərinin ixtisasını artırmaq məqsədilə yenidən Bakıda 2 aylıq kitabxanaçılıq kursu açıldı [52, v.10]. Bundan əlavə kitabxana işçilərinin iş təcrübəsini öyrənmək üçün 6 nəfər kitabxana işçisi istehsalat ezamiyyətinə göndərildi. Bütün kitabxana işçilərinin bilik səviyyəsinin yoxlanılması, az hazırlıqlı işçilər üçün qısa müddətli kurslar təşkil olunması, qiyabi şəxsi təhsil sistemi vasitəsi ilə bütün kitabxana işçilərinin öz ixtisaslarını artırması və s. işlərin də həyata keçirilməsi nəzərdə tutulurdu.

1935-ci ildə Bakı XMŞ sistemində olan kitabxanaların kadr hazırlığı işinə 1.233.400 manat, 1936-cı ildə isə 17.619.700 manat pul vəsaiti buraxılmışdı. Bu da kitabxana işçilərinin ixtisaslarının artırılması işində dönüş yaradılması üçün əlverişli imkan yaradırdı. 1936-cı ildə Kitabxana İdarəsi qərara aldı ki, ən yaxşı kitabxanaçılara idarənin hesabına 3.000 rubl mükafat verilsin [55, v.18]. Həmçinin, kitabxanaçıların əmək haqqının gecikdirilmədən vaxtlı-vaxtında verilməsi qərarda öz əksini tapmışdı.

1937-ci ildə Bakı və onun rayonlarında 715 nəfər kitabxana işçisi çalışırdı. Onlardan 520 nəfəri ixtisas komissiyasından (attestasiyadan) keçmişdi. Həmçinin, 3-cü və 4-cü dərəcəli kitabxana işçiləri üçün Azərbaycan və rus dillərində 6 aylıq kurs təşkil olunmuşdu ki, bu kurslarda da 75 nəfər kitabxana işçisi oxuyurdu. Bundan başqa, kitabxana işinə yeni başlayanlar üçün Azərbaycan, rus və erməni dillərində 6 aylıq hazırlıq kursları da təşkil edildi. Bu kurslarda kütləvi kitabxanalarla yanaşı, ölkənin elmi müəssisələri nəzdində təşkil olunmuş elmi kitabxanaların da işçiləri vardı.

1937-ci illərdə Bakı XMŞ Pedaqoji Texnikumu yanında isə kitabxana işçiləri hazırlamaq üçün 60 nəfərlik iki qrup açılmışdı.

XMK 1937-ci ildə Azərbaycanda kitabxana işini inkişaf etdirmək və kitabxanaları ixtisaslı kadrlarla təmin etmək üçün bir sıra tədbirlər planı işləyib hazırladı. Bu planda aşağıdakı tədbirləri həyata keçirmək nəzərdə tutulurdu:

1. Kitabxanaşünaslıq kabinəsi yanında kitabxana işçiləri hazırlamaq üçün Azərbaycan dilində qiyabi büro təşkil etmək;
2. Kitabxana işçilərinin ixtisasını artırmaq üçün Bakıda 160 nəfərlik 2 qrup təşkil etmək;
3. Bakı kitabxanalarının iş təcrübəsindən istifadə edərək 1938-ci ilin yanvar ayından şəhər kitabxanalarının ştatına 25 nəfərlik şagird vəzifəsi daxil etmək;
4. İxtisas komissiyasının işini Bakı üzrə qurtarmaq və 1937-ci ilin iyun ayına qədər tabeçiliyindən asılı olmayaraq bütün kitabxana işçilərinin ixtisas komissiyasından keçməsini təşkil etmək;
5. Moskva və Leninqrad kitabxanaçılıq institutlarına 6 nəfər göndərmək, onlar üçün XMK-dan əlavə təqaüd verilməsinə çalışmaq;
6. Kitabxana işinin təşkilini öyrənmək üçün 9 nəfər kitabxana işçisini SSRİ şəhərlərinə ezam etmək [40, 80].

Bu vəzifələr mövcud olan çətinliklərə baxmayaraq əsasən nəzərdə tutulan müddətdə yerinə yetirildi.

1938-ci illərdə kitabxanaların ştatlarının artırılması məsələləri də müzakirə olunurdu. Çünki, bu məsələ də kəskinliklə gündəlikdə dururdu.

1938-ci ildə Dövlət Kitabxanasında kitabxanaşünaslıq kabinəsinin təşkil etdiyi qısa kurslarda 200 nəfər kitabxanaçı kadr hazırlanıb kitabxanalara göndərildi.

20-30-cu illərdə mütəxəssis kitabxanaçı kadrlar hazırlamaq üçün qısa müddətli kurslar yeganə vasitə olaraq qalırdı. Əlbəttə,

respublikada kitabxanaların, xüsusilə də elmi və xüsusi kitabxanalar şəbəkəsinin sürətlə genişlənməsi on minlərlə cild kitab fondlarına malik olan böyük kitabxanaların meydana gəlməsi, kitabxana işi proseslərinin getdikcə mürəkkəbləşməsi, əhalinin ümumi mədəni səviyyəsinin daha da yüksəlməsi, kitabxana oxucularının sayının durmadan artması mütəxəssis kitabxanaçı kadrlara olan tələbatı daha da artırırdı. Təbiidir ki, bu tələbat qısamüddətli kurslar vasitəsilə ödənilə bilməzdi.

Kitabxana şəbəkəsinin özünün sürətlə artması yüksək ixtisaslı kitabxanaçı kadrlara böyük tələbat əmələ gətirmişdi. Az savadlı, mədəni səviyyəsi aşağı olan, kitabxana işini yaxşı bilməyən adamların kitabxanalarda işləməsi kitabxana işinin dövrün tələbləri səviyyəsinə yüksəlməsinə mane olurdu. Buna görədir ki, orta və ali ixtisas təhsilli kitabxanaçı kadrların hazırlanması məsələsi 30-cu illərdə tam kəskinliyi ilə qarşıda dururdu.

1929-cu ildə Dövlət Elmi-Tədiqat İnstitutunun yaranmasından sonra elmi-tədqiqat institutlarında çalışan yüksək elmi dərəcəli kadrlar hazırlanması məqsədi ilə aspirantura şöbəsi açıldı. Aspiranturanın təşkil edilməsi xüsusilə, milli kadrların hazırlanması işində əhəmiyyətli addım oldu. Üçillik aspiranturanı bitirən ilk 86 nəfər aspirantın arasında Ə.Sumbatzadə, H.Hüseynov, M.Dadaşzadə, Q.Cəfərov və digər tanınmış alimlər də vardı. Aspirantların və belə ziyalıların yetişməsində kitabxanaçıların xüsusi rolu vardı.

1932-ci ildə Azərbaycan MİK SSRİ EA Zaqafqaziya Filialının yaranmasının nəticəsi olaraq bir neçə elmi-tədqiqat institutu yarandı. Bunlardan Dil və Ədəbiyyat İnstitutunun, Botanika bağının, Zooparkın və Akvariumun, Energetika və bir sıra başqa yeni bölmələrin yaranmasını misal göstərmək olar.

SSRİ EA özünün Zaqafqaziya Filialının 1935-ci ilin oktyabr ayından 3 müstəqil bölmədə – Azərbaycan, Gürcüstan və Ermənistan bölməsində fəaliyyət göstərməsini məqsədəuyğun saydı. Beləliklə, SSRİ EA AF yaranmış oldu. Artıq dekabr ayın-

dan Qeyri-üzvü və Fiziki Kimya İnstitutu da fəaliyyətə başladı. 1936-cı ilin mart ayında Zoologiya və Botanika İnstitutları, 1937-ci ildə Tarix, Dil və Ədəbiyyat İnstitutu, 1938-ci ilin yanvar ayında Geologiya İnstitutu, Coğrafiya bölməsi və s. yaranması elmi-texniki ədəbiyyatın nəşrinə və təbliğinə tələbatı artırdı. Beləliklə, Azərbaycanda elmi müəssisələrin sayının artması, SSRİ EA AF yaranması, onlarla elmi-tədqiqat institutlarının, ali məktəblərin sayının artması, elmi-sahə kitabxanaları şəbəkəsinin də genişlənməsinə səbəb oldu. Eyni zamanda respublikada elmi işçilərə və mütəxəssislərə kitabxana xidmətinin təşkili məsələsi də günün mühüm tələbinə çevrildi. Bütün bunlar çoxdan bəri, böyük ehtiyac hiss edilən ixtisaslı kitabxanaçı kadrların hazırlanması məsələsini ön plana çəkdi.

Nəhayət, 1938-ci il mart ayında Azərbaycan XKS Bakı şəhərində kitabxanaçılıq texnikumunun açılması haqqında xüsusi qərar qəbul etdi [92, 76].

Həmin qərarda deyilirdi:

- «1938/39-cu dərs ilinin əvvəli üçün Bakıda təhsil müddəti 3 il olmaqla üç əsas şöbədən ibarət texnikum açılsın. Azərbaycan, rus və erməni dillərində kadr hazırlamaq üçün 300 nəfərlik və kitabxana işçilərinin ixtisasını artırmaq üçün təhsil müddəti 1 il olan 60 nəfərlik kurslar təşkil edilsin;
- Azərbaycan rayonlarından gələn tələbələr üçün texnikumun yanında əsas şöbələr üzrə 200 nəfərlik, ixtisasartırma şöbəsi üzrə isə 40 nəfərlik, cəmi 240 nəfərlik yataqxana təşkil edilsin;
- XMK-na təklif olunsun ki, 1938-ci il mart ayının 1-nə qədər kitabxanaçılıq texnikumunun ştat və layihə-smetası təsdiq olunmaq üçün Azərbaycan SSR XKS-na təqdim etsin;
- Kitabxanaçılıq texnikumunu ixtisas fənləri üzrə lazımi müəllimlərlə təmin etmək məqsədi ilə 1938-ci ildə Mosk-

va və Leninqrad şəhərlərinin ali kitabxanaçılıq İnstitutlarını qurtaranlardan 5 nəfərini Azərbaycan XMK-nın sərəncamına göndərmək və həmin institutlarda Bakı kitabxanaçılıq texnikumunu qurtaran tələbələr üçün 5 yer ayırmaq RSFSR XMK-dan xahiş edilsin;

- Bakı Sovetinə təklif edilsin ki, 1938-ci il avqustun 1-dək kitabxanaçılıq texnikumunun təhsil korpusu üçün 360 nəfərlik, yataqxana üçün isə 240 nəfərlik bina ayrılsın;
- XMK-na təklif olunsun ki, RSFSR-dən gələn mütəxəssis müəllim kadr üçün lazımi şərait yaradılsın;
- Bakı Sovetinə təklif olunsun ki, RSFSR-dən gələn mütəxəssis-müəllim kadrlar üçün Bakı şəraitində müvafiq mənzillər verilsin» [56, v.10].

Gələcəkdə bu tədbirlərin həyata keçirilməsi respublikamızda ixtisaslı kitabxanaçı kadrlar hazırlanması işinin yaxşılaşmasına kömək etdi ki, bu da bütövlükdə Azərbaycanda kitabxana işinin inkişafını təmin etmiş oldu. Texnikumun açılması Azərbaycan kitabxanaları üçün ixtisaslı kadrların əvvəllər olduğu kimi kortəbii və qısa müddətli deyil, planauyğun və sistemli şəkildə hazırlanması işinə müsbət təsirini göstərdi.

1938-ci ilin iyulun 11-də «Бакинский рабочий» qəzetində texnikumun kitabxana müdirləri, kitabxanaçılar, rayon XMŞ-də kitabxana işi üzrə təlimatçılar, kataloqçular hazırlanması haqda elanı dərc olundu.

Fəaliyyətə başladığı ilk dərs ilində texnikuma 150 nəfər tələbə qəbul edildi.

1939/40-cı dərs ilində S.Yəhyəzadə və M.H.Rzaquliyev texnikumda dərs demək üçün müəllim təyin edildi. 1933-cü ildə Moskva kitabxanaçılıq institutunu bitirən S.Yəhyəzadə rus bölməsində, tanınmış maarifçi M.Rzaquluyev isə Azərbaycan bölməsində ixtisas fənnindən dərs deməyə başladı. M.Rzaquluyev Azərbaycan Dövlət Ümumi Kitabxanasında və XMK Kitabxanaçılıq İdarəsində işləmiş təcrübəli mütəxəssis idi.

1939-1940-cı tədris ilində texnikuma 177 nəfər qəbul edildi. 1940-cı ildə Azərbaycan Kitabxanaçılıq Texnikumunun ilk buraxılışı oldu. İlk buraxılışın tələbələri Bakı şəhərində yerləşən və fəaliyyət göstərən elmi və sahə kitabxanaları ilə yanaşı, Azərbaycanın müxtəlif rayonlarına işləməyə göndərildilər. Artıq kitabxanalarda ixtisas təhsili olan kadrlar nəsli yetişməyə başlamış oldu. Respublikada kitabxana işinin sonrakı inkişaf tarixində onların xüsusi rolu olmuşdur.

1940-cı ilin əvvəlində ümumiyyətlə respublikada 1383 kitabxana vardı ki, bu kitabxanalarda da 715 nəfər ixtisaslı kitabxanaçı çalışırdı. Göründüyü kimi, hələ də kitabxanaların sayı kitabxanaçıların sayından 2 dəfə çox idi. Bunlardan da çox az hissəsi ölkədə fəaliyyət göstərən elmi kitabxanaların payına düşürdü.

M.F.Axundov adına Ümumi Kitabxana fəaliyyətə başlayarkən 13 nəfər kadrla işə başlamışdı ki, onlardan 9 nəfəri kitabxanaçı idi. Bu kitabxanaçılar içərisində Azərbaycan SSR Mədəniyyət Nazirliyinin təşkil etdiyi kursların müdavimləri də var idi. Həmin dövrdə kitabxana işini sevən, kitaba mədəni sərvətin incisi kimi qiymət verən ziyalılarımız kitabxana işi sahəsində böyük fəaliyyət göstərirdilər. Kitabxananın ilk direktoru M.Səlimov, Q.Saar, M.İtkov, N.Avşarov, H.Tağıyev və s. belə ziyalıların sırasında idi. Respublikada kitab aləminin, kitabxana işinin bilicisi kimi tanınan, adı həmişə hörmətlə xatırlanan biblioqraf Aron Lerman 20-ci illərdən öz həyatını respublikada kitabxana işinin inkişafı ilə bağlamışdı. Azərbaycanda kitabxana kadrlarının yetişdirilməsi və hazırlanmasında xüsusi xidmətləri olan A.Lerman 1923-24-cü illərdə kitabxanaçılıq kurslarının təşkilində qocaman kitabxanaçılardan Hüseyn Tağıyev və Əliyusif Əliyevlə birlikdə böyük fəaliyyət göstərmişdir. 1924-cü ildə Dövlət kitabxanasında 16 nəfər kadr çalışırdı ki, onların da əksəriyyəti ixtisasartırma kurslarında kitabxanaçılıq peşəsinə yiyələnmişdi. Onların əmək haqqı vəzifələrindən asılı olaraq 22-24 rublu təşkil

edirdi [45, v.119].

A.Lerman 1926-cı ildə ADU-də, sonralar isə Partiya Tarixi İnstitutu kitabxanasının müdiri işləmişdir.1938-ci ildən Bakıda kitabxanaçılıq texnikumunda müəllimlik etmiş, ixtisaslı kitabxanaçı kadrların yetişməsində böyük xidmətləri olmuşdur. 1925-ci ildə Axundov ad. Ümumi kitabxananın fondunda artıq yarım milyona qədər kitab var idi. Kitabxananın direktoru M.Səlimov öz xatirələrində yazır ki, «həmin il mən kitabxananı prof. İtkova təhvil verib Azərbaycan Kitab Palatasının direktoru vəzifəsinə təyin olundum» [135, 21-22]. 1925-ci ildə Dövlət kitabxanasında 15 nəfər işçi çalışırdı. 1928-ci ildə kitabxanada 6 şöbə var idi. Kitabxananın şərq şöbəsində şərq dillərini bilən Dursunzadə və Məmmədov çalışırdı. Bu şöbələrlə yanaşı, həmin dövrdə kitabxanada Biblioqrafiya Bürosu təşkil olundu. Büroda 3 nəfər kitabxanaçı-biblioqrafın fəaliyyət göstərməsi nəzərdə tutulurdu. Lakin büronun işi 30-cu illərin sonuna qədər xeyli zəiflədi və 1937-ci ildə tamam dayandı. 1937-ci ildə kitabxananın işçilərinin əksəriyyəti qeyri-türk millətindən idi. Kitabxananın «Dilçilik, Ədəbiyyat və İncəsənət» şöbəsinin müdiri A.Kriştul, Tarix və ictimai şöbənin müdiri Korabelnikov, Texnika şöbəsinin müdiri Klementova, Qərbi Avropa şöbəsinin işçilərindən Belenkaya, Oranskaya və s. digər millətlərin nümayəndələri idi [53, v.1,8]. 20-ci illərdə milli kadr çatmazlığı anlaşılan olsa da, 1930-cu illərin sonunda rəhbər işçilərin əksəriyyətinin qeyri-türk olmasını yalnız «mərkəz»in siyasəti kimi izah etmək olar. Bu cəmiyyətin başqa sahələrində olduğu kimi kitabxana işində də milli kadrların mənəvi repressiyası idi.

1940-cı ildə «Ədəbi tənqid və biblioqrafiya haqqında» qərardan sonra kitabxanada Məlumat-biblioqrafiya şöbəsi yaranır. Yenicə yaranan bu şöbədə 5 nəfər kitabxanaçı kadr çalışmağa başladı.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin ilk iclasında cəmiyyətin strukturu haqqında məsələnin müzakirəsi zamanı

Biblioqrafiya Komissiyası haqqında prof. A.V.Baqrinin məruzəsi dinlənildi və görkəmli biblioqraf prof. A.V.Baqri Biblioqrafiya Bürosunun rəhbəri təyin edildi. Beləliklə, cəmiyyət öz kitabxanasının ilk elmi biblioqrafiya mərkəzi kimi bünövrəsinin qoyulması işini ziyalı alim kadra– professora tapşırmışdı. Baqri eyni zamanda Cəmiyyətin həqiqi üzvü seçilmişdi. Sonralar Azərbaycan biblioqrafiyasına dair sanballı göstəricilər hazırlayıb çap etdirmiş, yüzlərlə elmi əsərin müəllifi olmuşdur. Onun əsərləri bu gün də öz elmi dəyərini itirməmiş və Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının fondunda mühafizə edilməkdədir.

1925-ci il 19 avqustda Cəmiyyətin Rəyasət Heyətinin iclasında Zifeldtin Kitabxana-Biblioqrafiya Bürosu haqqında məruzəsi dinlənildi. Məruzəni dinləyən və müzakirə edən iclas qərara aldı ki, «Biblioqrafiya Bürosunun əvəzinə Kitabxana-Biblioqrafiya Bürosu təsis edilsin, büronun sədri H.Zeynallı, üzvləri Ş.Manatov, X.Terequlov, M.Səlimcanov, Z.Novşirvanov, A.A.Paxomov, A.O.Dalavassera olmaqla təsdiq edilsin» [10, v.116].

Göründüyü kimi kitab aləmindən başı çıxan görkəmli alim və ziyalılar Cəmiyyətin kitabxana işinə cəlb edilmişdi. Bu kitabxana işində kadr məsələsinin həlledici rol oynadığını bir daha sübut edir.

1925-ci ildə Rəyasət Heyətinin iclasında qərara alınır ki, kitabxananın işi xeyli artmışdır və əlavə mütəxəssis kadrlara ehtiyacı vardır. Ona görə də Rəyasət Heyəti M.İ.Demidovanı və S.Mirzəyevi kitabxanaçı ştatı ilə işə qəbul edir. 1926-cı ilin iyununda Mərkəzi Şura öz iclasında kitabxananın işinin artmasını nəzərə alaraq bir kitabxanaçı və bir texniki kitabxanaçı ştatı da ayırdı. Beləliklə, Azərbaycanı tədqiq və tətəbbö cəmiyyəti kitabxana işində təkcə kitabxananın ədəbiyyatla komplektləşdirilməsi işinə deyil, kadr məsələlərinə də getdikcə əhəmiyyət verilməyə başlanmışdı.

1928-ci il oktyabr ayının 13-də Cəmiyyətin Rəyasət Heyəti-

nin yığıncağında kitabxana haqqında H.Sultanovun məruzəsi dinlənilir və qərara alınır ki, kitabxanaya rəhbərlik bu işdə səriştəsi olan Fərrux Şabanova tapşırılsın. Eyni zamanda iclasın qərarı ilə H.Sultanovun sədrliyi ilə Apresov, Q.Qubeydullin və Zifeldt kimi alimlərdən ibarət Kitabxana Komissiyası yaradılır. Qərarda komissiyanın işinə təcrübəli alim və mütəxəssislərin dəvət edilməsi tövsiyə edilirdi. 1929-cu ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti kitabxanasında 5 nəfər kitabxanaçı kadr çalışırdı. Ümumiyyətlə, kitabxananın işinə E.Paxomov nəzarət edirdi. Kitabxananın müdiri isə F.Şabanov idi. M.Yəhyayev, M.Demidova, S.Hacıyeva kitabxanaçı, S.Mirzəyev isə texniki kitabxanaçı kimi fəaliyyət göstərir. Böyük kitabxanaçı M.Yəhyayevin ali təhsili yox idi. O, şəxsi təhsil almış savadlı bir insan idi. Kitabxanaçı M.Demidova Azərbaycan Pedaqoji İnstitutunun tələbəsi, kitabxananın müdiri F.Şabanov isə şərqşünas idi. O, həm də Azərbaycan Dövlət Universitetinin elmi işçisi idi. Kitabxananın oxu zalının müdiri işləyən S.Hacıyeva əvvəllər evdar qadın idi. Əmək haqqının aşağı olduğu kitabxanada işləməyə gələnlərin sayı az olduğundan hazırlıq kursu keçmiş belə kadrlardan istifadə olunurdu. Kitabxananın müdiri 200 rubl idi, 3 nəfər kitabxanaçı 80 rubl, texniki kitabxanaçı isə 45 rubl əmək haqqı alırdı [58, v.17]. Onlar kitabxananı Cəmiyyətin elmi bölmələrinin tələbatına uyğun olaraq komplektləşdirir, kataloqlaşdırır və alimlərə, respublikanın müxtəlif elm və təhsil müəssisələrinə elmi ədəbiyyat və biblioqrafik arayışlarla xidmət işini təşkil edirdilər.

Qeyd etmək lazımdır ki, Az. DETİ kitabxanasının fəaliyyəti genişləndikcə, kitabxanaçı kadrların sayının artması tələb olunurdu. Belə ki, 1932-ci ilin 5 fevral məlumatına görə elmi kitabxanada artıq 7 nəfər əməkdaş çalışırdı. Onların tərkibində dəyişikliklər də nəzərə çarpırdı. Bəziləri işdən getmiş, yeniləri ilə əvəz olunmuşdu. S.Kaplan kitabxana müdiri kimi 200 rubl əmək haqqı müqabilində çalışırdı. Yəhyayev böyük kitabxanaçı, Demidova, Baxtina, Adamova, Ələsgərzadə və Məlikov isə kitab-

xanaçı kimi fəaliyyət göstərərək oxuculara xidmət işini təşkil edirdilər. Üst-üstə 6 nəfər kitabxanaçının əmək haqqı 660 rublu təşkil edirdi [58, v.30]. Belə əmək haqqı ixtisaslı kadrları işə cəlb etmirdi.

8 aprel 1934-cü ildə SSRİ EA ZFAŞ-nin kitabxana işi üzrə ştatı təsdiq olunur. 157 №-li əmrə əsasən yaranan Biblioqrafiya Komissiyasına A.Baqri, Kovalskaya, Sokolov təyin olunur. Komissiyanın sədrliyinə kitabxananın rəhbəri A.V.Baqri təyin edilir. Həmin dövrdə kitabxana artıq rəsmi olaraq elmi status almışdı. Buna görə də kitabxanada elmi işçi ştatının olması labüd idi. H.Araslı 2-ci dərəcəli elmi işçi kimi kitabxananın şərq şöbəsinin müdiri idi [30, v.13]. Kovalskaya 1-ci dərəcəli elmi işçi ştatı ilə kitabxananın Avropa bölməsinin müdiri, A.N.Sokolovski isə elmi işçi kimi fəaliyyət göstərirdilər. 1935-ci ildə kitabxanada 9 işçi çalışırdı. Onlardan iki nəfəri 2-ci dərəcəli elmi işçi, 3 nəfəri 1ci dərəcəli elmi işçi, 3 nəfəri isə kitabxanaçı idi.

Elmin müxtəlif sahələri üzrə elmi-tədqiqat işlərinin geniş şəbəkəsinin yaranması və müxtəlif elm sahələri üzrə milli kadrların sayının artması kitabxana işində də böyük dəyişikliklər olmasını tələb edirdi. Bu məqsədlə Rəyasət Heyətinin 25 sentyabr 1938-ci il tarixli iclasının qərarına əsasən SSRİ EA AF Əsas Kitabxanasına kiçik elmi işçi hüququnda əlavə 5 ştat da verilir [34, v.10]. 1940-cı ilin noyabrında ÜİK(b)P MK-nın «Ədəbi tənqid və biblioqrafiya haqqında» qərarından sonra SSRİ EA AF Əsas Kitabxanasında da biblioqrafiya işinə diqqət bir daha gücləndirildi. Bu da, ilk növbədə kitabxanaya əlavə 6 nəfər biblioqraf ştatının verilməsi ilə kadr təminatında özünü göstərdi. Kitabxanaya əlavə işçi qüvvəsinin verilməsi biblioqrafik xidmətin inkişaf etdirilməsində xüsusi rol oynadı.

1941-ci ildə faşist Almaniyasının SSRİ-yə hücum etməsi ilə əlaqədar olaraq digər sovet respublikalarında olduğu kimi Azərbaycanda da kitabxanaçı kadrlar «Hər şey cəbhə üçün» şüarına qoşulub ideoloji sahəyə daha çox diqqət yetirməyə başladılar.

1920-1941-ci illər Azərbaycan tarixində həm də Mədəni quruculuq dövrü kimi xarakterizə edilir. Kitabxanalar ənənəvi kitabxana fəaliyyəti ilə yanaşı, ölkədə gedən tarixi proseslərdə-əhalinin savadsızlığının ləğv edilməsində, yeni əlifbanın tətbiqində və maarifləndirmə işlərində yaxından iştirak edirdilər. Lakin belə geniş fəaliyyətə cəlb edilmiş kitabxanalarda xalq təsərrüfatının digər sahələrində olduğu kimi kəskin kadr çatışmazlığı hiss edilirdi. Elmi-sahə kitabxanalarında isə ixtisaslı kitabxanaçılara daha böyük ehtiyac duyulurdu. Elmi kitabxana şəbəkələrinin sayının artması onların ixtisaslı kadrlarla təmin olunmasının sürətilə uyğunlaşmırdı.

Qeyd etmək lazımdır ki, 1920-1941-ci illərdə Azərbaycanda kitabxana işində əvvəllər ziyalı kadrlardan istifadə olunsa da, getdikcə qısa müddətli ixtisas kursları təşkil edilmiş və bu kurslardan keçmiş kitabxanaçılar fəaliyyət göstərməyə başlamışdı. 1938-ci ildə Kitabxanaçılıq Texnikumunun açılması ixtisaslı kitabxanaçı kadrlar hazırlığı sahəsindəki boşluğu doldurdu. Bütövlükdə götürdükdə tədqiq olunan dövrün başlanğıcında ixtisaslı kitabxanaçı kadrları olmayan Azərbaycanda hazırlıq kursları və Kitabxanaçılıq Texnikumunda təxminən 1000 nəfərə yaxın kitabxanaçı kadr hazırlanmışdı. Kitabxanaçılıq texnikumu respublika kitabxanalarının kadr təminatında müsbət rol oynasa da, elmi müəssisələrin təkmilləşməsi nəticəsində yaranan müxtəlif elmi-sahə kitabxana şəbəkəsinin inkişafı xüsusi kitabxanaçılıq təhsili verən ali təhsil müəssisəsinin yaranmasını tələb edirdi. Çünki elmi kitabxanalarda çalışan digər sahələrin mütəxəssisləri elmi işçi olsalar da, kitabxana işinin elmi təşkilini, xüsusiyyətlərini bilmirdilər.

Tədqiq edilən dövrdə elmi-sahə kitabxanaları təşkilatlanma ərəfəsində olduğundan kitabxana üçün yararlı binalara, xüsusi kitabxana avadanlığı və qurğularına, mebel və kitabxana ləvazimatlarına böyük ehtiyac var idi. Bunları nəzərə alan dövlət imkan tapdıqca kitabxanaların maddi-texniki bazalarının möhkəm-

ləndirilməsi üçün vəsait ayırsa da bu işin keyfiyyətli təşkili üçün azlıq edirdi.

Azərbaycanın təbii ehtiyatlarının, yanacaq resurslarının öyrənilməsi və xalq təsərrüfatına tətbiq edilməsi üçün aparılan elmi-tədqiqat işlərində də kitabxanaların rolu böyük olduğundan onların maddi-texniki bazalarının möhkəmləndirilməsi zərurəti meydana çıxırdı. Bu dövrdə Azərbaycan elminin qarşısında bir sıra problemlərin tədqiq edilməsi qoyulurdu. Daşkəsən yataqlarının öyrənilməsi, Gəncədə Zəylik alunit yataqlarının kompleks işlənilməsi, Azərbaycanın tropik bitkilərinin öyrənilməsi, İstisu və Naftalan müalicə sularının və Naftalan neftinin tədqiq edilməsi, Xəzərin kompleks şəkildə öyrənilməsi, enerji ehtiyatlarının araşdırılması yeni-yeni elmi-tədqiqat müəssisələrinin yaranmasına səbəb olmuşdu. Botanika İnstitutu və Botanika Bağı, Kimya İnstitutu, Energetika İnstitutu, Zoologiya İnstitutu, Olefinlər İnstitutu, Tarix, Dil və Ədəbiyyat İnstitutu və s. kimi elmi-tədqiqat müəssisələrinin yaranması onların elmi-sahə kitabxanalarının qarşısında mühüm vəzifələr qoyurdu. Kitabxanalar yaranmış elmi-tədqiqat institutlarının problemləri ilə öz işlərini əlaqədar qurmalı olurdular. Buna görə də onların maddi-texniki bazalarının möhkəmləndirilməsi dövlətin, tabe olduqları təşkilatların qarşısında mühüm vəzifə kimi dururdu.

Digər sahələrdə olduğu kimi kitabxana işində də kadr çatışmazlığı, xüsusilə də, milli kadrların olmaması özünü aydın göstərirdi. Əsasən bu sahədə müəllimlər və ziyalılardan istifadə olunurdu. Kitabxanaçılıq texnikumunun yaranması bu sahədə olan çatışmazlığı qismən ödəyə bilsə də, tezliklə elmi kitabxanaları təmin edə biləcək ali kitabxanaçılıq təhsili sisteminin yaranması gündəlikdə duran mühüm məsələyə çevrilmişdi.

# IV FƏSİL

# ELMİ MÜƏSSİSƏLƏRİN YENİDƏN QURULMASI VƏ ELMİ-SAHƏ KİTABXANALARININ FƏALİYYƏTLƏRİNİN GENİŞLƏNMƏSİ
**(1929-1941-ci illər)**

## 4.1. Elmi müəssisələrin təkmilləşməsi və fəaliyyət istiqamətləri

Xalq təsərrüfatının sosialistcəsinə yenidən qurulması kimi mühüm vəzifə ölkədə elmi-tədqiqat idarələrinin və müxtəlif istehsal sahələrinin elmi laboratoriyalarının yaradılmasını, elmi-tədqiqat işlərinin beşillik plana uyğun olaraq aparılmasını şərtləndirirdi. Azərbaycan neftinə tələbat və neft sənayesinin inkişafı uyğun elmlərin də inkişafını tələb edirdi. Bu illərdə Azərneftin kimya laboratoriyaları və geoloji-sınaq stansiyalarını birləşdirən Azərbaycan Elmi-Tədqiqat Neft İnstitutu, sonralar isə onun bazası əsasında L.Q.Qurviçin elmi işlərinin gerçəkləşdiyi Elmi-Tədqiqat Neft Çıxarılması, Elmi-Tədqiqat Neft Emalı və Neft Kimyası İnstitutu yarandı [183, 63].

L.Q.Qurviçin fiziki kimyanın nəzəri məsələlərini əhatə edən elmi kəşfləri «Neft emalının elmi əsasları» əsərində öz əksini

tapdı. Əsər müxtəlif xarici dillərə tərcümə edilib yayıldı.

1929-cu ildə respublikada Ümumittifaq Elmi-Tədqiqat Geoloji-Kəşfiyyat İnstitutu yaradıldı. Azərbaycanda Zaqafqaziya Geoloji Tresti fəaliyyətə başladı. Eyni zamanda Ümumittifaq Tətbiqi Mineralogiya İnstitutunun Azərbaycan şöbəsi fəaliyyətə başladı ki, sonralar həmin İnstitut Ümumittifaq Tikinti Materialları İnstitutunun Azərbaycan şöbəsinə çevrildi. Azərbaycan Elmi-Tədqiqat Neft Maşınqayırma İnstitutu bütövlükdə SSRİ-nin neft sənayesi üçün ciddi əhəmiyyət kəsb edirdi.

Bu illərdə Azərbaycan iqlimi və təbii enerji ehtiyatlarının öyrənilməsi məqsədilə daha bir neçə Ümumittifaq əhəmiyyətli elmi müəssisələr fəaliyyətə başladı. Ümumittifaq Elmi-Tədqiqat Energetika və Elektrikləşmə İnstitutunun Azərbaycan bürosu, Mərkəzi Külək Enerjisi İnstitutunun Azərbaycan şöbəsi və s. misal göstərmək olar. Gəncə şəhərində yaradılan Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun alimləri məhsuldar pambıq növlərinin yaradılması sahəsində yeni elmi nailiyyətlər əldə etdilər. Yaranan elmi müəssisələr və təşkilatlar XMK yanında Baş elm və fənlər idarəsinə (Qlavnauka) tabe idi.

İctimai elmlər sahəsində bir mərkəz sayılan Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti bu sahədə əldə etdiyi nailiyyətlərə baxmayaraq bütün elmi təşkilat və müəssisələri özündə birləşdirə bilən bir elmi-tədqiqat müəssisəsinə ehtiyac hiss edilməkdə idi. Bu məsələ haqqında tez-tez mətbuatda da yazılar dərc edilirdi («İnqilab və mədəniyyət», «Maarif və mədəniyyət», «Yeni yol» və s.)

Doğrudur, bəzən bu məsələ elmi-tədqiqat işlərinin məhz fəhlə və kəndli cəmiyyətinin bugünkü dönəmi ilə bağlı elmi tədqiqat işlərinin olmadığı ilə izah edilirdi.

1929-cu ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti və XMK yanında Baş Elmi İdarə Azərbaycanda böyük bir elmi-tədqiqat institutu yaratmaq məqsədilə Azərbaycan dövlətinə müraciət etdi. Müraciətdə qeyd edilirdi ki, bu elmi-tədqiqat institu-

tu bütün indiki müəssisələrdə aparılan tədqiqat işlərini özündə birləşdirməli, elmi kadrlar hazırlamalıdır. O da, digər planlı təsərrüfat sahələri kimi işini 5 illik planla əlaqədə qurub, dövlətin və təsərrüfat orqanlarının tapşırığını yerinə yetirəcəkdir. Nəhayət, 1929-cu ildə Azərbaycan KP MİK-nin 1 oktyabr 1929-cu il tarixli qərarı ilə Az.DETİ yaradıldı. Azərbaycanın ali elmi idarəsi olan bu institut Az.MİK tabeçiliyində fəaliyyət göstərməyə başladı. Az.DETİ respublikada pərakəndə şəkildə, bəzən paralel elmi işlərin aparıldığı elmi təşkilatların fəaliyyətini mərkəzləşdirdi. Azərbaycan KP MİK DETİ-nun 52 nəfər həqiqi üzvünü təsdiq etdi [60, v.8,9]. Onların içərisində V.V.Bartold, N.Y.Marr, İ.M.Qubkin, İ.İ.Meşşaninov, M.N.Pokrovski, A.N.Samoyloviç kimi akademiklər, İ.Q.Yesman, A.O.Makovelski, V.P.Smirnov-Loqinov kimi tanınmış professorlar DETİ-nun həqiqi üzvləri idi. Müxbir üzvlər içərisində V.Xuluflu, X.Məlik-Aslanov, B.Çobanzadə kimi alimlərin adı xüsusi qeyd edilməlidir. Qeyd etmək lazımdır ki, türk alimlərin sayı 26 nəfər idi. 50% qeyri-türk millətindən olanlar idi. Az.DETİ-na S.Əfəndiyev, H.Cəbiyev, R.Axundov kimi dövrün tanınmış ictimai-siyasi xadimləri rəhbərlik etmişlər.

Az.DETİ-nun məqsədi respublikanın təbii sərvətlərini və məhsuldar qüvvələrini, xalqın tarixini, adət-ənənələrini, dilini, ədəbiyyatını öyrənmək, bərabər inkişaf etdirmək və əldə olan nəticələri elmi əsaslarla işləmək idi. İnstitut qarşıya qoyulan bu məsələlərin həll edilməsinə nail olmaq üçün Azərbaycanın ərazisində mövcud olan elmi müəssisə və təşkilatların fəaliyyətini birləşdirmək məqsədi ilə ölkənin elmi potensialını öz ətrafında birləşdirir, elmi ekspedisiyalar, ezamiyyətlər təşkil edir və öz işini SSRİ-nin digər respublikalarının elmi müəssisə və təşkilatları ilə əlaqəli şəkildə qurur.

Azərbaycan MİK DETİ-nun 23 maddədən ibarət «Əsasnamə»sini təsdiq etdi [58, v.3]. Bu əsasnaməyə görə institut 7 əsas şöbə üzrə fəaliyyət göstərir:

1. Təbiətşünaslıq;
2. İqtisadiyyat;
3. Hüquq, dövlət və sovet quruculuğu;
4. Tarix-etnoqrafiya;
5. Dil, ədəbiyyat və incəsənət;
6. Fəlsəfə;
7. Xarici və sovet Şərqi (Şərqşünaslıq).

İnstitutun hər bir şöbəsi müxtəlif elm sahələri üzrə bölmələrdən, komissiyalardan və kafedralardan ibarət idi.

Təbiətşünaslıq bölməsi bütövlükdə təbiət elmlərini özündə birləşdirmiş oldu.

İqtisadiyyat şöbəsində daha sanballı və elmi dəyəri olan əsərlər 120 çap vərəqi həcmində çap edilib yayıldı [137, 48-49].

Tarix-etnoqrafiya şöbəsi Azərbaycan ilə yanaşı yaxın Şərq və qonşu sovet respublikalarının ictimai, iqtisadi və ideoloji həyat tarixini öyrənməklə məşğul oldu.

Azərbaycan sovet dövlətinin tapşırığı ilə şöbə ölkə tarixinə yeni baxışın tarixini araşdırmalı, eyni zamanda monqol, ərəb, fars, Rusiyanın işğalı dövrləri ilə bağlı məsələlərin öyrənilməsi ilə məşğul olmalı idi.

Fəlsəfə şöbəsi «İran və Azərbaycanda sufilik», «Bəhaizmin ictimai kökləri», «Ömər Xəyyamın fəlsəfi dünyagörüşü», «Ərəb fəlsəfəsində ağıl nəzəriyyəsi», «Axundovun dünyagörüşü» kimi əsərləri işləyib hazırladı. Hazırlanmış bu əsərlərdən bəzisi 40 çap vərəqi həcmində nəşr edildi.

Hüquq şöbəsinin qarşısında Azərbaycana məxsus cinayətlərin ictimai kökləri, sovet hüququ öyrənilməklə yanaşı, qonşu İran və Türkiyədə hüquqi məsələlərə dair elmi tədqiqatların aparılması məsələləri də qoyuldu.

Şərq şöbəsi Yaxın Şərq və SSRİ-nin şərq ölkələrinin tarix və mədəniyyəti, ictimai-siyasi vəziyyəti və iqtisadiyyatını öyrənmək məqsədi ilə lazımi materialları toplayır, Azərbaycanın Yaxın Şərq ölkələri ilə əlaqəsini öyrənməklə məşğul olurdu. Ey-

ni zamanda, şöbə şərqə dair ədəbiyyatı marksizm-leninizm nöqteyi-nəzərindən təhlil və tənqid etməli və bu xüsusda şərq fakültələri üçün dərs kitabları hazırlamalı idi.

Dil və ədəbiyyat şöbəsinin dil bölməsinə rəhbərlik etmək üçün Moskvadan dilçi-alim R.Şor dəvət edildi. Onun rəhbərliyi ilə Azərbaycan türkcəsinin xüsusiyyətləri, ləhcə və şivələrini öyrənmək üçün xüsusi aparat vasitəsilə Azərbaycanın müxtəlif bölgələrindən olan insanların danışıq tərzləri təqdim edilmiş və digər türk xalqlarının ləhcələrindəki fərqli xüsusiyyətlər öyrənilməyə başlanmışdı. Şöbə müəyyən araşdırmalardan sonra fonetika kabinetinin açılması məsələsini institut qarşısında qaldırdı.

Az.DETİ H.Zeynallının başçılığı ilə M.Ş.Vazehin yubileyini keçirmək üçün komissiya yaratdı. Komissiya Ədəbiyyat bölməsi ilə birgə elmi konfrans keçirdi. Konfransda M.Ş.Vazehin həyat və yaradıcılığına həsr olunmuş bir sıra dəyərli məruzələr dinlənildi. Eyni zamanda şairin adını əbədiləşdirmək üçün DETİ bir sıra təşkilatlara, məktəblərə və küçələrə onun adının verilməsini dövlətdən xahiş etdi.

Az.DETİ-nun tərkibində müxtəlif komissiyalar, bürolar və yarımbölmələr də yaradıldı. Eyni zamanda institutun tərkibində V.Xuluflunun rəhbərlik etdiyi «Terminologiya komitəsi», Elmi kitabxana, Elmi məlumat bürosu da fəaliyyət göstərməyə başladı. Az.DETİ yanında «Marksistlərin Elmi-Tədqiqat Cəmiyyəti», «Şaumyan ad. Sinfi Mübarizə İnstitutu», «Azərbaycanı Öyrənən Cəmiyyət», «Təbii Məhsuldar Qüvvələri Öyrənən Komissiya» da yaradıldı.

1929/30-cu illərə qədər Azərbaycanda elmi kadrların hazırlanması işi ilə ölkədə fəaliyyət göstərən ali məktəblər məşğul olurdu. DETİ yaradıldıqdan sonra respublikada ictimai və təbiət elmləri sahəsində elmi işçilər hazırlamaq işi bu instituta həvalə edildi. Az. DETİ-nun «Əsasnaməsi»ndə göstərilirdi: «İnstitut Azərbaycan SSR-nin elmi-tədqiqat və yardımçı müəssisələri, ali təhsil müəssisələri və texnikumlarda işləmək üçün uyğun sahələr

üzrə, xüsusilə, yerli əhalidən – azərbaycanlılardan elmi kadrlar hazırlayır». Aydın olur ki, bu sahədə institutun qarşısında elmi-tədqiqat işləri ilə bərabər ali məktəblər üçün müxtəlif kafedralarda çalışa biləcək mütəxəssis kadrlar yetişdirmək və təhsil müəssisələri üçün Azərbaycan dilini bilən yeni rəhbər işçilər hazırlamaq vəzifəsi dururdu. Aparılan işin nəticəsi idi ki, 1929/ 30-cu illərdə 33 nəfər elmi işçi hazırlandı [60, v.11]. Bütövlükdə götürdükdə isə 1930-cu ildə Az.DETİ-da 100-dən artıq həqiqi üzv və namizədlər çalışırdı. Elmi kadrlar içərisində ildən-ilə Azərbaycanlıların sayı artırdı. Respublikanın digər elmi müəssisələrində çalışan 60 nəfərdən çox elmi işçinin 22 nəfəri azərbaycanlı idi. Sonralar 1934-cü ildə respublikada çalışan 1167 işçidən artıq yarısı azərbaycanlılardan ibarət idi. 1929-cu il 22 oktyabrda bacarıqlı gənclərin elmi-tədqiqat işlərinə cəlb edilməsi məqsədi ilə ali məktəblərlə yanaşı olaraq Az. DETİ yanında da aspirantura yarandı. 1930-cu ildə ilkin olaraq aspiranturaya 83 nəfər qəbul edildi ki, bunlardan da 53 nəfəri azərbaycanlı gənclər idi [59, vv.19-20]. Aspiranturanı bitirən bu gənclərin sırasında tanınmış akademiklərdən M.Dadaşzadənin, M.Qaşqayın, M.Nağıyevin, Ə.Sumbatzadənin və s. adlarını qeyd etmək olar.

Aspirantura 3 illik idi və aspirantlar dövlətdən təqaüd alırdılar. Eyni zamanda Az.DETİ-nun «Əsasnamə»sinə görə onlar həmçinin əvəzləmə ilə partiya, sovet aparatında işləyə bilərdilər.

Az.DETİ nəşriyyat işləri sahəsində də fəaliyyət göstərmişdir. İnstitut elmi əsərlər, məcmuələr və bülletenlərlə yanaşı, «Azərbaycan Elmi-Tədqiqat İnstitutunun Xəbərləri», «Azərbaycanı Öyrənmə yolu» və «Yaxın Şərq» adlı jurnallar da nəşr etməyə başladı. Az.DETİ-nun aspirant və elmi işçiləri «Azərbaycanı Öyrənmə Yolu» jurnalında Azərbaycan və rus dillərində müxtəlif elmi problemlərə həsr edilmiş əsərlərlə çıxış edirdilər. Jurnal ildə 12 nömrə ilə 8 çap vərəqi həcmində nəşr edilirdi. İnstitutun nəşriyyat işləri hər bir şöbənin əvvəlcədən nəzərdə tutduğu iş planına uyğun olaraq həyata keçirilirdi. Şöbələr tərə-

findən mühüm sayılan elmi əsərlər və məruzələr nəşr edilməyə başladı. B.Çobanzadənin «Krım-tatar ədəbiyyatında qurultayçılıq və millətçilik» əsəri çap edildi. 150 000-dən çox sözü əhatə edən 5 cildlik «Türk dilinin elmi lüğəti»nin birinci cildi nəşr edildi. Lüğətdə bütün sözlərin türkcə izahları rus və alman dillərində də verilmişdi. Az.DETİ-nun üzvü olan dilçi alim Abdulla Təkizadənin «Türk-tatar dillərinin müqayisəli şərhi», S.Mümtazın «Türk-tatar dilinin semantikası» tədqiqat əsərləri Azərbaycanda sovet hakimiyyətinin 10 illiyi münasibəti ilə çapa verildi. Yubiley münasibəti ilə daha bir neçə əsərin çap edilməsi qərara alındı. Çap olunan əsərlər içərisində professor Ə.Qubeydillinin «Osmanlı pantürkizmi və onun Azərbaycanda inkişafı», B.Çobanzadənin «Ədəbiyyatda nasionalizmdən internasionalizmə doğru», Zifeldt-Samumyakinin «Azərbaycan xalqları» əsərlərini misal göstərmək olar. Qeyd etmək lazımdır ki, elmi tədqiqat işlərinə bir qayda olaraq marksizm və leninizm nöqteyi-nəzərdən yanaşılması, özündən əvvəl yaradılan «zərərli» ədəbiyyatın tənqid və təftiş edilməsi tələbləri qoyulurdu.

Az.DETİ 1930/1932-ci illər ərzində müxtəlif bilik sahələrinə aid 78 adda, təbiətşünaslıq, kənd təsərrüfatı, energetika, botanikaya aid 9 adda kitab və kitabça nəşr etmişdi.

Azərbaycan SSR-nin birinci beşillik planında fundamental və tətbiqi elmlər sahəsində sosializm quruculuğunun vəzifələrinə cavab verən elmi tədqiqatların aparılması və buna müvafiq olaraq da maliyyələşməsi nəzərdə tutulurdu. Bu illərdə SSRİ-də dövlət tərəfindən elmi-tədqiqat işlərinə ayrılan vəsaitin miqdarı 3,6 dəfə artırıldı. Ümumittifaq elmi-tədqiqat müəssisələrində köklü dəyişikliklər baş verməyə başladı. Artıq 30-cu illərdə ictimai, təbiətşünaslıq və texniki elmlər sahəsində yeni məktəb – «sovet elmi məktəbi» formalaşdı. SSRİ EA-nın yenidən qurulması yönündə bir sıra iri təşkilati işlər görüldü. EA-nın elmi-tədqiqat müəssisələrinin geniş şəbəkələri yarandı, aspirantura genişləndi, elmi-tədqiqat işləri də xalq təsərrüfatının digər sahələri

kimi planlaşdırılmağa başladı. SSRİ EA ölkənin ən ali elmi mərkəzi kimi müttəfiq respublikaların elmi müəssisələrinin formalaşmasına rəhbərlik edir, müxtəlif birgə elmi konfranslar, ezamiyyətlər, elmi ekspedisiyalar təşkil edirdi. Belə tədbirlərdən birində – təbii məhsuldar qüvvələrin öyrənilməsi ilə əlaqədar 1930-cu ilin iyul ayında keçirilən Ümum Azərbaycan Konfransında müxtəlif idarələrin nümayəndələrinin və alimlərin 60-dan yuxarı məruzələri dinlənildi. Konfransda «Azərneftin» rəisi M.V.Barinov «ZSFSR xalq təsərrüfatında neftin rolu» adlı məruzə ilə çıxış edərək Azərbaycanda neftin xalq təsərrüfatında rolu haqqında qurultay iştirakçılarına məlumat verdi.

Konfransın gedişi zamanı akademik İ.M.Qubkin və F.Y.Levinson-Lessinqin təşəbbüsü ilə SSRİ EA şəbəkəsinə daxil olan Azərbaycanda təbii məhsuldar qüvvələrin öyrənilməsi üzrə elmi-tədqiqat institutu yaradılması məsələsini SSRİ EA Rəyasət Heyəti qarşısında qaldırıldı. Eyni zamanda SSRİ EA Zaqafqaziya Filialının və onun Azərbaycan Şöbəsinin yaranması məsələsinin yetişdiyi nəzərə çatdırıldı.

SSRİ EA-da 1931-ci ildə yerlərdə iri elmi müəssisələrin yaranması üçün baza komissiyaları təşkil edilir ki, bu komissiyaya da SSRİ EA-nın vitse prezidenti V.L.Komarov rəhbərlik edir. 1932-ci ilin iyul ayının 10-da Azərbaycan MİK qərarı ilə Az.DETİ-nun uyğun bölməsinin bazası əsasında Azərbaycanın təbii istehsal qüvvələrinin öyrənilməsi üzrə elmi-tədqiqat institutu yaradılır [200, 17].

Bu illərdə mədəni quruculuq işlərində, savadsızlığın ləğvində, xalq maarifinin inkişafında müəyyən nəticələr əldə edilmişdi. Təhsil alan tələbələr içərisində azərbaycanlıların sayı xeyli artmışdı. Birinci beşillikdə onların artımı 27,3%-dən 50,5%-ə qədər yüksəlmişdi ki, bu da milli ziyalı kadrların formalaşması işində xüsusi əhəmiyyət kəsb edirdi. 1932-ci ildə ali məktəblərdə ana dilində dərs deyən müəllimlərin sayı 250 nəfərə çatmışdı. Bütövlükdə götürdükdə, artıq 1932-ci ildə ali məktəblər-

də və elmi-tədqiqat müəssisələrində 1707 elmi işçi və müəllim çalışırdı ki, bunlardan da yalnız 541 nəfəri Azərbaycanlı idi. Qadınların sayı isə 50 nəfər olmuşdur [41, v.1]. Rəqəmlərdən görünür ki, elmi işçilər arasında Azərbaycanlıların sayı 3 dəfədən də azdır. Lakin acınacaqlı da olsa bu fakt idi. Bu həm də siyasi amillə də bağlı idi. Digər sahələrdə olduğu kimi, elm və təhsildə də yalnız KP üzvləri və qeyri-millətdən olanlar üçün daha geniş imkanlar yaradılırdı.

1932-ci ilin 25 noyabrında ZSFSR XKS SSRİ EA Zaqafqaziya Filialının təsis edilməsi haqqında qərar qəbul etdi. Təbiətşünaslıq və ictimai elmlər bölməsində fəaliyyət göstərməli olan filial Gürcüstandakı Qafqazşünaslıq və Azərbaycanın Təbii Məhsuldar Qüvvələrin Öyrənilməsi İnstitutunun bazası əsasında yaradıldı. SSRİ EA vitse prezidenti qafqazşünas alim, akademik N.Y.Marr SSRİ EA Zaqafqaziya Filialının sədri təyin edildi. Zaqafqaziya Filialının alimləri filialın fəaliyyət göstərdiyi müddətdə Qafqaz respublikaları ilə yanaşı, Azərbaycanın iqtisadiyyatının, mədəniyyətinin gələcək inkişafı istiqamətində elmi tədqiqatlar aparmağa başladı. Eyni zamanda Azərbaycanın özündə fəaliyyət göstərən elmi-tədqiqat institutları və ali təhsil müəssisələri şəbəkəsi genişlənməkdə davam edir, milli ziyalı kadrların sayı artırdı. 1932-ci ilin axırı 1933-cü ilin əvvəlində Azərbaycanda 800 elmi işçi çalışırdı. Onlardan 87 nəfəri elmlər doktoru və professor, 138 elmlər namizədi və dosent kimi fəaliyyət göstərirdi [145, 30]. Ölkədə elmi müəssisə və təşkilat şəbəkələrinin belə genişlənməsi, elmi kadrların sayının artması SSRİ EA Azərbaycan şöbəsinin yaranmasını zəruri edirdi.

Azərbaycan KP MİK 1932-ci ilin 29 dekabrında professor X.İ.Qerberin məruzəsini dinləyərək Təbii məhsuldar qüvvələrin öyrənilməsi üzrə Elmi-Tədqiqat İnstitutunun bazası əsasında SSRİ EA ZFAŞ təşkil edilməsi haqqında qərar qəbul etdi. Azərbaycan MİK akademik F.Y.Levinson-Lessinqi SSRİ EA ZFAŞ-nin direktoru, X.İ.Qerberi və C.Kazımovu müavinlər təyin etdi.

Görkəmli alim V.Xuluflu SSRİ EA ZFAŞ elmi katibi oldu. Azərbaycan KP MİK qərarı ilə Kommunist küçəsindəki Türk Mədəniyyət Sarayının binası SSRİ EA ZFAŞ sərəncamına verildi və orada yerləşən Kitab Palatası ilə Dövlət Kitabxanasının başqa yerə köçürülməsi tövsiyə edildi.

SSRİ EA ZFAŞ təşkili ilə əlaqədar olaraq Azərbaycanda elmi-tədqiqat işləri genişləndi və daha çox Azərbaycanlı alimlər elmi-tədqiqat işlərinə cəlb edildi. SSRİ EA ZFAŞ-nin təşkil edilməsində və fəaliyyətində tanınmış elm xadimləri– İ.M.Qubkin, İ.İ.Meşşaninov, N.N.Marr, A.A.Qrossheym, K.A.Krasusski, M.V.Abramoviç, D.V.Qolubyatnikov, İ.Q.Yesman, Smirnov-Loqinov, V.S.Yelpatyevski kimi digər millətlərdən olan alimlərlə yanaşı, V.Xuluflu, M.Əfəndi, Ə.Ələkbərov, S.Qazıyev, B.Çobanzadə, İ.Cəfərzadə, İ.Rzazadə, A.Vəzirzadə kimi milli kadrlar da fəal iştirak etdilər.

1933-cü ilin fevralında SSRİ EA ZFAŞ direktorlar iclasında ictimai bölmə haqqında məsələ müzakirə edildi. Dövlətin qərarına və sərəncamlarına uyğun olaraq ictimai bölmə yaradıldı. İctimai elmlər bölməsinin tərkibinə dil, Azərbaycan tarixi və İncəsənət (ilk növbədə Ədəbiyyat) bölmələri daxil idi. SSRİ EA-dan İncəsənət (Ədəbiyyat) bölməsi üçün rəhbər göndərilməsi xahiş edilir. Dilçilik və Maddi mədəniyyət bölməsinə rəhbərlik İ.İ.Meşşaninova tapşırılır. Bu SSRİ dövlətinin əcaib bir siyasəti idi ki, Azərbaycan dilçiliyi ilə də qeyri-millətdən olan alim məşğul olmalı idi. Azərbaycan tarixi bölməsinin rəhbərliyi tarixçi alim, bacarıqlı arxiv tədqiqatçısı Ə.Qubeydullinə tapşırılır. İclasda Rəyasət Heyəti SSRİ EA ZFAŞ strukturunu müəyyən edir, 3 bölmə yaradılmasını təsdiq edilir:

1. Təbiətşünaslıq bölməsi – geologiya, fizika, kimya, botanika, zoologiya;
1. Texnika bölməsi – tətbiqi kimya, nadir metallar;
2. İctimai elmlər bölməsi – dilçilik, Azərbaycan tarixi (maddi mədəniyyət), incəsənət.

Direktorluqda Plan, Ekspedisiya, Kütləvi işlər, Nəşriyyat, Azərbaycanın rayonları ilə əlaqə və Kitabxana komissiyaları da fəaliyyət göstərirdi.

1933-cü ilin fevral ayının 17-də Azərbaycan XKS sədri M.C.Bağırov AK(b)P MK katibi Rubenə məktubla müraciət edərək MK-nin yaxın bürolarının birində M.Məmmədov, M.Şahbazov və Qerberin məlumatlarını dinləyib SSRİ EA ZFAŞ ilə əlaqədar partiyanın MK-nın direktivlərinin müəyyənləşdirilməsini xahiş edir. Məktubda eyni zamanda göstərilir ki, EA ZFAŞ-nin büdcəsi 615 000 rubldan 800 000 rubla qədər artırılsın. Onlardan 100 000 rublu əmək haqlarına və 85 000 rublu isə elmi işlərə əlavə olaraq ayrılsın [26, v.46].

1933-cü ilin aprel ayının 20-də XKS iclasında SSRİ EA ZFAŞ haqqında Qerberin məruzəsi dinlənilir. Bundan sonra XKS SSRİ EA ZFAŞ-nə xalq təsərrüfatının müxtəlif sahələrinin inkişafı ilə əlaqədar olaraq həyata keçirilməli olan elmi işlərin istiqamətləri üzrə tapşırıqlar verdi. Bu tapşırıqlar sənaye, kənd təsərrüfatı, səhiyyə, tarix, etnoqrafiya və s. əhatə edirdi. Qərarda qeyd edilirdi ki, Daşkəsən filiz zavodu, Bakı kükürd zavodunun bərpası üçün təbii qazın tətbiqi, Zəylik alunit yataqlarının kompleks istifadəsi, Gəncə rayonu filizinin radioaktiv tərkibinin öyrənilməsi, Abşeronun qumluq sahələrinin möhkəmləndirilməsi üçün meşə bitki zolağının salınması, Naftalan müalicə sularının mənbələrinin tədqiq edilməsi və s. SSRİ EA ZFAŞ tərəfindən öyrənilsin. SSRİ EA ZFAŞ Qızılağac qoruğuna və Naxçıvana kompleks ekspedisiyaların təşkili Dövlət Plan Komitəsi ilə razılaşdırılsın. XKS SSRİ EA ZFAŞ sənaye şəhərləri üçün tüstüyə davamlı bitkilərin yetişdirilməsi məqsədi ilə Dövlət Botanika bağının yaradılmasını, Azərbaycanın faydalı qazıntılarının xəritəsinin tərtib edilməsini, Azərbaycan SSR xalqlarının dilləri xəritəsinin hazırlanmasını, Azərbaycanın təbii enerji mənbələrinin öyrənilməsi üçün bir ay müddətində SSRİ EA ZFAŞ Energetika bölməsinin yaradılmasını tapşırdı.

1933-cü ilin 29 aprel tarixində SSRİ EA ZFAŞ Energetika bölməsinin yaranması haqqında M.Ə.Əfəndinin məruzəsi dinlənilərək qərara alındı:

1. Azərbaycan SSR XKS 20 aprel, SSRİ EA 2 aprel qərarına əsasən SSRİ EA ZFAŞ sistemində Energetika bölməsi (Sektoru) yaransın;
2. Bölməyə rəhbərlik professor İ.Q.Yesmana tapşırılsın;
3. İ.Q.Yesmana 2-3 ştatlı elmi işçiləri işə götürmək səlahiyyəti verilsin;
4. Ştatdan kənar olaraq professor İlyaşeviç, professor Usatıy, professor Pokrovski və dosent Rizazadə işə götürülsün;
5. Energetika bölməsinə öz işini qurmaq üçün 15-20 min rubl [28, v.43].

SSRİ EA ZFAŞ-da müxtəlif yeni tipli elmi laboratoriyaların yaradılması üçün SSRİ EA 1933-cü ildə öz büdcəsindən 37.000 rubl vəsait ayırdı [27, v.52]. SSRİ EA ZFAŞ rayonlarla əlaqəni gücləndirmək üçün Azərbaycanın rayonlarla əlaqə komissiyası ilə birgə bütün bölmələr üzrə rayonlara müxbir işçilərin götürülməsi qərara alınır. Belə ki, Şuşadan Həşim bəy Nərimanbəyli, Qubadan Əhməd Çələbizadə, Xaldandan İsgəndər Abdurrəhmanov və s. müxbir əməkdaşlar kimi fəaliyyətə başladı.

SSRİ EA ZFAŞ neftçi alimləri neft geologiyası sahəsində, palçıq vulkanları, neft yataqlarının təbəqə sularından istifadə olunması metodikasının öyrənilməsində xeyli irəliləyişə nail oldular. Kəşfiyyat qazmaları nəticəsində yeni neft yataqlarının istismara verilməsi reallaşdı. Azərbaycan SSRİ üzrə neft elminin mərkəzi kimi inkişaf etməyə və öz yerini tutmağa başladı. Neftçi kadrların yetişdirilməsində Azərbaycan neft məktəbi kimi böyük rol oynadı. Belə ümumittifaq miqyaslı kadrlardan Süleyman Vəzirov, Sabit Orucov, Rüstəm İsmayılov, Əli Əşrəf Əlizadə, Ağa Qurban Əliyev, Baba Babazadə, N.K.Baybakov, M.A.Evseev və s. misal göstərmək olar. Neft sənayesi üçün elmi-tədqiqat işləri-

nin aparılması sahəsində SSRİ EA ZFAŞ hələ 1930-cu ildə neft çıxarılması üzrə Azərbaycan Elmi-Tədqiqat İnstitutu ilə sıx əlaqədə fəaliyyət göstərərək neft və qaz ilə zəngin olan yataqların elmi cəhətdən əsaslandırılmış şəkildə işlənməsi, kəşfiyyat qazması və istismar texnologiyasının problemləri ilə məşğul olurdu. Eyni zamanda neftçi alimlər neft sənayesi üçün Amerikan aparatları ilə müqayisədə daha rahat və sərfəli aparatların hazırlanması, antidetonasiya xarakterli krekinq-benzilin alınması üçün elmi-tədqiqat işləri aparırdılar. SSRİ EA müxbir üzvü K.A.Krasusskinin rəhbərlik etdiyi SSRİ EA ZFAŞ kimya bölməsində Zəylik alunit yataqlarının işlənməsi nəticəsində M.Əfəndinin və V.Neqreevin kəşfləri 98% nəticə əldə etməyə imkan verdiyindən istehsalata tətbiq edilməsi tövsiyə edildi.

Xalq təsərrüfatının inkişafı ilə əlaqədar olaraq həmçinin, Azərbaycanın təbii enerji ehtiyatları nəzərə alınaraq energetika bölməsində bir sıra problemlər öz nəzəri və təcrübi həllini tapdı. Bölmənin işi bütövlükdə hələ 1931-ci ildə qəbul edilmiş Azərbaycan SSR-nin elektrikləşdirilməsi planına tabe edilmişdi. Bu zaman hər bir rayon, təsərrüfat öz təbii enerji ehtiyatları haqqında tam xarakteristika verməli idi. Bu iş üçün 17.100 rubl vəsait ayrıldı [25, v.3].

Energetika bölməsinin apardığı tədqiqatlarda Yesman, Əlizadə, Quluzadə, Əfəndizadə kimi alimlərin böyük xidmətləri oldu.

SSRİ EA ZFAŞ botanika bölməsinin rəhbəri SSRİ EA müxbir üzvü Qrosheymin elmi ekspedisiyalarının nəticələri on minlərlə yeni bitki növünü əhatə edən Herbarinin təşkil edilməsinə şərait yaratdı. Bölmənin elmi nəticələri kimi 3 cildlik «Azərbaycan florası», 2 cildlik – «Azərbaycan SSR bitki xammalı ehtiyatları» əsərləri nəşr edildi. 1934-cü ildə Bakıda Badamdar yaylasında 240 hektar sahədə müstəqil elmi idarə hüququnda Botanika – Nəbatat bağının tikintisinə başlandı. SSRİ EA ZFAŞ Zoologiya bölməsi Azərbaycanın faunasını və canlı aləmini öy-

rənmək yolunda ciddi araşdırmalar apardı. Görülən ciddi işlərdən biri də Azərbaycan faunasının inventarizasiyası oldu. Rəyasət Heyəti 1934-cü ilin oktyabr ayında Akvarium və Zoopark yaratmaq haqqında qərar qəbul etdi [40, v.27]. Torpaqşünaslıq bölməsinin alimləri Azərbaycanın Şirvan, Mil düzünün meliorativ xüsusiyyətlərini və subtropik Lənkəran zonasının torpaq örtüyünün tərkibini öyrəndilər. Bunun nəticəsində 1935-ci ildə Lənkəran zonasında yararlı torpaq sahələrinin məhsuldarlığının artırılması nəticəsində çayçılıq təsərrüfatları ölkəyə 123 ton çay məhsulu təhvil verə bildilər. 1933-cü ildə Bakı Seysmik stansiyası Seysmologiya bölməsi ilə birgə 1900-cü ildən 1930-cu ilə qədər Azərbaycanda baş vermiş zəlzələlərin kataloqunu tərtib etdi. 1934-cü ildə Seysmik stansiya zəlzələni daha yaxın ocaqlardan qeydə ala bilən Nikiforov aparatı ilə təchiz edildi. Seysmik stansiyanın qarşısında Xəzər dənizinin seysmik aktivliyi, yeraltı vulkanlar və onların seysmik əlaqəsinin tədqiq edilməsi ciddi bir vəzifə kimi qarşıya qoyuldu. Rəyasət Heyəti Çəmbərəkənddə Seysmologiya İnstitutu və Seysmik stansiya üçün yeni bina tikilməsi və binanın müasir aparatlar və avadanlıqla təchiz edilməsi haqqında qərar qəbul etdi.

Beləliklə, biz tədqiq edilən dövrdə SSRİ EA ZFAŞ təbiətşünaslıq elmləri bölməsinin Azərbaycanın xalq təsərrüfatının müxtəlif nəzəri və təcrübi problemlərinin öyrənilməsində bir sıra ciddi elmi nailiyyətlər əldə etdiyi qənaətinə gəlirik. Təəssüflə qeyd etmək lazımdır ki, bunu ictimai elmlərə də aid etmək çətindir.

İctimai elmlər bölməsinin işi birbaşa ideologiya məsələlərinə bağlanmışdı. Bölmənin işinə R.Axundov və akademik Meşşaninov rəhbərlik edirdi. SSRİ-də ictimai elmlər «kommunist ideologiyası», «proletariat diktaturası», «inqilabın dünyaya ixrac» edilməsi ideyalarına tabe etdirilmişdi. Ölkədə Stalinin şəxsiyyətinə pərəstiş dərin kök salmışdı. Azərbaycanda Bağırov-Beriya rejimi «əksinqilab» axtarışı ilə yaranan hər sahədə-siya-

sətdə, fəlsəfədə, iqtisadiyyatda, ədəbiyyatda, incəsənətdə «partiyalılıq» tələb edirdi. Bu niyyətlə rejimin qəbul etmədiyi müstəqil fikirli alimlərin, ziyalıların özləri ilə bərabər, həmçinin yazıb-yaratdıqları əsərlər də məhv edilir, yandırılırdı.

Beləliklə, Azərbaycanda ictimai elmlər 1930-cu illərin ağır, gərgin və ziddiyyətli dövrünü yaşayırdı. Buna baxmayaraq, bəzi arxeoloji qazıntıların, ekspedisiyaların nəticələri Azərbaycan tarixi və mədəniyyətinin daha qədim dövrlərini əhatə etdiyindən diqqətəlayiq olmuşdur. Tərtərdə onlarla arxeoloji qazıntıların materialları, Nic kəndi yaxınlığında tapılmış «Yaloylutəpə» mədəniyyətinin, həmçinin Böyük Qafqaz Dağları boyunca genişləndiyini sübut etdi. Cəbrayılın Dolanlar ərazisindən tapılmış bürüncdən düzəldilən tapıntılardan bürünc dövründə bəzək əşyalarının işləmə texnikasının yüksək inkişaf etdiyi məlum olur. 1934-cü ildə Qubadan tapılan bürünc maral, zəncir və sancaq arxeoloji cəhətdən xüsusilə diqqətəlayiq idi. 1934-cü ildə SSRİ EA ZFAŞ akademik İ.İ.Meşşaninovun rəhbərliyi ilə bir qrup alimi Mil düzünə, Ə.Ə.Ələkbərovun rəhbərliyi ilə İ.P.Şeblıkin, Ə.Ələsgərzadə və Mir Heydərzadədən ibarət qrupu Naxçıvana, Bərdəyə ekspedisiyaya göndərdi. Bu ekspedisiyalar zamanı əldə edilmiş nəticələr Azərbaycanın maddi-mədəniyyət tarixini yeni qiymətli tapıntılarla zənginləşdirdi. 1933-cü ildə SSRİ EA ZFAŞ Rəyasət Heyəti tərəfindən alim-mütəxəssis A.Salamzadəyə «XIX əsrdə Azərbaycanda təhkimlilər və feodal münasibətləri»nə aid arxiv materiallarını toplamaq tapşırığı verilir. A.Salamzadə Azərbaycanın və Leninqradın arxivlərində işləyərək xeyli material topladı. Toplanan material 30 çap vərəqi həcmində nəşr edildi [18, v.2]. 1933-cü ildə Zaqafqaziyanın sənaye tarixinə aid XIX əsr arxiv materialları əsasında «Материалы по истории горной промышленности в Закавказье» əsərinin I cildi çapa hazır idi.

1934-cü il iyun ayının 19-da Azərbaycan SSR XKS yanında Ensiklopediya Komissiyası yaradıldı. XKS 15 cildlik «Azərbay-

can ensiklopediyası»nın nəşri haqqında qərar qəbul etsə də, lazımi kadrlar və maddi baza olmadığından qərar yerinə yetirilmədi.

SSRİ EA ZFAŞ Dilçilik Bölməsində sanballı linqvistik əsərlər nəşrə hazırlandı. Rusca-Azərbaycanca lüğət nəşr edildi. Ədəbiyyat bölməsində Azərbaycan ədəbiyyatı klassiklərindən – M.P.Vaqif, M.F.Axundov, Q.B.Zakir, C.Məmmədquluzadə və M.Ə.Sabirin əsərləri tədqiq edilib yenidən çap edildi. Bununla yanaşı, qeyd etmək lazımdır ki, Nizami, Xaqani, S.Təbrizi, Füzuli kimi Azərbaycan şairləri İran poeziyasının nümayəndələri kimi göstərilirdi. 1936-cı ildə M.Ə. Nazim öz əsərlərində «feodal ideologiyası, dinə, sufizmə» xidmət etdiyindən Füzulinin poeziyasından, proletar ədəbiyyatşünaslığına yad olduğundan H.Cavidin «Peyğəmbər», «İblis» kimi əsərlərindən imtina etməyə çağırırdı [183, 21]. Bu sovet rejiminin ədəbiyyata olan tələbi idi.

1935-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulmasının 15 illiyi münasibəti ilə SSRİ EA ZFAŞ-nin müxtəlif bölmələri üzrə sərgilərin nümayişi təşkil olundu. Abşeron küləyindən energetika və hidrotexnika sahəsində istifadə edilməsi ilə bağlı 10-a qədər xəritə və diaqram da sərgidə nümayiş etdirildi.

Geologiya bölməsində Naftalan neftinin müalicə, kurort məqsədli əhəmiyyətini və İstisu mineral sularının öz tərkibinə görə Narzan sularından geri qalmadığını sübut edən geoloji, balneoloji xəritələr sərgidə əhəmiyyətli yer tuturdu.

Zoologiya bölməsində müxtəlif eksponatlar, 1928-1932-ci illərin zooloji tədqiqatlarının nəticələrini əhatə edən xəritələr, Abşeronun həşəratları və fitofillərinin fotoşəkilləri, Nuxa, Vartaşen, Qutqaşen rayonlarının meyvə və bostan bitkiləri zərərvericilərinə aid xəritələr və fotoşəkillər nümayiş etdirilirdi. Azərbaycanın faunasına həsr olunmuş albom zoologiya elmi sahəsindəki tədqiqatların əhəmiyyətini göstərirdi.

Botanika bölməsində Dağüstü Mədəniyyət və İstirahət parkının salınması üçün yaşıllıqların nümunələri, subtropik bitkilər,

tikansız kaktus növləri və s. nümunələr, fotoşəkillər nümayiş etdirilirdi. Lənkəran subtropik zonasının xəritəsi, çay kolları və digər subtropik bitkilərin şəkilləri sərginin maraqlı eksponatları kimi diqqəti cəlb edirdi. Sərgidə həmçinin Botanika albomunda botanika elminin nailiyyətləri öz əksini tapmışdı. Bölmələrin təşkil etdiyi bu sərgilər həm də, kitab sərgiləri ilə müşayiət olunurdu.

Dövlət ikinci beşillikdə SSRİ EA ZFAŞ qarşısında qoyulan elmi problemlərin tədqiq edilməsi üçün onun büdcəsini aşağıda verilən cədvəldəki artımla nəzərdə tutmuşdu:

***Cədvəl 4.1***

İkinci beşillikdə dövlətin EA ZFAŞ büdcə məsrəfləri göstəriciləri

| **Xərcin adı** | **1933** | **1934** | **1935** | **1936** | **1937** | **5 il üçün** |
|---|---|---|---|---|---|---|
| Ümumi xərc. | 65,5 | 94,6 | 123 | 159,8 | 208 | 650,9 |
| Əmək haqqı | 30,5 | 40,6 | 52 | 67,8 | 88 | 278,9 |
| Tikinti və avadanlıq | - | - | 15 | 15 | 15 | 45 |

Cədvəldən görünür ki, elmi işlərin həyata keçirilməsi üçün dövlət büdcəsinin ildən-ilə artırılması nəzərdə tutulmuşdur [17, v.3].

Özünün 3 illik fəaliyyəti dövründə (1933-1935) SSRİ EA ZFAŞ Azərbaycanda fəaliyyət göstərən elmi müəssisələrin fəaliyyətini birləşdirərək respublikada elmi-tədqiqat işlərinə rəhbərlik etmiş, mədəni quruculuğun özündə getmiş, təbiətşünaslıq, texnika və ictimai elmlər sahəsində aparıcı istiqamətlərdə kompleks elmi nəticələr əldə etmişdir. SSRİ EA ZFAŞ SSRİ-nin

neft sənayesinin kadr bazası kimi formalaşa bilmişdir.

1933-cü ildə yaranmış aspirantura şöbəsi ölkənin milli kadrlarının yetişməsində xüsusi rol oynadı.

1934-cü il statistikasına görə Azərbaycanda 70 elmi-tədqiqat müəssisəsi fəaliyyət göstərirdi. Bu müəssisələrdə 678 nəfər elmi işçi çalışırdı. SSRİ EA ZFAŞ-də 81 nəfər akademik, professor, elmlər namizədi çalışırdı [65, 401-403]. Respublikada elmi işlərin belə inkişafı elmi müəssisələrin və respublikanın elmi potensialının təkmilləşməsini tələb edirdi. SSRİ EA Rəyasət Heyətində də belə bir fikir formalaşmışdı ki, artıq SSRİ EA ZFAŞ müstəqil filial kimi fəaliyyət göstərə bilər.

1935-ci ilin 25 oktyabrında SSRİ EA Rəyasət Heyətinin qərarı ilə SSRİ EA ZFAŞ SSRİ EA Azərbaycan Filialı kimi daha təkmil şəkildə yenidən təşkil olundu [184, 61]. SSRİ EA AF elmi şurasının tərkibinə ilkin olaraq 66 nəfər üzv seçildi. Onların içərisində V.L.Komarov, İ.M.Qubkin, D.N.Pryanişnikov, İ.Y.Kraçkovski, İ.A.Orbeli, İ.M.Meşşaninov, A.N.Samoyloviç, N.D.Zelinski, N.İ.Vavilov kimi akademiklərin adını çəkmək olar. Akademik İ.M.Qubkin SSRİ EA AF-nın sədri seçildi. Onun ölümündən sonra SSRİ EA AF sədri kimyaçı alim akademik S.S.Namyotkin oldu.

SSRİ EA müstəqil Azərbaycan Filialının yaranmasından dərhal sonra elmi-tədqiqat institutları şəbəkəsinin təşkilinə başlandı. 1935-ci il oktyabr ayının axırında Tarix, etnoqrafiya və arxeologiya institutu, dekabr ayında kimya bölməsinin bazasında Kimya institutu təşkil edildi.

1936-cı ilin mart ayında Zoologiya və Botanika, Dil və Ədəbiyyat institutları yaradıldı. SSRİ EA AF tərkibində həmçinin geologiya, fizika, energetika, torpaqşünaslıq bölmələri də fəaliyyət göstərməyə başladı. Aprel ayının 27-də SSRİ EA AF Rəyasət Heyətinin qərarı ilə coğrafiya elmi sahəsindəki tədqiqatları birləşdirmək məqsədilə coğrafiya bölməsi təşkil edildi. Yaranmaqda olan bu elmi müəssisələrdə 250 nəfərdən çox elmi işçi

çalışırdı. Eyni zamanda, respublikada fəaliyyət göstərən 70-ə yaxın elmi-tədqiqat müəssisələrini öz ətrafında birləşdirərək Azərbaycanın iqtisadiyyatı və mədəniyyətinin inkişafı ilə bağlı olan nəzəri və təcrübi problemlər öyrənilməyə başlandı. Çünki xalq təsərrüfatının qarşısında KP-nin qoyduğu vəzifələrin həllində alimlərin əldə etdikləri elmi nəticələrin böyük rolu vardı. İkinci beşilliyin vəzifələri direktivlər şəkilində elmi idarələrin planlarına daxil edilmişdi.

Azərbaycanın zəngin təbii ehtiyatları ayrı-ayrı sahələrin elmi şəkildə öyrənilməsini tələb edirdi. Bu, xüsusilə təbii yanacaq ehtiyatlarına aid idi. Respublikada qiymətli faydalı qazıntıların tədqiq edilməsi işində SSRİ EA AF geoloqları böyük işlər gördülər. Azərbaycanın faydalı qazıntıları sistemləşdirilərək 26 xəritə tərtib edildi. Neft yataqları geologiyası, neftin yeraltı laylarda yerləşməsi şəraitinin öyrənilməsində M.V.Abramoviç, A.A.Yakubov və s. böyük uğurlar qazandılar. Geoloqlar Xəzərin cənub hissəsində neft ehtiyatlarının öyrənilməsində ciddi nəticələr əldə etdilər. K.Əlizadənin aparılan qazıntıların müxtəlif kiçik orqanizmlərə təsirinin öyrənilməsi sahəsində əldə etdiyi nəticələr Azərbaycanda stratiqrafiya və paleontologiyanın mühüm nailiyyəti idi.

1936-cı ildə dekabrın ayının 7-dən 10-a qədər akademik İ.M.Qubkinin rəhbərliyi ilə Bakıda üçüncü beşillikdə neft çıxarmanın inkişafı və Azərbaycan SSR-də geologiya məsələlərinin öyrənilməsi məqsədilə I Azərbaycan geologiya konfransı keçirildi [197]. Konfransda Azərbaycan neftinin geologiyasına həsr edilmiş mühüm elmi məruzələr dinlənildi. İ.Qubkin «III beşillikdə neft geologiyasının vəzifələri», Y.Qavrilovun «Abşeron yarımadasının hidrogeologiyasının növbəti vəzifələri», Y.Kazinin «Azərbaycanda geoloji elmi-tədqiqat işlərinin təşkili haqqında», A.Korneyevin «Azərbaycanda geofizikanın növbəti vəzifələri», İ.Sitkovskinin «Azərbaycanda filiz və qeyri-filiz faydalı qazıntılarının öyrənilməsinin növbəti vəzifələri» və s. belə məru-

zələr konfrans iştirakçıları tərəfindən maraqla qarşılandı və geologiya sahəsində qarşıdan gələn illər üçün vəzifələr müəyyənləşdirdi. Kimya elmləri və neft-kimya sənayesinin elmi problemlərinin öyrənilməsi ilə SSRİ EA AF Kimya institutu məşğul olurdu. İnstitutun direktoru SSRİ EA müxbir üzvü K.Krasusski idi. İnstitutun qarşısında kimya texnologiyası sənayesinin elmi problemlərinin öyrənilməsi, motor yağının alınması, Azərbaycanın mineral ehtiyatlarından istifadə edilməsinin öyrənilməsi vəzifələri dururdu. Kimyaçı-alim Ş.Məmməd və onun rəhbərlik etdiyi qrup tərəfindən neft tullantılarından alfanaftol tipli hibridlərin sintezinin yeni metodları öyrənildi. Ş.Əliyevin eksperimental tədqiqatları nəticəsində neft məhsullarından sənayedə istifadə edilən polistirol alındı.

Qeyri-üzvi kimya sahəsində aparılan elmi-tədqiqatlar nəticəsində Azərbaycanın təbii xammal ehtiyatları və onların xalq təsərrüfatında istifadəsi öyrənildi. Eyni zamanda bəzi sənaye tullantılarının texnologiyasının öyrənilməsi onlardan istehsalatda istifadə edilməsi məsələlərini asanlaşdırdı.

Kimya sahəsində görkəmli alimlər M.Əfəndi və V.Neqrev alunitlərdən qiymətli bir maddənin alınması metodlarını öyrəndikləri üçün müəlliflik şəhadətnaməsi aldılar. Xromun işlənməsi Azərbaycanda onun tətbiqinin iqtisadi əhəmiyyətinə görə xüsusilə qeyd edilməlidir. III beşillikdə xalq təsərrüfatının qarşısında duran vəzifələrdən biri də ölkənin elektrik enerjisinə artan tələbatını ödəmək məqsədilə yeni təbii elektrik enerji mənbələrinin öyrənilməsi idi. Buna görə də SSRİ EA AF energetika bölməsinin (1941-ci ilin yanvarından institut) qarşısında Azərbaycanda təbii enerji ehtiyatlarının öyrənilməsi, mövcud olan enerji bazasından düzgün istifadə edilməsi şəraitinin öyrənilməsi, neft sənayesi energetikasının-neft laylarının hidromexanika, hidrodinamikası problemlərinin öyrənilməsi məsələləri dururdu. Energetika sahəsində görkəmli alimlər İ.Yesman, Ə.Əlizadə, S.Quliyev və Q.Quluzadənin adlarını xüsusilə qeyd etmək lazımdır.

SSRİ EA AF energetikləri Azərbaycanın su mənbələrinin kadastrının tərtib edilməsində, su enerji ehtiyatlarının yerinin təyin edilməsində, Mingəçevir elektrik stansiyası və Bakı enerji sisteminin qarşılıqlı əlaqəsi nəticəsində enerji itkisinin azaldılması yönündə mühüm nəticələr əldə etdilər. Eyni zamanda neftin laylarda hərəkəti, layların fiziki və energetik tədqiqat metodları işləndi. Əldə olunan nailiyyətlərə baxmayaraq, Azərbaycan rayonlarının elektrikləşməsi işi Ermənistan və Gürcüstana görə ləng gedirdi. Azərbaycanın fizika elmi sahəsində aparılan elmi-tədqiqat işlərinin başında SSRİ EA AF fizika bölməsi dayanırdı. 1935-1940-cı illərdə bölmədə neft və neft məhsullarının fizikası, metalların molekulyar fizikası, qarışıqların cisimlərin maqnit xassəsinə təsiri, luminisens elektroskopiya, cisimlərin elektrik və maqnit keçiriciliyi, yarımkeçiricilər sahəsində elmi-tədqiqat işləri aparılmışdır. X.Əmirxanovun yarımkeçiricilərin elektrik xassəsini tədqiq etməsi nəticəsində yeni fiziki hadisə-istilikdən uzanma (dartılma) hadisəsi kəşf edildi və uyğun nəzəriyyə yarandı.

SSRİ EA AF-da biologiya elmləri 3 istiqamətdə-botanika (Botanika institutu), zoologiya (Zoologiya institutu) və torpaqşünaslığın (Torpaqşünaslıq bölməsi) öyrənilməsi istiqamətində inkişaf edirdi. Bioloq-alimlər respublikada torpaqların məhsuldarlığının artırılması, heyvandarlıq sahəsinin inkişafı üçün otlaq və yaylaqların yaxşılaşdırılması, pambıqçılığın inkişafı, cənub zonasında subtropik bitkilər üçün əkin sahələrinin genişləndirilməsi, tütün növlərinin inkişafı və s. problemlərin öyrənilməsi üzərində işləyirdilər.

Azərbaycanda bitən yabanı bitki ehtiyatlarının öyrənilməsi nəticəsində bəzi bitkilərdən qiymətli yağların alınması metodları işləndi. Aparılan elmi-tədqiqatların nəticələri 6000 bitki növünü əhatə edən 4 cildlik «Qafqazın florası», «Azərbaycan ziyanverici bitkiləri və onlarla mübarizə» əsərlərində çap edildi.

1940-cı ildə Qrossheymin «Развитие ботанических наук в Азербайджане за 20 лет» məqaləsində Azərbaycanda sovet ha-

kimiyyəti illərində botanika elminin inkişafı, xüsusilə də SSRİ EA AF Botanika institutu yarandıqdan sonra elmi-tədqiqat işlərinin vahid mərkəzdə birləşdirilməsinin əhəmiyyətli nəticələri göstərilir. Azərbaycanda botanika sahəsində A.Qrossheym, İ.Karyagin, L.Prilipko kimi alimlərlə yanaşı, milli kadrlardan M.Abutalıbovun, R.Rzazadənin, Y.İsayevin adlarını qürur hissi ilə qeyd etmək olar.

1940-cı ilin fevralında SSRİ EA AF Bakı şəhər soveti ilə birlikdə limon, naringi və mandarin kimi sitrus bitkilərinin Abşeron torpaqlarında inkişafı ilə bağlı elmi müşavirə keçirdi. Alimlər Şüvəlanda alınmış yaxşı nəticələr haqqında məlumat verdilər. Lakin kütləvi şəkildə Abşeronda subtropik bitkilərin əkilməsi ideyası özünü doğrultmadı.

1940-cı ilin mart ayında Xalq Torpaq Komissarlığı SSRİ EA AF ilə birlikdə Azərbaycanın subtropik torpaqlarında çay əkilməsi problemlərinin həlli üzrə respublika müşavirəsi keçirdi. Müşavirədə SSRİ EA AF Botanika institutu, Torpaqşünaslıq bölməsi, SSRİ EA Torpaqşünaslıq İnstitutunda çalışan alimlərin məruzələri dinlənildi. Müşavirə Talış dağlarının ətəyinin və Lənkəran zonasının çay bitkisi əkinçiliyinə yararlı olmasını öyrənmək üçün təlimat qəbul etdi.

SSRİ EA AF torpaqşünaslıq bölməsi alimlərinin səyi nəticəsində Samur-Dəvəçi kanalı zonasının 50 min hektarında iri miqyaslı (1:25.000) çəkiliş aparıldı. Bundan başqa, Azərbaycan SSR və Dağıstan MSSR torpaq xəritəsi tərtib edildi. Neft sənayesi tullantılarından yeni qeyri-üzvü fosfat gübrəsinin alınma metodları işləndi.

V.Smirnov-Loqinovun, V.Volobuevin, B.Klopotovskinin «Успехи почвоведения в Азербайджанской ССР за 20 лет» əsərində torpaqşünaslıq elminin inkişaf yollarının tarixi göstərilmişdir.

1935-ci ilin oktyabrında Zoologiya İnstitutunun yaranması ilə Azərbaycanda zoologiya sahəsində elmi-tədqiqat işləri daha

da təkmilləşməyə başladı. Respublika faunasının inventara alınması işi davam etdirildi. Qafqaz faunasının tarixinin öyrənilməsi işi aparılaraq zoo-coğrafi xəritənin tərtib edilməsi işi həyata keçirildi. Qızılağac və Zaqatala qoruğunda canlıların həyat şəraiti və iqlimə uyğunlaşmasını öyrənmək üçün müşahidələr aparıldı. Yerli mal-qara cinslərinin öyrənilməsi nəticəsində respublikada heyvandarlığın inkişaf etdirilməsinə imkan yarandı. Professor A.Derjavin Xəzər dənizində nərə və qızıl balıq növlərinin bioloji xüsusiyyətlərini tədqiq etdi. Görkəmli ixtioloqun aldığı elmi nəticələr Xəzərdə bu balıq ehtiyatının artırılmasına təlimat verdi. A.Derjavinin «Azərbaycanda zooloji tədqiqatlar – 20 ildə» əsərində 1920-1941-ci illərdə Azərbaycanda zoologiya elminin formalaşması və inkişafı tarixindən bəhs edilir. Alimlərin əldə etdiyi nəticələrin materialları Azərbaycan Dövlət Muzeyinin Təbiətşünaslıq tarixi bölməsinə verilirdi. Bu Azərbaycana aid zooloji tədqiqat materiallarının mühafizəsi məqsədini daşıyırdı.

1937-ci ilin dekabr ayında SSRİ EA AF Rəyasət Heyətinin yeni tərkibi seçildi. Filialın sədri SSRİ EA vitse prezidenti İ.Qubkin, müavini isə A.Yakubov oldu. 1938-ci ilin yanvar ayında SSRİ EA Rəyasət Heyəti SSRİ EA AF Nizamnaməsini təsdiq etdi [184, 65]. Rəyasət Heyətinin qərarı ilə dekabr ayında Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu ilə Dil və Ədəbiyyat institutunun bazası əsasında SSRİ EA AF Tarix, Dil və Ədəbiyyat İnstitutu təşkil edildi. İnstitut Azərbaycan tarixi, maddi mədəniyyət tarixinin tədqiq edilməsi ilə məşğul oldu. 1938-ci ilin may ayında institut İ.Cəfərzadə və S.Qazıyevin rəhbərliyi ilə bir qrup alimi Daşkəsənə ekspedisiyaya göndərdi. Arxeoloqlar Daşkəsənin qədim məskənlərində qazıntılar aparırdılar. Ekspedisiya 70-dən çox qiymətli arxeoloji və etnoqrafik tapıntıların şəkillərini hazırladı. Ə.Ələsgərzadənin rəhbərlik etdiyi digər ekspedisiya qrupu Quba rayonunda Qonaqkənddə arxeoloji abidələri öyrənib etnoqrafik baxımdan müşahidələr apardı. E.Paxomovun rəhbərlik etdiyi ekspedisiya qrupu isə İsmayıllıda arxeoloji abidələrlə

yanaşı, qəbir daşlarının öyrənilməsi ilə də məşğul oldu.

1938-ci ilin aprel ayında SSRİ EA AF Rəyasət Heyəti N.Gəncəvinin anadan olmasının 800 illik yubileyinə hazırlıq işlərinin planını təsdiq etdi. SSRİ EA Rəyasət Heyəti akademiyanın baş institutlarının yubileylə bağlı tədbirlərdə iştirak etmələri haqqında qərar qəbul etdi. Qərarda institutlara Nizaminin əsərlərinin tərcümə və nəşr edilməsi tapşırılırdı. Nizaminin 800 illik yubileyi ilə əlaqədar olaraq SSRİ EA AF 1938-ci ilin oktyabr-dekabr ayları ərzində Gəncə şəhərinin orta əsr dövrü tarixini, əhalisinin həyat və məişətini tədqiq etmək üçün ekspedisiya təşkil etdi. Tədqiqatlar nəticəsində qədim Gəncənin eskiz-planı hazırlandı.

SSRİ EA AF tez-tez yerlərdə bu və ya digər sahələrin tədqiq olunması ilə əlaqədar səyyar elmi konfranslar, müşavirə və sessiyalar keçirirdi. Belə ki, SSRİ EA AF müxtəlif dövrlərdə Dağlıq Qarabağ Muxtar Vilayətinin, Naxçıvan MSSR-nin təbii ehtiyatlarının, tarix və mədəniyyətinin öyrənilməsi məsələləri ilə bağlı belə səyyar sessiyalar təşkil etmişdi. Azərbaycan tarixinin öyrənilməsi yönündə də tədqiqatlar aparılmış, qədim dövrdən XIX əsrin əvvəllərinə qədərki dövrü əhatə edən «Azərbaycan tarixinin qısa oçerkləri» kitabı Azərbaycan və rus dillərində çapa hazırlanmışdır. Kitabın çapa hazırlanmasını İ.Cəfərzadə, P.Juze, S.Qazıyev, V.Veriatov, E.Paxomov, İ.Petruşevski, Q.Pişarevski və Z.Yampolskinin tarixi araşdırmalarının nəticələri kimi də dəyərləndirmək olar.

SSRİ EA AF Tarix, Dil və Ədəbiyyat İnstitutunda M.F.Axundovun yubileyi ilə əlaqədar olaraq 1938-ci ilin dekabrında elmi sessiya keçirildi. SSRİ EA AF Rəyasət Heyətinin qərarı ilə M.F.Axundovun 5 cildlik əsərləri külliyyatının 3 cildi, H.Hüseynovun «M.F.Axundovun dünyagörüşü haqqında» monoqrafiyası çap edildi. İnstitutda 4 cildlik «Rusca-Azərbaycanca böyük lüğət» tərtib edildi. Lüğət SSRİ-də milli dillərdə olan ən sanballı və əhatəli olduğundan dövlət mükafatına layiq görüldü. Bundan

başqa M.A.Dadaşzadənin 2 cildlik «Azərbaycan ədəbiyyatının qısa kursu» əsəri çap edildi. Çap olunan belə əsərlər SSRİ EA AF Elmi kitabxanası fondunun daha da zənginləşməsinə xidmət edirdi. Onların çoxu bu gün də oxucular tərəfindən qiymətli mənbə kimi istifadə edilir.

1938-ci ilin fevral ayında SSRİ EA AF nəzdində iqtisadiyyat bölməsi təşkil edildi. Bölmə Azərbaycanda sosialist iqtisadiyyatı problemlərinin tədqiq edilməsi ilə yanaşı neft sənayesi və kənd təsərrüfatında istehsalat qabaqcıllarının təcrübəsinin öyrənib yayılması ilə məşğul oldu.

1929-1941-ci illər ərzində Az. DETİ, SSRİ EA ZFAŞ, sonradan SSRİ EA AF kimi təkmilləşərək respublikada elmi kadrların yetişdirilməsi sahəsində aparıcı rol oynadı. Bu illər ərzində əyani aspiranturaya 161 nəfər qəbul olundu. Elmi işçilərin sayı artaraq 640 nəfərə çatdı. 1940-cı ildə SSRİ EA AF-nın elmi tədqiqat müəssisələrində 75 professor, elmlər doktoru, elmlər namizədi çalışırdı. Belə yüksək dərəcədə elmi kadrların mövcud olması elmi-tədqiqat işlərinin inkişafı və dissertasiya işlərinin müstəqil şəkildə müdafiəsinin təşkil edilməsi üçün Azərbaycanın elmi-tədqiqat institutlarına real şərait yaratdı. SSRİ EA AF Geologiya, Kimya, Botanika, Zoologiya institutları elmlər doktoru, elmlər namizədi alimlik dərəcəsi vermək səlahiyyətinə malik oldu. Artıq Azərbaycan öz milli kadrlarını hazırlamaq yönündə xeyli iş görmüş oldu.

1929-1941-ci illər bütövlükdə Azərbaycanda elmi müəssisələrin təşkilatlanma dövrü olmaqla yanaşı, həm də elmi-müəssisələrin yenidən qurulması və təkmilləşməsi dövrü kimi xarakterizə olunur. Az. DETİ-nun yaranması ilə elmi müəssisələrə rəhbərlik edən bir elmi mərkəz formalaşdısa, SSRİ EA ZFAŞ yaranması ilə respublikanın aparıcı elmi müəssisə və təşkilatları onun ətrafında birləşərək elmi-tədqiqat işlərinin kompleks şəkildə aparılmasını təşkil etdi.

1935-ci ildə SSRİ EA AF yaradıldı və respublikada elmi

müəsisələrin işinin təkmilləşdirilməsi və elmi-tədqiqat işlərinin istiqamətinin xalq təsərrüfatının müxtəlif problemlərinin həllinə uyğun yönəldilməsi həyata keçirildi. Bu və ya digər elm sahələrinin problemləri ilə daha konkret məşğul olan elmi-tədqiqat institutları şəbəkəsi yaranmağa başladı. Bu illər ərzində SSRİ EA AF elmin inkişafına öz qiymətli töhfələrini verərək ölkədə elmi fikrin vahid mərkəzinə çevrilə bildi. Filialın elmi-tədqiqat institutları və bölmələrində Azərbaycanın iqtisadiyyatı, mədəniyyəti və incəsənətinin inkişafi ilə bağlı nəzəri və təcrübi məsələlər öyrənilərək mühüm nəticələr əldə edildi. Aspirantura şöbəsinin yaranması milli ziyalı kadrların, xüsusilə ümumittifaq miqyaslı neftçi-alimlərin yetişdirilməsi işində SSRİ EA AF-nın əldə etdiyi mühüm nailiyyətlərdəndir.

Qeyd etmək lazımdır ki, tədqiq olunan dövrdə təbiətşünaslıq elmləri sahəsində ciddi irəliləyişlərə baxmayaraq ictimai elmlər bütövlükdə ideoloji sahə sayılmış, Kommunist Partiyasının birbaşa nəzarəti altında olmuşdur. Marks, Engels, Leninin, Stalinin, Beriyanın, Bağırovun əsərləri isə elmi inkişafın metodoloji əsasını təşkil etmişdir. Bu ruhda yazılan əsərlər, tərcümələr xüsusi olaraq çap olunur və kitabxanalarda təbliğ edilirdi.

Tədqiq olunan dövrdə elm ölkənin ictimai həyatının kəskin ziddiyyətlərini, faciələrini yaşasa da, bu çətin şəraitdə təşəkkül tapıb inkişaf etmiş və vahid mərkəzdə təşkilatlana bilmişdir. SSRİ EA AF öz inkişafının 20 illik dövründə güclü tərkibə, elmi potensiala, keyfiyyətə malik olan nəhəng bir elmi təşkilata çevrilə bildi. Bu inkişaf nəticəsində Azərbaycanın elmi müəssisələri 1923-cü ildən mərhələ-mərhələ konkretləşmiş, yenidən qurulmuş, təkmilləşmiş və sahə elmi-tədqiqat institutlarının geniş şəbəkəsi formalaşa bilmişdir. Sahə elmi-tədqiqat institutlarının yaranması və fəaliyyəti illərin sınağından keçmiş, özünü doğrultmuşdur. Bu həmçinin, həmin institutların elmi-sahə kitabxanalarının təşkilində də özünü göstərmişdir. Beləliklə, ölkədə müxtəlif sahə elmi-tədqiqat institutları şəbəkəsinə malik olan SSRİ

EA AF kimi güclü bir təşkilatın olması artıq Azərbaycanda müstəqil Elmlər Akademiyasının yaranmasını da zəruri edirdi.

### 4.2. Elmi-sahə kitabxanalarının fəaliyyətinin təkmilləşməsi və inkişafı

Azərbaycanda elmi müəssisələrin, ali təhsil müəssisələrinin sayının artması, ölkədə elm və texnikanın, xalq təsərrüfatının inkişafı digər kitabxanalarla yanaşı, elmi kitabxana şəbəkəsinin də genişlənməsi və təkmilləşməsini tələb edirdi. Elmin inkişafının maddi bazasını təşkil edən elmi kitabxanalar ölkənin kitab sərvətlərini öz fonduna toplayır və kitabxana-biblioqrafiya xidmətini həyata keçirirdilər.

1929-cu ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti Az.DETİ kimi yenidən quruldu. Cəmiyyətin kitabxanası da institutun elmi kitabxanası kimi fəaliyyətə başladı. Bu dövrdə Azərbaycanın tarixinə, etnoqrafiyasına, iqtisadiyyatına, mədəniyyətinə aid ədəbiyyat az olduğundan elmi-tədqiqat işlərinin aparılması ciddi çətinliklərlə qarşılaşırdı. Məhz buna görə də Az. DETİ kitabxanası əlyazmalar və müxtəlif çap əsərlərini, nadir kitabları kitabxananın fonduna toplamağa çalışırdı. Həmin dövrdə kitabxana ölkə ictimaiyyətinə müraciət etməklə yanaşı, SSRİ-nin ayrı-ayrı müəssisələrindən, Zaqafqaziyanın müxtəlif elmi mərkəzlərindən, şəxsi kitabxanalardan xeyli ədəbiyyat toplaya bildi. Belə ki, professor L.Q.Lopatinskinin şəxsi kitabxanası və P.D.Kalaşevin kitabxanasından bəzi materiallar DETİ-nun kitabxanasına verildi. 1881-1898-ci illərdə Tiflisdə nəşr edilən «Сборник материалов для описания местностей и племен Кавказа» toplusunun müxtəlif nüsxələri kitabxananın fondunu zənginləşdirdi. Azərbaycan tarixinə dair qiymətli faktlarla zəngin olan bu nəşr hazırda AMEA MEK-nin nadir fondunda mühafizə edilir [78]. Az.DETİ kitabxanası fonduna Nizaminin, Xaqaninin, Xosrov

Dəhləvinin, Abbasağa Nəzirinin, Qarabağın «Məclisi-üns» şairlərinin bəzi əsərləri və onların siyahılarını toplaya bilmişdi. Kitabxana öz fondunu komplektləşdirməklə yanaşı kataloq və kartotekaları təşkil edir, yeni ədəbiyyat haqqında məlumat siyahıları hazırlayırdı. 1929-cu ildən daxil olan ədəbiyyat artıq xüsusi qayda ilə uçota alınır, inventarlaşdırılır, kataloqlaşdırılırdı.

Kitabxana fondlarının zənginləşməsində 1929-cu il fevral ayında XMK Baş Elmi İdarəsi ilə Daxili və Xarici Ticarət Komissarlığının «Kitabların poçt bağlamalarında sərhəddən keçirilməsi qaydaları haqqında» qərarının təsiri olmuşdu [23, v.62]. Həmin qaydalara görə ölkədən kitablar Azərbaycan mədəniyyətinin və elminin təbliği, beynəlxalq kitab mübadiləsi məqsədi ilə göndərilə bilərdi. Alimlər və elmi müəssisələr öz nəşrlərindən xaricə eyni adda yalnız bir nüsxə ədəbiyyat keçirə bilərdi. Qərarın kommersiya məqsədilə kitabların sərhəddən kənara çıxarılmasının qarşısının alınmasında mühüm rolu oldu. Az.DETİ yaradıldıqdan sonra bəzi bölmələrdə istifadə üçün yığılıb qalan kitab və jurnallar da bütün oxucuların istifadə etməsi üçün Əsas Kitabxanaya verildi. Eyni zamanda institutun qarşıya qoyduğu problemlərin həllinə uyğun olaraq 1929/30-cu illərdə kitabxana fəaliyyətinin təmin edilməsi və fondun komplektləşdirilməsi üçün büdcədən kitab və jurnalların alınmasına 3.000 rubl pul vəsaiti ayrıldı [60, v.12].

Respublikanın elmi-tədqiqat müəssisələrində çalışan və ali məktəblərdə təhsil alan tələbələrin sayının artması nəticəsində kitabxananın oxucularının da sayı artdı. Hər gün kitabxanadan orta hesabla 100-ə yaxın oxucu istifadə edirdi. Oxucuların istifadə etdiyi ədəbiyyatın qeydiyyatı aparılır, illik hesabatı verilirdi.

Ölkədə kitabxana işinə Baş Siyasi Maarif İdarəsi rəhbərlik edirdi. 1930-cu ildə SSRİ-nin hər yerində olduğu kimi Azərbaycanda da, bu idarə ləğv edildi. Kitabxana işinə rəhbərlik işi XMK ayrı-ayrı şöbələrinə həvalə edildi. Daha sonralar isə XMK

yanında Kitabxana işinə rəhbərlik və dövlət nəzarətini həyata keçirmək üçün Siyasi Maarif İşləri İdarəsi yarandı [106, 49]. Göründüyü kimi artıq, 30-cu illərdə bütün sahələr siyasiləşmişdi. ÜİK(b)P MK 1929-cu ilin 30 oktyabrında «Kitabxana işinin yaxşılaşdırılması haqqında» qərar qəbul etdi. Qərarın yerlərdə, xüsusilə elmi kitabxanalar tərəfindən yerinə yetirilməsi səviyyəsini öyrənmək məqsədi ilə 1932-ci il may ayının 12-də Azərbaycan Dövlət Kitabxanasında Bakı elmi kitabxanalarının müşavirəsi keçirildi. Müşavirədə elmi kitabxanaların qarşısında duran problemlər müzakirə edildi və qarşıda duran vəzifələr müəyyənləşdi. Eyni zamanda elmi kitabxanaların ölkənin xalq təsərrüfatının vəzifələrinin həlli işinə cəlb edilməsi, elmi-texniki ədəbiyyatın yayılması və biblioqrafiya işinin genişləndirilməsi müşavirə tərəfindən tövsiyə edildi. Müşavirədə elmi kitabxanalarda marksizm-leninizm nəzəriyyəsinin təbliğatı işinin canlandırılması xüsusi qeyd edildi.

Elmi kitabxanaların qarşısında qoyulan vəzifələrin yerinə yetirilməsinə metodik köməklik məqsədilə Dövlət kitabxanası yanında məsləhət – Biblioqrafiya Bürosu təşkil edildi. Beş ay sonra – 1932-ci ilin oktyabr ayının 12-də Dövlət Kitabxanasında yenidən Bakı elmi kitabxanalarının müşavirəsi keçirildi [92, 64]. Oktyabr müşavirəsində əvvəlki müşavirənin qərarlarının yerinə yetirilməsinin yekunları müzakirə edilərək hələ də nöqsanların aradan qalxmadığı qeyd edildi. Müşavirədə elmi kitabxanaların işinin yenidən qurulması və onun dövrü mətbuatda işıqlandırılması, elmi kitabxanaların ixtisaslı kadrlarla təmin olunması, elmi işçilərlə bərabər, digər oxuculara da xidmət göstərilməsi məsələləri diqqət mərkəzində oldu. Müşavirənin elmi kitabxanaların gələcək inkişafında böyük rolu oldu. Qarşıya qoyulan bu mühüm problemlərin həyata keçirilməsi kitabxana işinin rekonstruksiyasını tələb edirdi.

Az.DETİ-nun 1932-ci ilin dekabrında SSRİ EA ZFAŞ çevrilməsindən sonra Əsas Kitabxana Respublika Kitab Palatasın-

dan, BXMŞ kitabxana kollektorundan, Az. DETİ kitabxanasının fondundan və Azərbaycanın müxtəlif rayonlarından toplanmış kitablardan, müxtəlif əlyazmalarından ibarət olaraq yenidən təşkil olundu [167, 76]. Kitabxanaya rəhbərlik 1933-cü ilin əvvəlindən A.N.Skalovskayaya tapşırıldı.

Kitabxananın təşkilində SSRİ EA Mərkəzi Kitabxanasının da köməyi olmuşdu. Çünki, SSRİ EA filialları yaradıldıqca elmi kitabxana şəbəkələri də genişləndi. SSRİ EA ZFAŞ yarandıqdan sonra müxtəlif elm sahələri üzrə, həmçinin kitabxana işi, biblioqrafiya işi ilə əlaqədar müxtəlif bölmə və komissiyalar təşkil edilir. Belə komissiyalardan birinə 1933-cü ilin martında təşkil edilmiş Kitabxana – Biblioqrafiya Komissiyasına rəhbərlik etmək professor A.V.Baqriyə tapşırıldı.

1933-cü ilin noyabr ayında SSRİ EA ZFAŞ strukturu müəyyənləşdirilərkən Rəyasət Heyəti Kitabxana – Biblioqrafiya Komissiyası haqqında A.V.Baqrinin məruzəsini dinləyərək komissiyanın tərkibini və büdcəsini müəyyənləşdirdi. Kitabxanaçı T.Q.Kovalevskaya elmi işçi hüququnda komissiyanın tərkibinə daxil edildi. Komissiya Rəyasət Heyətinin nəzdində fəaliyyət göstərməyə başladı. A.V.Baqri elmi işçilərə yüksək səviyyədə kitabxana-biblioqrafiya xidmətinin göstərilməsi üçün ciddi işlər apardı. Kitabxana-biblioqrafiya komissiyası SSRİ EA ZFAŞ müxtəlif bölmələrinin əməkdaşlarının iştirakı ilə bir sıra qiymətli biblioqrafik göstəricilər tərtib etdi. Bu göstəricilərin xeyli hissəsi vəsait çatmaması üzündən nəşr edilə bilməsə də 1934-cü ildə 32 çap vərəqi həcmində bir neçə göstərici çap edildi. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar:

A.N.Skalovskayanın tərtib etdiyi «Xəzər dənizi və hövzəsinin biblioqrafiyası», T.Q.Kovalevskayanın tərtib etdiyi «Azərbaycan ədəbiyyatı» göstəricisi, A.V. Baqri, T.Q.Kovalevskaya və H.Araslının tərtib etdiyi «Azərbaycan haqqında ədəbiyyat» biblioqrafiyası, kitabxananın şərq şöbəsinin müdiri H.Araslının tərtib etdiyi «Azərbaycanda türk mətbuatı» I hissə (inqilaba

qədərki mətbuat) və s. [29, vv.103-107]. Bu dövrdə kitabxana-biblioqrafiya fəaliyyəti əsasən kartotekalarının, ölkəşünaslıq göstəricilərinin hazırlanmasına yönəlmişdi. Kitabxana həmçinin, fonda daxil olan yeni ədəbiyyatın siyahılarını tərtib edir, elmi işçilərin müxtəlif mövzulara həsr edilmiş sorğularını yerinə yetirirdi. Biblioqraflar və alimlər tez-tez belə məlumat və ədəbiyyat siyahıları ilə SSRİ EA ZFAŞ «Xəbərlər»ində çıxış edirdilər.

Əsas Kitabxana öz fondunu SSRİ EA ZFAŞ və onun bölmələrinin profilinə uyğun olaraq komplektləşdirməklə yanaşı, öz oxucusuna SSRİ-nin və xarici ölkələrin elmi müəssisələri ilə mübadilə nəticəsində əldə etdiyi elmi ədəbiyyat, dövrü mətbuatla da xidmət göstərirdi. Kitabxana yarandığı gündən Yaxın Şərq və Zaqafqaziyanın elmi müəssisələrindən və nəşriyyatlarından da ədəbiyyat alırdı. 1934-cü ildə artıq SSRİ ilə yanaşı, kitabxana Türkiyə, İran, Danimarka, ABŞ, Finlandiya, Portuqaliya, İngiltərə, İsveç, Polşa, Almaniya və Fransanın 110 elmi təşkilatı ilə kitab mübadiləsi aparırdı [168]. 1935-ci ildə kitabxananın 150-yə yaxın elmi təşkilat və kitabxana ilə belə əlaqəsi var idi. Elə bu dövrdən də başlayaraq kitabxananın mübadilə fondu təşəkkül tapmışdı.

1934-cü ilin oktyabrında kitabxanaların Ümumittifaq siyahıyaalınması həyata keçirildi. Siyahıyaalınmanın nəticələrindən məlum olur ki, SSRİ EA SSRİ EA AF yaranan ərəfədə Azərbaycanda 203 kitabxana var idi ki, onların da fondunda 4.485.907 nüsxə kitab toplanmışdı. O cümlədən, 1.663.572 nüsxə kitab fonduna malik olan 337 elmi və xüsusi kitabxana var idi. Bu kitabxanaların fondunun sayı bütövlükdə Zaqafqaziya elmi kitabxanaları fondlarının 29,5%-nə bərabər idi [155].

1934-cü ildə respublika kitabxanalarına 560.588 nüsxə kitab daxil olmuşdur ki, bu da bütövlükdə Azərbaycanın kitab fondlarının 12,5%-ni təşkil edirdi. Bunların da müəyyən hissəsi elmi kitabxanalar üçün nəzərdə tutulmuşdu. Qeyd etmək lazımdır ki, respublika əhalisinin hər yüz nəfərinə orta hesabla 155

kitab düşürdü.

Şəhər kitabxanalarının kitab fondunun 50%-dən çoxu elmi və xüsusi kitabxanalarda toplanmışdı [93].

Azərbaycanda fəaliyyət göstərən elmi və xüsusi kitabxanalardan 34.093 oxucu istifadə edirdi. Siyahıyaalınmanın nəticələrinə görə ölkədə fəaliyyət göstərən kitabxanalar içərisində 66 kitabxana sırf elmi-tədqiqat müəssisəsi kitabxanası kimi fəaliyyət göstərirdi. Onlardan biri də, SSRİ EA ZFAŞ kitabxanası idi. Kitabxananın 1934-cü il hesabatlarında göstərilir ki, həmin ildə kitabxananın fondunda 59.500 nüsxə ədəbiyyat toplanmışdı. Bunların 13.000 nüsxəsi arxiv və mübadilə fondlarından daxil olan ədəbiyyat idi [29, v.106].

SSRİ EA ZFAŞ nəşr etdiyi əsərlərlə yanaşı kitabxana öz fondunu ölkədə fəaliyyət göstərən müxtəlif elmi, elmi-texniki cəmiyyətlər, komitə və idarələrin nəşr etdiyi kitab və dövri mətbuatla da zənginləşdirirdi. Bu təşkilatların nəşriyyat fəaliyyəti nəticəsində ümumi çap məhsulları içərisində təbiətşünaslıq elmlərinə, kənd təsərrüfatı, neft texnologiyası, texnika və digər sənaye sahələrinə dair ədəbiyyatın xüsusi çəkisi artır, elmi səviyyəsi yüksəlir və mövzu əhatəsi genişlənir, ölkədə poliqrafiya işi sürətlənirdi. Təkcə, 1931-1932-ci illər ərzində bu təşkilatlar fizika-riyaziyyat və təbiətşünaslıq elmlərinə aid 128 adda 606.200 nüsxə, texniki elmlər üzrə 134 adda 398.800 nüsxə, hərbi işə aid 37 adda 119.100 nüsxə kitab çap etmişdilər. Beləliklə, kitabxana öz fondunu durmadan ölkədə çap olunan belə qiymətli elmi ədəbiyyatla zənginləşdirirdi. 1934-cü il yanvar ayında SSRİ EA ZFAŞ Rəyasət Heyətinin iclasında kitabxana haqqında A.V.Baqrinin məlumatı dinlənilir. Məlumatdan aydın olur ki, kitabxananın kitab fondu artdıqca yer darısqallıq edir. Eyni zamanda kitabxananın maliyyələşməsində və maddi-texniki təminatında ciddi çətinliklər yaranmışdır.

Kitabxananın yerlə təmin olunması məsələsi SSRİ EA ZFAŞ qarşısında yenidən öz kəskinliyi ilə dururdu. Bu vaxt

Dövlət Ümumi Kitabxanasının köçürülməsi nəticəsində binada boşalan otağın və zirzəminin bir hissəsinin kitabxanaya verilməsi və həmin yerin avadanlıqla təmin olunması haqqında Rəyasət Heyəti kitabxananın illik planını təsdiq edərək qərara alır:

1. Kitabxananın smetası 30.000 rubl həcmində təsdiq edilsin. Eyni zamanda ədəbiyyat alınması üçün SSRİ EA ZFAŞ ümumi smetasında ayrı-ayrı bölmələr üçün nəzərdə tutulmuş hesabdan kitabxanaya əlavə vəsait cəlb edilsin;
2. Kitabxana-biblioqrafiya komissiyasının ştatı 7 nəfərdən ibarət olaraq təsdiq edilsin. Birləşmiş kataloqun tərtib edilməsi üçün görülən işlərin haqqının ödənilməsi kitabxananın büdcəsi hesabına kitabxananın özünə həvalə edilsin;
3. SSRİ EA ZFAŞ anbarı kitabxananın istifadəsinə verilsin. Rəyasət Heyətinin və ayrı-ayrı bölmələrin otaqları kitabxana şkaflarının yerləşdirilməsi üçün kitabxananın istifadəsinə verilsin;
4. İşlər müdirinə tapşırılsın ki, kitabxana mebel və kitabxana avadanlığı ilə təchiz olunsun;
5. İşlər müdirinə tapşırılsın ki, kitab alınması üçün kitabxananın qeydiyyatı olmadan heç bir hesab ödənilməsin [30, v.3].

Göründüyü kimi kitabxananın elmi inkişafın maddi bazası olduğunu SSRİ EA ZFAŞ Rəyasət Heyəti dərk etmiş, vəsait çatışmazlığını nəzərə alaraq, hətta bölmələrin vəsaitini və otaqlarını kitabxananın istifadəsinə vermişdir.

1935-ci ilin əvvəlində SSRİ EA ZFAŞ-nin artıq 100.000 cildlik kitaba malik zəngin bir elmi kitabxanası vardı. Kitabxananın şərq şöbəsində şərq xalqlarının müxtəlif dillərində (ərəb, fars, türk və osmanlı) qədim və yeni nəşr edilmiş 12.000 nüsxə ədəbiyyat toplanmışdı. Kitabxanada XVI-XIX-cu əsrlərin 4.000-dən çox əlyazması var idi [76]. Həmçinin, kitabxana öz fonduna bir çox Avropa dillərində arxeologiya, etnoqrafiya və digər elmlərə dair qiymətli kitablar toplaya bilmişdi.

1935-ci il ərzində müxtəlif elmi müəssisələrdən, kitab ticarəti təşkilatlarından, Kitab Palatasından, Moskva və Leninqrad şəhərlərinin kitabxanalarından Azərbaycana, Qafqaza və Yaxın Şərqə dair dublet nüsxələrin toplanması nəticəsində kitabxananın fondu 50.000 nüsxəyə qədər artdı. SSRİ EA ZFAŞ bu məqsədlə 84.000 rubl, xarici ədəbiyyat üçün isə 4.000 valyuta həcmində vəsait ayırdı.

SSRİ EA ZFAŞ Əsas Kitabxanası 1935-ci ildə «Azərbaycan Sovet Ədəbiyyatında» biblioqrafiyasını mətbəə üsulu ilə 15 çap vərəqi həcmində çap etdi. SSRİ EA ZFAŞ və Bakının digər kitabxanalarında mühafizə edilən qədim əlyazmalar və çap əsərlərinin təsvirini hazırladı. Kitabxana müxtəlif sahə göstəricilərini, «SSRİ EA ZFAŞ dövrü nəşrlərinin göstəricisi»ni, «Türk ədəbiyyatı» göstəricisinin 2-ci hissəsini və s. nəşrə hazırladı. 1934-cü ildən başlanan «Azərbaycan biblioqrafiyası» üçün materialların yığılması işi davam edirdi. «Azərbaycan biblioqrafiyası» kartotekasına monoqrafiyalar, Azərbaycanın keçmişinə və müasir dövrünə həsr edilmiş qəzet və jurnal məqalələri daxil edilməklə yanaşı, «Кавказ» qəzetində, ümumiyyətlə, Qafqazda çıxan məcmuə və jurnallarda çap edilmiş məqalələr daxil edilmişdir ki, bu da kartotekanı daha da zəngin edirdi. Kitabxana-Biblioqrafiya Komissiyasına Rəyasət Heyətinin qərarı ilə 3 elmi işçi ştatının verilməsi bu işlərin keyfiyyətinə müsbət təsirini göstərmiş oldu. Hazırlanan işlərin çap edilməsi üçün xüsusi olaraq 30.000 rubl vəsait ayrıldı.

1935-ci ildə SSRİ EA ZFAŞ Əsas Kitabxanasının illik büdcəsi üçün 223.700 rubl vəsait ayrılması nəzərdə tutuldu [31, v.53-55]. Əvvəllər kitabxana xərcləri SSRİ EA ZFAŞ ümumi xərclərində nəzərdə tutulurdusa, artıq kitabxana büdcəsi müstəqil şəkildə nəzərdə tutulurdu. Bu kitabxananın SSRİ EA ZFAŞ-nin fəaliyyətində önəmli yer tutduğunu bir daha sübut edir.

Kitabxana öz fəaliyyətini genişləndirərək vaxtaşırı SSRİ-nin aparıcı kitabxanalarının təcrübəsini öyrənmək və s. məsələlərlə

əlaqədar ezamiyyətlər də təşkil edirdi. 1935-ci ildə A.V.Baqri biblioqrafiya işləri ilə əlaqədar SSRİ EA Mərkəzi Kitabxanasında, həmçinin, Moskva və Leninqradın kitabsaxlayıcılarından kitab alınması məsələlərini həll etmək üçün bir aylığa həmin şəhərlərə ezam edildi. Kitabxananın şərq şöbəsinin müdiri və Kitabxana-biblioqrafiya komissiyasının II dərəcəli elmi işçisi H.Araslı və Kitabxananın Avropa Şöbəsinin müdiri I dərəcəli elmi işçisi T.Q.Kovalevskaya da Moskva şəhərində 1 ay müddətində ezamiyyətdə olmuş və kitabxana üçün xeyli qiymətli ədəbiyyat alınması məsələlərini həll etmişlər.

1934-cü il mart ayının 27-də SSRİ MİK «SSRİ-də kitabxana işi haqqında» qərar qəbul etdi. Qərarda kitabxana işində geniş nailiyyətlərin olması ilə yanaşı, bəzi nöqsanların da mövcud olduğu qeyd edildi. Müttəfiq respublikalarda XMK-nın tabeçiliyində fəaliyyət göstərən kitabxanalara müxtəlif idarə və müəssisə rəhbərliyinin zəifliyi nəticəsində komplektləşmə işinin pərakəndə aparıldığı nəzərə çatdırıldı. MİK-nin qərarında bəzi kitabxanaların fondunun məzmunca köhnəlib öz aktuallığını itirdiyi xüsusilə, Marks, Engels və Leninin əsərlərinin, siyasi ədəbiyyat və qəzetlərin olmaması faktı ciddi nöqsan kimi qeyd edildi. Qərarda hər bir müttəfiq respublikada kitabxana şəbəkələrinin planlaşdırılması, kitab fondlarının komplektləşdirilməsinin təşkili, kadr hazırlığı və müxtəlif idarə və təşkilatların kitabxana işinə dövlət nəzarətini həyata keçirmək üçün kitabxana idarəsinin yaradılması tələb edilirdi. SSRİ MİK-nin 1934-cü il 27 mart tarixli qərarının icrası üçün 1935-ci il iyul ayının 5-də Azərbaycan MİK və Azərbaycan XKS «Azərbaycan SSR-də kitabxana işi haqqında» qərar qəbul etdi [69, 231-233]. Qərarda göstərilirdi:

Azərbaycan SSR XMK sistemində kitabxana idarəsi təşkil edilsin və ona aşağıdakı vəzifələr həvalə olunsun:

- tabeçiliyindən asılı olmayaraq bütün kitabxanaların fəaliyyəti üzərində dövlət nəzarətini həyata keçirmək;
- kitabxanaların komplektləşdirilməsinə rəhbərlik etmək;

- kitabxanalar üçün tövsiyə edilən nəşrlərin siyahısını tərtib etmək;
- sistematik olaraq kitabxana kadrlarını öyrənmək, seçmək və hazırlamaq;
- kitabxanaların statistik materiallarını toplamaq;
- bütün kitabxanaların uçotunu aparmaq;
- şəhər məskənlərində və kənd yerlərində xalq maarifi orqanlarının kitabxana şəbəkəsini təşkil etmək.

Qərarda kitabxanalara oxucu sorğularının daha ətraflı təmin edilməsi məqsədi ilə Kitabxanalararası Abonement (KAA) vasitəsilə kitab mübadiləsi işinin genişlənməsi, tənqid-biblioqrafiya xidmətinin təşkil edilməsi tapşırılırdı. Qərarda həmçinin, kitabxana binalarının digər məqsədlər üçün istifadə edilməsi və kitabxanaların yararsız binalara köçürülməsi qəti qadağan edilirdi.

Kitabxana işi haqqında bir-birinin ardınca belə dövlət qərarlarının qəbul edilməsi kitabxana işinin birbaşa ölkədə gedən mədəni quruculuğun gedişinə təsir etdiyini göstərirdi. Kitabxana işi ölkədə gedən tarixi proseslərin tərkib hissəsi kimi ideoloji mübarizəyə cəlb edilmişdi. Belə qərarlardan biri də Azərbaycan SSR XKS-nin «Kitabxana fondlarının mühafizəsinə cavabdehlik məsuliyyəti haqqında» 1935-ci il 22 iyul tarixli qərarıdır [55, v.3]. Qərarda respublika kitab fondlarının mühafizəsi üçün daha əlverişli şərait yaradılmasının vacibliyi göstərilirdi. Eyni zamanda bu qərara görə tabeçiliyində kitabxana olan bütün idarə və müəssisələrə Kitabxana İdarəsi ilə razılaşdırmadan kitabxanaları yerləşdiyi binalarından köçürmək qadağan edildi. Kitabxanalara öz fəaliyyətsizliyi nəticəsində dəyən maddi ziyana görə vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi və ya onların işinə baxılmaq üçün müvafiq məhkəmələrə verilməsi və bundan asılı olmayaraq dəyən ziyanın ödənilməsi qərarda öz əksini tapmışdı.

Kitabxana işi sahəsində qəbul edilən qərar və göstərişlərin ölkədə kitabxana işinin inkişafı üçün müsbət nəticələri olmuşdur. SSRİ EA ZFAŞ Əsas Kitabxanası da öz işində bu qərarları

əsas tutaraq Azərbaycanda elmin, mədəniyyətin, iqtisadiyyatın inkişafına xidmət göstərmişdir. Respublikada elmi-tədqiqat işlərinin genişlənməsi və inkişafı nəticəsində 1935-ci ildə SSRİ EA ZFAŞ bazası əsasında SSRİ EA müstəqil Azərbaycan Filialı yarandı. SSRİ EA AF təşkil olunan ərəfədə Azərbaycanda 625 kitabxana vadı. Onlardan 135-i elmi və xüsusi kitabxanalar idi ki, bunlardan da 96-sı Bakı şəhərində yerləşirdi. Həmin dövrdə bütövlükdə kitabxanaların ümumi fondu 4.741.214 nüsxədən ibarət idi. Elmi kitabxanaların fondu isə 1.617.592 nüsxə olmuşdur. Türk dilində olan kitabların sayının cəmi 875.098 nüsxə idi. 1935-ci ildə bütövlükdə kitabxana oxucularının sayı 301.250, elmi kitabxanalardan istifadə edən oxucuların sayı isə 34.093 nəfər olmuşdur. Dövlət kitabxanasında elmi ədəbiyyat verilişi 16.735 nüsxə təşkil edirdi. Bu qədər oxucunun və elmi ədəbiyyata tələbatın olması SSRİ EA AF kitabxanasının inkişafı üçün münbit şərait yaradırdı [55, v.1]. Kitabxananın yenidən təşkil olunmasında SSRİ EA Mərkəzi Kitabxanası, Moskva və Leninqradın iri elmi kitabxanalarının da əhəmiyyətli köməyi oldu. SSRİ EA kitabxanaya XVIII əsrdən başlayaraq öz nəşrlərinin tam komplektini və müxtəlif biblioqrafik vəsaitlər verdi. Azərbaycanın müxtəlif elmi müəssisələrindən, Marksizm-Leninizm İnstitutundan xeyli kitab və dövrü mətbuat kitabxananın fonduna daxil oldu. Eyni zamanda şərq şöbəsinə şərq dillərində litoqrafiya üsulu ilə çap edilmiş qiymətli kitablar verildi. Bu kitabların içərisində şərq ölkələrinə dair XVII-XVIII əsrlərin qiymətli kitabları da var [149]. Bunlardan əlavə Əsas Kitabxananın fonduna 12 cildlik «Акты Кавказский Археографической Комиссии», 46 cildlik «Сборник материалов для описания местностей и племен Кавказа», «Кавказский сборник», «Записки коллегии востоковедов», «Кавказский вестник», Известия Кавказского музея», «Известия древних писателей о Скифии и Кавказа» kimi əsərlər də daxil [118, 52-56].

1936-cı ildə kitabxananın fondu 200.000 nüsxəyə çatdı.

SSRİ EA AF-nın elmi-tədqiqat işlərinin profili və tələbinə uyğun olaraq kitabxana öz fondunu elmin ən son nailiyyətlərini özündə əks etdirən yeni dövrü nəşrlərlə də kompleklədirdi. Kitabxana 1936-cı ildə 102 adda xarici, 200 adda isə SSRİ-də çap edilən dövrü mətbuat almışdır [32, vv.158-159]. 1937-ci ildə kitabxana Moskva və Leninqrad kitabxanalarından və nəşriyyatlarından öz fondu üçün 20000 nüsxə kitab aldı. Kitabların alınması üçün SSRİ EA AF 75.000 rubl pul vəsaiti ayrılmışdı. 1937-ci ildə kitabxana 180.000 nüsxəlik kitab fonduna malik idi. Kitabxana fondunun sayının 1936-cı ildəkinə nisbətən azalmasının səbəbi ayrı-ayrı institutların nəzdində yaranan kitabxanalara onların profilinə uyğun ədəbiyyatın verilməsi olmuşdur.

Elmi işçilərə xidmət işində əhəmiyyətli dəyişikliklər olmuşdu. Kitabxana işçiləri Kitab Palatasının çap etdiyi «Tövsiyə biblioqrafiyası bülleteni»ndəki elmi ədəbiyyat siyahılarını oxuculara təbliğ edirdilər. Kitabxana 1934-cü ildə 150-yə yaxın oxucuya xidmət göstərirdi. 1936-cı ildə isə oxucuların sayı 292 nəfər olmuşdur. Kitab verilişi 1934-cü ildə 2.400 nüsxə olmuşdusa, 1936-cı ildə 6.000 nüsxə, 1938-ci ildə isə artaraq 13.715 nüsxəni təşkil etmişdir [32, v.181]. SSRİ EA AF Ümumittifaq Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin vasitəsilə Amerika, Avropa və şərq ölkələrinin elmi təşkilatları, universitet və Akademiyaları, elmi kitabxanaları ilə əlaqə yaradırdı. SSRİ EA AF Əsas Kitabxanası bu ölkələrə öz nəşrlərini göndərir, əvəzində həmin ölkələrdən elmi ədəbiyyat alırdı. Kitab mübadiləsi nəticəsində alınan ədəbiyyat xüsusi nəzarətdən keçirilir, sosializmə yad fikirli ədəbiyyatın kitabxanalara daxil olmasının qarşısı alınır və ya xüsusi fondlarda saxlanılırdı. Bu dövrdə kitabxana 400-dən çox sovet və xarici ölkələrin elmi təşkilatları ilə əlaqə nəticəsində mübadilə yolu ilə 1.000 nüsxə xarici, 1.500 nüsxə sovet ədəbiyyatı almışdı. Kitabxana mübadilə yolu ilə xaricə də ədəbiyyat göndərirdi. Amerika Konqres Kitabxanası Azərbaycan tarixinə dair ədəbiyyat topladığından kitabxana fondunda olan

artıq nüsxələrdən göndərə bilmişdi.

1941-ci ildə SSRİ EA AF Əsas Kitabxanasının fondunda 129.390 nüsxə ədəbiyyat var idi. Müxtəlif elm sahələrinə dair ədəbiyyatın 1935-1941-ci illər ərzində yaranan elmi-tədqiqat institutlarının sahə kitabxanalarına verilməsi fondun sayının əvvəlki illərə nisbətən azalmasına səbəb olmuşdur. Kitabxananın fondunda o cümlədən, 15.000 nüsxə şərq dillərində ədəbiyyat mühafizə edilirdi. Onların içərisində fars, türk, özbək, türkmən, yakut, əfqan, yapon dillərində ədəbiyyat vardı. Hətta, kitabxananın fondunda XV-XVI əsrə aid nadir ədəbiyyat və 1.000 nüsxəyə yaxın əlyazma var idi.

SSRİ EA AF kitabxanasının fondunda olan nadir kitablar onun elmi dəyərini artırır, oxucu marağına səbəb olurdu. 1487-ci ildə latın dilində nəşr olunmuş «Augustini episopi et dortoris ecclesiae sermones ad beremitas ad allios Felicter Incipiunt» kitabı belə nadir əsərlərdəndir. Kitabxananın fondunda XVI əsrdə nəşr olunmuş 53 nüsxə, XVII əsrdə nəşr olunmuş 192 nüsxə, XVIII əsrdə nəşr olunmuş 1497 nüsxə nadir kitab toplanmışdır. «D. Caecilii Cupriani episcopi Cartaginensis ac Martyris unversa quae quidem exstaresciuntur» – 1544, «Pauli Fovfi novocomensis episcopi Nucerini historiarum sui temporis» – 1567, «Gellius Auti Noctes Atticae» – 1622, «Naudael Gabrielus Bibliographia politica» – 1642, «Athanasius Kircheherius. Prodromus coptis sive aeqyptiacus» – 1696, 30 cildlik məşhur «Diderot et d'Alambert» ensiklopediyasının birinci nəşri kimi əsərlər kitabxananın qiymətli incilərindəndir.

SSRİ EA AF Əsas Kitabxanasının fondunda Qərbi Avropa dillərində olan kitablardan başqa XVIII əsrdə Rusiyada nəşr edilmiş nadir kitablar da toplanmışdı. Belə kitabların sırasında «Уложение царя Алексея Михайловича» – 1779, V.Trediakovskinin fransızcadan tərcümə etdiyi «Римская история от создания Рима до битвы Актийския» – 1776, Qolikovun 15 cildlik «Деяния Петра Великого»-1788-1795, Yemelinin «Пу-

тешествие по России» – 1777, 43 cildlik «Театры России» – 1786-1789, Vasili Trediakovskinin «Три Рассуждения о трех главнейших древностях Российских» – 1758 kimi əsərlər var idi.

SSRİ EA AF Əsas Kitabxanasının həyata keçirdiyi biblioqrafiya işləri əhəmiyyətli dərəcədə genişlənmiş, ayrı-ayrı elm sahələrinə dair aparılan elmi-tədqiqat işləri ilə əlaqədar alimlər üçün ədəbiyyat seçilməsində, yeni ədəbiyyat haqqında məlumat verilməsində biblioqrafiya xidmətinin özünəməxsus yeri olmuşdur. SSRİ EA AF Rəyasət Heyəti biblioqrafiya işinin əhəmiyyətini və səviyyəsinin yüksəldilməsi zərurətini hiss edərək 1938-ci il 25 sentyabr tarixli iclasında Kitabxanaya-Biblioqrafiya Şurası üçün elmi işçi statusunda 5 işçi ştatı verilməsi haqqında qərar qəbul etdi. Rəyasət Heyətinin bu qərarı həmçinin, kitabxananın öz-özlüyündə bir elmi müəssisə kimi elmi fəaliyyətlə məşğul olmasına şərait yaratdı. Kitabxananın elmi fəaliyyəti ayrı-ayrı elmi-tədqiqat institutlarının əməkdaşları ilə birgə hazırlanan biblioqrafik göstəricilərlə yanaşı, «Azərbaycan biblioqrafiyası» kartotekasının aparılmasında da özünü göstərirdi. Həmçinin, ölkədə gedən sosializm quruculuğu elmi kitabxanalardan belə mövzularda çap edilən daha yaxşı kitabların təbliği və tövsiyə edilməsi tələb edilirdi.

1939-cu ilin sentyabrında XMK Kitabxana İdarəsi «Kitabxanalarda kitab fondlarının yenidən təsnifləşdirilməsi haqqında» sərəncam verdi [43, v.3]. Sərəncama görə kitabxanalar öz fondlarını 1940-cı ildən RSFSR XMK Kitabxana İdarəsinin tövsiyəsi ilə hazırlanmış L.Tropovskinin Onluq Təsnifat Cədvəli ilə təsnifləşdirməli idi. Bu məqsədlə «Onluq təsnifat», «Kitabxana kataloqları və fondlarının təşkili» kimi metodik vəsaitlər çap olundu. SSRİ EA AF Əsas Kitabxanası da öz fondunu tədricən bu təsnifat əsasında kataloqlaşdırmağa başladı. Sərəncamda göstərildiyi kimi ilk növbədə kitabxananın Onluq Təsnifat Cədvəlinin 1,2,3,9-cu bölmələrinə (ictimai elmlər) uyğun fondları təsnifləş-

dirilirdi. Həmin elmlərin metodoloji əsasını isə marksizm-leninizm təşkil edirdi.

ÜİK(b)P MK 1940-cı ilin noyabrında ölkədə biblioqrafiya işlərinin zəif təşkil edilməsini nəzərə alaraq biblioqrafiya işinin əsaslı şəkildə yenidən qurulmasını təmin etmək məqsədi ilə «Ədəbi tənqid və biblioqrafiya haqqında» qərar qəbul etdi [125]. Qərarın qəbulundan sonra Azərbaycan SSR-də kitabxana-biblioqrafiya işi sahəsində yenidənqurma işləri görülməyə başladı. SSRİ EA AF Əsas Kitabxanasında qərarla əlaqədar olaraq biblioqrafiya işlərini yaxşılaşdırmaq məqsədilə Rəyasət Heyətinin göstərişinə əsasən kitabxanaya 6 əlavə ştat verilir. Kitabxanaya əlavə kitabxanaçı və biblioqrafların gəlməsi biblioqrafiya işinin sürətlənməsinə təkan verdi. Biblioqrafiya işlərinin genişlənməsi nəticəsində «Azərbaycan biblioqrafiyası» kartotekası artıq 15 min kartoçkanı əhatə edirdi.

1940-cı ilin axırı 1941-ci ilin əvvəlində artıq biblioqrafik kartotekaların təşkili, məlumat bülletenlərinin və elmi işçilər üçün tövsiyə siyahılarının tərtib edilməsi işi əvvəlki illərlə müqayisədə xeyli yaxşılaşdı. Elə bu dövrdən də başlayaraq retrospektiv biblioqrafiyaya dair materialların kartoçka halında toplanıb ardıcıl olaraq oxucuların istifadəsinə verilməsi işi genişləndi. Bu da öz növbəsində retrospektiv biblioqrafiyaya aid göstəricilərin gələcəkdə tərtibi üçün şərait yaratdı.

1941-ci ildə Almaniyanın SSRİ-yə hücumu elmin, mədəni quruculuq işlərinin ümumi axarına mane oldu. Müharibə zamanı bütün elmi-tədqiqat idarələri öz fəaliyyətlərini ölkənin müdafiə sənayesinin inkişafına yönəltdilər. Müharibənin başlanması kitabxanaların da normal fəaliyyətini pozdu, inkişafının ləngiməsinə səbəb oldu. Kitabxanalar «hər şey cəbhə üçün» şüarına qoşularaq ordu hissələrində, hərbi xəstəxanalarda sovet dövlətinin hərbi siyasətini təbliğ edir və izahat işləri aparırdılar. Müharibə illərində SSRİ EA AF kitabxanası da öz növbəsində elmi işçilərə kitabxana-biblioqrafiya xidmətini həyata keçirməklə yanaşı,

Bakıda yerləşən 7 hospitalda təbliğat işi aparırdı [35, v.145]. 1941-ci ildə SSRİ EA AF Əsas Kitabxanasının 129. 390 nüsxə fondu var idi ki, bunlardan da 15 min nüsxəsi şərq dillərində idi.

Ölkədə SSRİ EA müstəqil Azərbaycan Filialının yaranması ilə nəticələnən elmi-tədqiqat işlərinin inkişafı və ayrı-ayrı elmi-tədqiqat institutlarının təşkil edilməsi onlara xidmət edən xüsusi sahə kitabxanaların yaradılmasını zəruri etdi. SSRİ EA AF-nın elmi-tədqiqat institutları və bölmələri nəzdində sahə kitabxanaların təşkilinə Əsas Kitabxana rəhbərlik edirdi.

1932-1941-ci illər ərzində SSRİ EA AF tərkibində 18 sahə kitabxanası təşkil edildi. Bu illərdə elmi kitabxanaların fəaliyyəti müəyyənləşmiş və daha da təkmilləşərək konkret elmi-tədqiqatlara kitabxana-biblioqrafiya xidməti təşkil edilməyə başlanmışdı. Yaranan sahə elmi kitabxanaları aşağıdakılardır: botanika, zoologiya, tarix, kimya, ədəbiyyat, dil, fizika, tibb, geologiya, energetika, torpaqşünaslıq, incəsənət, iqtisadiyyat, Azərbaycan tarixi muzeyi kitabxanası, Nizami adına Ədəbiyyat Muzeyi, Tarix-təbiətşünaslıq muzeyi, Din tarixi muzeyi, lüğət institutu kimi institut və bölmələrin kitabxanaları.

1932-ci ildə Terminologiya komitəsi öz kitabxanasını yaratdı [54, v.19].

1936-cı ildə SSRİ EA AF yanında ilk iki sahə elmi kitabxanası yaradıldı ki, bunlardan biri Botanika İnstitutu nəzdində, digəri isə Ədəbiyyat və Dil İnstitutu nəzdində yaranan kitabxanalar idi. SSRİ EA AF Əsas Kitabxanasının fondundan botanikanın müxtəlif sahələrinə dair seçilən elmi ədəbiyyatının əsasında Botanika İnstitutu nəzdində kitabxana təşkil edildi. İlin axırınadək kitabxanaya daha 500 nüsxə ədəbiyyat alındı [33, v.72]. 1941-ci ilə qədər kitabxananın fondunda botanikanın bütün sahələrinə dair eləcə də, bitki coğrafiyası və sistematikasına, torpaqşünaslığa, kənd təsərrüfatına, seleksiyaya və darvinizmə aid SSRİ-də və xaricdə çap edilmiş qiymətli kitablar toplandı. Onlardan «История человечества» – I – IX cildlər (1896-cı ildən),

F.Ratselin «Земля и жизнь» (1907), P.S.Pallasın «Описание растений Российского государства с их изображениями по всечайщему повелению и на иждивении его императорского величества (1786), «Атлас плодов» (1906), «Ботанический атлас» (1876, 1887, 1897, 1910), «Свод ботанических терминов» (1912), «Полная энциклопедия русского сельского хозяйства» I-XII cildlər (1900) kimi kitablarla yanaşı, K.Linneyin, A.Enqlerin, E.Boysyerin – Voyaqe de Humboldt et Bonipand. Monoqraphiedes Melastomaqees, Melastomos. – Paris, 1816, N.T.Host Graminum Austria corum. V.2-4 (1803-1805) kimi məqalələr məcmuəsini göstərmək olar [67].

Botanika institutu kitabxanasının fondunda «Труды импeратоского ботанического сада Петра Великого» 1871, «Труды императорского С.-Петербургского общества естествоиспытателей» (1872), «Журнал русского ботанического общества» (1916), «Ботанический журнал» (1908-1932-ci ildən), «Природа» (1911-ci ildən), «Ботанические материалы. Гербарий» (1921-1940-cı ildən), «The of the New York Botanical Garden» (1903), «Phytopathology» (1935-ci ildən), «Plant Physiology» (1932-ci ildən) kimi nadir ədəbiyyatlar da toplanmışdır.

1936-cı ildə həmçinin, SSRİ EA AF Əsas Kitabxanasından ədəbiyyata və dilçiliyə dair seçilmiş kitabların bazasında Ədəbiyyat və Dil İnstitutunun kitabxanası yenidən təşkil edildi. Həmin ilin sonunadək kitabxananın fonduna 350 nüsxə yeni ədəbiyyat daxil oldu.

1936-cı ilin noyabr ayının 13-də institutun kitabxanasının mülkiyyətini inventarlaşdırmaq üçün bir komissiya yaradılır. Komissiyanın məlumatında göstərilirdi ki, kitabxananın fondunda kitablarla yanaşı, əlyazmalar və xeyli sayda fotoşəkillər də vardır. Kitabxananın mülkiyyəti inventarlaşdırılıb kitabxananın müdiri Z.Gülməmmədovaya təhvil verilmişdir. Z.Gülməmmədovanın məlumatına görə 1937-ci ilin əvvəlində Ədəbiyyat və Dil

İnstitutunun elmi kitabxanasında 4.775 nüsxə ədəbiyyat var idi [12, v.39].

1940-cı ildə SSRİ EA AF Ədəbiyyat və Dil İnstitutunun alimləri kiril əlifbası əsasında yeni Azərbaycan əlifbasını işləyib hazırladı. Kiril əlifbasının qəbul edilməsi haqqında ziddiyyətli fikirlər səslənməkdədir. Bu, XX əsrdə bir neçə dəfə əlifbasını dəyişməyə məruz qalan Azərbaycanın milli-mənəvi sərvətlərinə bir daha vurulan zərbə idi. Belə bir təşəbbüsün ideoloqlarının məqsədi bir tərəfdən «dili bir, əlifbası bir, düşüncəsi bir olan vahid sovet ziyalısı» formalaşdırmaq olmuşdursa, digər tərəfdən Azərbaycanı böyük türk dünyasından, Cənubi Azərbaycanda yaşayan qan qardaşlarından, soykökündən, milli mənəvi dəyərlərindən ayırmaq olmuşdur. Digər tərəfdən isə SSRİ sərhədlərinin bağlı olduğu bir vaxtda Azərbaycan alimləri xarici elmi ədəbiyyatla yalnız rus dilinə tərcümə edilmiş kitablar vasitəsi ilə tanış olmaq imkanı qazandılar. Eyni zamanda Azərbaycanın tanınmış alimlərinin elmi kəşfləri və əldə etdiyi elmi nəticələr rus dilində çap edilərək SSRİ kitabxanalarında təbliğ edilirdi. İnstitutun kitabxanası da öz növbəsində yeni əlifba ilə çap edilmiş ədəbiyyat alır, onların sərgilərini təşkil edir, yeni əlifbanı təbliğ edirdi.

Ədəbiyyat və Dil İnstitutunun kitabxanası öz fondunu ədəbiyyatşünaslığın və dilçiliyin problemləri ilə bağlı ədəbiyyatla komplektləşdirməklə yanaşı Azərbaycan klassik ədəbiyyatının toplanıb mühafizə edilməsi ilə də ciddi məşğul olmuşdur. Bu illərdə ölkə dahi N.Gəncəvinin 800 illik yubileyinə hazırlaşırdı. Kitabxana yubileylə əlaqədar olaraq N.Gəncəvinin SSRİ-də və eləcə də Azərbaycanda çap olunmuş əsərləri ilə öz fondunu zənginləşdirirdi.

1936-cı ildə yaranan ixtisaslaşmış sahə kitabxanalardan biri də Tarix, Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində yaranmış elmi kitabxana idi. Kitabxananın 600 nüsxədən ibarət fondu elmi işçilərin istifadəsinə verildi. Bundan başqa kitabxananın fonduna SSRİ EA AF Əsas Kitabxanasından, Bakı şəhərinin di-

gər kitabxanalarından Azərbaycan tarixinə, ayrı-ayrı rayonların tarixinə, arxeologiyasına, adət-ənənəsinə dair 290 nüsxə kitab daxil oldu [33, v.74].

Elə bu ildə də Azərneftin Kimya laboratoriyası yanında ixtisaslaşmış sahə kitabxanası yaradılır. Kitabxananın fonduna kimya, neft kimyası, kimya texnologiyası, neft karbohidrogenlərinin emalı, həmçinin kimya elmi ilə qohum elmlərin problemlərinə dair respublikada, SSRİ-də və xaricdə nəşr edilən dövrü mətbuat toplanır. Onlardan «Журнал Русского физико-химического общества» (1873-1930-cu ildən), «Журнал общей химии» (1931-ci ildən), «Успехи химии» (1932-ci ildən), «Азербайджанское нефтяное хозяйство» (1922-ci ildən), «Chemical abstracts» (1918-ci ildən), «Journal of the American chemical society» (1908-ci ildən) «Chemisches Zentralblatt» (1892-1869), «Berichte der Deutsche Gesellschaft» (1873-cü ildən) misal göstərmək olar. Kimya laboratoriyası kitabxanasının fondu 1936-1940-cı illər ərzində 600 nüsxədən 1.500 nüsxəyə qədər artdı [33, v.76]. Kitabxananın fondunda Y.H.Məmmədəliyev, N.D.Zelinski, V.V.Markovski, A.M. Butlerov, A.E.Arbuzov və N.S.Namyotkinin kimya və neft karbohidratları emalı, texnologiya sahələrinin elmi problemlərinin həllinə dair monoqrafiyaları da toplandı.

1935-ci ildə həmçinin, Qeyri-üzvi Kimya İnstitutunun kitabxanası təşkil edildi [83, 11]. SSRİ EA AF Əsas Kitabxanasının fondundan seçilmiş ixtisas ədəbiyyatı hesabına qeyri-üzvi kimya, fiziki kimya, kristalloqrafiya və digər yaxın elmlərə aid SSRİ-də və xaricdə nəşr edilən ədəbiyyat toplanmışdı. SSRİ EA AF elmi-tədqiqat institutlarının kitabxana şəbəkələri ildən-ilə təkmilləşir, konkret institutların nəzdində təşəkkül tapırdı. Bu inkişaf sahə kitabxanalarının ölkədə gedən quruculuq işlərinə, xalq təsərrüfatının elmi problemlərinin həllinə daha yaxından cəlb edilməsi ilə bağlı idi. Elmi-sahə kitabxanalarında oxuculara kitabxana-biblioqrafiya xidmətinin təşkili müəyyən edilmiş kon-

kret istiqamətlər üzrə təkmilləşirdi.

1938-ci ilin yanvarından SSRİ EA AF coğrafiya, geologiya, energetika bölmələri nəzdində sahə kitabxanaları fəaliyyət göstərməyə başladı. 1939-cu ildə SSRİ EA AF Əsas Kitabxanasından seçilmiş ədəbiyyatın bazasında Zoologiya İnstitutu nəzdində də sahə kitabxanası təşkil edildi. Kitabxananın fondunda zoologiyanın ümumi və xüsusi sahələrinə həsr edilən Azərbaycanda və eləcə də SSRİ-də çap edilmiş əsərlər toplandı. İnstitutun kitabxanası yeni nəşrlərlə bərabər elmi dəyəri olan qədim nəşrlərlə də zənginləşirdi. XIX-XX əsrlərin qiymətli kitabları və zooloji atlasların kolleksiyalarından olan «Записки Кавказского отдела Императорского географического общества» (1855-1895), «Ежегодник зоологического музея Императорской Академии Наук (1900-1916), «Альбом картин по зоологии птиц» (1895), D.Şlextendalın «Определитель насекомых» (1890), R.A.Qrimmovun «Каспийское море и его фауна» (1887), E.Brandtın «Зоологический атлас» (1870), Lamarkın «Histori natuelle des animaux Saus vertebra» (1838), Romanovun N.M «Memories sur les lipidapteres» (1892-1893) və s. fondun nadir kitablarındandır.

Ölkədə elmi-tədqiqat işlərinin əhatəsi genişləndikcə yeni institutlar təşkil edilirdi. Bəzi bölmələr isə artıq institutlara çevrilməkdə idi. Bununla əlaqədar olaraq demək olar ki, fizika və din əleyhinə bölmələrin kitabxanaları da yaranma ərəfəsində idi [33, vv.2-3]. 1941-ci ilin yanvarın 18-nə olan məlumata görə SSRİ EA AF nəzdində 18 şəbəkə kitabxanası formalaşmaqda idi. Bu dövrdə fəaliyyət göstərən sahə kitabxanaları yarımqapalı xarakter daşıyırdı. Çünki kitabxananın xidmətindən yalnız tabe olduğu elmi-tədqiqat institutunun alimləri, aspirant və laborantları istifadə edə bilirdilər. Bəzən yalnız müdiriyyətin icazəsi ilə istisnalar da olurdu. Həmin kitabxanalarda xidmət işi oxu zalları ilə yanaşı, abonement vasitəsi ilə də həyata keçirilirdi. Xidmət işi primitiv və zəif təşkil olunmuşdu. Tədqiqat işi aparılan za-

man arxiv materiallarında kitabxanaların adi ədəbiyyat verilişi və digər işlərə dair statistik məlumatlarına rast gəlinməmişdir. Hələ ki, keyfiyyətli məlumat aparatı təşkil olunmamışdı. Bu həm də sahə kitabxanalarında ixtisaslı kitabxanaçıların olmamasından irəli gəlirdi. Lakin, bu çatışmazlıqlar hələ təşkilatlanma ərəfəsində olan elmi-sahə kitabxanalarının fəaliyyətinin əhəmiyyətini heç də azaltmır. Buna görə də kitabxana işçiləri əsasən kütləvi tədbirlərin-ədəbiyyat sərgilərinin, kitab xülasələrinin, yubileylərin keçirilməsinə daha çox diqqət yetirirdilər. Xidmət işi zamanı yeni ədəbiyyat siyahıları, tövsiyə biblioqrafiyaları oxucular tərəfindən marağa səbəb olurdu.

SSRİ EA AF Əsas Kitabxanası elmi-sahə kitabxanalarının yaranmasında yaxından iştirak etmiş, bu işin bütövlükdə təşkilatçısı olmuşdur. Əsas Kitabxana elmi-tədqiqat institutları nəzdində yaranan kitabxanaların müraciətinə əsasən öz fondundan uyğun ədəbiyyatı ayırıb onlara verirdi. Təkcə 1935-1941-ci illər ərzində sahə kitabxanalarına 200.000 nüsxə ədəbiyyat verilmişdi. Ədəbiyyatın belə verilməsi Əsas Kitabxananın fondunun zəifləməsinə və oxucu tələbatı ödənişinin kəskin aşağı düşməsinə səbəb olurdu. Buna görə də 1941-ci ilin yanvar ayının 7-də SSRİ EA AF Rəyasət Heyətinin iclasında qərar qəbul edildi ki, elmi-tədqiqat institutlarının sahə elmi kitabxanaları Əsas Kitabxananın fondunda öz profilinə uyğun olan yalnız dublet nüsxələrin hesabına komplektləşdirilə bilər. Bu qərar sonradan komplektləşdirilmə işinin düzgün aparılmasına öz müsbət təsirini göstərmiş oldu.

Əsas Kitabxana elmi-sahə kitabxanalarına komplektləşdirmə işlərində, kataloq və kartotekaların tərtibində metodik rəhbərlik edir, onların hesabatlarına nəzarət edir, kitabxana işinə və biblioqrafiya məsələlərinə dair tövsiyələr verirdi.

Elmi-tədqiqat institutları nəzdində sahə kitabxanalarının yaranması və onların fəaliyyəti ilə Əsas Kitabxananın fəaliyyətinin əlaqələndirilməsinə rəhbərlik işini əvvəllər Kitabxana-Biblioqra-

fiya Komissiyası həyata keçirirdi. 1940-cı ildən etibarən isə SSRİ EA AF Əsas Kitabxanası üçün məsləhətçi bir orqan kimi Kitabxana Şurası yaradıldı. Kitabxana Şurasının «Əsasnaməsi» hazırlandı. Əsasnaməyə görə Şuranın tərkibinə alimlər, ölkənin iri elmi kitabxanalarının rəhbərləri, kitabxananın aparıcı mütəxəssisləri daxil edildi. Şuranın sədri Kitabxananın o vaxtkı direktoru Skalovskaya, üzvləri isə Qrossheym, Derjavin, Abramoviç, Smirnov-Loginov, Lerman, Dadaşzadə, Tağıyev və s. idi. Göründüyü kimi, Kitabxana Şurasının da tərkibində qeyri-türk millətindən olanlar çoxluq təşkil edirdi. Bu təkcə milli kadr çatışmazlığı ilə əlaqədar olmayıb mərkəzi hakimiyyətin hər sahədə, xüsusilə təbliğat sahəsinə nəzarəti öz əlində saxlamaq kimi gizli niyyətindən irəli gəlirdi.

1941-ci ildə müharibənin başlanması SSRİ EA AF institutları və bölmələri nəzdində təşkil olunmuş sahə kitabxanalarının da fəaliyyətini pozdu. Onların təşkilatlanmasının qarşısı alındı. Sahə kitabxanalarının bəziləri ləğv edildi, bəziləri birləşdirildi. Kitabxanalar öz fəaliyyətlərini Əsas Kitabxananın fəaliyyəti ilə birləşdirmək məcburiyyətində qaldılar. Əsas Kitabxana sahə kitabxanalarının kompleksləşdirilməsi ilə bağlı olan bütün işləri öz vəsaiti hesabına həyata keçirməyə məcbur oldu.

Müharibənin başlanması sahə kitabxanalarının fəaliyyətlərinə mane olsa da, tədqiq olunan dövr SSRİ EA AF elmi kitabxanalar şəbəkəsinin yaranması və genişlənməsinin başlanğıcı olmuşdur.

1929-1941-ci illər ərzində kitabxana işi ölkənin ictimai-siyasi həyatında, iqtisadiyyatında və mədəni quruculuq işlərində baş verən dəyişikliklərlə paralel olaraq inkişaf etmişdir. Kitabxanalar – hətta, ən kiçik kitabxanalar belə siyasətin ayrılmaz tərkib hissəsi idi.

Azərbaycanda elmi müəssisələrin və elmi kadrların sayının artması onlara xidmət edən elmi kitabxana şəbəkələrinin də inkişafına zəmin yaratdı. Bundan başqa bir-birinin ardınca kitabxana

işi ilə bağlı dövlətin qərar və sərəncamlarının verilməsi də bu sahəyə diqqətin artırılmasına səbəb oldu. Xalq təsərrüfatına dair ikinci və üçüncü beşillik planlarla əlaqədar olaraq elmi müəssisələrin qarşısında qoyulan problemlərin həlli kitabxanaların fondunun ayrı-ayrı elmi-tədqiqat institutlarının profilinə uyğun olaraq kompleksləşdirilməsi məsələlərini önə çəkdi. Az.DETİ-nun SSRİ EA ZFAŞ çevrilməsi nəticəsində onun elmi kitabxanası daha da təkmilləşdi.

SSRİ EA AF yaradıldıqdan sonra onun Əsas Kitabxanasının yenidən qurulması nəticəsində elmi-tədqiqat işlərində kitabxana-biblioqrafiya xidmətinin yeri müəyyənləşdi. Artıq konkret elm sahələrinin maddi bazasının yaranmasının vaxtı gəlib çatmışdı. Bunun nəticəsi idi ki, ayrı-ayrı elmi-tədqiqat institutları və bölmələri nəzdində elmi-sahə kitabxanaları təşəkkül tapmağa başladı. Qeyd etmək lazımdır ki, 1935-ci ildən ayrı-ayrı elmi-tədqiqat institutları nəzdində kitabxanaların yaranması ənənəsi bu günə qədər davam etmişdir. Həmin kitabxanalar konkret olaraq bir elmi-tədqiqat institutunun profilinə uyğun ədəbiyyatla komplektləşdirilmiş, konkret oxucu kontingentinə operativ informasiya xidməti göstərmişlər. Bu isə onların elmi-tədqiqat işinə birbaşa yardımçı olması üçün şərait yaratmışdı. Hal-hazırda AMEA-nın müxtəlif elmi-tədqiqat müəssisələri nəzdində 27 elmi-sahə kitabxanası fəaliyyət göstərir. Bu fakt bir daha təsdiq edir ki, elmi-tədqiqat institutlarının sahə kitabxanalarının yaradılması ideyası öz əhəmiyyətini itirməmişdir və həmin kitabxanalar bu gün də müvəffəqiyyətlə elmə xidmət etməkdədir. AMEA MEK isə belə böyük bir kitabxana şəbəkəsinin fəaliyyətinə metodiki rəhbərlik etməkdə davam edir.

Tədqiq olunan dövrü elmi kitabxanaların fəaliyyətinin təkmilləşməsi və müəyyənləşməsi dövrü kimi xarakterizə etmək olar.

Qeyd etmək lazımdır ki, arxivlərdə birbaşa kitabxanaların fəaliyyəti ilə bağlı xüsusi fondların yaranmaması, onsuz da çox az olan məlumatların pərakəndə səpələnməsi tədqiqat zamanı

çətinliklər törətsə də, həmin məlumatlar zərrə-zərrə toplanmış və tədqiqat işinə cəlb edilərək öyrənilmiş, müəyyən ümumiləşdirmələr, nəticələr əldə edilmişdir.

### 4.3. Kitabxanalar repressiya illərində

1920-41-ci illər tarixi 30-cu illərin repressiyalarının tarixi, səbəbləri, metodları, elm və mədəniyyətə vurduğu ziyanların təsiri hərtərəfli öyrənilmədən tam araşdırıla bilməz. Həmin dövrdə partiya və hökumət «marksizm və leninizm ideyalarına sadiq» sovet vətəndaşları tərbiyə etmək istiqamətində çoxsaylı qərarlar verir və tədbirlər həyata keçirir, sovet həyat tərzinə və ideologiyasına zidd halların qarşısını qətiyyətlə alırdı. Belə tədbirlər məcburi xarakter daşıyırdı. Sərbəst fikir azadlığı və demokratik düşüncə tərzi qəbul edilmirdi. 30-cu illərdə aparılan repressiyalar da məhz, bu siyasətə xidmət edirdi.

Stalinin şəxsiyyətinə pərəstiş bütün sahələrdə özünü göstərir, yaranan əsərlərdə «rəhbərə məhəbbət» tərənnüm edilirdi. Hər bir sahədə olduğu kimi, elmi dairələrdə də «xalq düşmənləri» axtarılırdı. Bəzən bütövlükdə təşkilatlar ləkələnirdi. Məsələn, «Azərbaycanı Öyrənmə Cəmiyyəti» pantürkçü bir təşkilat adlandırılaraq türkçülükdə, müsavat ideyalarının təsiri altına düşməkdə günahlandırılırdı [185, 8].

Bu dövrdə cəmiyyətin mənəvi aşınması prosesi getməkdə idi. İnsanlar bir-birindən xəbərçilik etmək, anonimçilik, şərləmək kimi xüsusiyyətlərə sövq edilirdi. İnsan haqları, yaşamaq, mülkiyyət hüququ pozulurdu və bu işlər milyonların gözü qarşısında kütləvi şəkildə «əksinqilaba», «qolçomaqlığa», «xalq düşmənlərinə» qarşı mübarizə adı altında həyata keçirilirdi. Şəhər və kəndlərdə həbslər baş alıb gedir, yüzlərlə insan gecə ilə naməlum şəkildə yoxa çıxırdı. Yerlərdə isə bu proses daha acı şə-

kildə gedirdi. Hər şey bu işə rəhbərlik edənlərin insaflarından asılı idi. Məhkəmələrdə işin uzanmaması üçün L.M.Koqanoviçin təşəbbüsü ilə siyasi məsələlərdə günahlandırılan şəxslərin məsələlərinə, hətta ölüm cəzasının kəsilməsi səlahiyyəti də verilməklə «xüsusi müşavirə»də operativ şəkildə baxılırdı. 1937-ci ildə V.M.Molotovun təşəbbüsü ilə «sənədlərin tərtib edilməsini asanlaşdırmaq üçün» məhbuslara siyahı üzrə hökm çıxarılırdı. Belə «təkliflərin» nəticəsində milyonlarla insanların həyatı sürgünlərdə çürüyür, məhv edilirdi. Təkcə 1938-ci ilin 12 dekabrında Stalin və Molotov 30 siyahı üzrə 3187 insan üçün ölüm hökmünə imza atmışdı. Əgər 1929-cu ildən 1932-ci ilə qədər əhalinin sayı 11 milyon nəfər artmışdısa, 1933-1937-ci illər ərzində 2 milyon nəfərə qədər azalmışdı [172].

SSRİ kimi nəhəng bir ölkəni əhatə edən bu faciə müttəfiq respublikalarda daha amansızlıqla baş alıb gedirdi. Çünki, hakimiyyətin yaratdığı totalitar rejim milli genefondu formalaşmış millətlərə daha amansız mövqe göstərirdi. Stalinin repressiya aparatı çeçenlər, inquşlar, qaraçaylar, balkarlar, kalmıklar, Krım tatarları və s. kimi türksoylu xalqları yurd-yuvalarından deportasiya edirdi [2, 49]. Qafqazda isə ən çox təqiblərə məruz qalan azərbaycanlılar olmuşdur [112, 44]. Belə ki, əhalisinin böyük əksəriyyətini müsəlmanların və türkdilli xalqların təşkil etdiyi Azərbaycanda «əksinqilabçılar», «türkçülər» axtarışı nəticəsində millətin ziyalı təbəqəsinin məhv edilməsi planlı şəkildə həyata keçirilirdi. Bu planın həyata keçirilməsində L.Beriya, M.C.Bağırov digər millətlərdən, xüsusilə də ermənilərdən məharətlə istifadə edirdi. Bunun nəticəsi idi ki, 30-cu illərdə Azərbaycan ziyalılarına qarşı sürülən ittihamnamələri əsasən, Azərbaycan SSR XDİK müstəntiqləri Qalustyan, Qriqoryan, Avanesov, Martirosov, Asaturov, Subbatov və s. tərtib edirdilər. L.Beriyanın əlaltılarından biri olan X.Qriqoryan 1937-ci ildə 100 nəfər azərbaycanlını öldürdüyünü, və bununla da millətinin qisasının alındığını fəxrlə bildirirdi [86, 132].

1937-1940-cı illərdə Kommunist Partiyasının təsiri və tələbi ilə «plan» verirmiş kimi, hər il ölkədə on minlərlə insan həbs edilirdi [86, 140]. Bu insanların da içərisində görkəmli elm və mədəniyyət xadimləri, ziyalılar, o cümlədən, nəşriyyat və kitabxana işçiləri də var idi. Ziyalıların belə məhv edilməsi müstəqil fikirli, azad düşüncəli, yaradıcı insanların aradan götürülməsi məqsədini daşıyırdı. Rejim öz ideologiyasına zidd düşüncəni qəbul etmirdi. Azərbaycanın görkəmli ziyalılarından olan H.Zeynallı, Ə.Nazim, B.Çobanzadə, T.Şahbazi, İ.Eminbəyli, M.Hüseynov, X.Xocayev, Q.Bağırov, A.Tağızadə, B.Talıblı, M.Cuvarlinski, A.Məmmədov, Ə.Qubeydullin və s. 37-ci il repressiyalarının qurbanı olmuşlar [75, 254]. Repressiya qurbanları olan elm və mədəniyyət xadimlərinin yaratdıqları əsərlər xalqa zidd, «panislamist», «pantürkist», «əksinqilabçı» ədəbiyyat kimi yandırılır, kitabxanalardan yığışdırılır, onların oxunmasına, saxlanmasına qadağalar qoyulur, məhv edilirdi. Bu isə Azərbaycanın milli-mənəvi sərvətlərinin dağıdılmasına, respublikanın elm fondunun məhvinə gətirib çıxarmışdı. Qeyd etmək lazımdır ki, qoyulan bu qadağalar Baş Mətbuat İdarəsinin (BMİ) siyahıları ilə müəyyən edilirdi. Hələ 1923-cü ilin sentyabr ayının 24-də BMİ-nin iclasında «Qadağan olunmuş və icazə verilən ədəbiyyat», «Ədəbiyyatın kitabxanalardan yığılmasının təcrübi məsələləri» haqqında müzakirələr aparılmışdı. İclasda qərara alınmışdı ki, əksinqilabi ədəbiyyatın yığılması ilə əlaqədar hazırlanan siyahılar Baş Siyasi Maarif İdarəsinə (BSMİ), Bakı Xalq Maarifi Şöbəsinə (BXMŞ), «Бакинский рабочий» nəşriyyatına, Azərbaycan Kommunist (Bolşevik) Partiyası Mərkəzi Komitəsinə (AK(b)P MK) və s. göndərilməlidir. Qeyd edilirdi ki, qadağan edilmiş kitablar yığılaraq akt ilə BMİ-nə verilməlidir. Həmin kitabların siyahısı türk dilində də (Azərbaycan) hazırlanaraq yerlərə göndərildi [44, v.102].

1935-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığının (XMK) Kitabxana İdarəsinin rəisi Kopanenkonun məlumatına

əsasən göstərilirdi ki, «kitabxanalardan əksinqilabi ədəbiyyatın-trotskiçi-zinovyevçi ədəbiyyatın yığılması səhv və ləng gedir» [49, v.8]. Bu prosesi nizama salmaq məqsədi ilə kitabxanalarda «Xüsusi fond»ların yaradılmasına başlandı. 1937-ci ildə Azərbaycan Dövlət Ümumi Kitabxanası «Daxili Qaydalar» işləyib hazırlamışdı. Orada xüsusi olaraq qeyd edilirdi ki, Xüsusi Fondun baş kitabxanaçısının bütün şöbələrə, fondlara və kataloqlara yaxınlaşmaq hüququ vardır. O, həmçinin, «zərərli» ədəbiyyatın kitabxanadan yığılmasına da rəhbərlik edirdi [53, vv.2-3].

1935-ci ilin iyul ayında kitabxananın əlifba və sistemli kataloqu «ideoloji cəhətdən köhnəlmiş» ədəbiyyatdan təmizləndi. Bunun nəticəsində rəflərdən 513 «şübhəli ədəbiyyat» yığıldı [53, v.6].

Qeyd etmək lazımdır ki, sovet dövründə ictimai elmlər bütövlükdə ideoloji sahə sayılmış, Marks, Engels, Leninin əsərləri isə elmi inkişafın metodoloji əsasını təşkil etmişdir. Bunun nəticəsi idi ki, kitabxanaların fondu daim Marks, Engels, Lenin və Stalinin əsərləri ilə komplektləşdirilir və təbliğ edilirdi.

Azərbaycanın tarixinə, mədəniyyətinə həsr edilmiş yığılan qiymətli ədəbiyyatın əvəzində kitabxanalara Stalinin, Leninin, Marksın, Engelsin və s. əsərləri göndərilirdi. Məsələn, AK(b)P MK-nin nəzdində fəaliyyət göstərən «Бакинский рабочий» nəşriyyatı Az. DETİ kitabxanasına aşağıdakı əsərlərin siyahısını göndərmişdi: Stalinin «Lenin və leninizm haqqında», «Suallar və cavablar», «Lenin haqqında», Molotovun «Bizim vəzifələrimiz», S.Şaumyanın «Məqalələri və nitqləri», Əmiryanın «Məqalələri və nitqləri», Kasparovun «Şəhərin kənd üzərində hamiliyi», Levqurun «Komsomol və uşaq hərəkatı» və s. [58, vv.2-9]. 1920-1940-cı illər ərzində 3 dəfə həyata keçirilən əlifba dəyişikliyi Azərbaycanın elminə, mədəniyyətinə ciddi ziyan vurdu. Bu ad altında partiya və sovet təşkilatları ölkə kitabxanalarından minlərlə qiymətli ədəbiyyatı yığışdırmış, «kitab dəfni» adlı geniş bir prosesi həyata keçirmişdilər. Əgər 20-ci illərin axırı, 30-

cu illərin əvvəlində ərəb əlifbası ilə çap olunan əsərlər kitabxanalardan yığılırdısa, 30-cu illərin sonunda kiril əlifbasına keçilməsi ilə əlaqədar olaraq latın qrafikası ilə çap olunan kitablar məhv edilirdi. Tariximiz, mədəniyyətimiz, ədəbiyyatımız haqqında məlumatları özündə əks etdirən saysız-hesabsız qiymətli mənbələr, əlyazmaları və kitablar yandırılırdı. Kimin evində ərəb əlifbası ilə yazılan kitablar tapılırdısa onu molla, «panislamist» adlandıraraq həbs edirdilər. Bu prosesə rəhbərlik edən digər millətlərin nümayəndələri, əsasən də ermənilər xüsusi canfəşanlıq göstərirdilər [193]. Bu cəhdlər 80-ci illərin sonunda da həyata keçirilmiş, ölkə kitabxanaları, xüsusilə də elmi kitabxanalar erməni oxucuları tərəfindən həyata keçirilmiş ideoloji təxribata məruz qalmışdır [194].

30-cu illərin repressiyaları kitabxanalarla yanaşı, kitabxana işçilərinin də faciəsinə səbəb olmuşdur. Belə insanlardan biri də görkəmli alim, Azərnəşrin redaktoru Hənəfi Baba oğlu Zeynallıdır. Hənəfi Zeynallı 1925-ci ildə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin təsis etdiyi Kitabxana-Biblioqrafiya Komissiyasının sədri seçilmiş, cəmiyyətin kitabxanasına rəhbərlik etmişdir [20, v.38]. 1937-ci il yanvarın 28-də Hənəfi Zeynallı əksinqilabçı qrupun üzvü kimi həbs olundu. Elə həmin gün o, SSRİ EA AF-da tutduğu «bütün vəzifələrdən kənar edildi». Ona qarşı sürülən ittihamda göstərilirdi ki, H.Zeynallı özünün praktik elmi işlərində əksinqilabi millətçi ideologiyanı yaymışdır. 1937-ci il oktyabrın 12-də saat 16.25-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası Səyyar sessiyasının (Matuleviç, Zaryanov, Jiqur) qapalı məhkəmə iclası başlandı. Saat 16.40-da qurtaran iclasın qərarı ilə Hərbi Kollegiya Hənəfi Baba oğlu Zeynallını ən yüksək cəzaya-güllələnməyə məhkum etdi. Hökm 1937-ci il oktyabrın 13-də Bakıda icra edildi [75, 87].

37-ci ilin repressiyalarına məruz qalan insanlardan biri də mətbuatda dövlət sirlərini mühafizə edən Baş Mətbuat İdarəsinin (Qlavlit) rəisi İbrahim Abdulla oğlu Eminbəylidir. 1937-ci il

fevralın 14-15-də müstəntiq 705 nömrəli məhbusa bu sualla müraciət etmişdir: «Qlavlitin rəisi kimi siz nə üçün özünüzdə istifadəsi qadağan edilmiş əksinqilabi kitablar saxlayırdınız: Zinovyevin «İnqilab dili» kitabına əlavə, Lenin və Trotskinin köhnə «İskra»sı, M.Hüseynovun «Müsavat Partiyası keçmişdə və hazırda» və s.». İ.Eminbəyli müstəntiqin sualına cavab olaraq bildirir ki, «Qlavlitin rəisi kimi mən belə kitabları saxlaya bilərdim» [75, 114]. İbrahim Abdulla oğlu Eminbəyli 1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası Səyyar sessiyasının (Matuleviç, Zaryanov, Jiqur) cəmisi 15 dəqiqə çəkən iclasının qərarı ilə M.C.Bağırova terror hazırlamaqda ittiham edilərək güllələnməyə məhkum edildi.

1937-ci ilin repressiyaları Azərbaycanın görkəmli tarixçisi, arxivşünası, Mərkəzi Arxiv İdarəsinin tarix arxivinin baş elmi işçisi Əziz Saleh oğlu Ubeydllinin də həyatına son qoydu. Fevral ayında heç bir səbəb olmadan həbs edilən Ə.Ubeydulin oktyabr ayının 12-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası Səyyar sessiyasının məhkəmə iclasının saxta ittihamı ilə «Ümumittifaq əksinqilabçı pantürkist təşkilatının» üzvü olmaqda, Azərbaycanın SSRİ-dən silahlı üsyan yolu ilə ayrılmasında, Yaponiya, Almaniya və Türkiyə kəşfiyyatına xidmət etməkdə günahlandırılaraq ölüm cəzasına məhkum edildi. Hökm 1937-ci il oktyabr ayının 13-də icra edildi [126].

1937-ci ildə Azərnəşrin direktoru Əhməd Triniç, Siyasi ədəbiyyat nəşriyyatının direktoru Kazım Ələsgərov kimi nəşriyyat işçiləri isə əksinqilabi «Azərbaycan millətçi partiyasının» üzvləri kimi ittiham edilmiş, repressiyalara məruz qalmışdılar.

Ölkədə həyata keçirilən repressiv aktlara yalnız ayrı-ayrı fərdlər yox, kök, genefond məruz qaldı. Repressiyalardan yaxa qurtaranların bəzilərini mühit sıxıb «danosçuya», «şahidə», «sovet adamı»na çevirə bilmişdi. Cəmiyyətdə, NKVD orqanlarında elə vəziyyət yaradılmışdı ki, üzə durmamaq, şahid olmamaq bir qəhrəmanlıq idi. Çox az insan tapılardı ki, verilən işgəncələrə

dözə bilsin. Belə insanlardan biri Azərbaycan Dövlət Universiteti (ADU) Fundamental Elmi kitabxanasının direktoru görkəmli Azərbaycan ziyalısı Ağamir Məmmədovdur. O, verilən bütün işgəncələrə baxmayaraq axıradək sınmamış, özünü günahkar saymadığını bildirmiş və heç kəsin əleyhinə ifadə verməmişdir. Ağamir Məmmədovun həbs edilməsi üçün istifadə edilmiş imzasız məktubda (14 oktyabr 1937-ci il) göstərilirdi: «ADU-nun fundamental elmi kitabxanasının direktoru, SSRİ EA AF baş elmi işçisi Ağamir Sadıx oğlu Məmmədov və onun atası, dayısı, qardaşları həqiqi müsavatçılardır. Ondan Gəncə müsavat təşkilatı, Həsənbəyovla əlaqəsi haqqında məlumatlar almaq olar. Eyni zamanda A. Məmmədovun «xalq düşmənləri» professor V.Xuluflu və SSRİ EA AF-nın elmi işçisi H.İmanovla da əlaqəsi vardır. Ondan professor Həsənbəyov, professor Xuluflu və digər müsavatçılar haqqında öyrənmək olar». A.Məmmədovun həbsi üçün guya onun əsərləri də əsas olmuşdur: «İslam, yoxsa panislamizm», «Azərbaycanda kəndli üsyanları», «Azərbaycanda çar dövründə təhkimçilik münasibətlərinin qanunilәşdirilməsi» [153].

1938-ci ilin yanvar ayının 5-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının (Nikitenko, İyevlev, İşenko) qapalı məhkəmə iclasında A.S.Məmmədov «Əksinqilabçı pantürkist təşkilatının üzvü kimi Azərbaycanın SSRİ-dən silahlı üsyan yolu ilə ayrılmasına, partiya, hökumət rəhbərlərinə fərdi terror edilməsinə çağırışda, eyni zamanda pantürkizm, panislamizm və millətçiliyi təbliğ etməkdə, türk konsulu ilə şəxsən əlaqə saxlamaqda günahkar bilinərək ölüm cəzasına layiq görülmüşdü. Yeri gəlmişkən qeyd etmək istərdim ki, burada da erməni dəsti-xətti özünü aydın göstərir. A.Məmmədova qarşı irəli sürülən ittiham qərarını 1937-ci il dekabrın 4-də kapitan Avanesov tərtib etmişdi [75, 181]. A.Məmmədovun həyat yoldaşı Neymə xanım Rəşid qızı isə «xalq düşməni»nin ailə üzvü kimi 1938-ci il aprelin 10-da tutularaq 8 il həbs cəzasına məhkum edildi.

30-cu illərdə gənclər, onların birləşdikləri cəmiyyətlər və

təşkilatlar da təqib olunurdular. Belə təşkilatlardan biri də «Gənc Azər» təşkilatı olmuşdur. Onların içərisində tələbələrlə yanaşı kitabxanaçılar da var idi. «Gənc Azər» təşkilatının bütün üzvləri qadağan olunmuş ədəbiyyatı tapıb oxuyurdu. Bu işdə onlara Mədən İşçiləri Kitabxanasının müdiri Məmməd Zeynalov, Buzovna kitabxanasının müdiri Məmmədəli Əlizadə kömək edir, onlara gizli ədəbiyyat gətirirdi [84, 27]. Buna görə də onlar tələbə gənclərin təhsil üçün gizli surətdə Türkiyəyə qaçmalarını təşkil etməkdə günahlandırılmış, təqiblərə məruz qalmışdılar.

Beləliklə, göstərilən bu misallardan aydın olur ki, 30-cu illərin repressiya dalğaları minlərlə zəhmətkeş insanlarla, ziyalılarla yanaşı, kitabxanalardan, o cümlədən kitabxana işçilərindən də yan keçməmiş, ağır faciələrə səbəb olmuşdur. 30-cu illər Stalinin şəxsiyyətinə pərəstişin mənfi nəticələri ictimai elmlərdə, xüsusilə ədəbiyyatda özünü daha çox göstərmişdir. Eyni zamanda milli-mənəvi köklərimiz, islam dini inkar edilmişdir. Belə ruhda yaranmış əsərlər «sosializmə yad ünsürlər» kimi inkar edilmiş «pantürkist», «panislamist» damğası vurularaq məhv edilmiş, ən yaxşı hallarda isə istifadəsinə qadağalar qoyularaq kitabxanaların «xüsusi fond»larında saxlanmışdır.

### 4.4. Sosial-iqtisadi və ictimai-siyasi vəzifələrin həllində elmi-sahə kitabxanalarının rolu

Azərbaycanın görkəmli kitabxanaşünası A.Xələfova görə, kitabxanalar aşağıdakı sosial funksiyaları daşıyır: elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə funksiyaları [99, 294]. Başqa cür desək, kitabxanalar cəmiyyətin mədəni həyatının bir hissəsi olub elmin, iqtisadiyyatın inkişafında böyük rol oynayır, kitabı təbliğ edən bir müəssisə kimi təhsilin inkişafına xidmət edir. Nəhayət, kitabxanalar bir təlim-tərbiyə müəssisəsi kimi geniş təbliğat şəbəkəsidir. Sovet hakimiyyətinin ilk illərində təbliğat şə-

bəkələri kimi kitabxanaların funksiyası daha önəmli olmuşdur.

Sovet dövrünün 1920-1941-ci illərində kitabxana işi tədqiq edilərkən həmin dövrün kitabxana işinə baxışı və tarixi mərhələləri nəzərə alınmalıdır. Bu dövrdə mədəni quruculuq işi, xalq təsərrüfatının bərpası, YİS, savadsızlığın ləğv edilməsi, sənayeləşdirmə, ölkənin elektrikləşdirilməsi, kənd təsərrüfatının kollektivləşdirilməsinin vəzifələrini müəyyən edən beşillik planların yerinə yetirilməsinə tabe edilmişdi. Ölkə iqtisadiyyatının inkişafı «alimlərin elmi ixtira və kəşflərinin, elmi-texniki yeniliklərin istehsalın müxtəlif sahələrində tətbiqinin səmərəliliyinin ictimaiyyətə çatdırılması» işi kitabxanaların üzərinə düşürdü [3]. 1921-ci ildə hər yerdə olduğu kimi Azərbaycanda da YİS-ə keçilməsi labüd oldu. YİS müəyyən çərçivə daxilində ticarət azadlığına yol verdiyindən xırda təsərrüfat inkişaf etdi. YİS-lə bağlı xalq maarifi müəssisələrində, xüsusilə kitabxanalarda əhali arasında geniş təbliğat işi aparılmağa başlandı. Əhali ilə aparılan ideya-siyasi tərbiyə işinin səviyyəsini yüksəltmək, mədəni-maarif ocaqlarının təşkili və onların şəbəkələrinin genişləndirilməsi daim partiyanın diqqət mərkəzində olmuşdur. Çünki, partiya maarif işi sahəsində müəyyən siyasət yeridilməsində və biliklərin zəhmətkeş kütlələr arasında müvəffəqiyyətlə yayılmasında son dərəcə maraqlı idi. Bunun nəticəsi idi ki, kitabxanalar öz işlərini partiya və hökumətin qərar və göstərişlərinə uyğun olaraq qururdular. Kitabxanalar savadsızlığın ləğv edilməsi məqsədi ilə dərnəklər, ədəbi gecələr, kitab müzakirələri və müxtəlif kütləvi tədbirlər keçirirdilər. Belə tədbirlərə tanınmış adamlar, partiya və dövlət xadimləri dəvət edilirdilər ki, bu da kitabxanalara daha çox oxucunun cəlb edilməsi ilə nəticələnirdi.

YİS zamanı əldə edilən nəticələr Azərbaycanın xalq təsərrüfatının bərpasını sürətləndirməyə yardım etdi. Bu, xüsusilə sənaye və nəqliyyatın inkişaf etdirilməsinə aid idi. Qeyd etmək lazımdır ki, Azərbaycanın neft sənayesi ölkənin əsas yanacaq bazası hesab olunduğundan neft sənayesinin inkişafı xüsusi olaraq

diqqət mərkəzində idi. Neft sənayesi Azərbaycanın idarəçiliyindən çıxarılıb birbaşa Moskvaya tabe edildi. Neft sənayesinin avadanlıqla təchiz edilməsi, fəhlələrə ərzaq yardımı göstərilməsi ilə Moskva neft hasilatını səfərbərliklə artırmağı Bakıdan tələb edirdi. Bunun üçün müxtəlif forma və üsullar tətbiq edilirdi. İməciliklər, «avral həftəsi», sosializm yarışı, staxanov hərəkatı və s. təşkil edilməklə fəhlələr gecə-gündüz çalışır, mərkəzi neftlə təchiz edirdilər. Azərbaycanın neft sənayesində İ.Mikayıl, A.Nemətulla, B.Tağızadə, Q.Muradov, X.Pənahov, H.Məmmədov və s. «staxanov» üsulu ilə çalışırdılar [120]. 1920-ci ildə noyabr ayına qədər Bakıdan Rusiyaya 25 milyon ton neft daşındı. Bu ölkə neftinin 90%-ni təşkil edirdi [111]. 1921-ci ildə Bakıda Geoloji kəşfiyyat bürosu yarandı ki, bu da yeni neft yataqlarının aşkara çıxarılması ilə məşğul oldu.

Azərbaycan Politexnik institutu elmi laboratoriyalarında aparılan tədqiqat işləri öz nəticələrini verdi. 1922-ci ildə rus geoloqları D.V.Qolubyatnikov və İ.M.Qubkinin rəhbərliyi ilə Balaxanı-Sabunçu ərazisində Kirəməki və Kirəməkialtı laylarda zəngin neft yataqları aşkara çıxarıldı. Bütün bunlar kitabxanalarda neftə aid ədəbiyyat vasitəsi ilə neft sahəsində aparıcı ölkələrin qabaqcıl təcrübələrinin öyrənilməsi və yayılması nəticəsində mümkün olmuşdu. Neft sənayesində çalışan fəhlələrin savadsızlığının ləğv edilməsində, mühəndis-texniki kadrların elmi-texniki ədəbiyyata olan tələbatının ödənilməsində neft sənayesində formalaşmağa başlayan texniki-məlumat kitabxanalarının mühüm rolu olmuşdur. Texniki kitabxanalar Azərneftin rekonstruksiyası ilə əlaqədar olaraq BXMŞ tabeçiliyindən «Azərneft» komitəsinin xalq maarifi bölməsinə verilmişdi.

Bu texniki-məlumat kitabxanalarının maddi-texniki bazasının yaxşılaşdırılması ilə yanaşı, onun Azərneftin tələbatına uyğun olan ədəbiyyatla komplektləşdirilməsinə şərait yaratdı. Xüsusilə kitabxanalarda fəhlələrə və mühəndis-texniki kadrlara elmi-texniki ədəbiyyatla xidmət göstərilməsini yaxşılaşdırmaq

üçün imkan yarandı. Texniki kitabxanalarda təşkil edilmiş «likbez»lərdə fəhlələr öz savadsızlıqlarını ləğv edir, yeni əlifbanı öyrənirdilər. Kitabxanalar həmçinin, ali və texniki məktəblərdə təhsil alan neftçi fəhlələrin dərslik və dərs vəsaitləri ilə təmin olunmasında əhəmiyyətli rol oynayaraq tədrisə yardım etmişdir. Kitabxanaların oxu zalları fəhlələrin mədəni-kütləvi tədbirləri keçirmələri üçün də açıq idi. 1923-cü ildə neft sənayesində fəaliyyət göstərən 24 kitabxana özünün 119.807 nüsxəlik fondu ilə 19.709 oxucuya xidmət etmişdir. Fəaliyyətdə olan bu texniki məlumat kitabxanalarına 1924-cü ildən «Neftçi» klubunun MTK-sı metodik rəhbərlik etməyə başladı. MTK Azərneftin çap etdiyi bülletenlərdə vaxtaşırı yeni daxil olan ədəbiyyatın siyahısını nəşr etməklə neftçi kadrlara yeni ədəbiyyat haqqında məlumat verirdi. Belə siyahıların verilməsi mühəndis-texniki kadrların bilik səviyyələrinin artırılmasına xidmət edirdi. Kitabxanalar «Yenidənqurma dövründə hər şeyi texnika həll edir» şüarına qoşularaq fəhlələr arasında texniki ədəbiyyatı təbliğ edirdi. Azərneft 1928-ci ilin avqust ayında «Azərneftin məlumat-texniki kitabxanalarından istifadə qaydaları»nı təsdiq etdi. Bu bir daha göstərir ki, Azərbaycanın neft sənayesində artıq elmi-texniki biliklərə yiyələnmiş ziyalı kadrlar formalaşmağa başlamışdır. MTK-nın bütövlükdə SSRİ-də, xüsusilə neft sənayesində elmi-texniki məlumat xidmətinin həyata keçirilməsində mühüm xidmətləri olmuşdur.

1925-ci ildən götürülən «sənayeləşdirmə xətti» əsasən neft sənayesi üzərində quruldu. Çünki neft sənayesinin inkişafı ümumittifaq tələbatı idi. Bu dövrün əsas təbliğat ocağı olan kitabxanalar əhali arasında partiyanın mərkəzləşdirmə siyasətini – ümumittifaq öhdəliklərinin birinci olaraq yerinə yetirilməsinin vacib olduğunu təbliğ edirdi. Azərbaycanda neft sənayesinin inkişafından sonra SSRİ üçün qiymətli xammal olan pambıqçılığın inkişafı da mərkəzin diktəsinə uyğunlaşdırıldı. Həmin dövrdə Azərbaycanda xalq təsərrüfatının tənzimlənməsi və nəzarətdə

saxlanılmasını təmin etmək məqsədilə birinci beşillik plan qəbul edildi. Birinci beşilliyin vəzifəsi Azərbaycanı iri sənaye ölkəsinə çevirmək idi. Beşillik planda milli respublikaların iqtisadiyyatı planlaşdırılarkən onların müstəqil inkişafı arxa plana keçirilərək İttifaqın ehtiyac və tələbatının vacibliyi vurğulanırdı. Planda Azərbaycanda kənd təsərrüfatında kollektivləşmə zamanı xüsusilə pambıqçılıq rayonlarının 50%-nin kollektivləşməsi nəzərdə tutulurdu. Beşilliyin qarşıya qoyduğu bu vəzifələrin həllinə yönələn elmi-tədqiqat işlərinin qurulması da ciddi əhəmiyyət daşıyırdı. Bu məqsədlə Gəncədə yaranan Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutu yeni məhsuldar pambıq növlərinin yetişdirilməsi üzərində tədqiqat işləri apararaq bir sıra nailiyyətlər əldə etdi.

Beşillik planda ölkə sənayesinin elektrikləşməsi də nəzərdə tutulmuşdu. Planda nəzərdə tutulan Gəncə istilik-elektrik stansiyasının ikinci növbəsi, Zurnabad və Nuxa su elektrik stansiyalarının tikintisi ilə yanaşı, 16 kənd elektrik stansiyası da tikilib başa çatdırıldı. Beşilliyin vəzifələrini oxuculara aşılamaqla yanaşı, neft sənayesinin, kənd təsərrüfatının və energetikanın inkişaf etdirilməsinə yardım etmək üçün kitabxanalar öz fondlarını həmin sahələrin elmi problematikasına uyğun olan və qabaqcıl təcrübəni özündə əks etdirən ədəbiyyatla komplektləşdirirdilər. Eyni zamanda kitabxanalar öz oxucularının iş yerlərində sosializm yarışlarının nəticələrini, zərbəçilik hərəkatının forma və üsullarını yayan ədəbiyyatı təbliğ edirdilər. İstehsalat müşavirələrində, kütləvi tədbirlərdə kitabxanalar ədəbiyyat sərgiləri təşkil etməklə geniş fəhlə kütlələrini sovet təsərrüfatının əməli quruculuq işlərinə cəlb edir, dolayısı ilə ölkə iqtisadiyyatının inkişafına yardım edirdilər. Ölkə iqtisadiyyatının inkişafında, neftçi kadrların hazırlanmasında texniki kitabxanalar şəbəkəsinin mühüm rolu olmuşdur.

Respublikada elmin inkişafında, elmi kadrların yetişməsində, milli ziyalı kadrların dünyagörüşünün formalaşmasında Azər-

baycan Dövlət Universitetinin Elmi kitabxanasının, Azərbaycan Dövlət Kitabxanasının, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin (Sonralar Az. DETİ, SSRİ EA ZFAŞ, SSRİ EA AF) elmi kitabxanasının xüsusi xidmətləri olmuşdur. ADU elmi kitabxanası Azərbaycanın elmi və mədəni həyatında yaxından iştirak etmiş, tələbə və müəllimlərlə yanaşı respublikanın digər oxucularına da kitabxana-biblioqrafiya xidməti göstərmişdir. Kitabxana öz fondunu SSRİ-də və xarici ölkələrdə çap edilmiş kitab və jurnallarla zənginləşdirərək oxucular arasında elmi ədəbiyyatı təbliğ edir, tədris prosesində yaxından iştirak edirdilər. Bu isə universitetdə təhsil alan tələbələrin dünyagörüşünün formalaşmasına və onların ali təhsilli milli kadrlar kimi yetişməsinə əhəmiyyətli dərəcədə təsir göstərirdi.

Azərbaycan Dövlət Kitabxanası SSRİ-də çap edilən bütün kitab və dövrü mətbuatdan məcburi nüsxələr alırdı. Bu kitabxananın fondunda bütün elm sahələrinə aid ədəbiyyatın toplanması üçün geniş imkan yaratdı. Eləcə də, xarici ölkələrdə nəşr edilmiş elmi-texniki ədəbiyyatın əldə edilməsi kitabxanaya geniş oxucu kütləsi ilə yanaşı, elm və təhsil müəssisələrində çalışan elmi-texniki kadrları da cəlb edirdi. Bunun nəticəsi idi ki, kitab verilişinin 80-90%-ni elmi ədəbiyyat təşkil edirdi. Kitabxana ölkədə aparılan elmi-tədqiqat işlərində oxuculara kömək məqsədi ilə müxtəlif tövsiyə siyahıları və biblioqrafik göstəricilər hazırlamışdı. «Şərq incəsənəti», «Şərqdə qadın hərəkatı», «Qafqaz xalqları haqqında», «1917-1927-ci illərdə jurnal ədəbiyyatı», «1927-ci ildə Şərqə dair SSRİ-də çap edilmiş kitablar» və s. kimi biblioqrafik vəsaitlər buna misal ola bilər. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti və onun əsasında yaranan Az. DETİ ziyalıları öz ətrafında birləşdirdiyi kimi, onun elmi kitabxanası da öz fondunda elmi ədəbiyyatı toplayıb mühafizə edir, elmi işçilərə kitabxana-biblioqrafiya xidməti göstərirdi. Kitabxana müxtəlif xidmət növlərindən istifadə etməklə ölkədə elmi fikrin inkişafında yaxından iştirak edirdi.

Tədqiq olunan dövrdə elmi-sahə kitabxanalarının qarşısında böyük vəzifələr dururdu. Kitabxanalar oxuculara xalq təsərrüfatında baş verən dəyişiklikləri təbliğ edir, sənayedə yeni texnikanın tətbiqi ilə əlaqədar texniki bilikləri yayır, xalq təsərrüfatı problemlərinin elmi həllinə kömək edirdi. Bu məqsədlə kitabxanalar kitab sərgiləri, ədəbiyyat xülasələri, oxucu konfransları təşkil edirdi. Elmi-sahə kitabxanaları oxucuların yeni texnika və texnologiyaya dair ədəbiyyata olan tələbatını bilavasitə iş yerlərində ödəməklə ali məktəblərdə tədris prosesinə fəal kömək edir, ölkə sənayesi və kənd təsərrüfatının inkişafına – bütövlükdə iqtisadiyyatın inkişafına təsir göstərirdi. Elmi-sahə kitabxanaları öz fondlarını müxtəlif mövzulara həsr olunmuş, oxucu sorğularına cavab verə bilən ədəbiyyatla komplektləşdirirdi. Bunun nəticəsi idi ki, dövlət elmi kitabxanaların maddi-texniki bazasının möhkəmləndirilməsi üçün ayrılan vəsaiti ildən-ilə artırırdı. Bu tədbirlər həm də respublikada elmi biliklərin xüsusi çəkisinin artmasına xidmət edirdi.

Azərbaycanda xalq təsərrüfatı və mədəni quruculuğun inkişafına dair ikinci beşilliyin qarşıya qoyduğu vəzifələrin həlli onların elmi-tədqiqat obyekti kimi işlənməsini zəruri edirdi. Eyni zamanda xalq təsərrüfatına alimlərin cəlb edilməsi əsas vəzifələrdən biri idi. Azərbaycanda təbii məhsuldar qüvvələrin öyrənilməsi, iqtisadiyyat və mədəni quruculuğun inkişaf etdirilməsini qarşıya bir məqsəd kimi qoyan Az.DETİ-nin yaranması bir sıra vəzifələrin həllinə nail olsa da, elmi-tədqiqat işlərinin xalq təsərrüfatının vəzifələri ilə uyğunlaşdırılması yalnız ikinci beşillik planın direktivlərində öz əksini tapdı. Azərbaycan XKS SSRİ EA ZFAŞ-nə xalq təsərrüfatının müxtəlif sahələrinin inkişafı ilə əlaqədar olaraq həyata keçirilməli olan elmi işlərin istiqamətləri üzrə tapşırıqlar verdi ki, bunlar da sənaye, kənd təsərrüfatı, səhiyyə, tarix, etnoqrafiya və digər sahələri əhatə edirdi. SSRİ EA ZFAŞ ayrı-ayrı bölmələrdə xalq təsərrüfatı ilə bağlı müxtəlif sahələrdə problemlərin elmi həlli üzərində işləməyə başladı. Yəni,

respublikada bütün elm sahələri üzrə elmi-tədqiqat işi aparan bir mərkəzə çevrildi. SSRİ EA ZFAŞ Əsas Kitabxanası da elmin maddi bazası kimi xalq təsərrüfatı sahələrinin elmi problemlərinin həllində xüsusi rol oynayırdı.

İkinci beşillikdə elmi-tədqiqat işləri üçün bütövlükdə 650.900 rubl vəsait nəzərdə tutulmuşdu. Bu beşillikdə SSRİ EA ZFAŞ (sonradan SSRİ EA AF) Energetika bölməsinin qarşısında Azərbaycan SSR-nin enerji təsərrüfatının inkişaf etdirilməsi ilə əlaqədar olaraq ölkənin təbii enerji mənbələrinin öyrənilməsi üzrə elmi-tədqiqat işlərinin aparılması vəzifələri qoyuldu. Riyazi statistik metodların tətbiqi nəticəsində enerji göstəricilərinin tətbiqi problemləri, istehsal proseslərinin tədqiqində yüksək tezlikli cərəyanın tətbiqi, elektrik stansiyaları topoqramının hazırlanması, yüksək gərginlikli Tər-Tər-Bakı xəttinin, nəqliyyat və kənd təsərrüfatının elektrik enerjisi ilə təchiz edilməsi məsələlərinin öyrənilməsi Azərbaycan SSR-nin elektrikləşməsi planının elmi həllinə uyğunlaşdırıldı.

Azərbaycanın təbii qazla təmin olunması ikinci beşilliyin əsas vəzifələrindən biri idi. Bu məqsədlə Energetika bölməsi təbii qazın termik xüsusiyyətlərinin tədqiqatı ilə məşğul olmağa başladı.

İkinci beşillikdə sənaye, nəqliyyat və kənd təsərrüfatının elektrikləşməsi üçün Azərbaycanın təbii enerji ehtiyatlarının, xüsusilə günəş və külək enerjisinin alınmasının öyrənilməsi əsas problem kimi qarşıya qoyulurdu. SSRİ EA ZFAŞ Energetika bölməsinin qarşısında duran problemlərinin həlli üçün Əsas Kitabxana öz fondunu problematikaya uyğun olaraq komplektləşdirir, vaxtlı-vaxtında yeni ədəbiyyat haqqında SSRİ EA AF «Xəbərlər»ində və s. oxuculara məlumat verirdi. Kitabxana həmçinin, energetika üzrə elmi kadrların hazırlanmasında yaxından iştirak edirdi. Aspiranturada energetika üzrə ikinci beşillikdə 9 nəfər elmi işçi yetişdirilməsi nəzərdə tutulmuşdu. Bu iş isə bölmənin aspirant və elmi işçilərinə hərtərəfli kitabxana-bib-

lioqrafiya xidməti əsasında mümkün idi.

Azərbaycan iqlimşünaslığı və Xəzər dənizinin kompleks öyrənilməsi, Azərbaycanın seysmoloji cəhətdən tədqiq edilməsi geofizika bölməsinin qarşısında bir vəzifə olaraq dururdu. Bu isə həmin problemlərin həllində elmi işçilərə yardımçı ola bilən, ölkədə və xaricdə çap olunan elmi ədəbiyyatla Əsas Kitabxananın fondunu komplektləşdirməyi tələb edirdi. Kitabxana da öz növbəsində işini bu istiqamətə yönəldirdi.

Azərbaycanda helioenerji ehtiyatlarının öyrənilməsi və ondan istifadə imkanlarının araşdırılması zamanı əldə olunan nəticələr subtropik bitkilərin yetişdirilməsində mühüm əhəmiyyət kəsb etdi. Ölkədə su təsərrüfatı, su nəqliyyatı və balıqçılığın inkişaf etdirilməsi ikinci beşillikdə qarşıya qoyulan mühüm vəzifələrdən biri idi. Bu məqsədlə beşillik ərzində ölkənin geofizikləri Xəzərin su balansı, hidroqrafiyası, çay axınlarının qeydiyyatı, Xəzər səviyyəsinin enib-qalxma dərəcəsi, Xəzərin enerji dalğaları və ondan istifadə metodlarını tədqiq etdilər.

Ölkənin və eləcə də Xəzər dənizinin seysmoloji aktivliyinin öyrənilməsi nəticəsində zəlzələlər kataloqunun tərtib edilməsi mümkün oldu.

Xalq təsərrüfatında dağ-mədən, kimya sənayesinin inkişafı üçün faydalı qazıntı yataqları və radioaktiv filizlərin kəşf edilməsinin elmi problemlərinin həlli ikinci beşilliyin direktivlərində öz əksini tapmışdı. Əsas Kitabxana geologiya bölməsinin qarşısında duran bu problemləri nəzərə alaraq SSRİ EA ilə əlaqələr nəticəsində kitabxanaya yeni elmi ədəbiyyatın gətirilməsini təmin etdi, kataloq və kartotekalarda uyğun bölmələr açdı, tematik sərgilər təşkil etdi. Tövsiyə siyahılarının hazırlanması elmi kadrların ədəbiyyat axtarışını asanlaşdırdı. Geoloqlar Azərbaycanın əsas faydalı qazıntı növlərini, nadir elementlərini, mineral sularının hidrogeologiyasını, Gəncənin mineralogiyasını, Zaqafqaziyanın stratiqrafiyasını, Böyük Qafqazın və Quba rayonunun geokimyəvi vəziyyətini elmi cəhətdən işlədilər.

Kimya və neft sənayesində hidromexanikanın tətbiqi məsələləri, su mənbələrinin aşkara çıxarılması üçün yeraltı suların, yeraltı layların təzyiqinin öyrənilməsi, çirklənmiş suların təmizlənməsi metodlarının işlənib hazırlanması da SSRİ EA ZFAŞ diqqət mərkəzində olmuşdur.

SSRİ EA ZFAŞ Fizika bölməsi (sonradan Fizika İnstitutu) ikinci beşillikdə xalq təsərrüfatının qarşısında duran vəzifələrin həllinə alimlərin cəlb edilməsi və problemlərin elmi cəhətdən işlənməsi məqsədi ilə bir sıra tədqiqat işləri aparmalı oldu. Buraya xüsusilə neft, dağ-mədən, kimya və metal sənayesinin inkişafını nəzərdə tutan tədqiqat işləri daxil idi.

1933-37-ci illər ərzində neft və dağ-mədən işinin inkişaf etdirilməsi məqsədilə geofiziki kəşfiyyat metodlarının öyrənilməsi planlaşdırılırdı. Bu vəzifənin həyata keçirilməsini yerli filiz növlərinin fiziki xüsusiyyətləri, gərginliyin maqnit metodu ilə təyin edilməsi, elektrik keçiriciliyində tətbiq edilməsi, neftin yüksək təzyiqdə və dərəcədə gərginliyinin tədqiq edilməsi, neft məhsullarının parametrinin təyin edilməsi kimi elmi-tədqiqat işlərinin aparılmasını mümkün etdi.

Neftin və neft məhsullarının səhiyyədə tətbiqi məqsədilə Fizika institutunda Bakı rayonları və Naftalan neftinin radioaktivliyi elmi cəhətdən araşdırılmağa başlandı. Faydalı qazıntıların çıxarılmasında minerallar və yerli mədən növlərinin rentgen analizi, nadir elementlərin spektral analizi kimi tədqiqat işləri də aparılmalı idi. Laboratoriyalarda aparılan elmi-tədqiqat işləri həm də ölkədə fizika sahəsində alimlərin yetişdirilməsində mühüm əhəmiyyət kəsb edirdi. Laboratoriyada çalışan gənc mütəxəssislər və aspirantlar tədricən hazırlıqlı elmi kadrlara çevrilirdilər. İldən-ilə ölkədə elmi kadrların sayının artması məhz onlara göstərilən kitabxana-biblioqrafiya xidmətinin müxtəlif forma və metodlarından istifadə edilməsi nəticəsində mümkün oldu.

Ölkədə elmi-tədqiqat işlərinin təşkilində SSRİ EA ZFAŞ Kitabxana-Biblioqrafiya Komissiyası da böyük rol oynamışdır.

Elmi işçilərə və mütəxəssislərə biblioqrafiya xidmətini yaxşılaşdırmaq üçün A.V.Baqrinin rəhbərliyi ilə qızğın iş aparılmış, alimlərlə birlikdə müxtəlif biblioqrafik göstəricilər tərtib olunmuşdu. Qeyd etmək lazımdır ki, elmi kitabxanalarda sırf kitabxana xidməti ilə yanaşı, biblioqrafiya sahəsində görülən işlər də respublikada aparılan elmi-tədqiqat işlərini istiqamətləndirməkdə və elmi kadrların məlumat axtarışını asanlaşdırmaqda əhəmiyyətli rol oynayırdı. Ayrı-ayrı elm sahələri üzrə aparılan elmi-tədqiqat işləri ilə əlaqədar olaraq elmi işçilər üçün ədəbiyyatın seçilməsində, kitabxananın fondunda olan ədəbiyyat haqqında məlumat verməkdə biblioqrafiya xidmətinin özünəməxsus yeri olmuşdur. Bunun nəticəsi idi ki, kitabxana fondunun müntəzəm olaraq məhz elmi ədəbiyyatla, xüsusilə xarici ölkə müəlliflərinin əsərləri ilə komplektləşdirilməsinə diqqət yetirilirdi. Eyni zamanda həm Azərbaycan elminin nailiyyətlərinin təbliği məqsədilə, həm də Azərbaycanda olmayan elmi ədəbiyyatın oxuculara çatdırılmasında kitab mübadiləsindən geniş istifadə olunurdu. Əsas Kitabxana hər vəchlə ölkədə aparılan elmi işlərə yardım etməyə çalışırdı. Belə ki, elmi işçilərin, aspirant və tələbələrin, mütəxəssislərin tədqiqat işlərini daha da səmərəli aparmaları məqsədi ilə kitabxana iki növbəli iş sisteminə keçmişdi. Kitabxananın elmi-tədqiqat işlərinin daha da yaxşılaşdırılması onun kadr məsələlərinin həllində də özünü göstərirdi. Bacarıqlı biblioqraf və kitabxanaçılarla yanaşı, kitabxanaya elmi işçi statusunda təyin edilən kadrlar elmin inkişafı üçün göstərilən kitabxana-biblioqrafiya xidməti səviyyəsinin yüksəldilməsinə çalışırdılar. Mövzu kartotekalarının təşkili, məlumat bülletenləri, tövsiyə siyahılarının, retrospektiv biblioqrafik göstəricilərin tərtib edilməsi elmi kadrların dünyagörüşünün formalaşmasına yaxından kömək edirdi.

1935-ci ildə SSRİ EA ZFAŞ SSRİ EA AF-na çevrilməsi həm də onun tərkibində olan bölmələrin bazası əsasında ixtisaslaşmış elmi-tədqiqat institutları şəbəkəsinin yaranması ilə nəti-

cələndi. Yaranan bu tədqiqat institutlarında artıq daha konkret elmi problemlərin həlli üzərində işlənməyə başlandı. Ayrı-ayrı elmi-tədqiqat institutlarında konkret tədqiqat işləri aparan alim və mütəxəssislərin uyğun ədəbiyyata olan tələbatını ödəmək məqsədi ilə həmin institutların tərkibində ixtisaslaşmış elmi-sahə kitabxanaları təşkil edilməyə başlandı. Sahə elmi kitabxanalarının vəzifəsi alimlərə birbaşa iş yerində xalq təsərrüfatının müxtəlif sahələrinin inkişafı üzrə ikinci və üçüncü beşilliklərlə əlaqədar elmi-tədqiqat institutlarının qarşısında qoyulan problemlərə uyğun olaraq dar ixtisas sahəsində kitabxana-biblioqrafiya xidməti göstərmək olmuşdur. Bu kitabxanalar SSRİ EA AF Əsas Kitabxanasının rəhbərliyi və köməkliyi nəticəsində yaranırdı. Qeyd etmək lazımdır ki, Əsas Kitabxananın işi yarandığı gündən elmi müəssisələrin problemlərilə sıx əlaqədə olmuşdur. Kitabxana özünün sərəncamında olan bütün vasitələrlə SSRİ EA AF elmi-tədqiqat institutlarının, Rəyasət Heyətinin, bölmə və yarımbölmələrin, komissiya və şuraların işinin müvəffəqiyyətlə həyata keçirilməsinə kömək etmişdir. Respublikada elmi biliklərin tərəqqisinə daha fəal təsir edən vasitələrdən biri kitabxananın məlumat-biblioqrafiya işi olmuşdur. «Azərbaycanın biblioqrafiyası» kartotekasının aparılması və sistemləşdirilməsi işi kitabxananın elmi-biblioqrafik fəaliyyətinin əsasını təşkil etdi. Xalq təsərrüfatının və mədəni quruculuğun inkişaf etdirilməsi, sovet elm və texnikasının inkişafı uğrunda mübarizə elmi-sahə kitabxanalarından məlumat-biblioqrafiya işinin təkmilləşdirilməsini və gücləndirilməsini tələb edirdi. Alim və mütəxəssislərə biblioqrafiya xidmətini yaxşılaşdırmaq məqsədilə elmi biblioqrafiya və informasiya sahəsində işlərin təşkilinin yenidən qurulması bir vəzifə olaraq önə çəkildi. Yəni, elmi-tədqiqat müəssisələrinin elmi işçiləri və aspirantlarına hərtərəfli kitabxana-biblioqrafiya xidmətinin təşkili SSRİ EA AF Əsas Kitabxanasının əsas vəzifələrindən biri idi. Elmi biblioqrafiya işi elmi-tədqiqat institutlarının maraqları ilə üst-üstə düşürdü. Əsas Kitabxananın

əməkdaşları tərəfindən hazırlanan elmi biblioqrafiya işləri hər il nəşriyyat planlarına salınırdı. Xaricdən ədəbiyyat alınması və elmi məlumat mübadiləsi daha aktual vəzifə kimi daim diqqət mərkəzində olmuşdur. Respublikada elm və texnikanın inkişafı xarici ölkələrin elmi-tədqiqat müəssisələri ilə əlaqələrin və elmi-texniki məlumat mübadiləsinin genişləndirilməsini tələb edirdi. Xarici ölkələrin elmi təşkilatları ilə kitab mübadiləsi nəticəsində az da olsa əldə edilən ədəbiyyat Azərbaycan alimlərinin qabaqcıl təcrübəyə yiyələnmələrində xüsusi rol oynamışdır. SSRİ EA AF Əsas Kitabxanasının fondu vasitəsi ilə Azərbaycan oxucuları dünya dövrü mətbuatı ilə tanış olmaq imkanı əldə edirdi ki, bu isə respublikanın digər kitabxanalarında yox dərəcəsində idi.

Tədqiq olunan dövrdə SSRİ EA AF sistemindən başqa respublikada müxtəlif elmi-tədqiqat institutları və elmi təşkilatların da tərkibində sahə elmi kitabxanaları yaradılırdı. 1921-ci ildə Xalq Torpaq Komissarlığı tabeçiliyində yaranıb fəaliyyət göstərmiş Respublika Elmi Kənd Təsərrüfatı kitabxanası, 1940-cı ildə yaradılmış Elmi Tibb Kitabxanası və s. buna misal ola bilər. Bu kitabxanalar da tabe olduğu təşkilatların profilinə uyğun olaraq öz fondlarını komplektləşdirir, müxtəlif elm sahələrinin inkişafına xidmət edirdi.

Qeyd etmək lazımdır ki, 1920-41-ci illərdə yaranan elmi-sahə kitabxanaları sovet dövlətinin mühüm təbliğat şəbəkəsi kimi ölkədə fəaliyyət göstərən digər kitabxanalardan birbaşa elmə yardımçı olmaları ilə fərqlənmişdir. 1920-29-cu illərdə təşkilatlanma ərəfəsində olan elmi kitabxanalar, elmi ədəbiyyatı toplayaraq iri elmi kitab fondları yaradıb mühafizə edirdisə, 1929-1941-ci illərdə Stalinin repressiya illərinin ağır taleyini yaşayaraq ölkənin xalq təsərrüfatının inkişafında – iqtisadiyyatın, elmin inkişafında, eləcə də ölkənin ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Ölkənin elmi-tədqiqat müəssisələrində çalışan mütəxəssislərinin elmi işçi kimi yetişməsinə də elmi-sahə kitabxanalarının rolu böyük olmuşdur.

# NƏTİCƏ

Təqdim olunan monoqrafiyanın xronoloji çərçivəsi bütövlükdə Azərbaycanda mədəni quruculuğun – elmin, mədəniyyətin təşəkkül tapması, təşkilatlanması, inkişaf etməsi və təkmilləşməsi mərhələlərini əhatə edir. Tədqiq olunan dövr, yəni, 1920- iyun 1941-ci illər Azərbaycanın yeni iqtisadi sistem olan sosialist təsərrüfatı sisteminə keçilməsi ilə yanaşı, eyni zamanda yeni mədəni quruculuq prosesinin başlanmasına təsadüf edir. Azərbaycan hökuməti özünün təbliğat şəbəkəsi və mədəni quruculuğun fəal iştirakçısı kimi kitabxana işinə xüsusi diqqət verirdi. Bu diqqət geniş kitabxana şəbəkəsinin yaranması ilə paralel olaraq kitab fondlarının komplektləşdirilməsində, kadr təminatında olduğu kimi, onların maliyyələşməsində və maddi-texniki təminatında da özünü göstərirdi. Bu dövr ərzində xeyli ali təhsil və elmi-tədqiqat müəssisələri yaranmışdı. Azərbaycan Dövlət Universiteti, Azərbaycan Politexnik İnstitutu, Azərbaycan Pedaqoji İnstitutu və s. milli mütəxəssis kadrların yetişməsində əvəzsiz xidmətləri olan ali təhsil ocaqları oldular. Sovet hakimiyyətinin ilk illərində bu ali təhsil ocaqlarında yetişən ziyalıları elmi-tədqiqat işlərinə cəlb etməkdə və onların elmi fəaliyyətlərini öz ətrafında birləşdirməkdə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin xüsusi rolu olmuşdur. Özünün 6 illik fəaliyyəti dövründə bu cəmiyyət I Ümum Azərbaycan Ölkəşünaslıq qurultayının, birinci Ümumittifaq Türkoloji qurultayın keçirilməsini təşkil etmiş, eyni zamanda türkləşdirmənin, latın qrafikasına keçidin təşkilatçısı olmuşdur. Cəmiyyət Azərbaycan elminin təşək-

külündə və inkişafında xüsusi rol oynamış və 20-ci illərdə bir elmi mərkəz olaraq ilk elmi-tədqiqat müəssisələrinin yaranmasına, birgə fəaliyyətinə şərait yaratmış, elmi kadrlar potensialının formalaşmasında, milli ziyalılar nəslinin yetişməsində yardımçı olmuşdur.

Ölkədə ali məktəblərin və elmi mərkəzlərin fəaliyyət göstərməsi onlara xidmət edən elmi-sahə kitabxanalarının da yaranmasını şərtləndirirdi. Həmin illərdə elmi-sahə kitabxanalarının ilk rüşeymləri meydana gəlməyə başladı. Neft mədənlərində fəaliyyət göstərən texniki kitabxanalar, Xalq Torpaq Komissarlığı nəzdində fəaliyyət göstərən kənd təsərrüfatı kitabxanaları, Azərbaycan Dövlət Universitetinin elmi kitabxanası, Azərbaycan Dövlət Kitabxanası, Azərbaycan Dövlət Muzeyinin kitabxanası, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin kitabxanası, Respublika Kitab Palatası kimi mədəni-maarif ocaqları ölkədə elmin inkişafına xidmət etmişdir. Elmi müəssisələrlə yanaşı, bu kitabxanaların da milli ziyalıların elmi dünyagörüşünün formalaşmasında böyük rolu olmuşdur. Yenicə formalaşmağa başlayan ziyalılar həmin kitabxanaların elmi fondlarında toplanan ədəbiyyat vasitəsilə yeni elmi nəticələr əldə edirdilər. Yaranan belə kitabxanalar ayrı-ayrı müəssisələrin tabeçiliyində olsalar da «ümumi ideya rəhbərliyi üçün» XMK-na tabe edilmişdilər. Elmi-sahə kitabxanalarının maliyyələşməsi və maddi-texniki bazalarının formalaşdırılması məsələlərinin araşdırılması nəticəsində aydın olur ki, kitabxanalar əsasən tabe olduğu təşkilatların vəsaiti hesabına maliyyələşmişdir. Kitabxanalara ayrılan maliyyə vəsaiti çox vaxt yalnız kitabxana fondlarının komplektləşdirilməsinə sərf edilmişdir. Kitabxanalar əsasən ideoloji ədəbiyyatla, xüsusilə, marksizm-leninizm ədəbiyyatı ilə təchiz edilirdi. Elmi kitabxanalarda xaricdə çap olunmuş və ya tərcümə edilmiş elmi dəyərli ədəbiyyat çatışmırdı. Bu bir tərəfdən tərcümə ilə məşğul olan milli kadrların olmamasından irəli gəlirdisə, digər tərəfdən məqsədli idi. Çünki ölkəyə «yadfikirli» ədəbiyyatın gə-

tirilməsi yasaq idi.

Qeyd etmək lazımdır ki, tədqiq olunan dövrün ilk illəri ərzində kitabxanalar əsasən elmi ədəbiyyatın kitabxanalara toplanaraq mühafizə edilməsi, sistemləşdirilməsi və istifadəsinin təşkili işi ilə məşğul olaraq elmə xidmət edən müəssisə kimi formalaşmışdır. Bu illər ərzində elmi-sahə kitabxanalarının fəaliyyəti pərakəndə olmuşdur.

Elmi-sahə kitabxana şəbəkələrinin sayının artması onların ixtisaslı kadrlarla təmin olunmasının sürəti ilə uyğunlaşmırdı. Qeyd etmək lazımdır ki, tədqiq olunan dövrdə kitabxana işində ixtisaslı kadrlar olmadığına görə bu sahədə ziyalı kadrlardan, müəllimlərdən və partiya işçilərindən istifadə olunurdu. Getdikcə artan tələbat nəzərə alınaraq qısa müddətli ixtisas kursları təşkil edildi və bu kursları bitirmiş kitabxanaçılar digər kitabxanalarla yanaşı, elmi-sahə kitabxanalarında da fəaliyyət göstərməyə başladı. Lakin, belə qısamüddətli kurslardan keçmiş kitabxanaçılar elmi kitabxanaların tələbatını ödəyə bilmirdi. 1938-ci ildə Kitabxanaçılıq Texnikumunun açılması ixtisaslı kitabxanaçı kadrlar hazırlığı sahəsindəki boşluğu müəyyən qədər doldurmağa müvəffəq oldu. Bütövlükdə götürdükdə, tədqiq olunan dövrdə qısamüddətli hazırlıq kurslarında və Kitabxanaçılıq texnikumunda 1000 nəfərə yaxın kitabxanaçı kadr hazırlanmışdı. Kitabxanaların sayı ilə müqayisədə bu çox kiçik rəqəm idi. Elmi müəssisələrin təkmilləşməsi nəticəsində yaranan müxtəlif elmi-sahə kitabxanaları şəbəkəsinin inkişafı xüsusi ali kitabxanaçılıq təhsili müəssisəsinin yaranması məsələsini zəruri edirdi.

1920-1941-ci illərdə yaranıb fəaliyyət göstərən elmi-sahə kitabxanalarının kitabxana üçün yararlı binalara, xüsusi kitabxana avadanlığı və qurğularına, mebel və kitabxana ləvazimatlarına böyük ehtiyacı var idi. Bunları nəzərə alan dövlət imkan olduqca kitabxanaların maddi-texniki bazalarının formalaşması üçün də vəsait ayırırdı. Lakin bu vəsait elmi-sahə kitabxanalarının qarşısında duran ictimai-iqtisadi və sosial vəzifələrin həlli

üçün kifayət etmirdi. Bu dövrdə dövlət tərəfindən bir-birinin ardınca kitabxana işi ilə bağlı qərar və sərəncamların verilməsi bu sahəyə diqqətin müəyyən qədər artmasına səbəb oldu. Elmi müəssisələrin qarşısında qoyulan problemlərin həlli kitabxanaların profilə uyğun olaraq komplektləşdirilməsi məsələlərini önə çəkdi.

Az. DETİ-nun SSRİ EA ZFAŞ çevrilməsi nəticəsində onun elmi kitabxanası daha da təkmilləşdi və öz işini yenidən qurmalı oldu. Azərbaycanın təbii ehtiyatlarının, yanacaq resurslarının öyrənilməsi və xalq təsərrüfatında tətbiq edilməsi üçün aparılan elmi-tədqiqat işlərində də elmi kitabxanaların rolu böyük olduğundan onların maddi-texniki bazalarının möhkəmləndirilməsi zərurəti meydana çıxırdı. Bu dövrdə Azərbaycan elminin qarşısında bir sıra problemlərin tədqiq edilməsi qoyulurdu. Daşkəsən yataqlarının öyrənilməsi, Zəylik alunit yataqlarının kompleks işlənilməsi, Azərbaycanın subtropik bitkilərinin tədqiq edilməsi, İstisu və Naftalan mineral müalicə sularının və Naftalan neftinin öyrənilməsi, Xəzər dənizinin kompleks şəkildə öyrənilməsi, enerji ehtiyatlarının öyrənilməsi və istifadəsinin təşkili məsələləri yeni elmi-tədqiqat müəssisələrinin yaranmasına və elmi müəssisələrin fəaliyyətinin daha da təkmilləşməsinə, elmi fəaliyyət istiqamətlərinin müəyyənləşməsinə səbəb oldu.

SSRİ EA AF yaradıldıqdan sonra Energetika İnstitutu, Botanika İnstitutu və Botanika bağı, Zoologiya İnstitutu, Kimya İnstitutu, Olefinlər İnstitutu, Tarix, Dil və Ədəbiyyat İnstitutu, Coğrafiya, Fizika, Riyaziyyat bölmələri və s. kimi elmi-tədqiqat müəssisələrinin yaranması nəticəsində elmi-tədqiqat işlərində kitabxana-biblioqrafiya xidmətinin yeri müəyyənləşdi. Artıq konkret elm sahələrinin informasiya bazasının yaranması vaxtı gəlib çatmışdı. Bunun nəticəsi idi ki, ayrı-ayrı elmi-tədqiqat institutlarının və bölmələrinin nəzdində sahə elmi kitabxanaları təşəkkül tapmağa başladı. Sahə elmi kitabxanaları öz işlərini elmi-tədqiqat müəssisəsinin qarşısında duran problemlərin həllinə uyğun

qurmalı oldular. Kitabxana fondları komplektləşdirilən zaman elmi-tədqiqat institutunun profili nəzərə alınırdı. Belə komplektləşdirmə elmi kadrlara birbaşa onların iş yerlərində, laboratoriyalarda kitabxana-biblioqrafiya xidməti göstərilməsinin əhəmiyyətini artırırdı. Bu təcrübə bu günə qədər də davam edir və uzun illərdir ki, təcrübədən çıxmış, özünü doğrultmuşdur. Çünki, müasir dövrün qloballaşma siyasətində, informasiya axınında elmi işçilərin daha çevik və operativ informasiya ilə təmin olunması günün vacib məsələlərindəndir.

Tədqiq olunan dövr həm də öz neqativ halları və kəskin ziddiyyətləri ilə də səciyyəvi olmuşdur. Kitabxanalar da digər sahələr kimi 30-cu illərin repressiyalarına məruz qalmışdılar. Müxtəlif dövrlərdə əlifbanın dəyişməsi nəticəsində partiya və sovet təşkilatları «kitab dəfni» adlı geniş bir prosesi həyata keçirmişdilər. Əgər 20-ci illərin axırı, 30-cu illərin əvvəlində ərəb əlifbası ilə çap olunan əsərlər kitabxanalardan yığılırdısa, 30-cu illərin sonunda kiril əlifbasına keçilməsi ilə əlaqədar olaraq latın qrafikası ilə çap olunan kitablar məhv edilirdi. Eyni zamanda ölkədə repressiya qurbanı olan elm və mədəniyyət xadimlərinin əsərləri də müxtəlif «panislamist», «pantürkist», «əksinqilabçı» damğaları ilə «lüzumsuz və zərərli» ədəbiyyat kimi kitabxanalardan çıxarılırdı. Bu Azərbaycanın milli-mənəvi sərvətlərinin talan olmasına, respublikanın elm fondunun məhvinə gətirib çıxarmışdı. Partiya və hökumət «marksizm və leninizm ideyalarına sadiq» sovet vətəndaşları, ziyalıları yetişdirmək yönündə coxsaylı qərarlar və tədbirlər həyata keçirirdi. Belə tədbirlər məcburi qaydada həyata keçirilirdi. Mədəni quruculuq prosesi zamanı idarəetmə həddən artıq mərkəzləşdirilmiş və siyasiləşdirilmişdi. Bu isə sərbəst fikir azadlığını və demokratik düşüncə tərzini məhdudlaşdırırdı. Əsas məqsəd isə milli inkişafın qarşısının alınması, vahid sovet ziyalısının formalaşması idi.

Bütün bu məhdudiyyətlərə baxmayaraq, tədqiq olunan dövrdə Azərbaycanda elmi müəssisələr yaranıb inkişaf etmiş, elmi-

tədqiqat işləri ölkənin xalq təsərrüfatının inkişafına yardım etmişdir. Elmi-sahə kitabxanaları isə ölkədə aparılan mədəni quruculuq işlərinin önündə getmiş, elmi inkişafın maddi bazası kimi sosial-iqtisadi və ictimai-siyasi problemlərin həllində xüsusi rol oynamışdır.

Problemin araşdırılmasının nəticələri bir daha göstərdi ki, XX əsrin əvvəllərində dövlət, özünün apardığı kitabxana siyasəti nəticəsində profilindən asılı olmayaraq bütün kitabxanaları öz ideoloji təbliğat şəbəkəsinə çevirə bilmişdi. Ona görə də dövlət kitabxana işinin inkişafında maraqlı idi. Bunun nəticəsində həmin illərdə kitabxana quruculuğunda böyük uğurlar qazanılmışdır. XXI əsrin əvvəlində ölkədə belə geniş kitabxana şəbəkəsinin, maddi və hüquqi bazanın mövcud olmasına baxmayaraq, kitabxanalar, yalnız özünün informasiya funksiyasını yerinə yetirə bilir. Eyni zamanda bu fikri elmi-sahə kitabxanalarına da aid etmək olar.

XX əsrin əvvəllərində oxucuları, sovet quruculuğu, sənayeləşdirmə, yeni iqtisadi siyasət, kolxoz quruculuğu, savadsızlıqla mübarizə, marksizm-leninizm, kommunizm kimi mövzular maraqlandırırdısa, XXI əsrdə onları demokratiya, insan haqları, vətəndaş cəmiyyəti, qloballaşma, sülh naminə əməkdaşlıq, hərbi doktrinalar, terrorizmə qarşı mübarizə, informasiya müharibəsi, bazar iqtisadiyyatı, xüsusi mülkiyyət, intellektual mülkiyyət, biznes, kosmos, naməlum uçan obyektlər, süni beyin, kompüterləşmə, milli ordu quruculuğu, milli təhlükəsizlik, keçid dövrü, beynəlxalq və regional enerji layihələri, ipək yolu və s. mövzular daha çox maraqlandırır. Neft-qaz mövzusu isə hər iki əsrdə daim diqqət çəkən mövzu olmuşdur. Buraya Bakı-Ceyhan neft kəməri, Neft kəmərinin təhlükəsizliyi, Nabukko qaz kəməri və s. bu kimi mövzuları aid etmək olar.

Ölkəmiz bir ideoloji quruluşdan-sosializmdən azad, insan haqlarının uca tutulduğu demokratik dövlət quruculuğuna, planlı təsərrüfat iqtisadiyyatından bazar iqtisadiyyatına keçmiş və dün-

yaya inteqrasiya etməkdədir. Belə bir şərait kitabxana işində hər an yeniliklər, geniş dəyişikliklər tələb edir. Bunu nəzərə alaraq təklif edirəm ki;

- tipindən və növündən asılı olmayaraq bütün kitabxanalar ölkənin inkişafının elmi şəkildə işlənmiş prinsiplərini, özəlliklərini, labüdlüyünü və dövlətin bu sahədə atdığı addımları aşılamalıdır. Bu məqsədlə kitabxanalar vahid mərkəzdən koordinasiya edilməli;
- respublika səviyyəli iri elmi-sahə kitabxanaları ölkənin kitabxana işinin konseptual məsələlərinin, informasiyalaşdırma və kitabxana proseslərinin avtomatlaşdırılması üzrə müxtəlif yeni dövlət standartlarının, proqramlarının işlənib hazırlanması işində fəal iştirak etməli;
- ölkədə fəaliyyət göstərən nəşriyyatlardan «Kitabxana işi haqqında» Azərbaycan Respublikası Qanununda nəzərdə tutulan məcburi nüsxələrin alınması yolları müəyyən edilməli;
- kitabxanalar regional və beynəlxalq konsorsiumların yaradılmasında yaxından iştirak etməli, beynəlxalq proqram və layihələrə fəal şəkildə qoşulmalı;
- kitabxanaların ən yeni texnologiya ilə daimi təchiz edilməsinin yolları və mənbələri tapılmalı;
- dövlətin büdcə vəsaiti ilə yanaşı, alternativ xidmət üsullarını tətbiq etməklə büdcədənkənar fondlar da yaradılmalı;
- kitabxana fondlarının konservasiya və retrokonservasiyası işi sürətlənməli, elektron fondlar yaradılmalı;
- elmi kitabxanalar üzrə ixtisaslaşmış kadrlar hazırlanması ilə yanaşı, onların yerləşdirilməsi və əməyinin stimullaşdırılması işinə də diqqət artırılmalı;
- qazanılmış təcrübələri öyrənmək məqsədilə elmi-sahə kitabxanalarının müxtəlif dövr tarixi və ayrı-ayrı fəaliyyət sahələrinin tədqiqi ilə bağlı elmi mövzuların işlənməsinə xüsusi diqqət yetirilməlidir.

# İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT


1. Abbasova A.N. M.F.Axundov ad. Respublika Kitabxanasının inkişafı tarixindən (1923-1940) // ADU-nin Elmi Əsərləri, Kitabxanaşünaslıq və biblioqrafiya seriyası, 1974, №1, s.25-31.
2. Ağ ləkələr silinir. Bakı: Azərnəşr, 1991, 200 s.
3. Azərbaycan alimlərinin sosial-iqtisadi inkişafda rolu. «Elm» qəz., Bakı, 2005, 31 mart
4. Azərbaycan Cümhuriyyəti (1918-1920). Bakı: Elm, 1998, 335 s.
5. Azərbaycan Elmlər Akademiyası-50. Bakı: Elm,1995.
6. Azərbaycan hökumət kitabxanası // Maarif və Mədəniyyət, 1923, №4-5, s. 47-48
7. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (II kitab) Stenoqrafik hesabatlar. Bakı: Azərbaycan, 1998, 336 s.
8. Azərbaycan Milli Elmlər Akademiyası – 60. Bakı: Elm, 2005, 469 s.
9. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycanda Elmi İrsin Toplanması və Sistemləşdirilməsi Şöbəsinin Bülleteni (AMEA-nın 60 illiyinə həsr olunur). Bakı: AMEA EA AEİTSŞ, 2005, 22 s.
10. Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Azərbaycanda Elmi İrsin Toplanması və Sistemləşdirilməsi Mərkəzi (AMEA RH AEİTSM): f. 1, siy. 1, iş 1.
11. AMEA RH AEİTSM: f. 1, siy. 1, iş 2.
12. AMEA RH AEİTSM: f. 1, siy. 1, iş 3.

13. AMEA RH AEİTSM: f. 1, siy. 1, iş 6.
14. AMEA RH AEİTSM: f. 1, siy. 1, iş 11.
15. AMEA RH AEİTSM: f. 1, siy. 1, iş 28.
16. AMEA RH AEİTSM: f. 1, siy. 1, iş 32.
17. AMEA RH AEİTSM: f. 1, siy. 1, iş 41.
18. AMEA RH AEİTSM: f. 1, siy. 1, iş 48.
19. AMEA RH AEİTSM: f. 1, siy. 1, iş 60.
20. AMEA RH AEİTSM: f. 1, siy. 1, iş 62.
21. AMEA RH AEİTSM: f. 1, siy. 1, iş 64.
22. AMEA RH AEİTSM: f. 1, siy. 1, iş 67.
23. AMEA RH AEİTSM: f. 1, siy. 1, iş 70.
24. AMEA RH AEİTSM: f. 1, siy. 1, iş 74.
25. AMEA RH AEİTSM: f. 2, siy. 1, iş 24.
26. AMEA RH AEİTSM: f. 3, siy. 1, iş 2.
27. AMEA RH AEİTSM: f. 3, siy. 1, iş 3.
28. AMEA RH AEİTSM: f. 3, siy. 1, iş 12.
29. AMEA RH AEİTSM: f. 3, siy. 1, iş 14.
30. AMEA RH AEİTSM: f. 3, siy. 1, iş 43.
31. AMEA RH AEİTSM: f. 3, siy. 1, iş 75.
32. AMEA RH AEİTSM: f. 5, siy. 2, iş 7.
33. AMEA RH AEİTSM: f. 5, siy. 2, iş 34.
34. AMEA RH AEİTSM: f. 5, siy. 2, iş 35.
35. AMEA RH AEİTSM: f. 5, siy. 4, iş 73.
36. Azərbaycan Milli Elmlər Akademiyasının Nizamnaməsi. «Azərbaycan» qəz., 2003, 5 yanvar.
37. Azərbaycan Respublikası Kitab Palatası. Yaddaş. 1925-1965. Bakı: Kitab Palatası, 1965, 39 s.
38. Azərbaycan Respublikası Milli Arxiv İdarəsi. Azərbaycan Respublikasının Dövlət Arxivləri. Bakı: Azərbaycan Milli Ensiklopediyası NRB, 2003, 168 s.
39. Azərbaycan Respublikasının Dövlət Arxivi (ARDA): f. 57, siy. 1, iş 70.
40. ARDA: f. 57, siy. 1, iş 72.

41. ARDA: f. 57, siy. 1, iş 1006.
42. ARDA: f. 57, siy. 1, iş 1378.
43. ARDA: f. 57, siy. 5, iş 15.
44. ARDA: f. 57, siy. 5, iş 23.
45. ARDA: f. 57, siy. 5, iş 37.
46. ARDA: f. 57, siy. 5, iş 75.
47. ARDA: f. 57, siy. 5, iş 87.
48. ARDA: f. 57, siy. 5, iş 90.
49. ARDA: f. 57, siy. 5, iş 114.
50. ARDA: f. 57, siy. 5, iş 126.
51. ARDA: f. 57, siy. 5, iş 268.
52. ARDA: f. 57, siy. 5, iş 314.
53. ARDA: f. 57, siy. 5, iş 321.
54. ARDA: f. 57, siy. 5, iş 1002.
55. ARDA: f. 57, siy. 5, iş 1170.
56. ARDA: f. 57, siy. 5, iş 1265.
57. ARDA: f. 57, siy. 5, iş 1313.
58. ARDA: f. 387, siy. 1, iş 1.
59. ARDA: f. 387, siy. 1, iş 18.
60. ARDA: f. 387, siy. 1, iş 22.
61. ARDA: f. 387, siy. 1, iş 26.
62. ARDA: f. 1114, siy. 1, iş 546.
63. ARDA: f. 1610, siy. 16, iş 30.
64. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Azərbaycan, 1997, 112 s.
65. Azərbaycan Sosialist Şuralar Cəmiyyəti (ASŞC) Sosialist quruluşu. Statistika küllüyatı. Bakı: Az. XTUİ, 1935, 430 s.
66. Azərbaycan Sovet Ensiklipediyası (ASE). 10 cilddə: I c., Bakı: ASE, 1976, 592 s.
67. Azərbaycan SSR EA Mərkəzi Elmi Kitabxanası (bələdçi). Bakı: Elm, 1990, 72 s.
68. Azərbaycan SSR xalq təsərrüfatının inkişafı və xalqın maddi, mədəni həyat səviyyəsinin artımı.Bakı: 1961, 178 s.

69. Azərbaycan SSR Qanunları. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanları və Azərbaycan SSR Hökuməti qərarlarının xronoloji külliyyatı (1920-1935). Bakı: Azərnəşr, 1960, 211 s.
70. Azərbaycan tarixi: 3 cilddə, III c., h.1, Bakı: Elm, 1973, 548 s.
71. Azərbaycan tarixi: 7 cilddə, VI c., Bakı: Elm, 2000, 568 s.
72. Baqriy A.V. Azərbaycan biblioqrafiyasına dair materiallar // Maarif və Mədəniyyət, 1923, № 4-5, s. 47-50.
73. Baqriy A.V. Azərbaycan biblioqrafiyasına dair materiallar // Maarif və Mədəniyyət, 1924, № 2-3, s. 47-52.
74. Böyük Oktyabr və sovet Azərbaycanında elmin çiçəklənməsi. Bakı: Elm, 1977, 358 s.
75. Bünyadov Z.M. Qırmızı terror. Bakı: Azərnəşr, 1993, 331s.
76. EA ZFAŞ elmi kitabxanası. «Gənc işçi» qəz., 1935, 3 fevral.
77. Əfəndiyev Ə.T. Elm və bilik məbədi. «Ədəbiyyat və İncəsənət» qəz., 1973, 29 dekabr.
78. Əfəndiyev Ə.T. Qafqaz ərazilərі və xalqlarının təsvirinə dair materiallar toplusu. İzahlı biblioqrafiya. Bakı: Qartal, 1999, 218 s.
79. Əkbərova S. Elmi-texniki kitabxana. «Respublika» qəz., 2000, 27 avqust.
80. Ələkbərov Ə.Ə. Elmi işlərimizin on illiyi // İnqilab və Mədəniyyət, 1930, №4, s. 43-45.
81. Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi (1920-1970). Bakı: ADU,1978, 78 s.
82. Əliyeva-Kəngərli A.İ. Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar.Bakı: Elm, 2007, 394 s.
83. Əliyeva Z.İ., Rüstəmova A.S. Bakı kitabxanaları. Bakı: MEK, 2000, 91 s.
84. Gənc Azər (İstintaq materialları üzrə). Bakı: Azərnəşr, 1993, 42 s.
85. Heydər Ə. Türkoloji qurultay // Mədəni Maarif, 1925, №2.

s. 31-33
86. Həsənov C.P. «Ağ ləkə»lərin qara kölgəsi. Bakı: Gənclik, 1991, 200 s.
87. Həsənov K.T. Elmi kitabxanalarda məlumat işinin təşkili // ADU-nin Elmi Əsərləri. Kitabxanaşünaslıq və biblioqrafiya seriyası, 1973, №1, s. 53-56.
88. Xələfov A.A. ADU kitabxanası necə yaranmışdır. «Azərbaycan gəncləri» qəz., 1957, 6 oktyabr.
89. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi. Dərslik. 3 hissədə: hissə II: XX əsrin birinci yarısında Azərbaycanda kitabxana işinin tarixi. Bakı: Bakı Un-ti nəşr-tı, 2007, 551 s.
90. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi (qısa icmal) Bakı: Bakı Un-ti nəşr-tı, 2001, 51 s.
91. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixindən (1933-1958-ci illər). Bakı: Azərnəşr, 1974, 243 s.
92. Xələfov A.A. Azərbaycanda kitabxanaçılıq təhsili. Bakı: Maarif, 1987, 134 s.
93. Xələfov A.A. Azərbaycanda kitabxanaların Ümumittifaq siyahıya alınmasının yekunları // ADU-nin Elmi Əsərləri. Kitabxanaşünaslıq və biblioqrafiya seriyası, 1972, №2, s. 32-38.
94. Xələfov A.A. Azərbaycanda sovet hakimiyyətinin ilk illəri və bərpa dövründə kitabxana işi (1920-1925) // ADU-nin Elmi Əsərləri. Tarix və Fəlsəfə seriyası, 1967, №5, s. 52-56.
95. Xələfov A.A. Bakı Dövlət Universitetinin Elmi Kitabxanası - 90 il elm və təhsilın xidmətində. Bakı: Bakı Un-ti nəşr-tı, 2009, 210 s.
96. Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi./ elmi red. T.H.Musayeva, red. K.İ.Aslan, L.A.Məmmədova. Bakı: Azərnəşr, 2006, 312 s.
97. Xələfov A.A. XXI əsrin əvvələrində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri: mülahizələr, təkliflər

və proqnozlar. Bakı: AMEA MEK, 2006, 106 s.
98. Xələfov A.A. Kitabxana və cəmiyyət.Bakı: Azərnəşr, 2011, 348 s.
99. Xələfov A.A. Kitabxanaşünaslığa giriş. Dərslik. Bakı: Universitet, 2001, 400 s.
100. Xələfov A.A. Respublika Elmi-Texniki kitabxanası (1930-2000): Kitabxananın 70 illiyinə həsr edilmiş qısa tarixi oçerk. Bakı: Bakı Universiteti, 2001, 38 s.
101. Xələfov A.A. Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932). Bakı: Azərnəşr, 1960, 187 s.
102. Xələfov A.A., Baxşaliyev Z. Elmi-texniki kitabxanalara diqqəti artırmalı // Azərbaycan kommunisti, 1988, №2, s. 103-106.
103. Xəlilli F.S. Azərbaycan tarixi muzeyində Elmi-tədqiqat qurumlarının arxeoloji ekspedisiyalarının materialları haqqında // AMEA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 2006, №7, s. 120-143.
104. Xəlilov A.İ. İnkişaf etmiş sosializm cəmiyyəti və elmi tərəqqi. Bakı: Bilik,1979, 63 s
105. İslamova Ş.İ. Azərbaycan Respublikası Elmlər Akademiyası kitabxana şəbəkəsinin təşəkkülü və inkişafı (1923-1990-cı illər). Bakı: Elm və təhsil, 2010, 190 s.
106. İsmayılov X.İ. Azərbaycan Respublikasında kitabxana işinin metodik təminat sisteminin inkişaf tarixindən (1918-2000-ci illər). Bakı: Universitet, 2000, 416 s.
107. İsmayılov X.İ. Kitabxana işinin təşkili və idarə edilməsi. Dərslik. Bakı: Nurlar, 2010, 328 s.
108. İsmayılov X.İ. 1920-40-cı illərdə Azərbaycanda kitabxana işi üzrə ilk metodik mərkəzlər // ADU-nin Elmi Əsərləri. Kitabxanaşünaslıq və biblioqrafiya seriyası, 1998, №2, s.10-28.
109. «Kitabxana işi haqqında» Azərbaycan Respublikası Qanunu. «Azərbaycan» qəz., 1999, 14 mart.

110.Kitabxana işinə dair normativ aktlar. Bakı: MEK, 2001, 26 s.
111.Qaffarov T.B. Neft sənayesi sovet hakimiyyəti illərində / Azərbaycanın neft sənayesinin tarixinə dair Birinci Beynəlxalq Konfrans. Bakı: 1996, 99 s.
112.Qasımov C.Ə. Siyasi repressiya həyatda və ədəbiyyatda (1920-50-ci illər): Fil. elm. dok. ... diss. avtoref. Bakı: 2000, 68 s.
113.Quliyev M. Türkoloji qurultayın yekunları // Yeni məktəb, 1926, №3-4, s. 3-6.
114.Quliyev T.F. Azərbaycan SSR-də Həmkarlar İttifaqı kitabxanalarının tarixi (1920-1940), t.e.n. alimlik dərəcəsi almaq üçün təqdim olunmuş diss. avtoref. Bakı: 1969, 31 s.
115.Quliyev T.F. İ.M.Qubkin adına Həmkarlar İttifaqı Mərkəzi Kitabxananın fəaliyyəti (1924-1974) // ADU-nin Elmi Əsərləri. Kitabxanaşünaslıq və biblioqrafiya seriyası, 1974, №1, s. 17-21.
116.M.A. Elmi işlərdəki müvəffəqiyyətlərimiz // İnqilab və Mədəniyyət, 1929, №3-4, s. 38-39.
117.Məhəmmədov Ə. Azərbaycan Darülfununun 10 illiyi // Azərbaycanı Öyrənmə yolu, 1930, №3, s. 53-57.
118.Məhərrəmov Ə.B. Azərbaycan SSR EA Əsas Kitabxanasında biblioqrafiya işinin yaranması tarixindən // ADU-nin Elmi Əsərləri. Kitabxanaşünaslıq və biblioqrafiya seriyası, 1974, №2, s. 52-56.
119.Məmmədəliyev Y.H. Azərbaycanda elmin inkişafı. Bakı: Azərnəşr, 1960, 122 s.
120.Məmmədov A.Ə. Staxanov hərəkatı. Bakı: Azərnəşr, 1975, 56 s.
121.Mikayıl Ə. və Rəhimova Ə. Yaxın şərqin orta əsr kitabxanaları haqqında // Azərbaycan SSR EA Xəbərləri. Ədəbiyyat. Dil. İncəsənət seriyası, 1967, №2, s. 41-43.
122.Musayev S. Texniki elm xəzinəsi // Elm və həyat, 1973,

№8, s. 12-13.
123.Nəcəfov Ə.Ş. Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana işinin tarixi (1923-1988). Bakı: 2002, 233 s.
124.Onullahi S. Təbriz kitabxanaları // ADU-nin Elmi Əsərləri. Kitabxanaşünaslıq və biblioqrafiya seriyası, 1975, №2, s. 54-55
125.Partiya işçisi, 1941, №1, s. 33-35.
126.Paşayev A.Ə. Açılmamış səhifələrin izi ilə. Bakı: Azərbaycan, 2001, 536 s.
127.Pirəliyeva A. Elmi-texniki kitabxana haqqında. «Elm» qəz., 2002, 26 aprel.
128.Rəsulov A.Azərbaycanda neft sənayesinin inkişafı tarixindən. Bakı: Azərnəşr, 1962, 154 s.
129.Rəsulova O. Kompletləşdirmə işi kitab fondunun təşkilində əsas məsələdir / 70 il xalqın xidmətində. Bakı: M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanası, 1993, 154 s.
130.Rüstəmov M. Azərbaycan sovet ziyalılarının formalaşması və inkişafı. Bakı: Elm,1963,187 s.
131.Rüstəmova A.S. Azərbaycan Respublikası Kitab Palatası / AMEA A.A.Bakıxanov ad Tarix İnstitutunun AXC 86-cı ildönümünə həsr olunmuş Respublika elmi konfransının materialları. Bakı: Nurlan, 2004, s. 71-73.
132.Rüstəmova A.S. Azərbaycanda ilk elmi müəssisələrin və ilk elmi kitabxanaların təşəkkülü (1920-1929-cu illər) // Tarix və onun problemləri, 2002, №3, s. 71-75.
133.Rüstəmova A.S. Mərkəzi Elmi Kitabxananın tarixində yeni faktlar. «Elm» qəz., 2002, 20 fevral.
134.Rzayev A.S. Nəsirəddin Tusi: Həyatı, elmi və dünya görüşü. Bakı: İrşad, 1996, 265 s.
135.Səlimov M. Mənim xatirələrim // Kitabxana işçisinə kömək. Rüblük elmi-metodik məcmuə. Bakı: 1973, №4 (68), s. 21-

22.
136. Süleymanzadə O.R. Mənəvi sərvətimizin böyük xəzinəsi // M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının Əsərləri, 1980, I bur, s. 9-38.
137. Şərif Ab. Azərbaycanda böyük elmi mərkəz // İnqilab və Mədəniyyət, 1930, №2-3, s. 48-49.
138. Tahirov K.M. F.Axundov adına Azərbaycan Milli Kitabxanasının tarixi (1923-2008-ci illər). Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxana, 2009, 218 s.
139. Tağıyev H.N. Sovet hakimiyyəti illərində Azərbaycanda kitabxana işinin inkişafı. Bakı: Azərnəşr, 1960, 136 s.
140. Vaqifqızı N. Kitabxanada üç yüzdən çox yaşı olan kitab var. «Mədəniyyət» qəz., 2002, 20-26 mart
141. «Yeni yol» qəz., 1926, 6 iyun.
142. 70 il xalqın xidmətində. M.F.Axundov ad. Respublika Dövlət Kitabxanasına dair materiallar məcmuəsi. Bakı: 1993,144 s.

## Rus dilində

143. Азербайджанская Центральная Государственная Библиотека. Баку: ЦГБ, 1928, 177 с.
144. Амлинский Л.З. Научная библиотека: пространство для читателя и библиотекаря // Научные и технические библиотеки М.: 2013 №1
145. АН Азербайджанской ССР. 20 лет. Баку: Изд. АН Аз. ССР, 1966, 224 с.
146. Атакишиев А.М. История Азербайджанского Государственного Университета. Баку: Азгосуниверситет, 1989, 830 с.
147. Бахшалиев З.Х. Научно-технические библиотеки нефтяной промышленности Азербайджана: история, совре-

менное состояние и перспективы развития (1959-1985 гг.): Дисс. … канд. ист. наук. Баку: 1988. 201 с.

148. Бачалдин Б.Н. Вопросы организация библиотечной сети АН и ее фондов // Библиотеки СССР, Опыт работы, 1960, №13,с.40-74.
149. Библиотека АзФАН // Известия Аз.ФАН. Серия Общественных наук, 1937, №2 с. 108-111.
150. Библиотека в помощ науке // Материалы научно-практической конференции. М.: 1971,167 с.
151. Библиотеки национальных академии наук: Проблемы функционирования, тенденции развития // Научно-практический и теоретический сборник. Киев: НБУВ, 2000, 211с.
152. Библиотечное дело в советском Азербайджане в 1920-1925 годы / Библиотеки СССР, Опыт работы, 1966, №33, с.16-28.
153. Бунятов З.М.Следственное дело №12493. Газ. «Элм», 1990, 1 февраля.
154. Велиев М.М.Развитие науки в Азербайджане. Автореферат дисс. на соиск. уч. степ. канд. ист. наук. Баку: 1972, 42 с.
155. Всесоюзная библиотечная перепись. 1 октябрь 1934 г. Основные итоги. В 2-х т. Т.1. М.: 1936, 319 с.
156. Губкин И.М. Бакинская нефтяная промышленность при советской власти // Нефтяное и сланцевое хозяйство, 1923, №1, с. 3-7.
157. 200 лет Библиотеки АН СССР // Материалы научной конференции. М.-Л.: 1964, 308 с.
158. Декреты Азревкома (1920-1921). Сборник документов. Баку: Азернешр, 1988, 101 с.
159. Известия общества обследования и изучения Азербайджана. 1925, №1, 143с.
160. История Азербайджана. В трёх томах: Том.3, ч.1, Баку:

АН Азерб.ССР,1963, 538с.
161. История Библиотеки АН СССР (1714–1964). М.–Л.: Наука, 1964, 599 с.
162. Казиев М.А. Из истории музейного дела в Азербайджане // Известия АН Аз.ССР. Серия Общественных наук, 1960, №2, с. 23-29.
163. Каратыгина Т.Ф. История технических библиотек СССР. М.: Книга, 1981, 168 с.
164. Каримова Б. Развитие научных библиотек в Узбекской ССР (1941-1970 гг.). Автореферат дисс. на соиск. уч. степ. канд. пед. наук. М.: 1973, 29с.
165. Керимова Т.С.Из истории Национальной Академии Наук Азербайджана. Баку: Тахсил, 2005, 568 с.
166. Кикавец В.В. Библиотеки мегаполиса. Неизбежность перемен (Часть 2-ое Кадровое обеспечение) // Журнал Библиотечное дело, 2013, №1 (187), с.37-40.
167. Климов А.А.Фундаментальная библиотека // Известия АзФАН. Серия Общественных наук, 1942, №11, с. 75-76.
168. Книги из Англии, Португалии, Польши. Газ. «Бакинский рабочий»,1936, 21 апреля.
169. Коммунистическая Партия Азербайджана в резолюциях и решениях съездов / Конференции и пленумы (1920-1937). Баку: Азернешр, 1986, 519 с.
170. Концепция развитие Республиканской научно-технической библиотеки (РНТБ) Казахстана. Алматы: РНТБ, 2000, 28 с.
171. Культурное строительство Азербайджана. Статистический сборник. Баку: Госстатиздат, 1961,149 с.
172. Курицын В.М. 1937 год в истории Советского государства // Советское государство и право, 1988, №2, с. 110-119.
173. Кязимов Р. О централизации библиотек в системе АН

Азербайджана /Библиотекеведение и библиография. Сборник. М.: 1975, вып.1,с.54-60.

174. Леонов В.П. Библиотекеведение как наука // Вестник Российской АН, 2000, №1. с. 45-49.
175. Маковельский А.О. Азербайджанский Государственный Университет им. Ленина. Первое десятилетие. 1919-1929 гг. Баку: Азгосуниверситет, 1930, 110 с.
176. Мамедов Г.Д., Чубария Л. В. Республиканской научно-технической библиотеке Азербайджана– 60 лет // Научные и технические библиотеки СССР, 1990, №11, с. 43-47.
177. Материалы к истории библиотечного дела СССР (1917-1959 гг.). Л.: БАН СССР, 1960, 235 с.
178. Мусаева Т.А. Революция и народное образование в Азербайджане (Очерки история развития народного образование в Азербайджане. 1920-1940 гг.). Баку: Элм, 1979, 286 с.
179. Мусаева Т.А. Реформа алфавита в советском Азербайджане в 20-х годах // История СССР, 1970, №5, с. 91-103.
180. Мусаева Т.А. Становление и развитие библиотечной сети АН Азербайджанской Республики (1923-1990 гг.) // Новая Библиотека, 2004, №1(37) с. 20-23.
181. Мусаева Т.А., Мамедов А.А. На путях создания Национальной Академии Наук и формирования кадров научной интеллигенции Азербайджана (1920-1945гг.). Баку: Нурлан, 2005, 176 с.
182. Народное образование Азербайджана 1920-27 гг. Баку: Изд. НКП, 1928, 177 с.
183. Наука в АССР за 15 лет. Баку: Изд. Аз. ФАН, 1936, 246 с.
184. Наука и техника советского Азербайджана. Летопись важнейших событий (1920-1987гг.). Баку: Элм, 1987,

252 с.
185. Николаева Г.Г. История развития научных и специальных библиотек Сибири в период строительства социализма (1917- 1937 гг.). Автореферат дисс. на соиск. уч. степ. канд. ист. наук. Томск: 1983, 21с.
186. От главного редактора в Париже //Курьер Юнеско, март,1985.
187. Отчет библиотечного подотдела // Народное просвещение, 1920, №2, с.73-75.
188. Пашаев Н. Очерки истории культурного строительства Советского Азербайджана. Баку: 1965, 372 с.
189. Пашаев Н.Победа культурной революции в Советском Азербайджане. М.: Наука, 1976, 263 s.
190. Пашин А. Кадры – ключ к модернизации отрасли // Библиотека, 2002, №7, с.70-71.
191. Просветительная работа Азнефти // Нефтяное хозяйство, 1923, № 6-7 с. 38-40
192. Резолюция и постановления съездов Советов Азербайджанской ССР (1920-1937гг.). Баку: Изд. АН Аз.ССР, 1961, 210 с.
193. Рустамова А.С. Библиотеки Азербайджана – объекты идеологической диверсии армян / Исторические факты о деяниях армян на азербайджанской земле. Баку: Нурлан, 2003, с. 191-195
194. Рустамова А.С. Библиоцид против Азербайджана как составная часть всеобъемлющей армянской агрессии // Diplomatiya aləmi, 2003, №3, s. 110-114
195. Садыхова Т.Д., Листенгартен Н.Б. Центральная научная Библиотека АН Аз.ССР на службе науке / История. Становление и развитие Академических библиотек. Баку: ЦНБ, 1987, с. 61-66.
196. Столяров Ю.Н. Библиотека: Структурно-функциональный подход. М.: Книга, 1981, 255 с.

197. Труды I геологической конференции Азербайджанской ССР. Баку: Изд. Аз.ФАН, 1939, 170 с.
198. Филиппов Н. Развитие сети академических библиотек // ББИ АН СССР и АН союзных республик, 1978, №4, с.20-28.
199. Халафов А.А. Библиотечное дело в советском Азербайджане в 1920-1925 годы // Библиотеки СССР, Опыт работы. М.: 1966, №33, с.16-28.
200. Халилов А.И. Азербайджанское Отделение Закавказского Филиала АН СССР // Azərbaycan SSR EA Xəbərləri. Tarix. Fəlsəfə. Hüquq seriyası, 1989, №1 с. 13-17.
201. Царство книги: к 40 летию Азербайджанской Республиканской Книжной Палаты. Газ. «Бакинский рабочий», 1965, 10 февраля.

## İnternet resursları

202. http://e-qanun.az/files/framework/data/15/c_f_15493.htm
203. http://www.anl.az/rp_a8.html
204. http: //www.gpntb.ru/ntb/ntb/2013/1/index.php
205. http://www.gpntb.ru/win/interevents/crimea2013/disk/index. www.azerbayjan.news.az
206. www.qpntb.ru
207. www.science.az

## İXTİSARLARIN SİYAHISI

| | | |
|---|---|---|
| ADU | – | Azərbaycan Dövlət Universiteti |
| AXC | – | Azərbaycan Xalq Cümhuriyyəti |
| AMEA | – | Azərbaycan Milli Elmlər Akademiyası |
| AMEA MEK | – | Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası |
| AMEA RH AEİTSM | – | Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin Azərbaycanda Elmi İrsin Toplanması və Sistemləşdirilməsi Mərkəzi |
| ARDA | – | Azərbaycan Respublikası Dövlət Arxivi |
| Az. DETİ | – | Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu |
| BXMŞ | – | Bakı Xalq Maarifi Şöbəsi |
| BMİ | – | Baş Mətbuat İdarəsi |
| BSMİ | – | Baş Siyasi Maarif İdarəsi |
| MTK | – | Mərkəzi Texniki Kitabxana |
| SSRİ EA ZFAŞ | – | SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialı Azərbaycan Şöbəsi |
| SSRİ EA AF | – | SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialı |
| YİS | – | Yeni İqtisadi Siyasət |

# СОЗДАНИЕ И ДЕЯТЕЛЬНОСТЬ НАУЧНО-ОТРАСЛЕВЫХ БИБЛИОТЕК В АЗЕРБАЙДЖАНСКОЙ ССР (1920- июнь 1941 гг.).

## РЕЗЮМЕ

Становление и развитие научных учреждений и научно-отраслевых библиотек является одной из важных проблем азербайджанской историографии.

Монография состоит из введения, 4-х глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, определяются цели и задачи исследования, излагается степень разработанности проблемы, база источников, научно-методологические основы, научная новизна и практическая значимость работы.

В первой главе монографии «Становление научных центров и научно-отраслевых библиотек в Азербайджанской ССР (1920-1929 годы)» рассматриваются вопросы создания первых научных центров и научно-отраслевых библиотек Азербайджанской ССР, основные направления деятельности этих учреждений.

Во второй главе «Создание Общества обследования и изучения Азербайджана и формирование научной библиотеки Общества» характеризуются основные научные направления их деятельности. В главе определены формы и методы библиотечной и библиографической работы по разви-

тию и комплектованию фондов, организации книгообмена и обслуживанию читателей этой библиотеки.

В третьей главе «Укрепление материально-технической базы и кадровые вопросы научно-отраслевых библиотек» освещаются источники материально-технической базы, финансовое положение научно-отраслевых библиотек и подготовка библиотечных кадров Азербайджанской ССР.

В четвертой главе «Организация научных учреждений на новых началах и расширение деятельности научно-отраслевых библиотек (1929- июнь 1941 гг.)» широко освещается создание сети отраслевых библиотек при научно-исследовательских институтах Азербайджанского отделения Закавказского филиала АН СССР, а в дальнейшем – Азербайджанского филиала АН СССР. Рассматривается влияние массовых репрессий 30-х годов XX в. на деятельность библиотек. Определяются место и роль научно-отраслевых библиотек в общественно-политической и социально-экономической жизни Азербайджана в 1920-1940-х годах.

В заключительной части монографии сделаны выводы и обобщения, показаны основные научные достижения, даны практические рекомендации по развитию научно-отраслевых библиотек Азербайджанской Республики на современном этапе.

Работа завершается списком использованной литературы и резюме на двух языках.

## FORMATION and DEVELOPMENT of SCIENTIFIC-FIELD LIBRARIES in AZERBAIJAN SOVIET SOCIALIST REPUBLIC (1920 June – 1941)

## SUMMARY

Formation and development of scientific offices and scientific-field libraries is one of the significant problems of Azerbaijan historiography.

The monograph consists of introduction four chapters, conclusion, list of the used resources and scientific literature.

In the introduction an urgency of the theme is proved, scientific significance is determined, historiography of researched problem is analyzed, novelty and practical significance of the theme is shown.

In the first chapter of the monograph "Formation and scientific centers and scientific-field libraries in Azerbaijan (1920 June-1941)" formation of the first scientific centers in Azerbaijan, the main activity directions of these centers, and the activity of the scientific-field libraries are reviewed as well.

In the second chapter "Formation and development of scientific library of Society of Society of researching and studying of Azerbaijan" main scientific directions of its activity are characterized. In the chapter, the main direction of library and bibliography works on development and acquisition of funds, organizing of books changing and serving in this library, are re-

viewed as well.

In the third chapter, “Appointing of material and technical basis and personnel problems of scientific – field libraries”, financial issues of scientific offices are dealt with. Sources of material and technical basis of scientific-field libraries, personnel problem of individual scientific-field libraries and training of personnel for Azerbaijan Republic are reviewed as well in this chapter.

In the fourth chapter, “Broadening of the activity of scientific-field libraries (1929-1941)” formation of scientific-field libraries net in scientific-research institutes such as Azerbaijan Branch of the USSR Academy of Sciences, Azerbaijan Section of the Caucasian Branch USSR Academy of Sciences is described. Role and place of scientific-field libraries in social, political, public and economical life of Azerbaijan SSR are determined.

In the final part of the monograph, the conclusion is drawn, main scientific achievements are shown, and some recommendations on development of scientific-field libraries in Azerbaijan SSR are given.

The work is ended with the list of used literature.

# MÜNDƏRİCAT

**REDAKTORDAN** ........................................................ 3

**GİRİŞ** ........................................................................6

**I FƏSİL. Azərbaycanda elmi mərkəzlərin yaranması və elmi-sahə kitabxanalarının təşəkkülü (1920-1929-cu illər)**...............................................19

1.1.Azərbaycanda ilk elmi müəssisələrin təşəkkülü və fəaliyyət istiqamətləri…………..........................19

1.2.Elmi-sahə kitabxanalarının yaranması və fəaliyyəti ........................................................32

**II FƏSİL. Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin yaranması və onun elmi kitabxanasının formalaşması**..............................57

2.1.Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin təşəkkülü və fəaliyyət istiqamətləri…………... .....57

2.2.Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin elmi kitabxanasının yaranması və fəaliyyəti..........71

**III FƏSİL.Elmi-sahə kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsi və kadr təminatı məsələləri**...............................................80

3.1.Elmi-sahə kitabxanalarının maddi-texniki bazasının yaradılması və möhkəmləndirilməsi ......80
3.2.Elmi-sahə kitabxanalarının kadr təminatı məsələləri ......96

**IV FƏSİL. Elmi müəssisələrin yenidən qurulması və elmi-sahə kitabxanalarının fəaliyyətinin genişlənməsi (1929-1941-ci illər)** ......115

4.1. Elmi müəssisələrin təkmilləşməsi və fəaliyyət istiqamətləri ......115
4.2.Elmi-sahə kitabxanalarının fəaliyyətinin təkmilləşməsi və inkişafı ......141
4.3. Kitabxanalar repressiya illərində ......164
4.4. Elmi-sahə kitabxanalarının sosial-iqtisadi və ictimai-siyasi vəzifələrin həllində rolu ......171

**NƏTİCƏ** ......184

**İSTİFADƏ EDİLMİŞ MƏNBƏ VƏ ƏDƏBİYYAT** ......191

**İXTİSARLARIN SİYAHISI** ......205

**Создание и деятельность научно-отраслевых библиотек в Азербайджанской ССР (1920- июнь 1941 гг.). РЕЗЮМЕ** ......206

**Formation and Development of Scientific-field Libraries in Azerbaijan Soviet Socialist Republic (1920 June – 1941). SUMMARY** ......208

Kompüter yığımı:
Kompüter dizaynı: Aynur Məhərrəmli, Leyla Əsgərova

Yığılmağa verilmişdir: – 5 iyun 2014
Çapa imzalanmışdır: – 9 dekabr 2014

Sifariş: №
Formatı: 60/84 – $^{1}/_{16}$. Həcmi: 13,5 ç.v. Tirajı: 500
Qarnitur «Times New Roman»

Kitab «Nurlan» nəşriyyat-poliqrafiya müəssisəsində
hazır diapozitivlərdən çap edilmişdir.
Müəssisənin direktoru professor **N.B.Məmmədli**
Tel. 497-16-32; 427-44-61; 417-41-89; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev küç., 8-ci döngə, ev 4

Rüstəmova Aypara Sədi qızı

Azərbaycan SSR-də elmi-sahə kitabxanalarının yaranması və fəaliyyəti (1920– iyun 1941-ci illər)

# Qeyd üçün

# Qeyd üçün

# Qeyd üçün

